# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
## ƏLİYEV

# YETMİŞ DOQQUZUNCU KİTAB

## MART 2017 - MAY 2017

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Fransa Respublikasına səfəri və Qazaxıstan Respublikası Prezidentinin ölkəmizə səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna, kənd təsərrüfatına dair bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə həsr edilmiş materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi kitabda öz əksini tapmışdır.

Çoxcildliyin bu cildində ölkə başçısının Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə, «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının, Xəzərdən başlayan Su Səyahətinə Start mərasimində, V Qlobal Bakı Forumunda, Novruz bayramı münasibətilə İçərişəhərdə təşkil olunan bayram şənliyində, Bakı Ali Neft Məktəbinin yeni binasının açılışında, həmçinin bölgələrə səfəri zamanı Saatlı rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində, Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitq və çıxışlarına dair materiallara da geniş yer verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İran İslam Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və İranın Dövlət bayraqlarının dalğalandığı Tehranın Mehrabad aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini İranın yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Tehran*

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 5-də Tehranda rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev süvari dəstənin müşayiəti ilə «Sədabad» sarayına gəldi.*

*Azərbaycanın və İranın Dövlət bayraqlarının dalğalandığı Sədabad sarayının qarşısındakı meydanda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İran prezidenti Həsən Ruhani Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və İranın Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*İranın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İran prezidenti Həsən Ruhaniyə təqdim olundu.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*Tehran*

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin martın 5-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra məhdud tərkibdə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin əlaqələrimizin inkişafında böyük rolu olduğu qeyd edildi. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulandı.*

*Prezident İlham Əliyev dəvətə görə prezident Həsən Ruhaniyə təşəkkürünü bildirdi, Azərbaycanın İran ilə əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd etdi.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Tehran*

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin martın 5-də məhdud tərkibdə görüşü başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqlar keçirilmişdir.*

**H ə s ə n  R u h a n i:** Möhtərəm cənab prezident İlham Əliyevə və onu müşayiət edən nümayəndə heyətinə «Xoş gəlmisiniz!» – deyirəm. Sizi görməyə çox şadam.

Cənab Prezident və nümayəndə heyətinin üzvləri ilə bizim burada keçirdiyimiz görüş bir başlanğıc olmuşdur. Ümid edirəm ki, bu başlanğıc bizim əlaqələrimizə daha yaxşı töhfə verəcək. Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən illərdə 2 ölkə, 2 dövlət arasındakı əlaqələr sürətlə inkişaf edərək, genişlənib. Bu da göstərir ki, biz gələcəyə ümidlə baxmalıyıq.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm, hörmətli cənab Prezident!

İlk növbədə, dəvətə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram.

İran–Azərbaycan əlaqələrinin uğurla inkişafı bizi çox sevindirir. Son bir neçə il ərzində bu əlaqələr, deyə bilərəm ki, ən yüksək zirvəyə qalxıb. Bir çox önəmli məsələlər öz həllini tapıb və bu gün İran–Azərbaycan əməkdaşlığı, demək olar ki, bütün sahələri əhatə edir.

Bizim əlaqələrimiz tarixə əsaslanır. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir və prezidentlər səviyyəsində görüşlərimiz, nazirlərin görüşləri ümumi işimizə böyük töhfədir.

* * *

*Görüşdə ölkələrimiz arasında mədəni, iqtisadi, dini əlaqələrin və mehriban qonşuluğun əməkdaşlığımızın əsasını təşkil etdiyi vurğulandı. Azərbaycan ilə İran arasında əlaqələrin ölkələrimizin maraqları əsasında inkişaf etdiyinin qeyd olunduğu görüşdə qarşılıqlı sərmayə qoyuluşunun əhəmiyyəti diqqətə çatdırıldı, bu istiqamətdə bir sıra addımların atıldığı bildirildi.*

*Söhbət zamanı iqtisadi əlaqələrimizin sürətlə inkişaf etdiyi, Xəzər dənizində, enerji, o cümlədən neft-qaz sahələrində əməkdaşlıq üçün yaxşı potensialın olduğu vurğulandı. Ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi qeyd olundu, hərbi-texniki sahədə əməkdaşlıq üçün yaxşı perspektivlərin mövcudluğu diqqətə çatdırıldı.*

*Görüşdə Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətlərinin son illər daha yüksək səviyyəyə çatdığı vurğulandı, əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi üçün geniş potensialın olduğu bildirildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Tehran*

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə martın 5-də geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası və İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə Nazirliyi yanında Maliyyə Monitorinqi İdarəsi arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri Rüfət Aslanlı və İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə Nazirliyi yanında Maliyyə Monitorinqi İdarəsinin icraçı direktoru Meysam Nəsiri Əhmədəbadi imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə İran İslam Respublikasının Dəmir Yolları Şirkəti arasında dəmir yolu əlaqəsinin birləşdirilməsinə dair Anlaşma Memorandumu»nu «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və İran İslam Respublikasının Dəmir Yolları Şirkətinin prezidenti Səid Məhəmmədzadə imzaladılar.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Tehran*

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani martın 5-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### İran prezidenti Həsən Ruhaninin bəyanatı

Bismillahir rəhmanir rəhim!

Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyevi və onu müşayiət edən yüksək səviyyəli nümayəndə heyətini salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm.

Son 3 il ərzində Azərbaycan–İran əlaqələri yüksək səviyyədə inkişaf edib. Bu əlaqələr həm siyasi, ikitərəfli, regional və beynəlxalq məsələləri əhatə edib, həm də iqtisadi və mədəni sahədə genişlənib. Son 10 ay ərzində ticarətin həcmi 2 ölkə arasında əlaqələrin inkişafının göstəricisi olmaqla, hər 2 dövlətin bu əlaqələrin vüsət tapması üçün səylərini nümayiş etdirir. Azərbaycan ilə İran tranzit məsələlərində, xüsusilə də Şimal–Cənub nəqliyyat dəhlizində mühüm rol oynayır və Astara(İran)–Astara (Azərbaycan) dəmir yollarının birləşdirilməsi bu mühüm layihənin gerçəkləşməsində birinci vacib addımdır.

Azərbaycan Rəşt–Astara (Azərbaycan) dəmir yolunun çəkilişində iştirak edəcək və 2 ölkənin səyi ilə bu yolun inşasına başlanacaqdır. Hər 2 ölkə enerji sahəsində əməkdaşlığa hazır

olduğunu bəyan edir. İran İslam Respublikası Azərbaycanın neft və neft məhsullarının cənub sularına çatdırılmasında maraqlıdır və ümidvarıq ki, bu sahədə əməkdaşlığımız genişlənəcək. Ölkələrimiz müştərək sərmayə qoyuluşu, eləcə də Azərbaycanda Avtomobil zavodunun və dərman preparatları istehsal edən müəssisənin inşası üçün önəmli addımlar atıb və bu məsələdə zəruri razılaşmalar əldə edilibdir. Ümidvarıq ki, yaxın gələcəkdə bu layihələr həyata keçiriləcək. Azərbaycan Respublikası və İran Xəzər dənizinin sahilində yerləşir və bu dənizin çirklənməsinin qarşısının alınması və ekosistemin qorunması hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir.

İstər məhdud tərkibli, istərsə də geniş tərkibli görüşlərdə müzakirə etdiyimiz mövzular sırasında bu vacib məsələyə toxunduq ki, mövcud olan konvensiyalar, eləcə də sahilyanı 5 ölkə arasında əldə olunan razılaşmalar həyata keçirilsin və Xəzər dənizinin ekosisteminin qorunmasında qazanılan uğurların şahidi olaq.

Xəzər dənizi ilə bağlı 2 vacib məsələ də var ki, onlardan biri sahilyanı 5 ölkə arasında dənizin hüquqi statusu ilə bağlı razılaşmanın əldə olunmasıdır. Bu məsələdə Azərbaycan Respublikası və İran İslam Respublikası arasında fikir birliyi və qarşılıqlı tərəfdaşlıq önəm kəsb edir. Ötən illər ərzində biz bu məsələni müzakirə etmişik və bugünkü görüşlərimizdə də son nəticənin əldə olunması istiqamətində əməkdaşlığımızı davam etdirəcəyimizi bəyan etdik. Xəzər dənizindəki neft mənbələrinin istifadəsinə dair əməkdaşlığımızı davam etdirməklə bağlı fikir mübadiləsi apardıq və hər 2 ölkənin neft nazirləri bu məsələni uğurla nəticələnənə qədər diqqət mərkəzində saxlayacaqlar.

Bugünkü danışıqların mövzularından biri də üçtərəfli əməkdaşlıq formatı olub. Üçtərəfli əməkdaşlıq formatı – Azərbaycan–İran–Rusiya, Azərbaycan–İran–Türkiyə və Azərbaycan–İran–Gürcüstan gündəlikdədir. Azərbaycan–İran–Rusiya üçtərəfli formatı çərçivəsində önəmli addımlar atılıb. Üç ölkənin dövlət başçıları səviyyəsində bu məsələ ilə bağlı toplantı keçirilib. Azərbaycan–İran–Türkiyə üçtərəfli formatı çərçivəsində də bu

günə qədər əhəmiyyətli işlər görülüb və bu sahədə işlər davam etdirilməlidir. Bugünkü görüşümüzdə isə Azərbaycan–İran–Gürcüstan üçtərəfli formatı ilə bağlı müzakirələr apardıq və belə qərara gəldik ki, bu məsələni diqqət mərkəzində saxlayaq.

Bugünkü danışıqlarımızda regional məsələlərlə bağlı müzakirələrimiz oldu. Azərbaycanın və İranın regional məsələlərlə əlaqədar mövqeləri bir-birinə yaxındır. Biz bu fikirdəyik ki, terrorist fikirlər və terrorist ideyalar bu bölgədə həmişəlik yox olsun. Suriya və İraq məsələləri ilə bağlı ortaq mövqelərimiz var. Bugünkü görüşlərimizdə ümid etdiyimizi bildirdik ki, 3 ölkənin – Rusiya, İran və Türkiyənin səyləri Suriya məsələsində nəticə versin. Astanada başlanan yol nəticədə uğurla başa çatsın və Suriya məsələsi danışıqlar yolu ilə həllini tapsın. İran İslam Respublikası bu əqidədədir ki, ölkələrin ərazi bütövlüyünə hörmət edilməli, regiondakı münaqişələr danışıqlar və diplomatik yollarla tənzimlənməlidir. Ümidvarıq ki, Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə həllini tapacaqdır.

Sonda bir məqamı vurğulamaq istəyirəm ki, Azərbaycan–İran münasibətləri dostluğa və qardaşlığa əsaslanan strateji münasibətlərdir.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

İlk növbədə, dəvətə və mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Qardaş İran torpağında yenidən olmağımdan çox məmnunam. Bu mənim son 3 il ərzində İran İslam Respublikasına üçüncü səfərimdir. Bütövlükdə, son 3 il ərzində mən cənab prezident Ruhani ilə 8 dəfə görüşmüşəm. Bu özlüyündə bir göstəricidir. Bu göstərir ki, İran–Azərbaycan dostluq, qardaşlıq əlaqələri çox uğurla və sürətlə inkişaf edir. Bizim əlaqələrimiz qədim tarix, mədəniyyət, ortaq din əsasında qurulub. Bu möhkəm təməl əsasında biz gözəl əməkdaşlıq qurmuşuq. Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Ermənistan–

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi əsasında həll olunması istiqamətində səylərinə görə İran İslam Respublikasına minnətdarlığımızı bildiririk. Bu mövqe beynəlxalq prinsiplərə, qanuna və ədalətə əsaslanır. Hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır.

İqtisadi sahədə çox gözəl nəticələr vardır. Keçən il bizim ticarət dövriyyəmiz 70 faizdən çox artıbdır. Bu, əldə edilmiş razılaşmaların nəticəsidir. İmzalanmış bütün sənədlər həyatda öz əksini tapır və reallaşır. Təkcə keçən il mənim İrana və prezident Ruhaninin Azərbaycana səfərlərimiz çərçivəsində 18 sənəd imzalanıb. Bu gün əlavə 2 sənəd imzalandı. Bu, əlaqələrimiz üçün möhkəm hüquqi baza yaradır. İran tərəfi Azərbaycana sərmayə qoymağa başlayıbdır, biz buna görə də minnətdarıq. Eyni zamanda, prezident Ruhani qeyd etdiyi kimi, Azərbaycan da Rəşt–Astara dəmir yolunun çəkilişi üçün böyük həcmdə öz maliyyə resurslarını səfərbər edib. Mən 1 il bundan əvvəl bu salonda qeyd etmişdim ki, 2016-cı ildə Azərbaycan öz dəmir yolunu Azərbaycan–İran sərhədinə qədər çəkəcək və biz buna nail olduq, bu reallıqdır. Hətta Astaraçay üzərində dəmir yolu körpüsü də tikilib istifadəyə verilibdir. Bu günlərdə birinci qatar artıq sərhədi yeni tikilmiş körpü vasitəsilə keçib.

Birgə icra etdiyimiz Şimal–Cənub nəqliyyat dəhlizi tarixi hadisədir. Bu layihə eyni zamanda, regional əməkdaşlıq məsələlərinə də mühüm töhfə verir. İndi regionda üçtərəfli formatların sayı çoxalır.

Energetika sahəsində böyük uğurlar əldə edilib. Biz elektrik xətlərimizi birləşdirdik və indi mübadilə aparılır. Neft-qaz sektorunda əməkdaşlıq üçün yaxşı imkanlar vardır. İran şirkəti «Şahdəniz-2» layihəsinin fəal iştirakçısıdır və sərmayədarıdır. Xəzər dənizində müştərək neft-qaz əməliyyatlarının yerinə yetirilməsi üçün bu gün geniş fikir mübadiləsi aparıldı. Mən xüsusilə müştərək iqtisadi Komissiyanın fəaliyyətini qeyd etmək istəyirəm. Komissiya çox fəal işləyir, prezidentlərin bütün göstərişlərini vaxtında və yüksək səviyyədə icra edir. İran–Azərbaycan əlaqələri təkcə xalqlarımız üçün deyil, bütün region

üçün önəmlidir. Bizim yaxın əlaqələrimiz regionda sabitliyin möhkəmlənməsinə mühüm töhfədir.

Qeyd etməliyəm ki, bu il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilibdir. Biz çalışırıq ki, islam aləmində birliyi, həmrəyliyi möhkəmləndirək. Biz öz milli-mənəvi, dini dəyərlərimizə çox sadiqik. İki aydan sonra Bakıda IV İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu təkcə idman yarışı olmayacaq. Bu, islam aləminin birləşməsi deməkdir. Əminəm ki, İran idmançıları bu yarışlarda böyük uğur qazanaraq, yüksək pillələrə qalxacaqlar. Qeyd etməliyəm ki, biz İran–Azərbaycan əlaqələrinin inkişafına xüsusi əhəmiyyət veririk, bu əlaqələri çox yüksək qiymətləndiririk. Bugünkü səfərim bu əlaqələrin inkişafına çox böyük dəstək olacaqdır.

Bir daha qonaqpərvərliyə görə Sizə minnətdaram və fürsətdən istifadə edərək, cənab Prezident, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*Tehran*

*5 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev İranın Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşlərini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və İran yaxın dost və qonşu ölkələrdir. Son illər Azərbaycan–İran əlaqələrinin çox yaxşı inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bildirdi ki, siyasi, iqtisadi və digər sahələrdə münasibətlərimiz yüksək səviyyədədir. Azərbaycan və İran beynəlxalq təşkilatlar çərçivəsində bir-birini fəal dəstəkləyir.*

*Mütəmadi qarşılıqlı səfərlərin münasibətlərimizi daha da möhkəmləndirdiyini qeyd edən prezident İlham Əliyev bu səfərlər çərçivəsində 20-dək sənədin imzalanmasının və qərarların qəbul edilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı 2 ölkə arasında ticarət dövriyyəsinin artdığını diqqətə çatdırdı. Şimal–Cənub nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsinin tarixi hadisə olduğunu vurğulayan Azərbaycan Prezidenti qeyd etdi ki, bu nəinki Azərbaycanın və İranın, ümumiyyətlə, digər ölkələrin də bir-birinə daha da yaxınlaşmasında mühüm rol oynayacaq.*

*İranın Ali Rəhbəri Seyid Əli Xamenei ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirdi. Qarşılıqlı ticarət dövriyyəsi həcminin daha da artırılmasının vacibliyini qeyd edən Seyid Əli Xamenei prezident İlham Əliyevə fəaliyyətində uğurlar dilədi və Azərbaycan xalqına firavanlıq arzularını çatdırdı.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri martın 5-də başa çatdı.*

*Tehranın «Mehrabad» Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi İranın yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

# 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyinin həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda «İslam həmrəyliyi ili» elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla, özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Milli varlığımızın ifadəsi olaraq, əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır.

Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, Vətən torpağını və dilimizi təcəssüm etdirmişdir. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların

tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgiylə dolu, Vətəni ana qədər müqəddəs bilərək, torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişmişdir. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək, daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız.

*Dərin hörmət və ehtiramla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 mart 2017-ci il*

## «ÜRƏK MƏRKƏZİ»NİN AÇILIŞI MƏRASİMİ

*6 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 6-da Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində «Ürək Mərkəzi»nin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərkəzdə yaradılan şəraitlə tanış oldular.*

*Dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya yeni səhiyyə müəssisəsi barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, «Ürək Mərkəzi»nin yeni inşa olunan binası altımərtəbəlidir. Binanın ümumi sahəsi 13 min kvadratmetrdir. Bu səhiyyə ocağının inşasına 2015-ci ilin əvvəlində başlanılıb və tikinti-quraşdırma işləri bu yaxınlarda başa çatdırılıb. Mərkəzin ətrafında əsaslı abadlıq və yaşıllaşdırma tədbirləri həyata keçirilib. Burada genişliyi və müasirliyi ilə diqqəti çəkən parkinq də fəaliyyət göstərəcək.*

*Qeyd edək ki, «Ürək Mərkəzi»nin binası istər memarlıq, istərsə də tərtibat baxımından ən müasir standartlara cavab verir. Bu səhiyyə ocağı da Azərbaycanın inkişaf modelinin və dövlət quruculuğu fəlsəfəsinin insan amilindən qaynaqlandığının daha bir əyani nümunəsidir. Mərkəzdə hər addımda insan amilinin başlıca meyar götürülməsi özünü əyani surətdə büruzə verir.*

*İntensiv terapiya-reanimasiya şöbəsi mərkəzin birinci mərtəbəsində yerləşir. Buradakı intensiv terapiya çarpayılarının*

*sayı 30-a qədərdir. Mərkəzdə böyüklərlə yanaşı, körpələr və uşaqlar üçün də ayrıca reanimasiya otaqları vardır.*

*Bildirildi ki, mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycanda ürək xəstəliklərinin profilaktikasında, erkən diaqnostikası və müalicəsində beynəlxalq standartlara uyğun xidmətin, keyfiyyət sisteminin tətbiqinə təkan vermək, həmçinin bu sahədə çalışan peşəkarların dolğun fəaliyyətinə hərtərəfli şərait yaratmaqdır. Bu tibb müəssisəsi də ən son elmi-texniki yeniliklərə əsaslanan texnologiya və avadanlıqlarla təchiz edilib. Ölkəmizə gələn xarici dövlətlərin mütəxəssislərinin də dəfələrlə təsdiqlədikləri kimi, respublikamızdakı səhiyyə ocaqlarının əksəriyyəti təchizat baxımından dünyanın inkişaf etmiş ölkələrindəki tibb müəssisələrindən heç də geri qalmır. Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində «Ürək Mərkəzi» də bunun növbəti əyani nümunələrindən biridir.*

*Reanimasiya şöbəsində Azərbaycanda ilk dəfə olaraq «hibrid» əməliyyat bloku yaradılıb. Bu cür əməliyyat zamanı xəstənin daimi müşahidəsi və müayinəsi aparılır. Ümumilikdə, «Ürək Mərkəzi»ndə həm böyüklərdə, həm də uşaqlarda ən son texnoloji nailiyyətlərə əsaslanan avadanlıq və cihazların köməyi ilə müayinə və müalicə, eləcə də kardioloji-invaziv və açıq cərrahiyyə əməliyyatları həyata keçiriləcək. Yeni səhiyyə ocağında hər bir xəstə barədə ətraflı məlumat əldə etmək mümkün olacaq, müayinə və müalicə dövründəki məlumatlar arxivləşdiriləcəkdir.*

*Dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, cərrahiyyə əməliyyatından sonra xəstələrin müalicəsi davam etdiriləcək. Onlar kardioreabilitasiya dövründə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar. Xəstələrə ən müasir avadanlıqların köməyi ilə sağlamlıqlarının tam bərpası üçün yüksək səviyyədə tibbi xidmət göstəriləcək.*

*«Ürək Mərkəzi»ndə xəstələrin istirahəti və dolğun qida-lanmalarına da maksimum diqqət yetiriləcək. Respublikamızdakı istər dövlət, istərsə də özəl tibb müəssisələrinin daxili tərtibatı da özünəməxsusluğu ilə fərqlənir. Məhz ölkəmizdəki davamlı*

*sosial-iqtisadi inkişaf və rəqabətədavamlı iqtisadiyyatın formalaşması bu möhtəşəmlikləri qurub-yaratmağa imkan verir. «Ürək Mərkəzi»ndəki kafe də bu tibb müəssisəsinə müraciət edənlərin ürəyincə olacaq.*

*Mərkəzdəki konfrans zalı da istənilən səviyyəli tədbirin təşkilinə hərtərəfli imkan yaradır. Burada informasiya-kommunikasiya texnologiyaları geniş tətbiqini tapıb.*

*Konfrans zalında dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Respublika Müalicəvi Diaqnostika Mərkəzinin ötən 5 ildə keçdiyi inkişaf yolundan bəhs edən qısa videoçarx nümayiş etdirildi.*

*Mərkəzdəki tədris otaqları ən son elmi-texniki yeniliklər nəzərə alınmaqla yaradılıb. Burada tibbi heyətin bilik və bacarıqlarını artırmaları üçün mütəmadi tədbirlər həyata keçi-riləcək. Bu səhiyyə ocağındakı stasionar şöbə də müasirliyi ilə diqqəti çəkir. Hər addımda səliqə-sahmanın, yüksək zövqə əsaslanan tərtibatın şahidi olursan.*

*Yeni mərkəzdəki çarpayıların sayı 100-ə, həkim otaqlarının sayı isə 35-ə çatır. Hazırda ölkəmizdə daha böyük miqyas alan yenidənqurma tədbirləri keyfiyyətcə də yeni mərhələyə yüksəlib. Bu hərtərəfli şərait tolerantlıqda dünya üçün nümunə olan Azərbaycan dövlətinin öz vətəndaşlarına həssas münasibətinin əyani nümunəsidir.*

*Mərkəzin poliklinikası da Azərbaycanda səhiyyə islahatlarının yüksək səviyyədə reallaşdırılmasına dəlalət edir. «Ürək Mərkəzi»ndə xəstələrin qəbulu və müalicəsini yüksəkixtisaslı həkim-mütəxəssislər aparacaqlar. Həmin tibb müəssisəsinin həkim-kardioloqları əhaliyə ürək-damar sisteminin vəziyyəti-nin qiymətləndirilməsi, ürək-damar xəstəlikləri üzrə risk amillərinin aradan qaldırılması və profilaktikasında, uzunmüddətli müşahidə aparılmasında və hərtərəfli müalicəsində yardımçı olacaqlar.*

*«Ürək Mərkəzi» ilə tanış olan dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva bu səhiyyə müəssisəsinin kollektivi ilə görüşdülər.*

**İ l h a m Ə l i y e v:** Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində yeni «Ürək Mərkəzi»nin açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl mərkəzdir. Ən müasir standartlara cavab verir. Deyə bilərəm ki, dünya səviyyəsində ən yüksək qiymətə layiq olan bir mərkəzdir. Həm tikintisi, həm daxili dizaynı, həm də avadanlığı, müasir texnologiyalar – hər şey burada ən yüksək səviyyədə təşkil olunubdur.

Bu gün mənə göstərilən kiçik videotəqdimatda qeyd edilir ki, son 5 il ərzində Diaqnostika Mərkəzi ölkəmizin həyatında, insanların sağlamlığında çox böyük işlər görüb. Yüz minlərlə insan burada müalicə alıb. Ən müasir texnologiyalar tətbiq olunur. Yerli və xaricdən gələn həkimlər öz peşəkarlıqlarını nümayiş etdirirlər və əsas məsələ budur ki, xəstələrə yüksək səviyyəli xidmət göstərilir.

Son illər ərzində Azərbaycanda səhiyyə sahəsində çox böyük işlər görülübdür, 600-dən çox xəstəxana, tibb obyekti əsaslı təmir olunub, yenidən tikilibdir. Demək olar ki, bütün rayonlarımızda ya yeni tikilən, ya da əsaslı təmir olunan xəstəxanalar yaxşı xidmət göstərir. Biz səhiyyə sahəsinin maddi-texniki bazasını artıq yaratmışıq. İndi Azərbaycanda ən mürəkkəb əməliyyatlar aparılır və bu gün bizim səhiyyə sistemimizin həm maddi-texniki təminatı, həm də keyfiyyəti böyük dərəcədə artır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Xüsusilə Ümumdünya Səhiyyə Təşkilatı bizdə bu sahədə görülən işlərə yüksək qiymət veribdir. Statistik göstəricilərdə də bu özünü göstərir, insanların ömrünün uzunluğu artır, uşaq və ana ölümü azalır. Bu, səhiyyə sisteminin əsas göstəricilərindən biridir.

Səhiyyə sahəsinin inkişafı hər bir ölkənin ümumi inkişafını göstərir. Çünki bu sahəyə ayrılan vəsait dövlətin siyasətini, niyyətini ifadə edir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və insanların sağlamlığı sosial sahədə prioritet məsələlərdən biridir. Bilirsiniz ki, artıq neçə ildir kütləvi müayinədən keçmə kampaniyası aparılır. Keçən il bütün bölgələrdə 5 milyon insan pulsuz müayinə olunub. Bu il də 5 milyon insan pulsuz müayinədən keçəcək. Mən xatırlayıram,

yeni istifadəyə verilmiş bütün tibb ocaqlarında vətəndaşlarla görüşlər zamanı onlara söyləyirdim ki, siz mütləq ildə bir dəfə müayinədən keçməlisiniz. Biz artıq buna nail olduq və bölgələrdə, tibb mərkəzlərində yaşanan izdiham onu göstərir ki, vətəndaşlar bu imkanlardan böyük həvəslə istifadə edirlər. Bu ilk növbədə, insanlara lazımdır, eyni zamanda, dövlətimizin inkişafı üçün də bunun çox böyük mənası var. Çünki sağlam millət, sağlam cəmiyyət hər bir ölkənin inkişafı üçün çox vacibdir.

Biz gələcəkdə də səhiyyə sahəsində əlavə tədbirlər görəcəyik. Belə gözəl mərkəzlərin yaradılması ölkəmizin ümumi inkişafını göstərir. Əgər bu mərkəz dünyanın ən qabaqcıl tibb mərkəzlərindən fərqlənirsə, ancaq müsbət istiqamətdə fərqlənir. Çünki bu səviyyədən daha yuxarı səviyyəni təsəvvür etmək mümkün deyil. Burada yüzlərlə həkim, tibb işçisi fəaliyyət göstərir və onların da peşəkarlığı, əminəm ki, bax, burada yaradılmış səviyyəyə uyğundur.

Gözəl əlamətdar hadisə münasibətilə sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

**K ö n ü l  X ə l i l o v a** *(Respublika Müalicəvi Diaqnostika Mərkəzinin baş həkimi):* Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Sizi bu gün burada görməkdən çox şadıq. İlk növbədə, iş qrafikinizin gərgin olmasına baxmayaraq, vaxt tapıb bizim mərkəzə gəldiyiniz üçün Sizə dərin təşəkkürümüzü bildirmək istəyirik. 5 il əvvəl – 2011-ci il dekabrın 27-də Sizin xeyir-duanızla Respublika Müalicəvi Diaqnostika Mərkəzi fəaliyyətə başlayıb. Ötən müddət ərzində bu mərkəz nəinki ölkəmizdə, hətta beynəlxalq qurumlar tərəfindən də qabaqcıl bir tibb müəssisəsi kimi tanınıb. Respublika Müalicəvi Diaqnostika Mərkəzi Amerika Birləşmiş Ştatlarının «qızıl» sertifikatına layiq görülüb, mərkəzi laboratoriyası isə beynəlxalq ISO sertifikatını alıb.

Azərbaycanın səhiyyəsi həmişə Sizin qayğınızı, diqqətinizi hiss edir. Mən uzun müddətdir səhiyyə sahəsində çalışıram və əminliklə deyə bilərəm ki, son illər ölkəmizin səhiyyəsində ciddi müsbət dəyişikliklər baş verib. Sizin sayənizdə Azərbaycanda elə bir rayon, elə bir bölgə yoxdur ki, orada yeni xəstəxanalar, diaqnostika mərkəzləri açılmasın, müasir avadanlıqlarla təchiz olunmasın və insanların istifadəsinə verilməsin. Buna görə biz Sizə çox minnətdarıq.

Sizin tövsiyənizlə hər il ölkə vətəndaşlarının pulsuz müayinədən keçmək imkanları yaranıb. Bundan başqa, onu da demək istəyirəm ki, Sizin diqqət və qayğınız sayəsində təhsil proqramı da hazırlanıb. Həmin təhsil proqramı olmasaydı, indi bu müasir, mürəkkəb aparatlarla işləməyə ixtisaslı mütəxəssislər tapılmazdı. Bizim Diaqnostika Mərkəzində əməkdaşların çoxu xaricdə yüksək səviyyəli təhsil alıb və indi burada gənc mütəxəssislər kimi çalışırlar. Biz Sizin səhiyyəyə qayğınızı daim hiss edirik. İcbari tibbi sığortanın tətbiqi ilə bağlı qərarınızı biz çox bəyənirik. İcbari tibbi sığorta artıq indi pilot rayonlarda tətbiq olunur və ümidvarıq ki, bu, tezliklə bütün ölkədə tətbiq ediləcək.

Çox hörmətli Mehriban xanım, fürsətdən istifadə edib, Sizi Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirik. Siz çıxışınızda vurğuladınız ki, Sizə inanan insanların etimadını doğrultmağa çalışacaqsınız. Mən Sizi əmin edirəm ki, Sizə bütün Azərbaycan xalqı inanır, Sizi sevir və hər zaman Sizi dəstəkləməyə hazırdır. Siz öz işinizlə, fəaliyyətinizlə, xeyirxahlığınızla hamının hörmətini qazanmısınız. Biz Sizi çox sevirik. Biz Sizinlə fəxr edirik. Şübhəsiz, əminik ki, Siz bu məsuliyyətli yeni işinizin öhdəsindən də uğurla gələcəksiniz.

Möhtərəm cənab Prezident, Sizə bir daha öz hörmətimizi, ehtiramımızı bildirmək istəyirik. Buraya gəldiyiniz üçün çox sağ olun.

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva kollektivə uğurlar arzuladılar.*

## BÖYÜK BRİTANİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ SAYMON MAKDONALDIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Böyük Britaniya Xarici İşlər nazirinin müavini, Birləşmiş Krallığın diplomatik xidmətinin rəhbəri Saymon Makdonaldın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Saymon Makdonaldın Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlıq və regional məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlıqla bağlı gündəlikdə duran məsələlərin çox əhatəli olduğunu və əlaqələrimizin genişləndiyini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin enerji sektorunda çox yaxşı əlaqələrə malik olduğunu bildirdi, Azərbaycanın bp şirkəti ilə 25 ilə yaxın vaxt ərzində əməkdaşlıq etdiyini vurğuladı. Dövlətimizin başçısı bp-nin ölkəmizin enerji sahəsində əsas strateji tərəfdaşı olduğunu qeyd edərək, bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Böyük Britaniya şirkətlərinin son vaxtlar ölkəmizin qeyri-neft sektoruna daha çox maraq göstərdiklərini vurğuladı və bunun Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi siyasəti ilə uyğun gəldiyini və gələcəkdə ölkələrimiz arasında biznes əlaqələrinin daha da genişlənməsinə gətirib çıxaracağını bildirdi.*

*Böyük Britaniya Xarici İşlər nazirinin müavini, Birləşmiş Krallığın diplomatik xidmətinin rəhbəri Saymon Makdonald Azərbaycana ilk dəfə səfər etdiyini, Bakının müasir bir şəhərə çevrildiyini, yeni memarlıq nümunələrinin onda dərin təəssürat*

*yaratdığını məmnunluqla qeyd edərək, səfəri çərçivəsində dünyaca məşhur olan Heydər Əliyev Mərkəzi ilə tanış olacağını da bildirdi. Saymon Makdonald Azərbaycan ilə Böyük Britaniya arasında əldə edilmiş razılaşmalara əsasən, çoxlu Britaniya şirkətlərinin ölkəmizə sərmayə qoyuluşuna cəlb olunduğunu vurğuladı.*

*Görüşdə Azərbaycanda son illər həyata keçirilən islahatlar, təhsilə göstərilən yüksək qayğı, işsizliyin və yoxsulluğun azaldılması, sosial məsələlərin həlli istiqamətində görülən işlərdən danışıldı, neftin qiymətinin aşağı düşməsinin şaxələndirmənin sürətlənməsinə təsiri, ölkəmizin beynəlxalq aləmdə mövqeyi, Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən verilən qiymət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DONALD TUSKA**

Hörmətli cənab Prezident!

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ötən ay Avropa İttifaqı və Azərbaycan arasında yeni ikitərəfli Saziş layihəsi üzrə danışıqlara başlanılması məqsədilə Sizin dəvətiniz əsasında Brüsselə səfərimi, eləcə də səfər zamanı Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini məmnuniyyətlə xatırlayıram.

Avropa İttifaqı–Azərbaycan münasibətlərinin inkişafına, eləcə də Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə verdiyiniz dəstəyə görə Sizə bir daha təşəkkür edirəm.

Azərbaycan Avropa İttifaqı ilə əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Sevindirici haldır ki, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf etməkdədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş olduğunu sübut etmişdir.

İnanıram ki, sağlam təməl, etimad və dəstək üzərində qurduğumuz tərəfdaşlıq əlaqələrinin, qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylərimizi davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul və şərəfli fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 mart 2017-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ DÖVLƏT NAZİRİ TAMER ƏS-SABHANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Səudiyyə Ərəbistanı Krallığının Körfəz Məsələləri üzrə Dövlət naziri Tamer əs-Sabhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğuladı. Səudiyyə Ərəbistanına rəsmi səfərini, göstərilən qonaqpərvərliyi və aparılan söhbətləri məmnunluqla xatırladan prezident İlham Əliyev bunu dostluğumuzun yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkələrimizin bir çox istiqamətlərdə uğurlu əməkdaşlıq etdiyini bildirən dövlətimizin başçısı bu əməkdaşlığın beynəlxalq təşkilatlar çərçivəsində də yaxşı səviyyədə olduğunu qeyd etdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altında olması ilə əlaqədar Səudiyyə Ərəbistanının Ermənistanla heç bir diplomatik əlaqə saxlamadığını vurğulayan prezident İlham Əliyev qardaşlıq mövqeyi nümayiş etdirdiyinə görə Səudiyyə Ərəbistanına bir daha təşəkkürünü ifadə etdi. Siyasi sahədə əlaqələrimizin yüksək səviyyədə olduğunu dəyərləndirən prezident İlham Əliyev iqtisadi əməkdaşlığa diqqəti artırmağın və xüsusilə qarşılıqlı ticarətin inkişaf etdirilməsinin önəmini vurğuladı. Bu sahədə yaxşı perspektivlərin olduğunu bildirən dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının Körfəz Məsələləri üzrə Dövlət naziri Tamer əs-Sabhanın ölkəmizə səfəri çərçivəsində bütün bu və digər məsələlərin müzakirə olunacağına əminliyini ifadə etdi.*

*Dövlət naziri Tamer əs-Sabha İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Nayif bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanı Krallığının mövqeyinin dəyişməz olduğunu dedi. Tamer əs-Sabha ölkəsinin Azərbaycan ilə bütün sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. O, iki ölkənin rəsmiləri arasında qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə təkan verəcəyini dedi.*

*Dövlətimizin başçısı Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Nayif bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi.*

## FRANSA RESPUBLİKASI SENATININ FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ANDRE REYŞARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Fransa Respublikası Senatının Fransa–Qafqaz Dostluq Qrupunun sədri Andre Reyşarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Andre Reyşarın Fransa senatorlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərinin önəmini qeyd edən dövlətimizin başçısı səfərin qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı fürsət yaradacağını dedi.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu, Azərbaycan prezidenti İlham Əliyevin Fransaya gözlənilən səfəri zamanı iqtisadi, enerji, Avropa İttifaqı çərçivəsində əməkdaşlığın perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərin müzakirə olunacağı vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Fransa arasında energetika, ekologiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ətrafında da fikir mübadiləsi aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*11 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də ATƏT-in Minsk qrupunun həmsədrləri Riçard Hoqlandı, İqor Popovu, Stefan Viskontini və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Rusiyalı həmsədr İqor Popov bildirdi ki, Minsk qrupunun tərkibində ABŞ və Fransadan yeni həmsədrlərin olmasına baxmayaraq, təmsil etdikləri ölkələrin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair mövqeləri dəyişməz qalır və həmsədr ölkələr tezliklə əsaslı sülh danışıqlarının başlanmasını istəyirlər.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*12 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Fransa Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Fransanın Dövlət bayraqlarının dalğalandığı Parisin Orli Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Fransanın yüksəkvəzifəli rəsmi şəxsləri qarşıladılar.*

## TOTAL ŞİRKƏTİNİN PREZİDENTİ PATRİK PUYANE İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə Total şirkətinin prezidenti Patrik Puyane ilə görüşmüşdür.*

*Patrik Puyane Azərbaycanda gedən inkişaf proseslərinin maraqla qarşılandığını dedi, Bakının gözəl şəhərlərdən birinə çevrildiyini vurğuladı.*

*Söhbət zamanı SOCAR ilə Total arasında əlaqələrin inkişafı, «Abşeron» yatağının işlənilməsi, «Ümid», «Babək» qaz-kondensat yataqları üzrə əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## «THALES INTERNATİONAL» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ RAFAEL ESKİNAZİ İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə «Thales International» şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Thales International» şirkəti arasında 20 ildən çoxdur uğurlu əməkdaşlıq edildiyi məmnunluqla xatırlandı, müxtəlif layihələrin həyata keçirilməsi ilə bağlı çox yaxşı nəticələrin əldə olunduğu bildirildi. «Azərbaycan Hava Yolları» QSC və Bakı Metropoliteni ilə müxtəlif layihələrin reallaşdırıldığı qeyd edildi, Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı müəyyən işlərin görüləcəyi diqqətə çatdırıldı.*

*Söhbət zamanı əməkdaşlığın gələcəkdə davam etdirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

## «AİRBUS» ŞİRKƏTİNİN MÜDAFİƏ VƏ KOSMİK SİSTEMLƏR ÜZRƏ İCRAÇI VİTSE-PREZİDENTİ NİKOLA ŞAMÜSİ İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə «Airbus» şirkətinin müdafiə və kosmik sistemlər üzrə icraçı vitse-prezidenti Nikola Şamüsi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Airbus» şirkəti arasında bir neçə ildir uğurlu əməkdaşlığın həyata keçirildiyi, yaxşı perspektivlərin olduğu bildirildi. Kosmik sahədə, xüsusilə yeni təyinatlı, daha yüksək nəticələr əldə etməyə imkan verən peyklərin hazırlanması ilə bağlı əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.*

## «CREDİT AGRİCOLE S.A.» ŞİRKƏTİNİN BAŞ DİREKTORU KSAVYE MUSCA İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə «Credit Agricole S.A.» şirkətinin baş direktoru Ksavye Musca ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə olundu. Azərbaycan ilə «Credit Agricole S.A.» şirkəti arasında müxtəlif layihələrin uğurla maliyyələşdirildiyi qeyd edildi. Bir çox layihələrin artıq icra olunduğu, «Credit Agricole S.A» şirkətinin «Cənub Qaz Dəhlizi» layihəsinin maliyyələşdirilməsində iştirak etdiyi, bununla bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə çox yaxşı əməkdaşlığın həyata keçirildiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə «Credit Agricole S.A.» şirkəti arasında əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyi bildirildi, qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatı sahəsində müxtəlif layihələrin reallaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## CİFAL QRUPUN PREZİDENTİ JİL REMİ İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə CİFAL qrupun prezidenti Jil Remi ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri, həmçinin hərbi-texniki sahədə gəmilərin hazırlanması ilə bağlı fikir mübadiləsi aparıldı.*

## DCNS ŞİRKƏTİNİN PREZİDENTİ ERVE QİYU İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə DCNS şirkətinin prezidenti Erve Qiyu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə DCNS şirkəti arasında 2004-cü ildən əməkdaşlığın həyata keçirildiyi bildirildi. Müxtəlif dizaynlı və təyinatlı gəmilərin hazırlanması ilə bağlı bir sıra layihələrin reallaşdırıldığı qeyd edildi, Bakı Gəmiqayırma zavodu ilə əməkdaşlığın yaxşı perspektivləri olduğu vurğulandı.*

## SUEZ QRUPUN BAŞ DİREKTORUNUN MÜAVİNİ MARİ-ANJ DEBON İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə SUEZ qrupun baş direktorunun müavini, həmçinin MEDEF-in vitse-prezidenti xanım Mari-Anj Debon ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə SUEZ qrup arasında müəyyən sahələrdə əməkdaşlığın həyata keçirildiyi, bir sıra layihələr üzərində iş getdiyi bildirildi. Bakının yağış sularından təmizlənməsi və digər layihələrlə bağlı məsələlər müzakirə olundu, bu işlərin davam etdirilməsinin məqsədəuyğunluğu bildirildi.*

## «VİVACTİON» ŞİRKƏTİNİN PREZİDENTİ RİŞAR MARİ İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də «Vivaction» şirkətinin prezidenti Rişar Mari ilə görüşmüşdür.*

*Görüşdə kibertəhlükəsizlik sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## FRANSA ŞİRKƏTLƏR HƏRƏKATI BİZNES ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Paris*

*13 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə Fransa Şirkətlər Hərəkatı (MEDEF) Biznes Şurasının üzvləri ilə görüşmüşdür.*

*Fransa Şirkətlər Hərəkatının vitse-prezidenti xanım Mari-Anj Debon belə tədbirlərin Azərbaycan ilə Fransa şirkətləri arasında əlaqələrin inkişafında mühüm rol oynadığını bildirdi. O bu görüşdə onlarla şirkətin nümayəndələrinin təmsil olunduğunu vurğuladı, tədbirin səmərəli keçəcəyinə əminliyini ifadə etdi.*

**Mari-Anj Debon:** Zati-aliləri, möhtərəm cənab Prezident! Hörmətli nazirlər, səfirlər, nümayəndə heyətinin üzvləri! Bu gün Sizi öz aramızda görmək bizim üçün şərəfdir, biz bundan məmnunuq. Məlumdur ki, bu bizim birinci görüşümüz deyil. Sizin MEDEF ilə uzunmüddətli əlaqələriniz var. Bu Sizin MEDEF ilə 9-cu görüşünüzdür. Belə deyək ki, çox məmnunedici haldır.

Mənim may ayında nümayəndə heyətinə rəhbərlik etmək imkanım olmuşdu və Siz bizi qəbul etmişdiniz. May ayın-dakı görüşdə iştirak etmiş nümayəndə heyətinin bəzi üzvləri indi bu otaqdadırlar. Hesab edirəm ki, bu görüşlərin keçiril-məsi çox faydalı, səmərəli və məhsuldar olmuşdur.

Bu gün, cənab Prezident, görə bilərsiniz ki, Sizin səfəriniz bir çox insanların diqqətini cəlb edib. Bir çox şirkətlər – Fransa iqtisadiyyatının əksər sektorlarını təmsil edən faktiki olaraq, 70-dən çox şirkət bu görüşdə iştirak üçün müraciət edib. Bu onu

göstərir ki, Sizin ölkəniz bir çox fransız şirkətlərini cəlb edir. Bu onu da göstərir ki, hər iki ölkə öz iqtisadiyyatını daha da inkişaf etdirmək istəyir. Beləliklə, bu gün bütün bu şirkətlərə təşəbbüskarı olduğunuz layihələr və təşəbbüslər barədə suallarla Sizə müraciət etmək imkanı verilir. Bu imkanı yaratdığınız üçün Sizə bir daha təşəkkürümü bildirirəm.

Bizə artıq həyata keçirilməkdə olan bu təşəbbüslər yaxşı təsir göstərir və biz Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə nail olmaq üçün ölkənizdə reallaşdırılmaqda olan və reallaşdırmaq istədiyiniz bütün layihələr barədə Sizinlə fikir mübadiləsi aparmaq istəyirik. Vaxtınızı çox almaq istəmirəm. Biz hamımız burada Sizi dinləmək və icazənizlə, Sizinlə fikir mübadiləsi aparmaq üçün toplaşmışıq. Bir daha çox sağ olun, cənab Prezident. İcazə versəydiniz, auditoriyadan da Sizə sualla müraciət etmək imkanını yaradardıq. Lakin ilk növbədə, sözü Sizə verirəm. Bir daha çox sağ olun. Mən bizim hər iki səfirimizə də təşəkkürümü bildirirəm. Onlar diplomatiyanın və iqtisadiyyatın 2 ciddi mövzu olduğunu çox yaxşı bilirlər və bir yerdə daha da yaxşı işləmək üçün bir çox şirkətlərə dəstək olurlar. Çox sağ olun, cənab Prezident.

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Dəvətinizə görə çox sağ olun. Mən bir daha MEDEF nümayəndələri ilə görüşməyə çox şadam. Sizin də qeyd etdiyiniz kimi, bu mənim artıq doqquzuncu görüşümdür. Fransaya ilk rəsmi səfər etdikdə mənim Fransanın biznes ictimaiyyəti ilə görüşüm olmuşdur. Bu görüş iqtisadi əməkdaşlığımızın inkişafı baxımından çox vacib idi. Mən ikitərəfli iqtisadi əməkdaşlığın təşviqində MEDEF-in və MEDEF üzvlərinin çox vacib rolunu vurğulamaq istəyirəm.

Hesab edirəm ki, bu gün bizim çox yüksək səviyyədə iqtisadi əlaqələrimiz vardır. Bir çox layihələr icra olunubdur, bir çox fransız şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Fran-

saya səfərimdən öncə əldə etdiyim məlumata görə, 50-dən çox fransız şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. İqtisadiyyatımıza yatırılan investisiyaların həcmi 2 milyard dollardan çoxdur. Bu sərmayələr əsasən enerji sektoruna qoyulubdur, lakin qeyri-neft sektoruna da bəzi sərmayələr yatırılır. Bu isə hazırkı mərhələdə bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın hökumət qurumları və fransız şirkətləri tərəfindən imzalanmış müqavilələrin dəyəri 2 milyard dollara yaxındır. Beləliklə, bu, ilk növbədə ölkəmizin potensialını nümayiş etdirir, bu, fransız biznes dairələrinin Azərbaycandakı fəaliyyətə marağının göstəricisidir. Bu, Azərbaycanda yerli və əcnəbi biznes qruplarına iş görmək, sərmayə yatırmaq və yaxşı podratçı olmaq üçün çox əlverişli şəraitin yaradıldığına dəlalət edir. Azərbaycanda fəaliyyət göstərən fransız şirkətləri bizə iqtisadiyyatımızın müxtəlif sektorlarını inkişaf etdirməyə kömək göstəriblər. Ölkəmiz üçün ənənəvi sayılan neft və qaz sektorunda bizim çox güclü əlaqələrimiz var. İcra edilməkdə olan layihələr qarşılıqlı faydalara gətirib çıxarır.

Bizim infrastruktur, nəqliyyat, ictimai nəqliyyat, metro, dəmir yolu nəqliyyatı, suyun idarə edilməsi və bu sektorlara investisiyaların yatırılması sahəsində güclü əməkdaşlığımız var. Həmçinin kosmik sahəni qeyd etmək istərdim. Bu bizim ölkə üçün nisbətən yeni sahədir. Lakin Azərbaycan bir neçə il bundan öncə beynəlxalq kosmik kluba qoşulub və ölkəmizin artıq 2 peyki fəaliyyət göstərir. Ümid edirik ki, fransız şirkətlərinin fəal iştirakı ilə üçüncüsü də olacaqdır.

Kənd təsərrüfatı sahəsində yaxşı perspektivlərimiz var. Şadam ki, ötən bir neçə il ərzində iqtisadiyyatımızın bu sektoru da çevik inkişaf etməyə başlayıbdır və bu həmçinin fransız şirkətlərinin iştirakı ilə baş veribdir. Xüsusilə üzüm bağlarımızın inkişafını qeyd etmək istəyirəm. Kənd təsərrü-fatında məhsuldarlığı artırmaq məqsədilə iqlim şəraitimiz-dən maksimum dərəcədə istifadə olunubdur.

Bizim təhsil sahəsində yaxşı əməkdaşlığımız var. Artıq 3 ildir ki, fəaliyyət göstərən Fransız liseyi bu əməkdaşlığın yaxşı

nümunəsidir. Daha sonra Fransız–Azərbaycan Universitetinin açılışını etdik. Bu nəinki təkcə bizim təhsil potensialımızı gücləndirir, eyni zamanda, həmin təhsil ocaqlarında təhsil alan uşaqlar və gənc nəsil artıq, bir sözlə, bu iki ölkənin ictimai səfirlərinə çevrilirlər. Çünki onların həyatı Fransa ilə əməkdaşlığa bağlı olacaqdır.

Biz Azərbaycanda çox əsaslı islahatlar paketini həyata keçirdik. Bu əsasən, ötən il oldu. Ötən il çox dərin iqtisadi islahatlar ili oldu. Bu təşəbbüsə beynəlxalq maliyyə institutları çox güclü dəstək göstərdi. Bu, iqtisadiyyatımızın şaxələndirilməsinə aparan bir yoldur. Əslində biz neft və qazdan asılılığı azaltmaq üçün bunun üzərində uzun illər idi ki, çalışırdıq və bunu etməyə nail olduq. Hazırda neft və qaz ümumi daxili məhsulun təqribən 30 faizdən artığını təşkil edir. Qalan hissə qeyri-neft sektorunun payına düşür. İndi isə biz ixracımızı şaxələndirmək üçün fəal çalışırıq. Neftin qiymətinin 3-4 dəfə aşağı düşdüyü bir dönəmdə buna indi xüsusilə ehtiyac var və artıq bizə əvvəllər olduğu kimi, əldə edə bilmədiyimiz gəlirləri qeyri-enerji ixrac potensialı ilə kompensasiya etmək lazımdır. Buna görə biz əsasən kənd təsərrüfatı, sənaye sektorlarına sərmayə yatırdıq və eyni zamanda, bazarların axtarışındayıq. Bizim regionda ənənəvi bazarlarımız var, lakin Avropa bazarı da bizim üçün çox cəlbedicidir.

Ötən ay tərəfdaşlıq razılaşması üzrə Avropa Komissiyası ilə danışıqlara başladığımızı nəzərə alaraq – yeri gəlmişkən, bu, bir çox sahələri, o cümlədən iqtisadi əməkdaşlığı əhatə edəcək hərtərəfli bir sənəd olmalıdır – hesab edirəm ki, əməkdaşlığımızın vacib bir elementi də ikitərəfli ticarətin artırılması ola bilər. Zənnimcə, bu gün bu, 1 milyard avrodan azdır. Lakin ticarətimizin strukturuna baxsanız görərsiniz ki, bu əsasən, bizim Fransaya neft ixracatımızdır. Beləliklə, biz bunu şaxələndirməliyik, daha çox alıb, daha çox satmalıyıq.

Hesab edirəm ki, iqtisadi əməkdaşlığımızın çox yaxşı mexanizmi var. Bu, birgə iqtisadi Komissiyadır. Bu Komissiyanın iclası bu yaxınlarda keçirilibdir. Bu Komissiya əməkdaşlı-

ğımızın bütün vacib sahələri ilə bağlı məsələlərlə məşğul olur. İslahatlar bizə uzunmüddətli dayanıqlı inkişafa, iqtisadi artıma, ölkəmizin və iqtisadiyyatımızın müasirləşdirilməsinə nail olmaq imkanı verəcək. Çünki artıq bir neçə dəfə qeyd etdiyim kimi, Azərbaycanda postneft dönəmi başlanıbdır. Bu bizim ehtiyatlarımızın tükənməsi ilə əlaqəli deyil. Xeyr, bizim böyük neft və qaz ehtiyatlarımız vardır. Biz onları gələcək bir neçə onilliklər ərzində bazara çıxaracağıq. Lakin indi bizə sanki təbii ehtiyatlara malik olmadan gələcəyimizi planlaşdırmaq lazımdır. İqtisadiyyatımızı rəqabətlilik, düzgün idarəetmə əsasında qurmalıyıq.

Əlbəttə, biz islahatlarımızda inkişaf etmiş ölkələrin təcrübəsindən də istifadə edirik. Çox yaxşı məsləhətçilərimiz var. Onlar bizə iqtisadiyyatımızın hər bir sektoru üçün strateji yol xəritələri hazırlamağa kömək edirlər. Azərbaycanda iqtisadi inkişaf sabitdir. Əvvəlki illərdə ümumi daxili məhsulun göstəricisi çox yüksək olub və bu da əsasən neft və qaz sektorunun sayəsində baş verib. Lakin artım təkcə bu sektorla bağlı deyildi. Bu gün Azərbaycanda sabit iqtisadi və siyasi vəziyyət ölkə iqtisadiyyatının cəlbedici olması üçün ilkin şərtlərdən biridir. Biz bu nəticələrə çox ağır bir şəraitdə nail olduq. Bu, humanitar fəlakət idi. Biz bütün beynəlxalq hüquq normalarını pozan Ermənistanın Azərbaycana qarşı təcavüzü və torpaqlarını işğal etməsi nəticəsində evlərini və əmlakını itirmiş yüz minlərlə qaçqın və məcburi köçkünü yerləşdirməli olduq. Bu təcavüz nəticəsində 1 milyondan çox qaçqınımız və məcburi köçkünümüz var. Onların da qeydinə qalmaq üçün çoxlu pul tələb olunur. Biz əsasən bu insanların sosial müdafiəsinə sərmayə yatırdıq və ötən illərdə onların arasından 250 min nəfərə yeni mənzillər və evlər verildi. Beləliklə, biz bütün müasir infrastruktur ilə təchiz olunmuş böyük şəhər miqyasında evlər tikdik.

Mən münaqişə barədə danışarkən, Azərbaycanın işğal olunmuş ərazilərində, Dağlıq Qarabağ və ətraf ərazilərdə Avropadan, həmçinin təəssüf ki, Fransadan olan bəzi şirkətlərin

fəaliyyəti ilə bağlı müəyyən narahatlığımı ifadə etmək istərdim. Çünki təkcə Dağlıq Qarabağ deyil, Dağlıq Qarabağ ətrafındakı 7 rayon da işğal altındadır. Bəzi şirkətlər bu ərazilərdə qanunsuz fəaliyyət göstərir ki, bu da qəbuledilməzdir. Bu, beynəlxalq hüququ, bizim qanunvericiliyimizi pozur və Azərbaycan bu məsələni beynəlxalq müstəvidə qaldırmaq üçün ciddi addımlar atır, həmçinin beynəlxalq məhkəmə institutlarına müraciət edir. Ona görə də mən bu narahatlığı ifadə etmək və torpaqlarımızda qanunsuz fəaliyyət göstərən şirkətləri bu fəaliyyətdən çəkinməyə çağırmaq istərdim. Bu fəaliyyət çoxlu gəlir gətirməyəcək, lakin çoxlu çətinliklər yarada bilər. Bu, ölkələrimiz arasındakı çox yaxşı, dost münasibətlərinə uyğun deyil. Mən başa düşürəm ki, bu şirkətlər bunu öz riskləri hesabına edirlər, lakin mənim borcum sadəcə, onlara bundan çəkinməklə bağlı xəbərdarlıq etməkdir. Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı sözümün yekununda, həmçinin bildirmək istərdim ki, bir neçə gün əvvəl Ermənistan prezidentinin MEDEF-də çıxış edərkən, investorları öz ölkəsinə investisiya yatırmağa inandırmaq əvəzinə, tamamilə əsassız iddialarla Azərbaycanı, onun iqtisadiyyatını nüfuzdan salmağa çalışdığını mənə deyəndə təəccübləndim. O, innovasiyalar barədə danışırdı, deyirdi ki, Ermənistan innovasiyalar ölkəsidir. Açığını deyim, biz Azərbaycanda buna gülürdük, çünki çox məşhur bir deyim var – əgər bu qədər ağıllısansa, niyə bu qədər kasıbsan. Ermənistanın təbii ehtiyatlara malik olmaması faktı o demək deyil ki, xalq bundan əziyyət çəkməlidir. Fransa da daxil olmaqla, dünyanın əksər inkişaf etmiş ölkələrinin təbii ehtiyatları yoxdur. Lakin onlar düzgün idarəçilik, şəffaflıq, etibarlılıq, standartlar, təhsil, bilik və innovasiya sayəsində öz ölkələrini inkişaf etdirirlər. Ona görə də Ermənistan prezidenti fransız şirkətlərinə nağıl danışmaq əvəzinə, yaxşı olardı ki, diqqəti əhalisinin yarısından çoxu gələcək üçün heç bir perspektivi olmayan, yoxsulluq həddindən də aşağı yaşayan ölkədəki dəhşətli iqtisadi vəziyyətə cəmləsin. Onların rəsmi statistikasına görə, hər il Ermənistanı 60 min insan tərk edir, bizdə olan məlumata görə isə bu rəqəm 100

minə yaxındır. Əgər bu ölkə belə yaxşı və cəlbedici olsaydı, ola bilsin ki, insanlar qalmağı tərk etməkdən üstün tutardılar.

Azərbaycana gəlincə, əlbəttə, bizim çətinliklərimiz, problemlərimiz var. Biz hələ də islahatların həyata keçirilməsi prosesindəyik. Lakin mən xüsusilə neftdən əldə olunan gəlirlərimizin 3-4 dəfə aşağı düşməsini nəzərə alaraq, Azərbaycanın neft istehsal edən ölkələr arasında ən yaxşı göstəricilərdən birinə malik olduğunu göstərmək üçün bəzi rəqəmləri diqqətinizə çatdırmaq istərdim. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görüb. Bu çox yaxşı reytinqdir. Beləliklə, biz dünyanın 40 ən rəqabətədavamlı ölkəsi sırasındayıq. Bu, ən son reytinqdir. Bu reytinq bizə neftin qiyməti yüksək olanda verilməyib. Davosun başqa bir reytinqində Azərbaycan inkişaf etməkdə olan ölkələrin inkişaf səviyyəsinə görə 1-ci və 2-ci yerləri paylaşır. Bizim xarici borcumuz çox aşağıdır, bu, ümumi daxili məhsulumuzun 20 faizinə bərabərdir. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfədən də çoxdur. Başqa sözlə, əgər istəsək, biz xarici borcumuzu bir neçə aya ödəyə bilərik və xarici borcumuz sıfır olar. Biz işsizliyi 5 faizə, yoxsulluğu isə 6 faizdən aşağı endirməyə nail olmuşuq. Azərbaycanda məşğulluğun səviyyəsi əsasən çox əlverişli biznes mühiti və investisiya mühiti sayəsində qalxıb. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan artıq investisiya yatırılıb. Bu proses davam edir və ümidvarıq ki, bu il də çox sayda şirkət investisiya yatıracaq. Çox yaxşı haldır ki, indi onlar təkcə neft və qaz sahəsinə deyil, həm də xidmət, turizm, hotel biznesinə, kənd təsərrüfatına investisiya yatırırlar. Xarici və yerli şirkətlərin bütün investisiyaları lazımi şəkildə qorunur. Buna görə də bu, Azərbaycana investisiya yatırmaq üçün əlavə stimul və maraq yaradır. Eyni zamanda, regionda güclü iqtisadi mövqeyə, qonşularla yaxşı əlaqələrə və güclü maliyyə ehtiyatlarına malik olaraq, biz strateji əhəmiyyət kəsb etdiyini düşündüyümüz sektorlara podratçılar cəlb edə bilərik.

Qarşıdakı illərdə bizim əsas diqqət yetirəcəyimiz sahə iqtisadiyyatımızın qeyri-neft sektoru, əsasən də kənd təsərrüfatı olacaq.

Mən Fransanın nüfuzlu şirkətlərini Azərbaycana gəlməyə – müasirləşmə və məhsuldarlığın artırılması ilə bağlı layihələri həyata keçirmək üçün Azərbaycan hökuməti ilə işləməyə dəvət edirəm. Suvarma bizim əsas diqqət yetirdiyimiz sahələrdən biridir. Təkcə bu il biz çoxlu investisiya cəlb edərək, əvvəllər suvarılmamış azı 100–150 min hektar sahəni su ilə təmin edəcəyik. Bu, böyük həcmdə əlavə məhsulların istehsalına gətirib çıxaracaqdır.

İnformasiya texnologiyaları çox sürətlə inkişaf edir və bizim bu sektorun inkişafı ilə bağlı xüsusi proqramımız vardır. Müasir texnologiyalar, sənaye potensialı, tikinti, nəqliyyat – dünyanın hər yerindən şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi üçün çoxlu imkanlar vardır.

Həyata keçirdiyimiz strateji layihələr arasında mən ikisini qeyd etmək istərdim. Birincisi, əlbəttə ki, «Cənub Qaz Dəhlizi»dir. Bu, hazırda Avropada ən böyük infrastruktur layihəsi hesab olunur. Layihənin dəyəri 40 milyard dollara yaxındır. Bu, 6 ölkədən keçməklə, Azərbaycanı Bakıdan İtaliya sahilləri ilə birləşdirən inteqrasiya olunmuş kəmər sistemidir. Avropa Komissiyası bu layihəyə güclü dəstək verir və Azərbaycan bu layihədə aparıcı rola malikdir. Bu layihə Avropanın enerji xəritəsini dəyişir və Avropa istehlakçılarına yeni alternativ təbii qaz mənbələri gətirəcək. Əlbəttə, bu layihənin həyata keçirilməsində bir çox şirkətlər iştirak edir. Bu, enerji şaxələndirilməsi, enerji təhlükəsizliyi layihəsidir və bu həqiqətən də XXI əsrin layihəsidir. Çünki layihənin həyata keçirilməsini təşkil etmək nə texniki, nə də maliyyə nöqteyi-nəzərindən asan məsələ deyildi. Bu layihə beynəlxalq maliyyə institutları, əsasən də Dünya Bankı tərəfindən dəstəklənir və mən şadam ki, Fransa bankları da bu layihənin həyata keçirilməsinin maliyyələşməsini təmin edir.

Bizim diqqət yetirdiyimiz başqa bir strateji istiqamət Azərbaycanda nəqliyyat qovşağının yaradılmasıdır. Bizim coğrafi mövqeyimiz əlverişlidir. Biz Asiya ilə Avropanın arasında yerləşirik və artıq sahib olduğumuz müasir nəqliyyat infrastrukturu ilə

böyük maraq cəlb edirik. Bizim hər növ təyyarə, o cümlədən ən böyük yük təyyarələri qəbul edə bilən 6 beynəlxalq aeroportumuz vardır. Biz artıq region üçün hava nəqliyyatı ilə yükdaşımalar qovşağına çevrilmişik. Bizim bütün qonşu ölkələrlə dəmir yolu əlaqələrimiz var. Azərbaycanın Gürcüstan vasitəsilə Türkiyə ilə dəmir yolu əlaqəsi bu il yaradılacaqdır. Bu, Xəzər dənizi, Azərbaycan vasitəsilə Çindən Avropaya dəhliz açır. Bu, yüklərin daşınması vaxtını 2 dəfə azaldır. İlk sınaq qatarı artıq bizim ərazimizdən keçib. Ötən il biz, həmçinin Hindistandan Pakistan, Fars körfəzi, İran, Azərbaycan, Rusiya, Şimali Avropaya uzanan Cənub–Şimal nəqliyyat dəhlizinin yaradılmasına çoxlu investisiya yatırmaqla, bizi İranla birləşdirən dəmir yolu xəttinin çatışmayan hissəsini tamamlamışıq. Biz bir neçə mühüm beynəlxalq toplantı və tədbir təşkil etmişik. Biz üzərimizə düşən hər şeyi etmişik. Beləliklə, bu dəhlizin çatışmayan hissəsi tikilən kimi, biz Hindistandan Şimali Avropaya yüklərin indiki 40–45 gün əvəzinə 14 günə daşınmasına imkan verən yeni marşrut açacağıq. Şimaldan Cənuba, Şərqdən Qərbə olan bu dəhlizlərin hər ikisi təkcə coğrafi mövqeyimiz sayəsində deyil, bizim siyasətimiz sayəsində Azərbaycan ərazisindən keçir.

İnfrastruktursuz coğrafiya çox da böyük məna kəsb etmir. Hazırda biz Xəzərdə yükaşırma qabiliyyəti 25 milyon ton olan ən böyük dəniz limanını tikirik. Birinci mərhələ bu il tamamlanacaqdır. Qeyd etdiyim kimi – 6 beynəlxalq aeroport, müasir yük gəmiləri, hər növ gəmi istehsal edə bilən Gəmiqayırma zavodu, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi və qonşularla çox yaxşı əlaqələr. Çünki qonşularla əməkdaşlıq etməsən, nəqliyyatda hədəflərə nail ola bilməzsən. Bizim bütün qonşularımızla – Şimal, Cənub, Qərb və Xəzər dənizindən o yana Şərq qonşularımızla əla siyasi və iqtisadi əlaqələrimiz var, bu həmçinin regionun sabitliyi üçün vacibdir. Daxildə sabitlik, daxildə inkişaf və sərhədlərimizdən kənarda proqnozlaşdırıla bilən vəziyyət, qonşularla yaxşı əlaqələr – bütün bunlar artıq baş verir. Bu reallıqdır. Başqa sözlə, bizim

siyasətimiz regionda yeni reallıq və ilk növbədə, qeyd etdiyim kimi, qonşularımızla yeni əməkdaşlıq formatı yaradıb.

Biz həmçinin təkcə ikitərəfli deyil, həm də artıq üçtərəfli regional əməkdaşlıq formatı yaratmışıq – Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–Türkiyə–İran və son olaraq, Azərbaycan–İran–Rusiya üçtərəfli iqtisadi və siyasi əməkdaşlığı. Bu, regionda çox müsbət siyasi və iqtisadi mühit yaradan üçtərəfli əməkdaşlıq formatıdır. Qeyd etdiyim kimi, «Cənub Qaz Dəhlizi» də əməkdaşlıq formatı baxımından çox cəlbedicidir. Çünki burada Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa İttifaqı üzvləri olan Yunanıstan, İtaliya, Bolqarıstan və həmçinin Albaniya iştirak edir. Artıq 3 ildir ki, hər il 7 ölkə əməkdaşlığı gücləndirmək məqsədilə dəhlizin Məşvərət Şurası üçün Bakıda toplaşır. Bu təkcə qazla bağlı deyil, bu biznesdir, investisiya, məşğulluq, proqnozlaşdırılma və əməkdaşlıqdır.

Sonda demək istərdim ki, qeyd etdiyim kimi, ötən ay Brüsseldə biz Avropa İttifaqı ilə Azərbaycanın yeni əməkdaşlıq prosesinə start vermişik. Azərbaycan Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıq sənədi imzalayıb. Bu o deməkdir ki, Avropa İttifaqı üzvlərinin üçdəbiri bizim strateji tərəfdaşımızdır. Təbiidir ki, hazırda biz Avropa Komissiyası ilə əlaqələrimizi daha da gücləndirəcək strateji tərəfdaşlıq razılaşması üzərində işləyirik.

Əlbəttə ki, əvvəldə dediyimə qayıdıram, bizim Fransa ilə əlaqələrimiz böyük əhəmiyyət kəsb edir. Bizim əla siyasi əlaqələrimiz var. Prezident Olland 2 dəfə Azərbaycanda səfərdə olub – 2014–2015-ci illərdə. Bundan əvvəl prezident Sarkozi Azərbaycanda səfərdə olub. Mən tez-tez sizin ölkənizdə səfərdə oluram. Mənim bugünkü və sabahkı rəsmi səfərim güclü əməkdaşlığımızın daha bir göstəricisidir və işgüzar əlaqələr bu əməkdaşlığın ayrılmaz hissəsidir.

* * *

*Görüşdə Azərbaycanda dəmir yolu, qlobal nəqliyyat layihələri, metro tikintisi, rabitə texnologiyaları, kosmik sənaye, hava*

*nəqliyyatı, energetika, neft-qaz sənayesi, maliyyə-bank sistemi, şəhər infrastrukturu layihələri, kənd təsərrüfatı, irriqasiya sistemi, turizm, mehmanxana sənayesi, bərpaolunan enerji və digər sahələrdə Azərbaycan ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və bu sahədə əlaqələrin inkişafına dair interaktiv fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev bu sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı suallara ətraflı cavab verdi.*

*Sonda «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Thales Air Systems SA» şirkəti arasında Anlaşma Memorandumu imzalandı.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 14-də Parisdə rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Prezident İlham Əliyev Parisin Veteranlar meydanında yerləşən Ordu Muzeyinə gəldi.*

*Dövlətimizin başçısını Fransanın Kənd Təsərrüfatı naziri, hökumətin sözçüsü Stefan Lö Fol qarşıladı.*

*Ordu Muzeyinin yerləşdiyi Veteranlar meydanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

*Azərbaycanın və Fransanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Fransanın Kənd Təsərrüfatı naziri, hökumətin sözçüsü Stefan Lö Fol Azərbaycan nümayəndə heyətinin üzvləri ilə görüşdü.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın martın 14-də Parisdə Yelisey sarayında görüşü olmuşdur.*

*Yelisey sarayının qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fransa prezidenti Fransua Olland Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından böyük əhəmiyyətə malik olduğu vurğulandı. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, kənd təsərrüfatı, infrastruktur, kosmik sənaye, turizm, bərpaolunan enerji, ətraf mühit sahələrində səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın iştirakı ilə martın 14-də Parisdə Azərbaycan–Fransa sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Fransa Respublikasının Ətraf Mühit, Enerji, Dəniz və İqlim üzrə Beynəlxalq Əlaqələr Nazirliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Maliyyə naziri Samir Şərifov və Fransanın Nəqliyyat, Dənizçilik və Balıqçılıq Məsələləri üzrə Dövlət katibi Alen Vidali imzaladılar.*

*«Fransanın İnkişaf Agentliyi ilə Azərbaycan Respublikası arasında Kredit Müqaviləsi»ni Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov və Fransanın İnkişaf Agentliyinin baş direktorunun müavini Filip Boduən imzaladılar.*

*«Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Fransa Respublikasının Baş naziri yanında Dövlət İslahatları və Asanlaşdırma üzrə Dövlət Katibliyi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov və Fransanın Baş naziri yanında Dövlət İslahatları və Asanlaşdırma məsələləri üzrə Dövlət katibi Jan-Vensan Plase imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Fransa Respublikasının İqtisadiy-*

*yat, Sənaye və Rəqəmsal Nazirliyi arasında innovasiya, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycanın Maliyyə naziri Samir Şərifov və Fransanın Sənaye, Rəqəmsal və İnnovasiyalar üzrə Dövlət katibi Kristof Sirüqü imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Fransa Respublikasının Mənzil və Davamlı Yaşayış Nazirliyi arasında Niyyət Protokolu»nu Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov və Fransanın Azərbaycandakı səfiri Orelia Buşez imzaladılar.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Fransua Olland martın 14-də Parisdə sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Fransa prezidenti Fransua Ollandın bəyanatı

Xanımlar və cənablar!

Mən prezident Əliyevi böyük məmnuniyyətlə qəbul edirəm. Biz münasibətlərimizin əsasını qoymuşuq. Digər kontekstdə – Dağlıq Qarabağ münaqişəsinin həlli yolunu tapmaq haqqında da danışdıq.

Bu gün prezident Əliyev Parisdədir və biz keçdiyimiz yollara, gələcəkdə görməli olduğumuz işlərə nəzər saldıq.

İlk növbədə deməliyəm ki, Azərbaycan ilə Fransa arasında bir çox sahələrdə, xüsusilə siyasi sahədə yaxşı əlaqələr vardır. Azərbaycanın regiondakı və regionun hüdudlarından kənardakı bütün tərəfdaşları ilə danışıqlar aparmaq sahəsindəki rolu bizə məlumdur. Bizim yeganə məqsədimiz sülhdür. Biz təkcə regionda deyil, eyni zamanda, qlobal səviyyədə təhlükəli olan və bizim də üzləşdiyimiz terrorizmə qarşı yollar axtarırıq.

İqtisadi kontekstdə deyə bilərəm ki, bizim şirkətlər artıq Azərbaycanda fəaliyyət göstərir. Çalışırıq ki, şirkətlərimiz bu ölkədə sərmayə yatırsınlar, kontraktlar imzalayaraq, əhalini la-

zımi təchizatla təmin etsinlər. Çox şadam ki, cənab Əliyevlə MEDEF şirkətləri arasında məhsuldar müzakirələr aparılıb. Bir çox kontraktların imzalanması barədə danışılıb, xüsusilə də «Thales International» şirkəti ilə.

Biz ətraf mühit sahəsində də əməkdaşlıq imkanlarından danışdıq. Paris Sazişinin həyata keçirilməsi üçün ekspertləri-mizin mübadiləsini aparmalıyıq və bir neçə ekoloji problem-ləri həll etmək lazımdır – infrastruktur, bərpaolunan enerji və ətraf mühit üçün faydalı olan bütün vasitələrlə. Biz dövlət xidməti sahəsində də iki ölkə arasında möhkəm əlaqələrin olmasını istəyirik ki, bunun sayəsində bütün sahələrdə innovasiyaları tətbiq edək. Azərbaycan ilə Fransa arasında belə bir konsepsiya var ki, yeni texnologiyalar – rəqəmsal texnologiya iqtisadi inkişafa xidmət etsin.

Mənim Bakıya səfərim zamanı biz təhsil sahəsində də əlaqələri genişləndirməyi müzakirə etmişdik. Bakıda Fransız məhəlləsində Fransız liseyinin əsasını qoyduq. Bu layihə müvəffəqiyyətli oldu. Bu gün artıq universitet səviyyəsində əməkdaşlığı inkişaf etdiririk və keçən ilin sentyabr ayında Azərbaycan–Fransız Universiteti açılıb. Bu da müvəffəqiyyətli olub, bir çox fransız universiteti artıq əməkdaşlıq edir.

İndi digər 2 mövzu barədə danışacağam. Birincisi, Azərbaycan ilə Avropa İttifaqı arasındakı danışıqların başlanmasıdır. Biz istəyirik qarşıya qoyulan məqsədlərə nail olunsun. Şərq Tərəfdaşlığı çərçivəsində Avropa bu danışıqlara başlayıb və Fransa bunu elə ilk gündən dəstəkləyir.

Sonra Dağlıq Qarabağ məsələsi var. Biz bu haqda danışdıq və bildirdik ki, mövcud status-kvo qəbuledilməzdir. Risklər var və biz bunu keçən ilin aprel ayında baş verən insidentdən də gördük.

Biz danışıqların yenidən bərpa olunmasını arzulayırıq. Minsk qrupunun həmsədri kimi, istəyirik ki, digər həmsədrlər – ABŞ və Rusiya da bu prosesə töhfə versin. Düşünürük ki, parametrlər bəllidir və uzun müddətdir davam edən bu münaqişənin həlli yolunu tapmaq mümkündür. Hesab edirik ki, hər dəfə sülhə töhfəmiz beynəlxalq səviyyədə həyata keçirmək

istədiyimiz fəaliyyətin və qurmaq istədiyimiz münasibətlərin məğzidir. Xüsusilə də gərginliklər olanda və hazırda Avropa ilə Türkiyə arasında olan vəziyyətdə. Bizim rolumuz aydın şəkildə bildirməkdir ki, nəyi qəbul edirik, nəyi qəbul etmirik. Avropa ilə Türkiyə arasında olan münasibətlərin sabitləşməsi üçün də töhfəmizi verməliyik. Digər mövzularda olduğu kimi, bu mövzu ilə də bağlı dialoqu təşviq etməliyik.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

İlk növbədə, cənab Prezident, dəvətə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən Fransada olmaqdan çox məmnunam. Siz Azərbaycanda 2 dəfə səfərdə olmusunuz. Bu əslində Fransa–Azərbaycan əlaqələrinin bir göstəricisidir.

Aramızda inkişafda olan siyasi dialoq çox fəal mərhələyə qədəm qoyub. Biz bu gün də bu dialoqu davam etdiririk. Görürük ki, bir çox məsələlərlə bağlı bizim mövqemiz üst-üstə düşür. Əlbəttə ki, güclü siyasi əlaqələr bütün sahələrdə inkişafda olan əlaqələrə də müsbət təsir göstərir.

Fransa Minsk qrupunun həmsədri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda öz səylərini göstərir. Biz bu səyləri yüksək qiymətləndiririk. Xüsusilə mən 2014-cü ilin sonlarında Sizin təşəbbüsünüzlə bu Yelisey sarayında Ermənistan prezidenti ilə keçirdiyim görüşü qeyd etmək istəyirəm. Çox konstruktiv və müsbət bir görüş idi. Əfsuslar olsun ki, bu görüşdən sonra danışıqlar prosesində müəyyən durğunluq müşahidə olundu. Biz istəyirik ki, məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə öz həllini tapsın. Ermənistan beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan torpaqlarını uzun illərdir ki, işğal edib. Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu işğal altında saxlayır. O bölgələrdən bütün Azərbaycan əhalisi, yüz minlərlə insan qovulubdur. Orada bütün infrastruktur və binalar dağıdılıb. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş

torpaqlara 2 dəfə səfər edib və öz məruzələrində bunu ifadə ediblər. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. O qətnamələr keçən əsrin 90-cı illərinin əvvəllərində qəbul edilibdir. Ermənistan bu qətnamələrin icrasına, görünür ki, meyilli deyil. Ona görə birinci mərhələ üçün hazırda tezliklə danışıqlar bərpa edilməlidir. Ermənistan danışıqlardan boyun qaçırmamalıdır. Cənab prezident Ollandın qeyd etdiyi kimi, status-kvo qəbuledilməzdir. Minsk qrupuna həmsədr olan ölkələrin prezidentləri – Fransa, Rusiya və Amerika prezidentləri bir neçə dəfə deyiblər ki, status-kvo qəbuledilməzdir. Biz də bunu deyirik və istəyirik ki, tezliklə status-kvo dəyişdirilsin və münaqişəyə son qoyulsun, bölgəmizdə sülh təmin edilsin və Azərbaycan köçkünləri öz doğma torpaqlarına qayıda bilsinlər.

Cənab Prezident qeyd etdi ki, bizim ikitərəfli gündəliyimiz çox genişdir. Dünən MEDEF-də olarkən bir daha böyük qarşılıqlı marağı gördüm. İqtisadi əlaqələrimiz inkişaf edir. Fransa şirkətləri Azərbaycan iqtisadiyyatına 2 milyard dollardan çox sərmayə qoyubdur və Azərbaycanda bir çox önəmli layihələrdə iştirak edirlər. Azərbaycanın kosmik sənayesinin inkişafında Fransa şirkətləri bizə dəstək olurlar. Şəhər nəqliyyatı, nəqliyyat, infrastruktur, su, içməli su layihələri, ekoloji layihələr və digər layihələr də icra edilir. Biz bu əməkdaşlıqdan çox məmnunuq. Fransa şirkətləri ilə keçirdiyim görüşlərdə onları bir daha inandırdım ki, Azərbaycanda xarici sərmayə üçün çox gözəl iqlim var. Eyni zamanda, Azərbaycanın iqtisadi potensialı artır. Beləliklə, daha çox Fransa şirkətləri Azərbaycanda uğurlu podratçı kimi fəaliyyət göstərə bilərlər.

Humanitar sahədə də əməkdaşlıq çox uğurludur. Cənab Prezident mədəniyyət və təhsil sahələrində bunu qeyd etdi. Sadəcə, bir məqamı vurğulamaq istəyirəm ki, bizim prezident Ollandla qəbul etdiyimiz qərarlardan dərhal sonra layihələr icra olunmağa başlanıb. Biz bunu məhz Fransa–Azərbaycan Universitetinin timsalında görürük. Qısa müddət ərzində – qərar qəbul olunduqdan bir neçə ay

sonra artıq universitet öz qapılarını tələbələrin üzünə açdı. Bu universitetə çox böyük maraq var.

Biz bütün başqa sahələrdə də çox fəal əməkdaşlıq edirik. Prezident qeyd etdi ki, Avropa İttifaqı–Azərbaycan əlaqələri böyük əhəmiyyət daşıyır. Keçən ay Avropa İttifaqı ilə yeni tərəfdaşlıq Sazişi ilə əlaqədar danışıqlara start verildi. Avropa İttifaqı ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır. Bizim məhsullarımızın böyük əksəriyyəti Avropaya ixrac edilir və eyni zamanda, Avropa İttifaqı Azərbaycanda ən böyük investordur. Biz müxtəlif layihələr icra edirik və onların arasında xüsusilə «Cənub Qaz Dəhlizi»ni qeyd etmək istəyirəm. Azərbaycanın təşəbbüsü ilə icra edilən bu strateji qaz kəməri Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verəcək. «Cənub Qaz Dəhlizi» layihəsinin ümumi dəyəri 40 milyard dollardır və Azərbaycan da həm sərmayədar, həm icraçı, həm də təşəbbüskar ölkə kimi, bu layihənin həyata keçirilməsində fəal iştirak edir.

Əminəm ki, Fransa–Azərbaycan əlaqələri gələcəkdə daha da möhkəmlənəcək. Bu gün apardığımız danışıqlar belə deməyə əsas verir. Biz çox istəyirik ki, əlaqələr daha da yüksək səviyyəyə qalxsın, beləliklə, Fransa və Azərbaycan xalqları bir-birinə daha da yaxın olsunlar.

Cənab Prezident, qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram.

## FRANSA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ KLOD BARTOLON İLƏ GÖRÜŞ

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Parisdə Fransa Respublikası Milli Assambleyasının Sədri Klod Bartolon ilə görüşmüşdür.*

*Milli Assambleyanın binasının önündə dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Milli Assambleyanın Sədri Klod Bartolon qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı və Milli Assambleyanın Sədri Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev və Milli Assambleyanın Sədri Klod Bartolon birgə foto çəkdirdilər.*

*Klod Bartolon Azərbaycan prezidenti İlham Əliyevi Milli Assambleyada görməkdən şad olduğunu bildirdi. O, bir neçə il əvvəl Milli Assambleyada xanım Mehriban Əliyeva ilə Azərbaycan–Fransa parlamentlərarası dostluq qrupunun sədri kimi görüşlərini xatırlatdı. Milli Assambleyanın Sədri ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdiyini, belə səfərlərin ikitərəfli əlaqələrə töhfə verdiyini bildirdi. Azərbaycan ilə Fransa arasında enerji sahəsində yaxşı əməkdaşlığın olduğunu deyən Klod Bartolon fransız şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə çox yaxşı fəaliyyət göstərdiklərini vurğuladı. Milli Assambleyanın Sədri Fransanın Er-*

*mənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışdığını qeyd etdi.*

*Prezident İlham Əliyev hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyətinin məmnunluq doğurduğunu, bunun ikitərəfli əlaqələrin inkişafına töhfə verdiyini bildirdi. Fransaya rəsmi səfəri çərçivəsində mühüm sənədlərin imzalanacağını deyən prezident İlham Əliyev MEDEF-in üzvləri ilə keçirdiyi görüşün səmərəli olduğunu, müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, kənd təsərrüfatı, infrastruktur, kosmik sənaye sahələrində əməkdaşlıqla bağlı faydalı müzakirələrin aparıldığını xatırlatdı. Fransız şirkətlərinin Azərbaycan ilə səmərəli əlaqələr qurduğunu deyən dövlətimizin başçısı Azərbaycanın da Fransa ilə bir çox sahələrdə yaxşı əməkdaşlıq etdiyini söylədi. Dövlətimizin başçısı Azərbaycanın «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi üçün səylə çalışdığını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında mədəni sahədə də çox güclü əməkdaşlığın olduğunu, Azərbaycanda Fransız liseyinin və Universitetinin fəaliyyət göstərdiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın 10-dan artıq regionunun Fransa regionları ilə qardaşlaşdığını vurğuladı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı məlumat verən Azərbaycan Prezidenti münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini diqqətə çatdırdı. 25 ildir ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin həlli ilə bağlı səylərinin nəticəsiz qaldığını qeyd edən prezident İlham Əliyev qurumun həmsədri kimi, Fransanın münaqişənin həllində daha fəal olacağına əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev Fransa Milli Assambleyasının Sədri Klod Bartolonu Azərbaycana səfərə dəvət etdi.*

## FRANSA RESPUBLİKASI SENATININ SƏDRİ JERAR LARŞE İLƏ GÖRÜŞ

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Parisdə Fransa Respublikası Senatının Sədri Jerar Larşe ilə görüşmüşdür.*

*Senatın binasının qarşısında dövlət başçımızın şərəfinə Fəxri qarovul və suvari dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Senatın Sədri Jerar Larşe qarşıladı.*

*Dövlətimizin başçısı və Senatın Sədri Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev və Senatın Sədri Jerar Larşe birgə foto çəkdirdilər.*

*Jerar Larşe Azərbaycan prezidenti İlham Əliyevi Fransa Senatında görməkdən məmnun olduğunu dedi. O belə səfərlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında münasibətlərin, eləcə də parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı bir neçə gün əvvəl Bakıda Fransa Senatının bir qrup üzvünü qəbul etdiyini, dünən isə MEDEF-in üzvləri ilə çox səmərəli görüş keçirdiyini xatırlatdı.*

*Jerar Larşe 2014-cü ildə Senatda xanım Mehriban Əliyeva ilə Azərbaycan–Fransa parlamentlərarası dostluq qrupunun sədri kimi görüşdüklərini xatırlatdı, bu görüşün böyük əhəmiy-*

*yət kəsb etdiyini vurğuladı. O belə görüşlərin ölkələrimiz arasında münasibətlərin inkişafına güclü təkan verdiyini, Azərbaycan–Fransa əlaqələrinin strateji istiqamətdə inkişaf etdiyini bildirdi.*

*Senatın Sədri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlərlə maraqlandı.*

*Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın qəti mövqeyini diqqətə çatdırdı. Münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda olan fransalı senatorların Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər etdiklərini və kəndin ermənilər tərəfindən necə dağıdılmasının şahidi olduqlarını vurğuladı. Azərbaycan Prezidenti gərginliyin mövcudluğunun regiona ziyan vurduğunu bildirdi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdən sonra prezident İlham Əliyev Senatın «Qızıl kitab»ını imzaladı.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLANDIN ADINDAN VERİLƏN ŞAM YEMƏYİ MƏRASİMİNDƏ İŞTİRAK

*Paris*

*14 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə martın 14-də Fransa Respublikasının Prezidenti Fransua Ollandın adından şam yeməyi verilmişdir.*

*Dövlət başçıları şam yeməyində çıxış etdilər.*

### Fransa prezidenti Fransua Ollandın çıxışı

Cənab Prezident!

Cənab nazirlər!

Hörmətli deputatlar!

Hörmətli xanımlar və cənablar!

Mən Sizi ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyini qeyd etdiyimiz bir dönəmdə qarşılayıram. Fransa 1992-ci il yanvarın 3-də Azərbaycanın müstəqilliyini tanımışdır. Beləliklə, həqiqətən də Fransa Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. Əslində mən «bərpa olunmuş müstəqilliyini» sözlərini söyləməli idim. Çünki 1918-ci il mayın 28-dən 1920-ci ilin aprelinə kimi artıq Azərbaycan Demokratik Respublikası mövcud olmuşdur və onun yaranması tarixi hər il Azərbaycanın Milli Günü kimi qeyd olunur. Biz bir neçə gün əvvəl Beynəlxalq Qadınlar Gününü qeyd etdiyimizə görə onu da xatırlatmaq istərdim ki,

Azərbaycan Demokratik Respublikası dünyada qadınlara səsvermə hüququnu verən ilk ölkələrdən olmuşdur.

Əslində xalqlarımız arasındakı əlaqələrin tarixi 25 illik diplomatik münasibətlərdən daha qədimdir. Bizim ölkələri birinci növbədə, ticarət əlaqələri yaxınlaşdırmışdır. Bu əlaqələrin ilk izlərinə IX və X əsrlərdən başlayaraq, Azərbaycandan keçən tarixi İpək yolunda rast gəlmək olar. XIII əsrdən isə bu yolu fransız səyyahları da keçməyə başlamışlar. Daha sonra Fransanın qədim tarixə malik olan şərqşünaslıq ənənəsi bizi mədəniyyət sahəsində də yaxınlaşdırmışdır. Bartelemi Derblo 1700-cü ildə işıq üzü görmüş məşhur «Şərq kitabxanası» əsərində sizin ədəbiyyatınızı ilk dəfə olaraq ölkəmizə tanıtmışdır. Amma ölkənizi fransızlara ən çox tanıdan 1858–1859-cu illərdə Qafqaza səfər etmiş və öz əsərində Bakını təsvir edən Aleksandr Düma olubdur. Artıq o vaxtdan ölkələrimiz arasında möhkəm əlaqələr qurulubdur və mən münasibətlərimizin istisnasız hər bir mövzuya toxunmağa imkan verən səmimiliyini və açıqlığını çox qiymətləndirirəm.

Cənab Prezident, Sizin ölkənizin əməkdaşlıq əlaqələrini şaxələndirmək, müstəqilliyini möhkəmləndirmək kimi böyük bir məqsədiniz var. Biz Azərbaycan və Avropa İttifaqı arasında yeni müqavilə perspektivini məhz bunu düşünərək dəstəklədik. Mən şadam ki, bununla bağlı danışıqlar artıq bir ay əvvəl Brüsseldə Sizin iştirakınızla başlayıb. Arzu edirəm ki, bu danışıqlar tez bir zamanda uğurla nəticələnsin. Fransa karbohidrogenlər sahəsində sizin əsas müştərilərinizdən biridir. Bu baxımdan mən Total və SOCAR arasında Abşeron neft yataqlarının istismarı üzrə uzun illərdən bəri davam edən əməkdaşlığı alqışlayıram.

Cənab Prezident, hörmətli birinci xanım! Fransanın bir çox şirkətləri Sizin ölkənin nəqliyyat, turizm, ekologiya, təhlükəsizlik, şəhərsalma və kənd təsərrüfatı sahələrində öz təcrübələri və bacarıqları ilə bölüşməyə hazırdır. Bildiyimə görə, Fransaya səfəriniz çərçivəsində Siz onların bir çoxu ilə artıq görüşmüsünüz və Sizin iştirakınızla bir çox müqavilələr imzalanıbdır.

Cənab Prezident, mən Sizin ölkənizə səfər etmişəm. Biz 2016-cı ilin sentyabr ayında açılan Azərbaycan–Fransız Universitetinin uğurundan qürur hissi duyuruq. Universitetin artıq 150 tələbəsi vardır. Mən Sizə bu layihənin reallaşmasına verdiyiniz şəxsi dəstəyinizə görə təşəkkür etmək istəyirəm. Bu, təhsilə və ölkənizdə 50 minə yaxın şagirdə tədris edilən və 3-cü xarici dil olan fransız dilinin geniş yayılmasına Sizin verdiyiniz əhəmiyyəti bir daha göstərir.

Mən həmçinin Fransanın və Azərbaycanın regionları arasında sayı get-gedə artan əməkdaşlıq proqramlarında iştirak edən rayon icra başçılarını və deputatları da alqışlayıram.

Mən nitqimi sülhün və sabitliyin vacibliyini qeyd edərək bitirmək istərdim. Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının tapılmasında irəliləmək vaxtı çoxdan çatıb. Danışıqlar artıq 23 ildir ki, davam edir və tərəflər heç bir həlledici nəticəyə gəlməyiblər. Status-kvodan pis bir şey yoxdur. 2016-cı ilin aprelində və bir neçə həftə bundan əvvəl baş verən toqquşmalar aydın göstərir ki, bu münaqişə heç vaxt tam dayanmamışdır.

Siz Fransanın ATƏT-in Minsk qrupunun rusiyalı və amerikalı həmsədrləri ilə birlikdə çıxış yolunun tapılmasına nə qədər səy göstərdiyini bilirsiniz. Bir neçə gün əvvəl Parisə səfər edən prezident Sarkisyana söylədiyim kimi, mən bunu Sizin qarşınızda da təkrar edirəm: bu münaqişə hərbi yolla həll edilə bilməz. Belə ki, Amerika və Rusiya ilə birlikdə Fransa öz vasitəçilik səylərini yorulmadan davam etdirəcək. Bu səylər hərbi yola əl atmamaq, dövlətlərin ərazi bütövlüyünün qorunması və öz müqəddəratını təyinetmə prinsiplərinə əsaslanır. Fransa bu çərçivədə hər bir təşəbbüs göstərməyə hazırdır.

Cənab Prezident, Sizin Parisə bu səfəriniz bizim üçün uzunmüddətli münasibətlərimizdə yeni bir mərhələnin baş-langıcıdır. Fransa Azərbaycan üçün hər zaman mübadilələri-mizi, xüsusilə də insan hüquqları sahəsində mübadilələri artırmaq, regionda təhlükəsiz və sabit bir gələcəyin olması naminə birgə işləmək istəyən açıq və səmimi bir tərəfdaş olaraq qalacaqdır.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, məni Fransaya rəsmi səfərə dəvət etdiyinizə, eləcə də səfər zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan ilə Fransa arasında siyasi əlaqələr yüksək səviyyədədir. Qarşılıqlı səfərlərimiz artıq ənənəyə çevrilibdir. Mən Azərbaycan Respublikasının Prezidenti kimi, Fransada dəfələrlə səfərdə olmuşam. Siz, cənab Prezident, 2 dəfə Bakıda səfərdə olmusunuz. Qarşılıqlı səfərlər onu göstərir ki, Fransa–Azərbaycan əlaqələri yüksək səviyyədədir. Aramızda çox fəal siyasi dialoq aparılır. Fransa Respublikasına bugünkü səfərimizin diplomatik münasibətlərimizin qurulmasının 25 illiyinə təsadüf etməsindən olduqca məmnunam.

Fransa regionun ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədridir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal edilib, etnik təmizləmə siyasəti aparılıb və 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Məclisi, ATƏT, NATO, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə ancaq beynəlxalq hüququn normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Status-kvo qəbuledilməzdir. Fransa digər həmsədrlər kimi, bu barədə dəfələrlə bəyanatlar verib. Təəssüflər olsun ki, Ermənistan buna məhəl qoymur və öz işğalçı siyasətindən əl çəkmir. Dağlıq

Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz.

Azərbaycan ilə Fransa arasında iqtisadi əlaqələr sürətlə inkişaf edir. Fransa şirkətləri bu günədək Azərbaycanda energetika, aviasiya, kosmik sənaye, nəqliyyat, su təchizatı, kənd təsərrüfatı və digər sahələrdə təxminən 2 milyard ABŞ dolları dəyərində 27 layihədə podratçı kimi iştirak edibdir. Enerji sahəsində əməkdaşlıq iqtisadi münasibətlərimizin əsas istiqamətlərindən biridir. Fransa şirkətləri Azərbaycanın neft-qaz sektorunda həyata keçirilən layihələrdə iştirak edir. Azərbaycanın təşəbbüsü ilə uğurla icra edilən «Cənub Qaz Dəhlizi» layihəsi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Humanitar sahədə də əməkdaşlığımız çox genişdir. Fransız dili uzun illərdir Azərbaycanda tədris olunur. Azərbaycanın 338 məktəbində 50 minə yaxın şagird fransız dilini öyrənir. Azərbaycanın 7 ali təhsil müəssisəsində fransız dili tədris edilir. Bakı Slavyan Universitetində Viktor Hüqo adına Fransız Dili və Ədəbiyyatı Mərkəzi, Azərbaycan Dillər Universitetində Fransa Mərkəzi yaradılıbdır. 3 il əvvəl biz Bakı – Fransız liseyini yaratdıq. Cənab Prezident, Sizinlə bu liseyin açılışında iştirak etmişik. Ötən il isə Azərbaycan–Fransız Universiteti fəaliyyətə başladı. Artıq bir neçə ildir ki, Fransada da Azərbaycan dili tədris olunmağa başlanıb. Eyni zamanda, mədəniyyət sahəsində də uğurlu əməkdaşlıq aparılır.

Fransa ilə Azərbaycanın regionları arasında da əməkdaşlıq inkişaf edir. Azərbaycanın 14 şəhəri ilə Fransanın 12 şəhəri və 1 vilayəti arasında müvafiq sənədlər imzalanıbdır.

Hörmətli cənab Prezident, dəvətə və göstərdiyiniz yüksək qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına rəsmi səfəri martın 15-də başa çatdı.*

*Azərbaycanın və Fransanın Dövlət bayraqlarının dalğalandığı Parisin Orli Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Fransanın yüksəkvəzifəli rəsmi şəxsləri yola saldılar.*

## «SU EHTİYATLARI, HİDROTEXNİKİ QURĞULAR VƏ ƏTRAF MÜHİT» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və konfransınızın işinə uğurlar arzu edirəm!

Dünyanın 40-a yaxın ölkəsindən, beynəlxalq təşkilatlardan və işgüzar dairələrdən nümayəndələrin qatılması bu mötəbər tədbirinizə diqqət və marağın yüksək olduğunu göstərir. Konfransınız Azərbaycan xalqının qədim ənənələrə malik milli bayramı olan və YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilən Novruz bayramı ərəfəsinə təsadüf edir. Bu isə tədbirinizdə iştirak etmək üçün ölkəmizə gələn qonaqların Azərbaycanın milli mədəniyyət nümunələri ilə yaxından tanış olmasına imkan yaradacaqdır.

Cari ildə dünyanın nadir su təchizatı qurğularından sayılan «Şollar–Bakı Su Qurğuları Kompleksi»nin istismara verilməsinin 100 illiyi tamam olur. Kəmər Bakı şəhəri və Abşeron yarımadasını içməli su ilə təmin edən ilk iri infrastruktur layihəsi olaraq, ötən dövr ərzində əhalinin həyatının yaxşılaşdırılmasına xidmət göstərmişdir. «Şollar–Bakı Su Qurğuları Kompleksi»nə daxil olan hidrotexniki qurğuların xüsusiyyətləri bu gün də mütəxəssislər tərəfindən öyrənilməkdədir. Bu baxımdan iştirakçısı olduğunuz konfransda su resursları və sudan səmərəli istifadə, içməli su təchizatı, tullantı sularının idarə edilməsi, iqlim dəyişiklikləri və ətraf mühit mövzularının müzakirə obyektinə çevrilməsi təqdirəlayiqdir.

İnanıram ki, konfrans çərçivəsində tanınmış alimlərin, mütəxəssislərin, su ilə əlaqəli beynəlxalq təşkilatların qaldırdığı məsələlərlə bağlı aparılacaq müzakirələr bu sahədə mövcud

problemlərin öyrənilməsi və onların həlli yollarının müəyyənləşdirilməsi baxımından səmərəli olacaq, təcrübə mübadiləsi və perspektiv əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2017-ci il*

**İRLANDİYA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2017-ci il*

## DÜNYA SU ŞURASI İDARƏ HEYƏTİNİN 61-ci TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən Dünya Su Şurası İdarə Heyətinin 61-ci toplantısının açılışı münasibətilə salamlayır, tədbirin işinə uğurlar arzulayıram.

Dünya Su Şurası İdarə Heyətinin növbəti toplantısının, eləcə də 8-ci Dünya Su Forumunun Beynəlxalq Aparıcı Komitəsinin 4-cü iclasının regionda ilk dəfə Bakı şəhərində təşkili təqdirəlayiq hadisə olub, beynəlxalq aləmdə Azərbaycana göstərilən yüksək etimadın nümunəsidir.

Hazırda dünyada qlobal su çatışmazlığı probleminin kəskinləşməsi su resurslarından səmərəli istifadə və su ehtiyatlarının inteqrasiyalı idarə olunmasını, transsərhəd su resurslarının istifadəsi və qorunmasında birgə əməkdaşlığı zəruri edir. Ölkəmiz bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atıbdır.

Azərbaycanda əhalinin keyfiyyətli içməli su ilə davamlı təmin edilməsi, insanlara göstərilən sanitariya xidmətlərinin yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirilir. Yeni texnologiyalara əsaslanmaqla icra olunan içməli su və kanalizasiya layihələri əhalinin sağlamlığının qorunmasına, həmçinin ekoloji təhlükəsizliyin təmin edilməsinə xidmət göstərir.

Ölkəmizin dünya su sektorunda nüfuzlu təşkilatlardan sayılan Dünya Su Şurasında təmsil olunması bu sahədə əlaqələrin genişləndirilməsi və qarşıya çıxa biləcək problemlərin birgə

səylərlə aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümidvaram ki, toplantı beynəlxalq miqyasda su ehtiyatlarından, transsərhəd su mənbələrindən səmərəli və inteqrasiyalı istifadə ilə bağlı aktual məsələlərin birgə həllinə, qarşılıqlı faydalı əməkdaşlığa və perspektiv fəaliyyət istiqamətlərinin müəyyənləşməsinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2017-ci il*

## «İSLAM HƏMRƏYLİYİ – ZAMANIN ÇAĞIRIŞI» BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – «İslam həmrəyliyi – zamanın çağırışı» mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, ən xoş arzu və diləklərimi yetirirəm.

Avropa ilə Asiyanın qovuşuğunda yerləşən qədim Azərbaycan torpağında müxtəlif dinlərə, ayrı-ayrı mədəniyyətlərə mənsub insanlar tarixboyu əmin-amanlıq şəraitində yaşamışdır. Azərbaycan xalqı bu gün də özünün dərin tarixi köklərə malik zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, islamdaxili və konfessiyalararası həmrəyliyə öz töhfələrini verir. Buna görə də zamanın çağırışlarına səs verən islam həmrəyliyinə həsr olunmuş konfransın keçirilmə məkanının dəqiq seçilməsi şübhəsizdir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, 2016-cı il ölkəmizdə «Multikulturalizm ili» elan olunduqdan sonra xalqımız öz tarixi mənəvi ənənələrinə sadiqliyini böyük coşqunluqla bir daha nümayiş etdirdi. Bu münasibətlə Azərbaycanda və xaricdə bir sıra əhəmiyyətli və faydalı tədbirlər keçirildi. Dünyada multikulturalizmin Azərbaycan modelinə xüsusi maraq və diqqət yarandı. Bütün bunlar ona gətirdi ki, ötən ilin məntiqi davamı olaraq, 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edildi.

Müasir dünyamızda islam həmrəyliyinin vacibliyi ilk olaraq islam daxilindəki həmahəngliyin bərqərar edilməsində özünü göstərir. Bu, müxtəlif məzhəblər arasında dini anlaşılmazlıqların elmi müstəvidə aradan qaldırılması, bütün islam ölkələri arasında qarşılıqlı hörmət və etibara əsaslanan münasibətlərin

qurulmasıdır. Bununla yanaşı, islam həmrəyliyi dedikdə, həmçinin islam ilə digər dinlər arasında harmoniyanın yaranması da nəzərdə tutulur. Buna nail olmaq əslində dünya dinləri arasında ahəngdar və bir-birinə inamlı münasibətin daha da möhkəmlənməsinə, islam ölkələri ilə digər ölkələr arasında bəşəri dəyərlərə əsaslanan xoş münasibətlərin inkişafına nail olmaq deməkdir. Bunun üçün çox işlər görmək, real addımlar atmaq lazımdır. Sizin konfransınız Azərbaycanda islam həmrəyliyi ilə əlaqədar bu istiqamətdə görüləcək işlərin artıq başlanmasına ciddi bir işarədir. Bu gün islama və digər konfessiyalara mənsub görkəmli alimlərin və din xadimlərinin dinlərarası mühüm aktual məsələləri belə yüksək səviyyədə müzakirə etmələri özünün müstəsna elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları, eyni zamanda, dünya dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xidmət etməlidir. Ümidvaram ki, konfrans nəinki islam aləmində, bütün dünyada həmrəylik və dostluğun daha da möhkəmlənməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu nəcib fəaliyyətinizdə bir olan uca Allahdan sizə könül xoşluğu, cansağlığı və konfransınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 mart 2017-ci il*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN İDARƏ HEYƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri – Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqa və İsgəndəriyyə kitabxanasının direktoru İsmail Serageldinin rəhbərlik etdikləri, Serbiyanın sabiq prezidenti Boris Tadiçin, Bolqarıstanın sabiq prezidenti Peter Stoyanovun, Xorvatiya-nın sabiq prezidenti İvo Yosipoviçin, Rumıniyanın sabiq prezidenti Emil Konstantineskunun, Bosniya və Herseqovi-nanın sabiq Baş naziri Zlatko Laqumdciyanın, Ərəb Liqasının sabiq baş katibi Əmr Musanın və YUNESKO-nun Xoşmə-ramlı səfiri Marianna Vardinoyannisin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları salamlayan prezident İlham Əliyev mühüm beynəlxalq tədbir – V Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə gəldiklərinə görə onlara təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq beşinci dəfədir bu Foruma ev sahibliyi edəcəkdir. Prezident İlham Əliyev bu mötəbər tədbirin müzakirələr üçün maraqlı gündəliyinin olduğunu qeyd etdi. Forum iştirakçıları arasında çox tanınmış şəxslərin olduğunu və həmin şəxslərin sayının ildən-ilə artdığını deyən dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirdi.*

*Nümayəndə heyətinə göstərilən diqqətə görə prezident İlham Əliyevə təşəkkürünü çatdıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-*

*Freyberqa qeyd etdi ki, əsası 5 il əvvəl qoyulan Bakı Forumu böyük uğurlar qazanıb. Qonaq dedi ki, Azərbaycan dövlətinin başçısının qeyd etdiyi kimi, Bakı Forumuna maraq ildən-ilə artır. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini dəstəklədiyinə görə dövlətimizin başçısına təşəkkürünü çatdırdı. «Biz Nizami Gəncəvinin və Azərbaycanın dostlarıyıq, işimizi həvəslə görürük» – deyən Vayra Vike-Freyberqa bundan sonra da səylərini əsirgəməyəcəklərini söylədi. Mərkəzin həmsədri dünyanın müxtəlif ölkələrini təmsil edən nüfuzlu qonaqların burada iştirak etdiklərini və Forumun səmərəli dialoqa hərtərəfli imkan yaradacağını vurğuladı.*

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mər-kəzinin nümayəndə heyətinin səy və təşəbbüslərini yüksək qiymətləndirdi, onların fəaliyyətinin Qlobal Bakı Forumu kimi geniş beynəlxalq toplantının keçirilməsinə imkan yaratdığını qeyd etdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizə və bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Biz Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Sivilizasiyalararası və dinlərarası dialoqun, multikulturalizm dəyərlərinin qoru-nub saxlanılması və daim inkişaf etdirilməsi yolunda fəal və səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

İnanıram ki, Azərbaycan ilə Vatikan arasında ümumbəşəri dəyərlərin təntənəsi naminə uğurla davam edən əmək-daşlıq, birgə atdığımız addımlar bundan sonra da dünyada sülhün və əmin-amanlığın, insanlar arasında qarşılıqlı anlaşma və həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali mənəvi missiyanızda uğurlar, bütün həmməzhəblərinizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2017-ci il*

## V QLOBAL BAKI FORUMUNUN AÇILIŞI MƏRASİMİ

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 16-da «Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar» mövzusuna həsr olunan V Qlobal Bakı Forumunun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*V Qlobal Bakı Forumunda 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər iştirak edirlər.*

*Forumun nüfuzlu qonaqları arasında Latviya prezidenti Raymonds Veyonis, Makedoniya prezidenti Georgi İvanov, Albaniya prezidenti Buyar Nişani, Monteneqro prezidenti Filip Vuyanoviç, Gürcüstan prezidenti Giorgi Marqvelaşvili, Səudiyyə Ərəbistanı şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin sədri Turki əl-Faysal da vardır. İki gün davam edəcək forum Azərbaycan həqiqətlərinin təbliğində və ölkəmizə yeni dostlar qazandırmaqda, lobbi quruculuğunda əhəmiyyətli rola malikdir. Qlobal Bakı Forumu Azərbaycanı tanıtmaq, ölkəmizlə bağlı həqiqətləri dünyaya çatdırmaq üçün çox mühüm və əlverişli platformadır.*

*Misirin İsgəndəriyyə kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin prezident İlham Əliyevə bu Foruma ev sahibliyi etdiyinə görə təşəkkürünü bildirdi.*

**İsmail Serageldin:** Zati-aliləri, xanımlar və cənablar! Bakıya xoş gəlmisiniz! Mənim adım İsmail Serageldindir. Mən

zati-aliləri prezident İlham Əliyevin rəhbərliyi ilə bizə onun verdiyi ilham mənbəyi, dəstəyi və baxışının bir təcəssümü olaraq keçirilən bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin həmsədriyəm. İşimizə başlamaq üçün bizə prezident İlham Əliyevin nitqini dinləmək şərəfi nəsib olmuşdur. Cənab Prezident, buyurun.

*Dövlətimizin başçısı V Qlobal Bakı Forumunun açılışında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Xanımlar və cənablar!

Hörmətli dostlar!

Əvvəlcə, bu gün bizimlə birlikdə olduqlarına görə Forumun bütün iştirakçılarına təşəkkürümü bildirmək istəyirəm. V Bakı Beynəlxalq Forumu artıq ənənəvi foruma çevrilib. Artıq 5-ci dəfədir ki, biz bu mühüm beynəlxalq tədbiri təşkil edirik. Fürsətdən istifadə edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, onun İdarə Heyəti və həmsədrlərinə – xanım Freyberqaya və cənab Serageldinə minnətdarlığımı ifadə edirəm. Onların əhəmiyyətli fəaliyyəti və verdikləri töhfə nəticəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal beynəlxalq təsisata çevrilibdir. O, olduqca fəal və səmərəli fəaliyyət göstərir və bugünkü forum həmin fəaliyyətin bir istiqamətidir.

Mən burada 50-dən artıq ölkəni təmsil edən iştirakçıları salamlayıram. Ümumi qonaqlarımızın sayı isə 260 nəfərdir. Hər bir beynəlxalq forumun əhəmiyyəti və gələcəkdə qərarların qəbul edilməsi prosesinə təsiri müzakirə olunan mövzularından, daha çox isə kimlərin iştirak etməsindən asılıdır. Burada iştirakçılar arasında 40-dan çox fəaliyyətdə olan və sabiq prezident, baş nazir və parlament sədrləri vardır.

Bu bizim toplantının yüksək səviyyəsini və bu günlərdə Bakıda keçirilən bu tədbirdə maraqlı müzakirələrin aparılmasını və dəyərli fikirlərin səsləndirilməsini əvvəlcədən müəyyən edir. Azərbaycan artıq bir çox mühüm beynəlxalq tədbirlərə

ev sahibliyi edib. Bu tədbirlər beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, Azərbaycan müstəqil ölkə olaraq, nisbətən gənc dövlətdir. Biz ötən il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik. Bizim beynəlxalq və regional fəaliyyətimiz, bütün regiona müsbət təsir göstərən təşəbbüskarı olduğumuz müxtəlif layihələr ölkəmizin dünyaya təqdim edilməsi üsullarından biridir. Əlbəttə, Bakı Qlobal Forumu kimi, böyük beynəlxalq tədbirlər də həmin fəaliyyətimizin bir hissəsidir.

Təəssüf ki, Bakıda sonuncu görüşümüzdən bəri dünya heç də daha təhlükəsiz olmayıb. Hələ də regionumuzda həll olunmamış münaqişə, qarşıdurma və müharibələr var. Bu isə olduqca təhlükəli tendensiyadır.

Azərbaycan yerləşdiyi regionda sabitləşdirici amil rolunu oynayır. Bizim təşəbbüslərimiz regional əməkdaşlıq, proqnozlaşdırılabilmə və regionumuzda təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə yönəldilib. Lakin biz adada yaşamırıq və sərhədlərimizdən kənarda, bilavasitə qonşuluğumuzda mövcud olan vəziyyət bizdə narahatlıq doğurur.

Qeyd etdiyim kimi, biz hələ də çox ciddi çağırışlar, müharibə, münaqişə və miqrant böhranı ilə üzləşirik. Bu, böyük bir humanitar fəlakətdir. Eyni zamanda, miqrant böhranı, mən deyərdim ki, dünyanın müxtəlif regionları arasında anlaşmanın azalmasına səbəb olur. Çünki o, miqrantların üz tutduğu ölkələrin əhalisi üçün müəyyən narahatlıq yaradır. Ancaq bu, yalnız baş verən hadisələrin nəticəsidir. Həmin miqrant böhranının əsas səbəbi ölkələrin daxili işlərinə kənardan siyasi və hərbi müdaxilədir.

5–10 il bundan əvvəl miqrant böhranı baş vermirdi. Bu, yaxın keçmişdə məhz qeyd etdiyim səbəblər üzündən başlandı. Hesab edirəm ki, bu, Yaxın Şərq dövlətləri ilə bağlı düşünülməmiş siyasətin nəticəsidir.

Bu isə öz növbəsində, miqrantların üz tutduğu ölkələrdə ilkin olaraq cəmiyyətin, daha sonra isə siyasi elitanın radikal-

laşması ilə nəticələnir. Beləliklə, təəssüflər olsun ki, seçki kampaniyaları zamanı ən cəlbedici siyasi şüarlar milliyyətçi və antimiqrant ruhuna çox yaxındır. Biz son aylar və illər ərzində bunun şahidi oluruq və bu, artıq bir tendensiyaya çevrilib ki, həmin tendensiya vəziyyətin inkişafını əvvəlcədən müəyyən edir.

Bu səbəbdən hesab edirəm ki, qlobal gündəlikdə duran mühüm məsələlərdən biri həmin tendensiyanın istiqamətini dəyişdirməkdir. Özgələşdirmə və siyasi qarşıdurma, habelə sivilizasiyalararası dialoqun inkar olunması əvəzinə, daha çox əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmətə üstünlük verilməlidir.

Azərbaycanın yerləşdiyi coğrafiya ölkəmizin regionda oynadığı rolu bir növ əvvəlcədən müəyyən edir və biz mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa töhfəmizi veririk. Azərbaycan özü də erməni təcavüzü, ərazimizin işğalı nəticəsində müharibə və humanitar fəlakətdən əziyyət çəkir. Bu işğal 20 ildən artıqdır ki, davam edir və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi – Dağlıq Qarabağ və ətraf 7 rayon erməni işğalı altındadır.

Orada bütün infrastruktur dağıdılıb, bütün tarixi və dini abidələrimiz isə məhv edilibdir. ATƏT oraya faktaraşdırıcı 2 missiya çərçivəsində nümayəndə və müşahidəçi göndərib. Onların hesabatlarında aydın bildirilir ki, orada bütün tikililər, Azərbaycanın tarixi irsi tamamilə məhv edilibdir.

Bu münaqişə Ermənistanın öz qonşusuna qarşı təcavüzünün, habelə separatçılığın və müharibənin nəticəsidir. 1 milyondan çox azərbaycanlı bundan əziyyət çəkir, qaçqın və məcburi köçkünə çevrilibdir. Bu rəqəm isə dünyada adam-başına düşən qaçqın sayına görə ən yüksək göstəricilərdəndir. Bu gün Azərbaycan əhalisinin sayı 10 milyona yaxındır. Münaqişə başlananda bu rəqəm 8 milyona bərabər idi. Yəni 8 milyonun 1 milyonu ötən əsrin 90-cı illərinin əvvəllərində yurd-yuvasından məhrum edildi. Bu, gənc bir dövlət üçün çox ciddi siyasi, iqtisadi və sosial problem idi. Çünki həmin vaxt Azərbaycan yoxsul ölkə idi, iqtisadi xaos hökm sürürdü və gələcək iqtisadi

inkişaf üçün vasitələr mövcud deyildi. Bundan əlavə isə işğal edilmiş ərazilərdən gəlmiş 1 milyondan çox insanın ehtiyaclarını təmin etmək lazım idi.

Əlbəttə, o zamandan bəri Azərbaycan inkişaf edib və biz soydaşlarımız üçün lazımi yaşayış şəraiti yaratmaq iqtidarındayıq. Ancaq münaqişə həll olunmamış qalır.

Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan qoşunlarının işğal edilmiş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamə və qərarlar qəbul ediblər. Dünyanın ən ali beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və burada sitat gətirmək istəyirəm, «dərhal və qeyd-şərtsiz olaraq Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması» tələb olunur.

Lakin həmin qətnamələr kağız üzərində qalır, Ermənistan onlara məhəl qoymur və onların qəbul edilməsindən artıq 25 il keçib. Bütün bunlar bir tərəfdən, beynəlxalq qurumlar, xüsusilə də BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən qərarların icrası mexanizminin mövcud olmamasını nümayiş etdirir. Digər tərəfdən, bu bir daha ardıcıl mövqenin olmamasını göstərir. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qərarları bir neçə gün, hətta bir neçə saat ərzində icra olunur. Bizə gəldikdə isə artıq 25 il keçir və hələ də irəliləyiş yoxdur, qaçqın və məcburi köçkünlərimiz hələ də doğma torpaqlarına qayıda bilmirlər.

Biz bunu ikili standartlar siyasəti hesab edirik. Təəssüflər olsun, ümumilikdə bu gün dünyada baş verənlər onu nüma-yiş etdirir ki, ikili standartlar siyasəti beynəlxalq münasibət-lərdə standart bir yanaşmaya çevrilib. Beynəlxalq hüquq və normalar müxtəlif dövlətlər tərəfindən öz istəkləri və cari siyasi maraqlarına uyğun təhrif olunur.

Hesab edirəm ki, BMT çərçivəsində islahatlar və ümu-miyyətlə, beynəlxalq təşkilatların qərarlarının icrası barə-sində danışarkən məhz bu məsələyə diqqət yetirməyimiz çox vacibdir. Qərarlar qəbul olunub icra edilmirsə, müəyyən çətin vəziyyətdə olan və əziyyət çəkən ölkənin vəziyyəti daha da pisləşir. Ancaq

bu həm də dünya üçün bir təhlükədir. Bu o deməkdir ki, ərazi işğalı məqsədilə istənilən ölkə real vəziy-yəti zorla dəyişərək, milyonlarla insana əzab verə, nəticədə isə cəzasız qala bilər.

Bu səbəbdən biz dəfələrlə bu məsələni müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar qarşısında qaldırmışıq ki, bu təcavüz, işğal və dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş hərbi cinayətlərə görə Ermənistana sanksiyalar tətbiq edilməlidir. O zaman bu, ədalət və vahid standartın göstəricisi olacaqdır.

Bəzi hallarda müəyyən ölkələr sanksiyalara məruz qalır, digər hallarda isə bu baş vermir. Münaqişənin həlli beynəlxalq hüquqa əsaslanmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli və əhalimiz doğma torpaqlarına qayıtmaq hüququna malik olmalıdır. Bu, region üçün təhlükədir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi sülh və sabitliyə daimi təhlükədir. Biz münaqişənin sülh yolu ilə həllini arzulayırıq. Ancaq biz onun real həllini istəyirik. Ermənistan isə status-kvonun saxlanılmasını istəyir və vasitəçilərin – BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvü olan Fransa, Rusiya və ABŞ-ın mühüm bəyanatlarına məhəl qoymur. Həmin dövlətlərin rəhbərləri dəfələrlə status-kvonun qəbuledilməz və onun dəyişməli olduğunu bəyan etmişlər. Status-kvonun dəyişməsi isə işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi prosesinə başlanılması deməkdir.

Bu böyük çətinliyə və qeyd etdiyim kimi, humanitar böhrana baxmayaraq, Azərbaycanın inkişafı dinamik və dayanıqlıdır. Bizim ölkənin iqtisadi transformasiya sahəsində böyük nailiyyətləri var və 25 illik azadlıq və müstəqillik dövrü nümayiş etdirir ki, Azərbaycan xalqı yalnız müstəqil olaraq yaşamağı və gələcəyini qurmağı deyil, müxtəlif sahələrdə uğur qazanmağı da bacarır.

Azərbaycanın xüsusilə də son illər ərzindəki iqtisadi göstəricilərinə nəzər salsanız görərsiniz ki, bizim iqtisadi sahədəki nailiyyətlərimiz onu göstərir ki, güclü siyasi iradə, səfərbər olunmuş cəmiyyət, iqtidar və xalq arasında birlik mövcud olduğu halda, hətta münaqişə, işğal və o qədər də sadə olmayan

geosiyasi mühit şəraitində belə, bir çox nailiyyətlər əldə etmək mümkündür.

Bizim iqtisadiyyatımız dayanıqlı inkişaf nümayiş etdirir. Xarici borcumuzun səviyyəsi olduqca aşağıdır – ümumi daxili məhsulun 20 faizi qədərdir. Bu da bugünkü dünya üçün bir az qeyri-adidir. Yəni biz həmişə qazandığımızdan az xərcləməyə çalışmışıq və bizim xarici valyuta ehtiyatımız xarici borcumuzdan 5 dəfə artıqdır.

Beləliklə, Azərbaycan müxtəlif layihələr üçün böyük həcmdə maliyyə vəsaiti cəlb edə bilir. Lakin biz xarici borcun səviyyəsini artırmamaq üçün daxili resurslarımızdan istifadə etməyə çalışırıq. Xarici borcun səviyyəsinin aşağı olmasına baxmayaraq, bizim hədəfimiz onu daha da azaltmaqdır.

Regionların geniş inkişaf proqramı sayəsində biz son 14 il ərzində yoxsulluğun səviyyəsini 10 dəfə azaltmağa müvəffəq olmuşuq. Bu gün bu göstərici 6 faiz səviyyəsindədir. İşsizlik də təqribən 5 faiz səviyyəsindədir.

Azərbaycan iqtisadiyyatının neftin qiymətinin kəskin şəkildə aşağı düşməsindən əziyyət çəkməsinə baxmayaraq, həmin vəziyyət bizi iqtisadi islahatların icrası sahəsində daha fəal olmağa məcbur etmişdir və biz qısa zaman ərzində bütün çətinliklərin öhdəsindən gəlməyi bacardıq.

Təsəvvür edin ki, gəlirləriniz 3-4 dəfə azalırsa, bu, istənilən dövlət, istənilən ailə üçün böyük çağırışdır. Çünki ölkələr və insanlar müəyyən həyat tərzinə və inkişaf səviyyəsinə öyrəşir və birdən-birə gəlir kəskin şəkildə, 3-4 dəfə azalır. Yəni bu, hökumətimiz üçün ciddi bir çağırışdır. Lakin hesab edirəm ki, çətinliklərə baxmayaraq, biz bunun öhdəsindən gələ bildik, halbuki müəyyən çətinliklər qalmaqdadır.

Düşünürəm ki, neftin qiymətinin aşağı olması şəraitinə uyğunlaşma artıq geridə qalıb və 2017-ci il iqtisadi artım ili olacaqdır. Hətta ötən il, son 14 il ərzində ilk dəfə üzləşdiyi-miz iqtisadi tənəzzül zamanı iqtisadiyyatımızın qeyri-neft göstəricilərinə nəzər salsanız, artımın şahidi ola bilərsiniz.

Ötən il ərzində qeyri-neft sektorumuz 5 faiz, kənd təsərrü-fatımız isə 2 faizdən çox artıbdır. Cari ilin ilk 2 ayı ərzində yenə də qeyri-neft sektorunda 5 faiz, kənd təsərrüfatında isə 3 faiz artım müşahidə edilir. Ümumi daxili məhsul artmağa başlayıbdır və bu ilin ilk 2 ayı ərzində qeyri-neft ixracımız təqribən 50 faiz artıbdır.

Beləliklə, uzun illər həyata keçirilən iqtisadiyyatın şaxə-ləndirilməsi siyasəti artıq öz bəhrəsini verir. Qarşıdan gələn illər üçün hədəfimiz ixracın şaxələndirilməsidir. Bizim yeni bazarlara ehtiyacımız var. Əlbəttə, yeni bazarlara çıxış əldə etmək üçün biz ilk növbədə, cəlbedici bazar hesab etdiyimiz həmin dövlətlərlə yaxşı siyasi əlaqələrə malik olmalıyıq.

Xarici siyasət sahəsində Azərbaycan regionda və dünyada güclü mövqeyə malikdir. Beynəlxalq ictimaiyyət bizə hör-mətlə yanaşır. Çünki biz müstəqil siyasət aparırıq və hər zaman vədlərimizə sadiqik. Yəni biz etibarlı tərəfdaşıq və bütün qonşular ilə yaxşı, eyni zamanda, praqmatik əlaqələr qura bilmişik. Bu əlaqələr tarix, dostluq, qarşılıqlı maraq, qarşılıqlı hörmət, habelə bir-birinin işlərinə müdaxilə etməmək prinsiplərinə söykənir.

Regional əməkdaşlıq və bütün qonşularımız ilə münasi-bətlərimiz bizim üçün mühüm əhəmiyyət kəsb edir. Məncə bunu hər bir ölkəyə şamil etmək olar. Bir dövlətin qonşusu ilə hər hansı bir problemi varsa, burada hər 2 tərəf əziyyət çəkir. Bu səbəbdən Ermənistan istisna olmaqla, bizim bütün qonşularımız ilə çox yaxşı əlaqələrimiz var. Biz çoxlu sayda enerji, nəqliyyat, ticarət və mədəniyyət layihələri həyata keçiririk ki, onlar xalqlarımızı daha da yaxınlaşdırır.

Biz Avropa İttifaqına üzv olan dövlətlərlə sıx əlaqələr yaratmışıq. Onların 9-u, yəni üçdəbiri ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb və ya qəbul edilib. Hesab edirəm ki, bunun özü də böyük nailiyyətdir. Bir çox Avropa ölkəsi Azərbaycanı strateji tərəfdaş kimi qəbul edir. Bu, yalnız enerji ehtiyatlarına görə deyil. Bizim əməkdaşlığımız daha geniş sahələri əhatə edir. Ötən ay biz Avropa Komissiyası

ilə yeni sazişin müzakirəsinə başlamışıq. Bu, tərəfdaşlıq Sazişi olacaqdır və fəaliyyətimizin bir çox sahələrini əhatə edəcəkdir.

Belə bir siyasət bəzən tarazlaşdırılmış siyasət adlandırılır. Bəlkə də bu, məqbul termindir. Hesab edirəm ki, bu, dövlətimizin milli maraqları üzərində qurulan siyasətdir. Milli maraqlarımız isə onu diktə edir ki, biz münasibətlərimizi real yanaşma üzərində qurmalıyıq və əlçatmaz hədəflər müəyyən etməməliyik ki, sonradan məyus olmayaq.

Bunu Avropa İttifaqı ilə əlaqələrimizə də şamil etmək olar. Biz olduqca real hədəflər müəyyən etmişik və müzakirələr zamanı görürük ki, həmkarlarımız da artıq Azərbay-canla bağlı real yanaşma nümayiş etdirirlər. Yəni Avropa İttifaqı ilə Assosiasiya Sazişini imzalamaq əvəzinə – hansı ki, səmimi danışsaq, heç bir real nəticə verə biləcək müqavilə deyildi – biz fərqli yol ilə getməyə və tərəfdaşlıq Sazişinin işlənib hazırlanmasına üstünlük verdik. Bunu həm də strateji tərəfdaşlıq Sazişi adlandırmaq olar ki, o, balanslı, qarşılıqlı faydalı və praktik nəticə verə bilən sənəd olacaqdır.

Çünki nəticəsiz siyasət populizmdir. Bizim isə bu işlərə itirəcək vaxtımız yoxdur. Biz siyasətimizi real vəziyyətə uyğun qururuq. Bəzən biz vəziyyəti dəyişməyə müvəffəq oluruq. Azərbaycan həm də bəzi dövlətlər arasında problemlərin olduğu vaxtda kommunikasiya baxımından sabitləşdirici amil rolunu oynayır.

Bu çox yaxın keçmişdə də baş vermişdir. Qonşularımız arasında anlaşılmazlıq və müəyyən toqquşma olduğu zaman biz həmişə öz töhfəmizi verməyə çalışırıq. Azərbaycan isə öz siyasəti baxımından, sözün əsl mənasında, müstəqil dövlət hesab edildiyindən, biz uğur qazana bilmişik. Ötən ay burada – Bakıda baş vermiş bir hadisəni də qeyd etmək istərdim. ABŞ-ın yeni administrasiyasının hərbi komandanlığı, yəni ABŞ ordusunun Baş qərargah rəisi ilə Rusiyanın Baş qərargah rəisi ilk dəfə olaraq Bakıda görüşdülər. Azərbaycanın bu görüş üçün məkan kimi seçilməsi bir daha mənim sözlərimin təsdiqidir. Halbuki bu bi-

zim təşəbbüsümüz deyildi və hər iki tərəf bizə bununla bağlı müraciət etmişdir.

Azərbaycan etibarlı tərəfdaş hesab olunur. Böyük dövlət-lər ona hörmətlə yanaşır və onun müstəqil siyasəti artıq bir reallıqdır. Bu, yüksək qiymətləndirilir. Çünki tərəfdaşın hər zaman proqnozlaşdırıla bilən olması satellit ölkə olmasından yaxşıdır. Bizim qonşuluğumuzda satellit ölkə var. Ancaq bu, müvəffəqiyyət və hörmət gətirmir.

Gələcəkdə də xarici siyasətə gəldikdə bizim siyasətimiz praqmatizm, milli maraqlar və təhlükəsizliyimiz üzərində qurulacaq. Biz terrorçuluqla mübarizədə çox fəal iştirak edirik. Azərbaycan 2001-ci ildən Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edən etibarlı tərəfdaşdır. İlk gündən etibarən orada bizim hərbçilərimiz xidmət edir.

Biz çox vacib olan «Şimal Paylaşma Şəbəkəsi» adlanan nəqliyyat şəbəkəsinin də fəaliyyətini təmin edirik. Bu istiqamətdə NATO uçuşları üçün hava məkanımızı təqdim etmişik. Bu isə sülhməramlı əməliyyatlara mühüm töhfədir. Azərbaycan NATO-ya üzv olmayan bir neçə ölkədən biridir ki, Əfqanıstan hökumətinə ciddi hərbi və iqtisadi yardım göstərir. Sizə nəqliyyat sahəsində cərəyan edən son hadisələr haqqında məlumat vermək istərdim. Bu bizim daxili məsələmiz deyil. Çünki bizim regionda təşəbbüskarı olduğumuz bu layihələr artıq genişlənir və qlobal layihələrə çevrilir.

Biz tərəfdaşlarımız – Gürcüstan və Türkiyə ilə dəmir yolunun inşasının təşəbbüskarı olduq. Bu dəmir yolu 3 ölkəni və qitələri birləşdirir. Biz qarşılıqlı ticarət dövriyyəmizi bu dəmir yolu xətti olmasa belə, artıra bilərdik. Ancaq bu dəmir yolu Asiyanı Avropa ilə birləşdirməyə lazımdır. Bu, ən qısa nəqliyyat marşrutudur. Ola bilsin ki, qiymət baxımından bu, ən ucuz marşrut deyil və biz tariflərin aşağı salınması üzərində çalışırıq. Lakin bu, ən qısa marşrutdur və yüklərinin qısa bir zamanda nəql edilməsinə üstünlük verən şirkətlər bu nəqliyyat şəbəkəsindən mütləq istifadə edəcək.

Şərq–Qərb nəqliyyat dəhlizi əməkdaşlıq və biznes dəhlizi-dir. Bu layihə artıq Azərbaycanda və qonşu ölkələrdə minlərlə yeni iş yeri yaratmaqdadır və ölkələrimizə böyük mənfəət gətirəcək. Əlbəttə, bizim tranzit ölkə kimi də rolumuz artacaqdır. Bu layihəni ilhamlandıran enerji şaxələndirilməsinin təmin edilməsi idi. Bir daha qeyd edim ki, biz bu layihəni gürcü və türk qonşularımızla birlikdə icra etməyə başladıq. Hazırda o genişlənir və artıq bir sıra neft və qaz kəmərlərinin inşası nəticəsində çoxlu sayda ölkələr bu prosesdə iştirak edir.

İlk layihə Azərbaycanı Qara dəniz limanları ilə birləşdirən neft kəməri idi. Növbəti kəmər bizi Aralıq dənizindəki liman ilə birləşdirdi. Nəhayət, növbə qazpaylayıcı infrastrukturun yaradılmasına çatdı ki, bu da uğurla həyata keçirilir. Artıq 7 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniya «Cənub Qaz Dəhlizi»nin üzvüdür. Daha 3 Balkan ölkəsi – Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina isə layihənin növbəti mərhələsində bizim tərəfdaşlarımız olacaq.

Bu həqiqətən də XXI əsrin layihəsidir və onun dəyəri 40 milyard dollardır. Bu layihə Azərbaycan tərəfindən irəli sürülüb və tərəfdaşlarımız, Avropa Komissiyası tərəfindən dəstəklənib. Hətta son 2 il ərzində neftin qiymətlərinin aşağı olduğu bir vaxtda bu layihə uğurla həyata keçirilir və onun icrası ilə bağlı bizim maliyyə öhdəliklərimizin ödənişi baxımından heç bir gecikmə olmamışdır. Sərmayələr Xəzər dənizində yerləşən nəhəng qaz yatağı ilə bağlıdır və bu, Bakıdan İtaliya sahillərinə qədər uzanan, bir-biri ilə əlaqəli 3 kəmərdən ibarət vahid bir sistem layihəsidir.

Bu, enerji təhlükəsizliyinə töhfədir. Eyni zamanda, regional əməkdaşlığa töhfədir. «Cənub Qaz Dəhlizi» layihəsinə üzv olan ölkələr artıq təbii, uzunmüddətli tərəfdaşlara çevriliblər. Yəni biz burada – Qafqazda və Türkiyədə olan müsbət regional əməkdaşlığı Avropa, Avropa İttifaqı istiqamətində apara bilmişik. Bu isə bənzərsiz bir əməkdaşlıq formatı yaradır. Artıq üçüncü dəfədir ki, hər ilin fevralında Bakıda biz «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclasını təşkil edirik. Bu il də belə bir toplantı keçirildi və

Şuranın bütün üzvlərinin iştirakı ilə qəbul edilmiş yekun bəyanatda Azərbaycanın aparıcı rolu bir daha qeyd olundu.

Biz həmin layihələrin təşəbbüskarı olduq. Biz qonşuları və tərəfdaşları dəvət etdik və artıq yaxşı nəticələrin şahidi oluruq. İstər nəqliyyat, istərsə də enerji sektorunda təşəbbüs-karı olduğumuz heç bir layihə uğursuz olmayıb. Çünki onların hər biri real yanaşma üzərində qurulubdur. Onların heç biri səs-küy salmaq, özümüzü tərifləmək və ya populist ideyalar vasitəsilə potensialımızı nümayiş etdirmək naminə irəli sürülməyibdir.

Bizim potensialımız nümayiş etdiriləndən daha genişdir. Biz imkan olan hər yerdə Azərbaycanı göstərməyə çalışmırıq. Biz ev tapşırığımızı yerinə yetiririk və zaman göstərir ki, biz düzgün seçim etmişik. Bu gün qeyd etmək istədiyim son məsələ bizim mədəniyyətlərarası dialoqa olan töhfəmizdir. Bu gün burada, demək olar ki, bütün qitələrin nümayəndələri var. Burada 56 ölkənin nümayəndəsi var ki, bu da BMT-yə üzv olan dövlətlərin dörddəbiri deməkdir.

İki aydan sonra Azərbaycan IV Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edəcək. Bu da bir ənənəvi tədbirə çevrilib və onun həmtəşkilatçıları YUNESKO, İSESKO, Avropa Şurası, Dünya Turizm Təşkilatı və BMT Sivilizasiyalar Alyansı kimi beynəlxalq təşkilatlardır. Yəni qlobal, mən deyərdim ki, dünyada mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsinə həsr edilmiş bənzərsiz bir tədbirdir.

Azərbaycanın seçilməsi yalnız bizim bu tədbirin təşəbbüskarı olmağımız ilə bağlı deyil. Bu bizim sivilizasiyalar və dinlər arasında oynadığımız körpü rolu ilə bağlıdır. Azərbaycanda dini dözümlülük və multikulturalizm ənənəsi artıq kifayət edir ki, biz belə bir müsbət tədbirin mərkəzində olaq. Biz həmin foruma və bu hərəkata böyük əhəmiyyət veririk. Çünki bu gün dünyanın məhz buna ehtiyacı var. Çıxışımın əvvəlində dediyim kimi, təəssüflər olsun ki, biz dialoq haqqında danışırıq, ancaq əslində özgələşdirmənin şahidi oluruq. Tolerantlıq haqqında danışırıq, ancaq nifrətin şahidi oluruq. Bunlar artmaqdadır və bu

hamımız üçün təhlükədir. İstər bunun baş verdiyi ölkələr olsun, istərsə də bundan əziyyət çəkənlər.

Bu səbəbdən Azərbaycanın mədəniyyət körpüsü rolu olduqca vacibdir. Bu gün ölkəmizin müsbət, dayanıqlı, təhlükəsiz və sabit inkişafı onu nümayiş etdirir ki, yalnız qarşılıqlı etimad və multikulturalizm, habelə başqalarının ənənə, din və kökünə hörmət ruhunda uğura imza atmaq olar.

Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu bizim böyük sərvətimizdir. Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə bu işlə məşğul olanların özlərinə xələl gətirəcək.

Bu gün bizimlə birlikdə olduğunuza görə sizə bir daha təşəkkür edirəm və forumun işinə uğurlar arzu edirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və forum iştirakçılarını salamlayan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqa Bakıda keçirilən bu mötəbər tədbirin bir sıra beynəlxalq aktual məsələlərin açıq və dostluq mühitində müzakirəsinə hərtərəfli imkan yaratdığını bildirdi.*

**Vayra Vike-Freyberqa:** Forum ildən-ilə inkişaf etdikcə, biz onun təkcə genişləndiyini deyil, həm də keyfiyyətcə daha da yaxşılaşdığını görürük və sizin hər birinizin iştirakı və səbirsizliklə gözlədiyimiz töhfələriniz bizim üçün şərəfdir. Bir qədər əvvəl biz Azərbaycan Respublikası Prezidentinin ölkəsinin beynəlxalq münasibətlərin gələcəyindəki rolu ilə bağlı fikirlərini dinlədik. Deməliyəm ki, xüsusilə mənim kimi, doğma ölkəsi Latviyanı qaçqın uşaq olaraq tərk etmiş və on illərlə oraya gedə bilməyən, nadir hallarda ciddi nəzarət altında turist kimi gedən və həmin dövrdə Sovet İttifaqının hakimiyyəti altında olan ölkələrin heç birinə gedə bilməyən biri üçün bu nadir xüsusiyyətləri olan ölkə ilə işləmək mənə xüsusi zövq

verib. İllər ərzində bu həm mənim prezidentliyim dövründə, həm də ondan sonra dünyanın bizə tanış olmayan hissələri ilə tanış olmaq üçün bir kəşf səyahəti olub. Düşünürəm ki, Bakıya gələn bir çox qonaqlar həqiqətən də təəccüblənirlər, çünki onların da belə bir imkanı olmayıb. Onlar burada, dənizin sahilində gözəl, müasir şəhəri görəndə heyrətə gəlirlər. Bugünkü mövzumuz beynəlxalq güclər balansı, güc və maraqlar, dünyanın hər kəs üçün daha yaxşı və təhlükəsiz yerə çevrilməsi yollarıdır. Bu bizim dəfələrlə bu və ya digər formada qayıtdığımız mövzudur.

*Beynəlxalq aləmdə hazırkı vəziyyətlə bağlı fikirlərini bölüşən Vayra Vike-Freyberqa mövcud problemlərin həlli ilə bağlı qənaətini ətraflı xarakterizə etdi. O, problemlər olan cəmiyyətlərdə yaşayan bir qisim insanların fəaliyyətinin ekstremizmə, beynəlxalq və daxili münaqişələrə, bütün ölkələr üçün dəhşətli olan vətəndaş müharibələrinə, qonşu ölkələrin suverenliyi və ərazi bütövlüyünün pozulmasına, həmçinin bir çox başqa bəlalara səbəb olduğunu söylədi. O, dünyanın bir sıra ölkələrinin, o cümlədən Azərbaycanın beynəlxalq sabitliyə töhfələrini əsirgəmədiyini vurğuladı:*

– Düşünürəm ki, Azərbaycan bu regionda uğur nümunəsidir. Onun geosiyasi strateji əhəmiyyəti var. O, xüsusilə enerji sahəsində mühüm təbii ehtiyatlara malikdir, bu da həm iqtisadi, həm də ümumi gücün mənbəyidir. O, Şərq ilə Qərb arasında nəqliyyat qovşağıdır və ümid edirəm ki, gələcəkdə Şimal ilə Cənub arasında nəqliyyat qovşağı olacaq. Burada dinin dövlətdən ayrı olması hər kəsin etiqad azadlığını və öz şəxsi inancına etiqad etməsini təmin etməyə imkan verir. Dövlət insanları heç bir inanca məcbur etmir, bu onların öz seçiminin, ənənələrinin öhdəsinə buraxılır. Düşünürəm ki, bunlar yaxşı idarə edilən dövlətin minimum malik olmalı olduğu mühüm meyarlardır.

*Vayra Vike-Freyberqa Forum zamanı faydalı fikir mübadiləsinin aparılacağına əminliyini ifadə etdi.*

*İtaliyanın Azərbaycandakı səfiri Ciampaolo Kutillo İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın müraciətini forum iştirakçılarına çatdırdı.*

**C i a m p a o l o  K u t i l l o:** Cənab prezident İlham Əliyev, Birinci vitse-prezident xanım Mehriban Əliyeva, zati-aliləri, həmsədrlər, xanımlar və cənablar! Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə İtaliya Respublikasının Prezidenti Sercio Mattarella tərəfindən ünvanlanmış müraciəti diqqətinizə çatdırıram:

«Hörmətli həmsədrlər! V Qlobal Bakı Forumunda iştirak etmək üçün məni dəvət etdiyinizə görə sizə təşəkkürümü bildirirəm. Əfsuslar olsun, İtaliyada qalmağımı tələb edən uzunmüddətli öhdəliklərə görə mən şəxsən bu tədbirdə iştirak edə bilməyəcəyəm. Bu gün, heç vaxt olmadığı kimi, beynəlxalq ictimaiyyətin üzləşdiyi təxirəsalınmaz çağırışlar barədə düşünmək mühüm əhəmiyyət kəsb edir. Bunların arasında dinlər və mədəniyyətlərarası dialoqun təşviqi müstəsna və bəzən misilsiz əhəmiyyət daşıyan prioritet təşkil edir. Beynəlxalq ictimaiyyətin ümumi irsinin bir parçası olmalı olan şaxələnməyə hörmət və əsas azadlıqların müdafiəsi dözülməzlik və ekstremizmi yayaraq, öz baxışını zorla qəbul etdirməyə çalışanlar tərəfindən daimi və çox zaman zorakı təzyiq altındadır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən həyata keçirilən təşəbbüs millətlər arasında sivil birgəyaşayışın əsasını təşkil edən müxtəlif xalqlar, mədəniyyətlər və konfessiyalar arasında dialoq və əməkdaşlığın aparılmasının necə dəstəklənməsi barədə dərin və aydın düşüncələri ifadə etmək məqsədilə imkanların təşviqində yerinə düşən və vaxtında keçirilən bir təşəbbüsdür. Keçən il Romada sonuncu görüşümüzü böyük məmnuniyyətlə xatırlayaraq, mən Sizə dərin ehtiramımı bildirir və növbəti Qlobal Bakı Forumunun işinə uğurlar arzu edirəm.

**Sercio Mattarella**
**İtaliya Respublikasının Prezidenti»**

**S t e f a n  M a k k o r n a k** (*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı müvəqqəti işlər vəkili):* Zati-aliləri prezident İlham Əliyev, hörmətli Birinci vitse-prezident, hörmətli liderlər və qonaqlar!

Mən Böyük Britaniyanın Baş naziri Tereza Meyin məktubunu oxumaq istəyirəm:

«V Qlobal Bakı Forumunun iştirakçılarına dəstək məktubunu göndərmək imkanına malik olduğumdan böyük məmnunluq hissi keçirirəm. Mən Azərbaycanı bu tədbirə 5-ci ildir ki, ev sahibliyi etdiyinə və cari və sabiq dünya liderlərindən ibarət bu mötəbər bir qrupu bir araya gətirdiyinə görə təbrik edirəm. Bu il Birləşmiş Krallıq və Azərbaycan arasında diplomatik münasibətlərin yaranmasının 25-ci ildönümüdür. Bu müddət ərzində aramızda güclü və məhsuldar münasibətlər qurulubdur. Biz birlikdə mühüm əhəmiyyət kəsb edən çox geniş çeşidli məsələlər üzərində çalışırıq və bu əməkdaşlığın daha da gücləndirilməsi və dərinləşdirilməsi istiqamətində səylərimizi davam etdirəcəyik. Qlobal Bakı Forumu bu gün dünyanın üzləşdiyi bəzi mühüm çağırışlara ən yaxşı şəkildə necə reaksiya göstərmək üçün beynəlxalq ictimaiyyəti öz ekspert biliyi ilə paylaşmaq və razılığa gəlmək üçün bir araya gətirir. Mən sizə bu tədbirin keçirilməsində uğurlar arzu edirəm».

**Tereza Mey**
**Böyük Britaniyanın Baş naziri»**

* * *

*Sonra çıxış edən İsmail Serageldin prezident İlham Əliyevin nitqinin çox məzmunlu olduğunu dedi. Bildirdi ki, Azərbaycan Prezidenti çıxışında iqtisadiyyat və siyasət, mədəniyyət və prinsiplər, beynəlxalq, yerli və regional münasibətlər arasında ta-*

*razlığın nə olduğunu qeyd etdi. İsmail Serageldin dünyanın müxtəlif ölkələrində baş verən siyasi, iqtisadi hadisələr, maliyyə və sosial çətinliklər barədə danışdı. O, ikili standartların problemlərin hallinə ciddi maneə yaratmasını qeyd edərək dedi:*

– Qaydalar və qanunlar sistemi zati-aliləri prezident İlham Əliyevin qeyd etdiyi kimi, ikili standartların mövcud olmamasını təmin etməlidir. Bundan əlavə, bu sistem təkcə güclülərə xidmət etməməlidir, eyni zamanda, güclülər tərəfindən dəstəklənməlidir. Bu sistem hamıya əlçatan olmalıdır. Daxil edilməsi mümkün olmayanları özünə daxil etməlidir və xidmət olunmayanlara xidmət etməlidir. Ümidsizlərə ümid verməlidir və bu gündən etibarən hələ də dünyaya gəlməyənlər barədə düşünməlidir və hamımız üçün daha yaxşı gələcək təmin etməlidir. Sizcə bunu etmək bizim imkanımız xaricindədir? Mən belə hesab etmirəm. Düşünürəm, bizi qəbul edən zati-aliləri cənab Prezident qarşımızda bir çağırış qoydu və biz buna müvafiq olaraq hərəkət etməliyik. Növbəti sessiyaya başlamadan öncə mən bütün iştirakçılar adından bir daha zati-aliləri prezident İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm.

* * *

*V Qlobal Bakı Forumu işini martın 16-da iclaslar və plenar panellərlə davam etdirdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili ilə görüşmüşdür.*

*Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin V Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu səfərin əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını bildirdi.*

*Ənənəvi olaraq hər il Qlobal Bakı Forumunda iştirak etdiyini vurğulayan Gürcüstan prezidenti Giorgi Marqvelaşvili forumun mühüm əhəmiyyət daşıdığını vurğuladı. Gürcüstan Prezidenti qeyd etdi ki, bu tədbirlə bağlı Azərbaycana səfəri dövlətimizin başçısı ilə görüşmək imkanı yaradır və eyni zamanda, öz həmkarları ilə müzakirələr aparmaq baxımından da önəmlidir. Giorgi Marqvelaşvili ölkələrimiz arasında strateji münasibətlərin dərinləşdiyini bildirərək, bu münasibətlərin ən yüksək səviyyədə olduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında yaxın qarşılıqlı fəaliyyətin mövcud olduğunu vurğulayaraq, münasi-bətlərimizin yüksək səviyyəsindən məmnunluğunu ifadə etdi və əlaqələrimizin bölgədə və ümumiyyətlə, beynəlxalq səviyyədə mühüm rol oynadığını nəzərə çatdırdı. Dövlətimizin başçısı münasibətlərimizin bundan sonra da möhkəmləndirilməsi üçün səyləri əsirgəməməyin vacibliyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin digər sahələrdə də əməkdaşlığın gücləndirilməsi işinə xidmət etdiyini bildirdi.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Latviya Respublikasının Prezidenti Raymonds Veyonis ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Latviya prezidenti Raymonds Veyonisin V Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu bildirdi və bu tədbirin artıq bir ənənəyə çevrildiyini vurğuladı.*

*Latviya prezidenti Raymonds Veyonis V Qlobal Bakı Forumunda 53 ölkədən nümayəndələrin iştirakının önəmini qeyd etdi və Azərbaycan tərəfinin bu tədbiri yüksək səviyyədə təşkil etdiyini vurğuladı. Raymonds Veyonis Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqanın Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olmasından qürur hissi keçirdiyini dedi.*

*Prezident Raymonds Veyonis prezident İlham Əliyevin Latviyaya rəsmi səfərə dəvət məktubunu dövlətimizin başçı- sına təqdim etdi və bu səfərin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi. Azərbaycan ilə Latviya arasında müxtəlif sahələrdə əlaqələrə toxunan Raymonds Veyonis təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində işlərin görüldüyünü bildirdi və azərbaycanlı tələbələrin Latviya universitetlərində təhsil almaları üçün müvafiq tədbirlərin həyata keçirildiyini qeyd etdi. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar ətrafında fikir mübadiləsi aparıldı, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığın bundan sonra da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BUYAR NİŞANİ İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Albaniya Respublikasının Prezidenti Buyar Nişani ilə görüşmüşdür.*

*Albaniya prezidenti Buyar Nişani V Qlobal Bakı Forumu-na dəvətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi, dövlətimizin başçısı ilə görüşməkdən məmnunluq hissi keçirdiyini dedi. Prezident Buyar Nişani V Qlobal Bakı Forumu-nun beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. O, Albaniya xalqının səmimi salamlarını Azərbaycan xalqına çatdırdı. Albaniya prezidenti Buyar Nişani prezident İlham Əliyev ilə görüşünün münasibətlərimizin perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Albaniya Prezidentinin V Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu ifadə edən prezident İlham Əliyev bu forumun müzakirələrin aparılması baxımından vacib beynəlxalq tədbir olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və yaxşı perspektivləri olduğunu dedi. Hər iki ölkənin enerji sektorunda yaxşı tərəfdaşlar olduğunu qeyd edən prezident İlham Əliyev Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 3-cü toplantısında albaniyalı nazirin iştirakının önəmini vurğuladı. Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» layihəsinin çox uğurla həyata keçirildiyini bildirdi. Azərbaycan ilə Albaniyanın siyasi əlaqələrinin çox yaxşı səviyyədə olduğunu diqqətə çatdıran*

*prezident İlham Əliyev ölkələrimiz arasında yüksək səviyyədə qarşılıqlı dəstəyin və beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlığın olduğunu qeyd etdi, bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi. Azərbaycan ilə Albaniya arasında qarşılıqlı ticarət dövriyyəsinin artırılması istiqamətində işlərin görülməsinin vacibliyini bildirən dövləti-mizin başçısı bunun ölkələrimizin qarşısında duran əsas məq-sədlərdən biri olduğunu nəzərə çatdırdı.*

## MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGİ İVANOV İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Makedoniya Respublikasının Prezidenti Georgi İvanov ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Makedoniya prezidenti Georgi İvanovun V Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Makedoniya Prezidentinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin müzakirəsi üçün də yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev Qlobal Bakı Forumunun artıq çox əhəmiyyətli tədbirə çevrildiyini və burada dünyada gedən siyasi proseslərin müzakirə edildiyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Makedoniya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayaraq, ölkələrimizin iqtisadi, o cümlədən idxal-ixrac və sərmayə imkanlarının araşdırılmasının vacibliyini qeyd etdi.*

*Makedoniya prezidenti Georgi İvanov V Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı. Georgi İvanov Azərbaycan ilə Makedoniya arasında siyasi münasibətlərin əla səviyyədə olduğunu qeyd edərək, iqtisadi sahədə əlaqələri gücləndirməyin zəruriliyini bildirdi.*

## MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviç ilə görüşmüşdür.*

*V Qlobal Bakı Forumunun artıq böyük beynəlxalq tədbirə çevrildiyini vurğulayan prezident İlham Əliyev forumda iştirakına görə Filip Vuyanoviçə minnətdarlığını ifadə etdi, görüşün eyni zamanda, ikitərəfli münasibətlərimiz ətrafında fikir mübadiləsinin aparılması üçün yaxşı fürsət olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında əlaqələrin çox uğurla inkişaf etdiyini vurğuladı, əməkdaşlığımızın razılıq doğurduğunu qeyd etdi.*

*V Qlobal Bakı Forumuna dəvətə görə minnətdarlığını bildirən Monteneqro prezidenti Filip Vuyanoviç prezident İlham Əliyevlə görüşündən məmnunluğunu bildirdi. Açılış mərasimində söylədiyi nitq münasibətilə dövlətimizin başçısını təbrik edən Filip Vuyanoviç prezident İlham Əliyevin daxili və regional vəziyyətlə bağlı səsləndirdiyi fikirlərin əhəmiyyətini vurğuladı. İkitərəfli əlaqələrimizin səviyyəsindən razılığını ifadə edən Filip Vuyanoviç prezident İlham Əliyevin Azərbaycan–Monteneqro əlaqələrinin inkişafına verdiyi töhfəni çox yüksək qiymətləndirdiklərini vurğuladı, ölkələrimiz arasında belə yaxın, uğurlu və dost münasibətlərin olmasında prezident İlham Əliyevin verdiyi dəstəyin vacibliyini qeyd etdi.*

*Görüşdə iki ölkə arasında enerji, ticarət və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## V QLOBAL BAKI FORUMU İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*16 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva martın 16-da Heydər Əliyev Mərkəzində V Qlobal Bakı Forumu iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişlər.*

*Ziyafətdə, həmçinin Latviya, Makedoniya, Albaniya, Monteneqro və Gürcüstan prezidentləri, Səudiyyə Ərəbistanının şahzadəsi, eləcə də bir sıra ölkələrin sabiq dövlət və hökumət başçıları, dünya siyasətində əhəmiyyətli rol oynayan ictimai-siyasi xadimlər, ekspertlər və mütəxəssislər də iştirak edirdilər.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq beşinci dəfədir baş tutur və budəfəki forumda beynəlxalq münasibətlərin gələcəyi, münaqişələrin qarşısının alınmasında dialoqun rolu, miqrasiya, multikulturalizm, qlobal təhlükəsizliyin təmin olunması və digər mühüm məsələlər müzakirə edilir.*

*Forumda 50-dən çox ölkədən 300-dək nümayəndə iştirak edir. Artıq Qlobal Bakı Forumu ənənəvi mötəbər tədbirə çevrilib. Bir çox mühüm beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübə toplayan Azərbaycan Qlobal Bakı Forumuna da uğurla ev sahibliyi edir. Belə tədbirlər ölkəmizin beynəlxalq birliyə təqdim olunması baxımından da vacib əhəmiyyət daşıyır.*

*Ziyafətdə çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqa*

*yüksək səviyyədə qonaqpərvərliyə görə nümayəndələr adından minnətdarlığını bildirdi, Azərbaycana hər səfərlərində daha böyük tərəqqi və uğurların şahidi olduqlarını vurğuladı. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılmasında prezident İlham Əliyevin səylərini yüksək qiymətləndirdi.*

*Qlobal Bakı Forumunun mühüm əhəmiyyətini qeyd edən Vayra Vike-Freyberqa Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq səviyyədə rolunun get-gedə artdığını bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev ilə ilk görüşünü məmnunluqla xatırladan qonaq ulu öndərin xatirəsini ehtiramla andı.*

**Vayra Vike-Freyberqa** *(Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq prezidenti):* Axşamınız xeyir, zati-aliləri İlham Əliyev!

Hörmətli Birinci vitse-prezident xanım Mehriban Əliyeva!

Əziz dostlar, həmkarlar, Qlobal Bakı Forumunu və Niza- mi Gəncəvi Mərkəzini dəstəkləyənlər!

Hesab edirəm ki, bizi həqiqətən, çox böyük qonaqpərvərliklə qəbul etdiyinizə, ürəklərinizi bizə geniş açdığınıza və əvvəllər ölkənizi tanımayanlara ölkənizi təqdim etdiyinizə görə Azərbaycan Prezidentinə səmimi minnətdarlığımı ifadə etməklə, hamımızın adından danışmış olaram. Artıq buraya müəyyən müddətdir ki, gələnlər hər səfərdə ölkədəki tərəqqinin, nəzərəçarpan inkişafın şahidi olurlar. Yeni gözəl memarlıq nümunələrini görürlər, Heydər Əliyevin xatirəsinə ucaldılan bu muzey kimi, dünya səviyyəli tikililərin şahidi olurlar. Ölkənizin tarixində dahi şəxsiyyət olan Nizami Gəncəvinin əldə etdiyi nailiyyətləri təbliğ edən mərkəzin təsis olunması ilə bağlı ideyanıza və səylərinizə görə Sizə minnətdarıq.

Beş məşhur poemanın müəllifi Nizami Gəncəvi fikirlərini, mövzularını saysız-hesabsız təqlid edənlər və davamçıları üçün ilham mənbəyi olmuşdur. Ən azı, məsələn, Şekspirin müəllifi olduğu «Romeo və Cülyetta» əsərini qeyd etmək olar. Bu əsərlər çox uzun və keşməkeşli yollarla bir hekayət kimi, İtaliyaya, sonra isə İngiltərəyə və dünyanın başqa yerlərinə gəlib çıxmışdır.

Bizə bir araya gəlmək fürsəti yaratdığınıza görə Sizə həqi- qətən də minnətdarıq. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda olmaqdan həzz aldığımızı söyləsəm, hamımızın adından danışmış olaram. Sizin qonaqpərvərliyiniz bizim ürəyimizcədir. Bu qonaqpərvərliyin öz çaları və tərzi var. Biz bunu həqiqətən, yüksək qiymətləndiririk. Bu çox böyük və səxavətli bir addımdır. Buna görə də Sizə minnətdarıq. Artıq V Bakı Qlobal Forumu keçirilir və buna görə də Sizə minnətdarıq. Hər bir forum əvvəlkindən yaxşı olmuşdur. Beləliklə, biz, Sizin burada gördüyünüz kimi, bir çox müxtəlif və uzaq yerlərdən olan insanları bir araya gətirən, onlara dünyaya dair baxışını, narahatlıqlarını və hamımızın bir yerdə dünyanı necə daha da yaxşı etmək üçün yaradıcı ideyalarını paylaşmaq imkanını verən tədbirin beynəlxalq müstəvidə davamlı olaraq inkişafını səbirsizliklə gözləyirik. Hesab edirəm ki, qısa müddət ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çox iş görə bilib. 5 il çox yaxşı bir ildönümüdür, lakin tarix baxımından çox qısa vaxtdır. Bizim Bakı Forumuna əlavə olaraq çoxlu sayda ölkədə dəstək proqramlarımız var və bu il biz ilk dəfə Çinə gedəcəyik. Beləliklə, biz dünyada baş verən hadisələr barədə məlumatlıyıq və onlara açığıq.

Əziz dostum və qardaşım doktor İsmail Serageldinin həmsədr olduğu Nizami Gəncəvi Mərkəzinin beynəlxalq İdarə Heyəti adından 5-ci ildönümü münasibətilə bizim Sizə kiçik hədiyyəmiz var. Bu hədiyyədə İdarə Heyətinin üzvləri və Nizami Gəncəvi Mərkəzini dəstəkləyən digər şəxslərin keçmiş tarixinə və onların Azərbaycan ilə əlaqələrinə nəzər salınır. Ümid edirəm ki, bu hədiyyə Sizin xoşunuza gələcək. Mən fəxr edirəm ki, Azərbaycan ilə ilkin təmasım Azərbaycanın ozamankı prezidenti Heydər Əliyevin vasitəsilə olmuşdur. Bu, Baltik dənizi və Qara dəniz ölkələri arasında Yaltada keçirilən çox xüsusi bir görüş idi. O görüşü artıq bu gün keçirmək mümkün deyil. Lakin Baltikyanı 3 ölkənin prezidentlərinə Stalinə satıldığımız yeri, Stalin, Ruzvelt və Çörçilin oturduğu 3 kreslonu öz gözləri ilə görmək üçün Levadiya qəsrinə səfər etmək imkanı verilmişdi. Bu, rəsmi deyildi və təəssüf ki, məndə o günün şəkilləri yoxdur. Çünki biz

bunu sadəcə, ona görə etdik ki, deyək: onlar bizi o realist siyasət dönəmində düşmənlərə, bax, belə satdılar və qisamüddətli maraqlar üçün zəruri olan siyasətlə məşğul idilər. Ümid edirik ki, bu realist siyasət keçmişdə qalacaq. Biz bunu bu gün müzakirə etdik ki, ölkələrə beynəlxalq hüquqları, suverenliyi və ərazi bütövlüyünə görə hörmət edilməlidir. Biz bilirik ki, Azərbaycan ərazi bütövlüyünə qarşı bu cür hörmətsizlikdən əziyyət çəkən ölkələrdən biridir. Qeyd etməliyəm ki, bütün Avropa İttifaqı ölkələri, o cümlədən Latviya belə bir ideyanı güclü surətdə dəstəkləyir ki, hər bir ölkə öz ərazi bütövlüyünü beynəlxalq hüquqa uyğun şəkildə bərpa etmək hüququna malik olsun.

Böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, bu albomda mənim prezident Heydər Əliyev ilə gözəl bir şəklim var. Mən bundan qürur duyuram. Biz burada, bu salonda əyləşmiş bir çox insanların inkişaf yolunu, onların Azərbaycan və Sizinlə, Sizin sələfiniz olan görkəmli atanızla əlaqələrini görürük. Beləliklə, xahiş edirik ki, bizim minnətdarlığımızı, təşəkkürümüzü qəbul edin. Ümid edirik ki, Siz Nizami Gəncəvi Mərkəzinə dəstək olmaqda davam edəcəksiniz. Çünki Nizami Gəncəvi artıq XII əsrdə bu regionu bütün dünyaya tanıtmışdır, bu, uzunmüddətli şöhrət olmuş və bunu hələ də təkrar edən olmamışdır.

*Latviyanın sabiq prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ayrı-ayrı dövlət başçıları ilə görüşlərini əks etdirən fotoşəkillərdən ibarət Xatirə albomunu prezident İlham Əliyevə təqdim etdi.*

**İsmail Serageldin** (*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə kitabxanasının direktoru)*: Təşəkkür edirəm, xanım Freyberqa.

Hesab edirəm ki, mənim söyləmək istədiyim bütün sözləri siz dediniz. Sizin söylədiklərinizi bir daha təsdiq edərək, prezident Əliyevə bizə verdiyi ilham mənbəyinə görə minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.

Mən həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə gələn Birinci vitse-prezident xanım Mehriban Əliyevaya xüsusi salamlarımı çatdırmaq istəyirəm.

Uzun illər bundan öncə mənə Heydər Əliyev Fondunda Misir ilə Azərbaycan arasında mədəni mübadilənin təşkili məsələlərini xanım Mehriban Əliyeva ilə müzakirə etmək və bunun davamı olaraq, səfərləri təşkil etmək şərəfi nəsib olmuşdur. Beləliklə, ümidvaram ki, Azərbaycana gələn zaman Sizinlə daha tez-tez görüşmək şərəfinə nail olacağıq. Əminəm ki, Siz kiçik bir təşəbbüsü çox böyük platformaya çevirdiyinə görə bizim minnətdar olduğumuz və rəhbərliyindən ruhlandığımız zati-aliləri prezident İlham Əliyevin təməlini qoyduğu bu prosesə daha inamla qatılacaqsınız.

Zati-aliləri, icazə verin qeyd edim ki, biz bu tədbirin gələn il daha möhtəşəm olacağına və bəlkə də 3 gün davam edəcəyinə ümidvarıq. Çox sağ olun, cənab Prezident.

* * *

**İ l h a m  Ə l i y e v**: Xanım prezident Vike-Freyberqa, doktor Serageldin, əziz dostlar və qonaqlar!

Əvvəlcə xanım Prezidentə bu dəyərli xatirə üçün təşəkkürümü bildirmək istəyirəm. Atamın dünya liderləri ilə olan fotoşəkilləri. Onların böyük bir hissəsi bu gün buradadır. Onlar 1997-ci ildən bəri çox dəyişməyiblər. Bu hədiyyə üçün çox təşəkkür edirəm.

Xanım Prezident, Siz Heydər Əliyevlə olan görüşünüzü qeyd etdiniz. Bunu bilirəm, çünki həmin görüşdən qayıdanda mənə öz təəssüratları və Sizin barənizdə danışmışdı. Onu Sizin baxışınız, ölkəniz üçün etdikləriniz çox təsirləndirmişdi. Düşünürəm ki, ölkələrimiz arasında bu gün çox yüksək səviyyədə olan əlaqələr bu şəxsi əlaqə vasitəsilə yaranmışdır.

Azərbaycan üçün Heydər Əliyev xalqımızı baş verə biləcək bir çox faciəvi hadisələrdən xilas etmiş liderdir. O, sovet dövründə Azərbaycanın lideri idi. Sonra Sovet İttifaqının mərkəzi hakimiyyətində işləyən ilk azərbaycanlı olaraq, çox önəmli vəzifə sayılan Sovet İttifaqı Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinə yüksəlmişdi. Daha sonra təqaüdə çıxdı və 1990-cı ilin yanvarında sovet ordusu Bakıya hücum edəndə

artıq təqaüdçü idi. O, etiraz səsini ilk qaldıranlardan və sovet rəhbərliyini, sovet ordusunu mülki azərbaycanlılara qarşı bu qəddar təcavüzə görə pisləyənlərdən biri idi. Qara Yanvar tariximizdə faciəvi hadisədir. Bu faciəvi hadisənin sabahı günü biz birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə getdik, o vaxtlar səfirlik yox idi. Orada 100 nəfərdən çox insanın, o cümlədən qadınların, uşaqların sovet ordusu tərəfindən qəddarlıqla öldürülməsinə, yüzlərlə insanın yaralanmasına və bir çoxunun itkin düşməsinə görə kədərini ifadə etmək, məyusluqlarını və faciəvi anı bölüşmək üçün gələn azərbaycanlılardan ibarət böyük bir kütlə gördük.

O vaxt Heydər Əliyev 2 ildən artıq idi ki, təqaüdə çıxmışdı. Biz kütləyə yaxınlaşdıqda insanlar kənara çəkilməyə və binaya daxil olması üçün ona və onu müşayiət edənlərə bir dəhliz açmağa başladılar. Bu çox emosional bir an idi. Azərbaycanlıların birliyinin rəmzi idi – bu faciə onları birləşdirmişdi. Bu onun heç vaxt şəxsən görmədiyi və öz növbəsində, onu da görməyən insanların ona hörmətinin əlaməti idi. Onlar ona hörmətlə yanaşdılar, onun heç bir vəzifəsi yox idi. Keçən əsrin 90-cı illərinin əvvəli idi, Sovet İttifaqı hələ də çox güclü idi və Kommunist Partiyası hər yerdə təsir imkanlarına malik idi. O, təqaüddə idi. Əgər belə yüksək vəzifədən təqaüdə çıxırdınızsa, siz nəinki ictimai fəaliyyətdən uzaqlaşdırılırdınız, həm də mənəvi və fiziki olaraq təcrid edilirdiniz. Biz binaya daxil olduq və Heydər Əliyev mətbuat konfransı təşkil etdi. Həmin mətbuat konfransının videoları mövcuddur və dəfələrlə göstərilib. O, sovet rəhbərliyini, bu terror hadisəsini törədənləri pislədi. Bundan sonra Kommunist Partiyasından – gənc yaşlarından sıralarında olduğu partiyadan çıxdığını bəyan etdi. Bu onun insanlara yanaşması idi, onun çox cəsarətli hərəkəti idi və bir daha nümayiş etdirdi ki, vəzifəsinin olub-olmamasından asılı olmayaraq, Azərbaycan xalqının lideri idi.

Daha sonra biz çətinliklərlə üzləşdik. Ailəmizin hamısı, o cümlədən mən işimizi itirdik. Bu bizim taleyimiz idi. Onun üçün Moskvada qalmaq çox təhlükəli idi, çünki onu həbs etmək haqqında

planlar var idi. O, Bakıya qayıtdı. O vaxt Azərbaycanın kommunist rəhbərliyi ona qarşı maneələr yaratmağa başladı. Bunun üçün də doğulduğu yerə, Naxçıvana qayıtdı. Orada özünü təhlükəsizlikdə hiss edirdi, çünki insanlar dərhal onu qəbul etdilər və onu Naxçıvan Muxtar Respublikasının lideri seçdilər. Fikrimcə bu, sovet dövründə bir presedent idi, insanlar azad olduqlarını nümayiş etdirdilər. Onlar göstərdilər ki, mərkəzi sovet hökuməti artıq onların iradəsinə nəzarət edə bilmir. Azərbaycanın kommunist rəhbərliyi sadəcə olaraq, heç nə edə bilmirdi. Onlar insanların iradəsi önündə gücsüz idilər. Əslində bu bizi müstəqilliyə aparan yolumuzun başlanğıcı idi. O, Naxçıvan Muxtar Respublikası parlamentinin Sədri seçildi. Eyni zamanda, Azərbaycan parlamentinə keçirilən seçkilərdə Azərbaycan parlamentinin üzvü seçildi. O dövr çox çətin idi. İqtisadi vəziyyət ağır idi. O, müstəqilliyə yol açan çox vacib 3 qərar qəbul etdi. Naxçıvan Muxtar Respublikası o vaxt Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlanırdı. Parlamentin qərarı ilə «sovet sosialist» sözləri muxtar respublikanın adından çıxarıldı.

İkinci qərar, yadınızdadırsa, Sovet İttifaqının saxlanılması haqqında referendum keçirilirdi. Əfsuslar olsun ki, Bakıdakı hökumət bu referendumu təşkil etdi və nəticələr çox qəribə idi. İnsanların azad olmaq istəməsinə baxmayaraq, guya əksəriyyəti Sovet İttifaqının saxlanılmasına səs vermişdi. Beləliklə, Heydər Əliyev bu referendumun Naxçıvanda keçirilməsinə icazə vermədi.

Üçüncü qərar isə onun Naxçıvan Muxtar Respublikası parlamentinin sessiyasına 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasının bayrağını gətirərək, onu Naxçıvanın Dövlət bayrağı elan etməsi idi. Eyni zamanda, Azərbaycan parlamentinin üzvlərindən eyni qərarın qəbul olunmasını xahiş edən bir bəyanat qəbul etdi. Əfsuslar olsun ki, onlar bu qərarı qəbul etmədilər və Sovet Azərbaycanının bayrağı müstəqil Azərbaycanın bayrağına ancaq Sovet İttifaqı dağıldıqdan sonra dəyişdirildi. Bunlar tamamilə bütün həyatını ancaq xalqına həsr etmiş bir liderin ata biləcəyi addımlar idi. Biz bununla qürur duyuruq. Tariximizlə qürur duyuruq. Mən

atamla qürur duyuram. Düşünürəm ki, indi həyatda olsaydı, o da bu ölkə ilə qürur duyardı. Bu gün Azərbaycan güclü mövqeyi olan, özünü təmin edən, sözün əsl mənasında, özünə inanan, çoxlu dostları, dünyaya açıq olan və gələcəyə nikbinliklə baxan, özünü artıq dünya xəritəsində göstərmiş bir ölkədir.

Xanım Prezidentə, cənab Serageldinə və bütün dostları- mıza bu gün bizimlə birlikdə olduqlarına görə çox təşəkkür edirəm. Bu səhər də dediyim kimi, Nizami Gəncəvi Beynəl- xalq Mərkəzi artıq çox mötəbər beynəlxalq bir instituta çevrilib. Nizami dünyada məşhur olan şəxsiyyətdir, ancaq indi mərkəzin fəaliyyəti onu dünyada daha da məşhurlaşdırır. Mərkəz nə qədər böyük olsa, imkanları nə qədər çox olsa, Nizami Gəncəvini tanımayan insanlar da belə bir böyük beynəlxalq mərkəzin adını daşıdığı şəxsiyyətin kim olduğunu bir o qədər də çox öyrənməyə çalışacaqlar.

Əlbəttə, Nizami hər bir azərbaycanlı üçün milli ləyaqət, milli qürur rəmzidir. O, qədim Azərbaycan şəhəri Gəncədə anadan olub və orada da vəfat edib. Onun türbəsi Azərbay- can xalqının istedadının, insaniyyətinin rəmzidir.

Forumdakı fəaliyyətinizə görə sizə bir daha təşəkkür edirəm. Sizin gündəlik şəxsi öhdəlik və fəaliyyətiniz olmadan Forum belə mötəbər beynəlxalq hadisəyə çevrilə bilməzdi. Əlbəttə, ümid edirik ki, gələn il daha çox ölkədən daha çox qonağımız olacaq və biz tərəfdaşlığımıza davam edəcəyik. Çox sağ olun və sizə Bakıda yaxşı vaxt keçirməyi arzu edirəm.

* * *

*V Qlobal Bakı Forumu iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycanın incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq, gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq, rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilmişdir. Yaz bayramı yeniləşdirici ruhu və ılıq nəfəsi ilə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır.

Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətəni- mizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiram-la yad edərək, onlara Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işı- ğında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlı- lıq hisslərini gücləndirir.

Arzu edirəm ki, öz gəlişi ilə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin.

Xalqımızın əziz Novruz bayramı mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2017-ci il*

**MACARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Macarıstanın Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Macarıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin, strateji tərəfdaşlığımızın dinamik və hərtərəfli inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2017-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Pakistanı ortaq mənəvi dəyərlərimizdən qaynaqlanan möhkəm dostluq və qardaşlıq əlaqələri birləşdirir. Qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz xalqlarımızın iradəsini bariz şəkildə ifadə edir.

Bu yaxınlarda ölkənizə etdiyim səfəri, keçirdiyimiz görüşü, apardığımız fikir mübadilələrini məmnunluqla xatırlayıram. İnanıram ki, Azərbaycan–Pakistan strateji tərəfdaşlığının və müttəfiqliyinin daim möhkəmləndirilməsi və inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2017-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PROKOPİS PAVLOPULOSA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2017-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2017-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi Novruz bayramı münasibətilə prezident İlham Əliyevə və Azərbaycan xalqına təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı öz növbəsində, bayram münasibətilə Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezini və İran xalqını təbrik etdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu məmnunluqla qeyd edildi, Azərbaycan prezidenti İlham Əliyevin İrana uğurlu rəsmi səfərinin önəmi vurğulandı.*

*Söhbət zamanı Şimal–Cənub nəqliyyat dəhlizinin icra vəziyyəti, bank sektorunda əməkdaşlığın perspektivləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ TURKİ ƏL-FAYSAL İLƏ GÖRÜŞ

*17 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin İdarə Şurasının sədri Turki əl-Faysalı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin İdarə Şurasının sədri Turki əl-Faysalın V Qlobal Bakı Forumunda iştirakının əhəmiyyətini vurğulayaraq, bunu ölkələrimiz arasında əməkdaşlıq və dostluq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin İdarə Şurasının sədri Turki əl-Faysal V Qlobal Bakı Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Turki əl-Faysal Azərbaycandakı qonaqpərvərliyin və Bakının ecazkar gözəlliyinin onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. O, İçərişəhərdə aparılan bərpa işlərinin onda böyük maraq doğurduğunu dedi.*

*Dövlətimizin başçısı ölkəmizdə son illər tarixi irsin qorunması və müasir arxitektura nümunələrinin yaradılması istiqamətində mühüm işlərin həyata keçirildiyini vurğuladı.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*17 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniçi qəbul etmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərimizin səviyyəsinin razılıq doğurduğu bildirildi, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd edildi. Azərbaycan ilə Bosniya və Herseqovina arasında turizm, səhiyyə, qarşılıqlı ticarət və digər sahələrdə əməkdaşlıq imkanları ilə bağlı məsələlər müzakirə olundu.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar ətrafında fikir mübadiləsi aparıldı.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*İçərişəhər*

*18 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva martın 18-də Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişlər.*

*V Qlobal Bakı Forumunun yüksək səviyyəli iştirakçıları da Novruz şənliyinə qatıldılar.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Bahar qız Azərbaycan Prezidentinə Novruz xonçası təqdim etdi, dövlətimizin başçısına və xanımına bayram münasibətilə təbriklərini çatdırdı.*

*Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlərboyu Novruz bayramını əziz tutub. Azərbaycanda hər il mart ayında qeyd edilən Novruz baharın gəlişi, təbiətin canlanması, torpağın oyanması ilə bağlıdır. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində qurulub. Hər il olduğu kimi, bu il də Azərbaycanda Novruz bayramı təntənə ilə qeyd olunur. Bu da xalqımızın bayram sevincinə gözəl ovqat qatır. İçərişəhərin qala divarları*

*üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanıblar. Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına əmin-amanlıq, yeni uğurlar arzulayıram. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlərboyu xalqımız bu bayramı qeyd edir.

Azərbaycan dövləti möhkəm milli-mənəvi dayaqlar üzərində qurulubdur. Biz öz mədəniyyətimizi, incəsənətimizi, ana dilimizi, bayramlarımızı qoruyuruq, yaşadırıq. 25 illik müstəqillik dövrü onu göstərir ki, ancaq milli köklər üzərin- də qurulmuş dövlətlər uğur qazana bilər və o dövlətlərin gələcəyi var. Azərbaycan dəyərləri, milli-mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Şadam ki, gənc nəsil də bu ruhda, vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alır və bu gün Vətəni sevən hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Vətəni ilə fəxr edir.

Azərbaycanda əldə edilmiş uğurlar ölkəmizi gücləndirir, gələcəyə nikbinliklə baxmaq üçün əsas verir və dünya miqyasında qiymətləndirilir. Daxili vəziyyətimiz sabitdir. Bu sabitliyin qarantı, təminatçısı Azərbaycan xalqıdır, xalq–iqtidar birliyidir. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və sabitliyin əsas amili də məhz budur. Hər şey müqayisədə görünür.

Bu gün regionumuzda, dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmalar, müharibələr bizi çox narahat edir. Çünki biz təcridolunmuş vəziyyətdə yaşamırıq, əgər bölgəmizdə vəziyyət gərginləşirsə, risklər artırsa, əlbəttə, bizə də bunun mənfi təsiri ola bilər. Ona görə bizim əsas vəzifəmiz

ölkəmizi, xalqımızı mövcud olan və gələcək risklərdən qorumaqdır və biz buna nail oluruq. Bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq, vətəndaş birliyi, həmrəyliyi, əlbəttə ki, bizim böyük sərvətimizdir və biz bunu qoruyuruq. Yenə də qeyd etmək istəyirəm, bunu ancaq xalq–iqtidar birliyi qoruya bilər.

Azərbaycanda təhlükəsizlik təmin edilib, xalqımız rahat şəraitdə, təhlükəsizlik şəraitində yaşayır. Qurub-yaratmaq üçün bütün imkanlar var. İndiki dövrdə həm bölgəmizdə, həm Avrasiya qitəsində vəziyyət əfsuslar olsun ki, gərginləşib. Biz ölkəmizdə mövcud olan təhlükəsizliyi daha da möhkəmləndirməliyik. Azərbaycanda daxili risklər, təhlükələr, demək olar ki, yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq. Biz özümüzü həm fiziki risklərdən, həm mümkün olan ideoloji risklərdən qoruyuruq.

Azərbaycan xalqı bu 25 il ərzində açıq-aydın görür ki, bizim siyasətimiz ən düzgün siyasətdir. Biz öz taleyimizin sahibiyik. Biz siyasətimizi özümüz müəyyən edirik. Biz hər hansı bir kənar təsirə davam gətirə bilirik və yaxın tarix bunu göstəribdir. Yaxın tarix onu da göstərib ki, biz əgər hansısa kənar qüvvənin istəyi, diktəsi ilə hərəkət etsəydik, böyük problemlərlə üzləşə bilərdik.

Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizim müstəqil siyasətimiz qürur mənbəyimizdir. Bu onu göstərir ki, Azərbaycan xalqı öz gələcəyini özü müəyyən edir. Eyni zamanda, müstəqil siyasətimiz bizi mövcud olan risklərdən də qoruyur. Hələ 5-6 il bundan əvvəl yaxın bölgələrdə vəziyyət tam başqa idi. Heç kim təsəvvür edə bilməzdi ki, bu bölgələrdə münaqişə, müharibə ocaqları yaranacaq, yüz minlərlə insan həlak olacaq, milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşəcək. Ancaq bütün bunlar artıq reallıqdır. Nəyə görə bu, baş verdi?! Əlbəttə, xarici müdaxiləyə görə. Biz bunu bilirik və mən həmişə bütün bu məsələlərlə bağlı öz mövqemi bildirmişəm. Eyni zamanda, o ölkələr müstəqil həyata hazır deyildilər. O ölkələrdə xalq–iqtidar birliyi yox idi. O ölkələrdə kütləvi narazılıq var idi. Ona görə belə

acınacaqlı, bədbəxt hadisələr baş verdi. Bütün bunlar bizim gözümüzün önündə baş verir və bir daha həm xalqımıza, həm də bütün dünyaya göstərir ki, bu gün Azərbaycan doğrudan da dünya miqyasında öz siyasəti ilə fərqlənən və bir çox ölkələr üçün nümunəyə çevrilən bir ölkədir.

Bizim beynəlxalq mövqelərimiz də möhkəmlənir. Yanvar ayının ortalarından bu günə qədər mənim xarici səfərlərimin coğrafiyasına nəzər salsaq görərik ki, Azərbaycan çoxşaxəli və uğurlu xarici siyasət aparır. Son 2 ay ərzində mən 7 dəfə xaricə səfər etmişəm. Azərbaycan dünyanın aparıcı, ən mötəbər Davos Forumunda və Münhen Konfransında ləyaqətlə təmsil olunub. Dünyanın həm biznes, həm də siyasi elitasından bizə olan hörmət göz qabağındadır. Avropa Komissiyasına mənim uğurlu səfərim olub. Bu səfər nəticəsində Avropa Komissiyası ilə Azərbaycan arasında yeni sazişlə bağlı danışıqlara start verildi. Onu da qeyd etməliyəm ki, bu da nadir hadisədir. Bu danışıqların aparılması üçün layihəni Azərbaycan təqdim edib və bu layihə qəbul edilibdir. Ümid edirəm ki, yaxın zamanlarda danışıqlarda fəal proses başlanacaq və tezliklə bu mühüm saziş bağlanacaqdır.

Mənim Qətərə, Pakistana, İran İslam Respublikasına rəsmi səfərlərim olub. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz möhkəmlənir. Xalqımız yaxşı bilir ki, Azərbaycan islam həmrəyliyi üçün çox böyük işlər görür, çox böyük töhfələr verir. Bunu islam aləmi qiymətləndirir. İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri dəfələrlə bizim siyasətimizə ən yüksək qiymət vermişlər. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə fəal iştirak edib. Biz son 5 ildə bu təşkilata uğurlu sədrlik etmişik. Bu yaxınlarda Fransaya rəsmi səfərim də çox uğurlu keçdi. Fransa dünyanın aparıcı ölkələrindən biridir və mənim səfərimi izləyən vətəndaşlar gördülər ki, ölkəmizə çox böyük hörmət, çox böyük maraq var. Biz həm siyasi, həm iqtisadi, həm enerji və digər sahələrdə uğurlu əməkdaşlıq edirik. Onu da qeyd etməliyəm, Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb.

Xarici siyasətimizin və ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu məsələnin həlli istiqamətində ciddi irəliləyiş yoxdur. Mən bunun səbəbləri haqqında dəfələrlə bildirmişəm. Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir, işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Ona görə də biz və beynəlxalq ictimaiyyət, vasitəçilər onları məcbur etməliyik. Bunun başqa yolu yoxdur. Çünki indi Ermənistan danışıqları boykot etməyə çalışır, özünü təcrid vəziyyətinə salır. Vasitəçilər, Minsk qrupunun həmsədr ölkələri artıq açıq bəyan edirlər ki, tezliklə substantiv danışıqlar bərpa edilməlidir. Ona görə hesab edirəm ki, Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilməyəcəyini nə qədər tez anlasa, bu onlar üçün də bir o qədər yaxşı olacaq. Biz bu vəziyyətlə barışmayacağıq. Biz gücümüzü artırırıq. Hərbi gücümüzü, siyasi gücümüzü, beynəlxalq mövqelərimizi möhkəmləndiririk.

Bu günlərdə Bakıda V Qlobal Forum keçirilir. Forumda 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak edir. Azərbaycan nəinki bölgədə, artıq dünya miqyasında önəmli ölkəyə çevrilib. Ermənistan isə bütün ümidlərini itirmiş, depressiyada yaşayan bir ölkədir və bunun səbəbi Ermənistanı qanunsuz yollarla zəbt etmiş kriminal xunta rejimidir. Erməni xalqı üçün ən böyük təhlükə elə Ermənistanın indiki rəhbərliyidir.

Biz öz səylərimizi davam etdirəcəyik. Dəfələrlə bildirmi- şəm, bir daha demək istəyirəm ki, Azərbaycanın ərazi bütöv- lüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Beynəlxalq hüquq da bizim mövqemizi dəstəkləyir. Bölgədə vəziyyət bizim xeyrimizə işləyir. İqtisadi, hərbi potensial da aydındır ki, bizim tərəfimizdədir. Keçən ilin aprel hadisələri bunu bir daha göstərdi. Ona görə biz daha da güclü olmalıyıq, daha da güclənməliyik və bunu edirik. Ermənistan isə xarici yardımsız yaşaya bilmir. Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini

sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa olsun ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün biz uğurlu siyasət aparırıq, hər gün, hər il biz o günü yaxınlaşdırırıq. Bilirsiniz ki, Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaqdır.

Son illərin beynəlxalq münasibətləri göstərir ki, əfsuslar olsun, beynəlxalq təşkilatlar artıq o qədər də ciddi təsirə malik deyillər. Böyük dövlətlər isə öz maraqlarını güdürlər, beynəlxalq hüququ istədikləri kimi təhrif edirlər. Belə olan halda, güc əsas amildir və biz bunu bilirik.

İqtisadi vəziyyətimiz yaxşılaşır. Keçən il – mən ötən il burada demişdim – iqtisadi sabitləşmə, dərin iqtisadi islahatlar ili idi. Bu islahatlar öz bəhrəsini verməyə başlamışdır. Bu il isə artıq inkişaf ilidir. İlin 2 ayının göstəriciləri bunu təsdiqləyir. Böyük olmasa da, iqtisadi artım var. Ümumi daxili məhsul 0,4 faiz artıbdır. Qeyri-neft sənayemiz 5 faiz, kənd təsərrüfatı 3 faizdən çox artıb. Yəni bu, iqtisadi inkişafımızın əsas göstəriciləridir. Neft-qaz ixrac edən bir çox başqa ölkələrdən fərqli olaraq, keçən il biz öz valyuta ehtiyatlarımızı qoruya bilmişik, xərcləməmişik. Halbuki xərcləyə bilərdik. Ancaq biz ölkəmizin uzunmüddətli maraqları haqqında düşünürük. Biz hər il valyuta ehtiyatlarımızı artırmalıyıq. Buna nail oluruq. Bu gün bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfədən çox artıqdır. Bəlkə də dünya miqyasında çox az ölkə tapılar ki, göstərici bu səviyyədə olsun.

Bizim iqtisadi inkişafımız Davos Dünya İqtisadi Forumu tərəfindən də yüksək qiymətləndirilib. Bu il ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə Azərbaycan 37-ci yerə layiq görülüb. Keçən il biz 40-cı yerdə idik. Bu onu göstərir ki, hətta neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Dünya İqtisadi Forumu bizim iqtisadiyyatımızı daha da yüksək pilləyə qaldırıb.

Əlbəttə, dünya miqyasında iqtisadi rəqabətliliyə görə ən inkişaf etmiş 40 ölkə sırasında olmağımız uğurlu iqtisadi siyasətimizi əks etdirir. Onu göstərir ki, biz bu uğuru təkcə neft, qaz hesabına deyil, ciddi şaxələndirmə və islahatlar hesabına əldə etmişik.

Davos Forumunun ikinci önəmli reytinqi inkişafda olan ölkələrin inkişaf səviyyəsidir. Biz burada da bütün inkişaf edən ölkələr arasında birinci-ikinci yerləri bölüşürük. Bu bizim siyasətimizə, iqtisadi siyasətimizə verilən ən gözəl qiymətdir.

Əminəm ki, bu il iqtisadi inkişaf davam etdiriləcək. Çox böyük planlarımız var. İnvestisiya proqramı real sektorun inkişafına xidmət göstərəcək. Bu il kənd təsərrüfatında il ərzində 150 min hektardan çox torpağa su veriləcək. Bu, yüz minlərlə iş yerinin yaradılması deməkdir. Bu, kənd təsərrüfatının və ixracın artırılması deməkdir. Biz ilin 2 ayında ancaq dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaratmışıq. Nəyə görə? Ona görə ki, işsizlik artmasın. Çünki keçən il dövlət investisiyaları azalmışdır, xüsusilə tikinti sektorunda. Bəzi vətəndaşlar işlərini itirmişlər. Bank sektorunda da problemlər yaşandı. Bəzi banklar bağlandı, vətəndaşlar işlərini itirdilər. Ona görə mən biznes qurumlarına da çağırış etdim ki, hər bir şirkət heç olmasa 1-2 nəfəri işə götürsün. Bəlkə bu onlara o qədər də lazım deyil, ancaq biznes də sosial məsuliyyətini dərk etməlidir. Bizim dövlət şirkətlərimiz və yerli icra orqanları üçün xüsusi büdcə ayrılıb. İndi 40 mindən çox insan ictimai işlərə və digər təmir-tikinti işlərinə cəlb edilib. Əminəm ki, bu il Azərbaycan öz iqtisadi inkişafını davam etdirəcəkdir.

Sosial sahədə də böyük planlarımız var. Bu il ənənəvi olaraq, 5 milyon insan pulsuz diaqnostikadan, müayinədən keçir. Hesab edirəm ki, bu da dünya miqyasında nadir təşəb-büsdür. Artıq bunu etmək üçün hər cür imkan var. Hər bir rayonda müasir tibb müəssisələri yaradılıb. Son illər ərzində 600-dən çox tibb ocağı təmir olunub və tikilib.

Biz bu il İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bu, növbəti dəfə ölkəmizin potensialını göstərəcək və eyni zamanda,

islam həmrəyliyinə də növbəti töhfəmiz olacaq. Çünki buna böyük ehtiyac var. Bu oyunlar təkcə idman yarışı deyil. Bu oyunlar bütün islam aləmini bir araya gətirəcək. Əfsuslar olsun ki, bəzi müsəlman ölkələri arasında münasibətlər, yumşaq desək, lazımi səviyyədə deyil. Azərbaycan isə çalışır ki, müsəlman aləmində birlik möhkəmlənsin, güclənsin. Bu bizim ailəmizdir. Biz bu ailənin üzvüyük. Ona görə də biz istəyirik ki, bu ailədə əmin-amanlıq, inkişaf olsun, müharibələrə, münaqişələrə son qoyulsun.

Yəni biz uğurlu siyasətimizlə ölkəmizi gücləndiririk. Əgər bütün tariximizi götürsək, Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bizim uğurlu siyasətimiz, regional təşəb-büslər, enerji, nəqliyyat layihələri geniş mənada beynəlxalq əmək-daşlığı formalaşdırır. Biz beynəlxalq əməkdaşlığa öz fəlsə-fəmizi gətirmişik. Beynəlxalq əməkdaşlıq hər bir iştirakçı üçün uğurlu olmalıdır. Bu, zorla ola bilməz. Heç bir ölkəni zorla, məcburən hansısa təşəbbüsə cəlb etmək olmaz. Bunun heç bir effekti olmayacaq. Ölkələr bəlkə buna müqavimət göstərə bilmirlər, ancaq daxilən narahat olacaqlar ki, onları nəyəsə məcbur edirlər. Ona görə bizim beynəlxalq əməkdaşlıq doktrinamız əməkdaşlıq və qarşılıqlı dəstək üzərində qurulub. Məhz buna görə biz «Cənub Qaz Dəhlizi» kimi həm maliyyə, həm texniki, həm siyasi cəhətdən mürəkkəb olan bir layihəni icra edirik. Üçüncü dəfədir ki, Bakıda Məşvərət Şurası keçirilib və iştirak edən bütün ölkələr öz mənfəət payını alacaq. Biz bir çox layihələri icra etmişik və vəsait də xərcləmişik. Əlbəttə, bu vəsait həm vəsait olaraq, həm siyasi dividend kimi qayıdacaq, həm də ki, bölgədə yeni əməkdaşlıq mühiti yaratmışdır.

Azərbaycan bütün bu önəmli nəqliyyat və enerji layihələrinin təşəbbüskarıdır. Vaxt keçdikcə dünyada ölkəmiz haqqında daha da dolğun məlumat yayılır. Bizə böhtan, şər atan, bizə pis gözlə baxan qüvvələr yavaş-yavaş sıradan çıxır. Artıq onların bir çoxu siyasi səhnədən kənarlaşdırılıb. İndi dünyada yeni inkişaf dinamikası yaranır. Azərbaycan müasir, müstəqil, inkişafda olan ölkə kimi, dünyada daha çox tanınır.

Əziz dostlar, mən bu gözəl bayram ərəfəsində hər bir Azərbaycan ailəsinə uğurlar, cansağlığı arzulamaq istəyirəm. Arzu edirəm ki, ölkəmizdə həmişə sülh, inkişaf olsun, xalqımız rahat, firavan yaşasın.

Bayramınız mübarək olsun! Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəldilər.*

*Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılandı.*

*Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar, onları bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxdılar.*

*Dövlətimizin başçısı, xanımı, xarici qonaqlar və ümum-xalq şənliyinin digər iştirakçıları «Novruz» yarmarkası ilə tanış oldular. Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilirdi. Yarmarkada ölkəmizin iqtisadi rayonlarından onlarla şirkət öz məhsullarını təqdim edirdi. Son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ona görə də ekoloji cəhətdən təmizliyi ilə seçilən Azərbaycan məhsullarına dünyada böyük tələbat vardır.*

*Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazır-*

*lanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənəti nümunələrinə, Azərbaycan xalçalarına baxdılar, pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, aşıqların, «Nənələr», «Rəfti» özfəaliyyət kollektivlərinin, «Natiq» ritm qrupunun, Azərbaycan Dövlət Kukla Teatrının nəzdindəki «Oyuq» teatr-studiyasının kollektivinin ifalarını dinlədilər.*

*Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də vardır. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70–80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başlandı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün prezident İlham Əliyev də mədəni və mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçımızın hər il xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.*

*Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bə-*

*rabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsini və milli ruhunu özündə əks etdirir.*

*2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlərboyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.*

*Dövlətimizin başçısına və xanımına «İctimai Wi-Fi» layihəsi barədə təqdimat nümayiş olundu.*

*Bildirildi ki, ilkin mərhələdə əhalinin daha çox sıx istirahət etdiyi yerlər seçilib. Dənizkənarı Milli Park və Dövlət Bayrağı Meydanı, həmçinin İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ictimai internetdən istifadəni təmin edən avadanlıqlar quraşdırılıb. Növbəti mərhələdə Heydər Əliyev Mərkəzinin ətraf ərazilərində işlər həyata keçiriləcəkdir.*

*Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Mötəbər beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycanda bu ilin mayında IV İslam Həmrəyliyi oyunları, iyunda «Formula-1» Azərbaycan Qranprisi keçiriləcək.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qonaqlar burada «Formula-1» yarışlarının bolidinə baxdılar.*

*Dövlətimizin başçısına və xanımına IV İslam Həmrəyliyi oyunlarının ilk biletləri təqdim olundu.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva olimpiya çempionları, «Formula-1» Azərbaycan Qran-prisinin və IV İslam Həmrəyliyi oyunlarının könüllüləri ilə görüşdülər.*

*Ümumxalq şənliyinin iştirakçıları müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin ləziz təamlarından, bu bayramın rəmzi olan şirniyyat nümunələrindən daddılar.*

*Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın yüksək səviyyəli qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.*

*Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

*Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.*

## DANİMARKANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SVEND OLLİNQ İLƏ GÖRÜŞ

*26 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Danimarkanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Svend Ollinqin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Svend Ollinq Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Svend Ollinq etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Danimarka arasında ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə inkişaf etdirməyin zəruriliyini vurğuladı. Hazırda ölkələrimiz arasında iqtisadi, o cümlədən ticarət sahəsində əməkdaşlığın aşağı səviyyədə olduğunu deyən prezident İlham Əliyev daha çox biznes əlaqələrinə malik olmağın vacibliyini bildirdi.*

*Danimarka şirkətlərinin Azərbaycandakı uğurlu fəaliyyətinə toxunan Fövqəladə və Səlahiyyətli səfir Svend Ollinq ölkəsini təmsil edən şirkətin Azərbaycanın neft sektoruna sərmayə qoyduğunu, «Carlsberg» şirkətinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayaraq, hazırda ölkəmizin qida sənayesinə investorları cəlb etdiklərini bildirdi. O, Danimarka şirkətlərinin ölkəmizə müasir texnologiya gətirəcəklərini və azərbaycanlı tərəfdaşları ilə birgə İsmayıllı rayonunda Hind quşu fabrikini açmağı planlaşdırdıqlarını nəzərə çatdırdı. Ölkələrimiz arasında ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı müqavilənin imzalanacağını bildirən danimarkalı diplomat*

*əlaqələrimizin genişləndirilməsi ilə bağlı səylərini əsirgəmə-yəcəyini vurğuladı.*

*Dövlətimizin başçısı Danimarka şirkətlərinin ölkəmizin regionlarında qeyri-neft sektoruna sərmayə yatırmalarını Azərbaycanın iqtisadi siyasətinə uyğun olduğunu nəzərə çatdırdı və bunun regionların inkişaf etdirilməsi, yerli istehsalın genişləndirilməsi, idxaldan asılılığın azaldılması və daha çox ixrac imkanlarının artırılması baxımından önəmini qeyd etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Danimarkalı diplomat ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi.*

## PORTUQALİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PAULA LEAL DA SİLVA İLƏ GÖRÜŞ

*26 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Portuqaliyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Paula Leal da Silvanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Paula Leal da Silva Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xanım Paula Leal da Silva etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Fövqəladə və Səlahiyyətli səfir xanım Paula Leal da Silva Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Susanın, Baş nazir Antonio Kostanın ən xoş arzularını və dərin ehtiramlarını dövlətimizin başçısına çatdırdı.*

*O, ölkəmizə ilk dəfə səfər etdiyini, paytaxtımızın inkişafının onda çox böyük təəssürat yaratdığını vurğuladı. Xanım Paula Leal da Silva ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində və dərinləşdirilməsində çox maraqlı olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın da Portuqaliya ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparılmasının, iqtisadi fəaliyyətin səviyyəsinin və biznes əlaqələrinin artırılmasının vacibliyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında turizm sektorunda əməkdaşlıq üçün yaxşı imkanların olduğu qeyd edildi, bu sahədə qarşılıqlı əlaqələrin genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Marselo Rebelo de Susanın və Baş nazir Antonio Kostanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Portuqaliya Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## SAATLI RAYONUNA SƏFƏR

*28 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov bildirdi ki, son dövrdə abidənin yerləşdiyi parkda geniş abadlıq-quruculuq işləri aparılıb. Dövlətimizin başçısına rayonda icra olunan layihələr və qarşıda duran vəzifələr barədə məlumat verildi.*

### «Sarıcalar» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonunda yeni inşa edilən 110/35/10 kilovoltluq «Sarıcalar» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, 1982-ci ildən istismarda olan açıq paylayıcı quruluşlu 110/35/10 kilovoltluq «Sarıcalar» yarımstansiyası istismar müddətini başa vurduğundan Saatlı rayonunun fasiləsiz, keyfiyyətli və dayanıqlı elektrik təchizatını təmin etmirdi. Rayonun böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisinə artan tələbatın ödənilməsi, habelə 110 və 35 kilovoltluq elektrik şəbəkələrinin bir-biri ilə əlaqələndirilməsi məqsədilə 110 kilovoltluq «1-ci İmişli» hava xəttindən qidalanan açıq paylayıcı quruluşlu 110/35/6 kilovoltluq «Sarıcalar» yarımstansiyasının yerində 2 mənbədən*

*«1-ci və 2-ci İmişli» hava xətlərindən qidalanan qapalı paylayıcı quruluşlu yeni yarımstansiya inşa edilib.*

*Prezident İlham Əliyev yarımstansiyada yaradılan şərait ilə tanış oldu.*

*Binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkənin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkənin hərtərəfli inkişafı üçün həyata keçirdikləri layihələri əks etdirən fotostendlər yaradılıb.*

*Dispetçer otağında dövlətimizin başçısına məlumat verildi ki, yarımstansiya müasir standartlara uyğun elektron quruluşlu rele mühafizəsi və avtomatika sistemləri, eleqaz və vakuum quruluşlu avadanlıqlarla təchiz edilib, məsafədən idarəolunan SCADA dispetçer sisteminə qoşulub. Köhnə yarımstansiya 8 kəndi və 3637 abonenti elektrik enerjisi ilə təchiz etdiyi halda, yeni yarımstansiya 15 kəndi, 7222 abonenti, xüsusilə Saatlı rayonunda mövcud olan Pambıq zavodunu, daş karxanasını, iri ticarət obyektlərini, xəstəxanaları, məktəbləri və yeni infrastruktur layihələri üzrə inşa olunacaq obyektləri etibarlı və dayanıqlı elektrik enerjisi ilə təmin edəcək. Yarımstansiyanın tikintisi İmişli, Saatlı və Biləsuvar rayonlarının 110 kilovoltluq paylayıcı şəbəkələrini əlaqələndirəcək dairəvi elektrik təchizat sxeminin yaradılmasının ilk mərhələsidir ki, bununla da «Cənub» Elektrik Stansiyasından 330/110 kilovoltluq «İmişli» və iki 220 kilovoltluq «Salyan» və «Masallı» yarımstansiyalarından qidalanan 110 kilovoltluq 11 yarımstansiyanın əlaqələndirilməsini təmin edəcək. Saatlı rayonunda yaradılacaq Aqroparkın elektrik enerjisi ilə təminatı yeni dairəvi sxemlə mümkün olacaqdır.*

*Saatlı rayonunda 22547 abonent var ki, onlar rayon mərkəzini və 44 kəndi əhatə edir. Ümumilikdə, Saatlı Elektrik Şəbəkəsinin xidməti ərazisində iki 110/35/10 kilovoltluq, səkkiz 35/10 kilovoltluq, üç 35/6 kilovoltluq, 633 ədəd 10/6/0,4 kilovoltluq transformator məntəqəsi mövcuddur. Qısa müddətdə rayonda 32 müasir tipli komplekt transformator məntəqəsi şəbəkəyə qoşulub. Hava xəttində 5215 istismara yararsız ağac dirək dəmir-beton dirəklə əvəz edilib, istismara yararsız naqillər və kabellər də-*

*yişdirilib, Saatlı Elektrik Şəbəkəsinin qoyuluş gücü 85 MVA qədər artırılıb. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması ilə əlaqədar 35/10 kilovoltluq «Saatlı», 35/6 kilovoltluq «Muğan» yarımstansiyalarında yenidənqurma işləri başa çatmaq üzrədir. Bu işlər 18 kənddə davam etdirilir. Eyni zamanda, «Azərişıq» ASC Saatlı rayonunda vətəndaşların elektrik enerjisinin istehlakına dair müraciətlərinə baxılması üçün səyyar «ASAN kommunal» vasitəsilə və regional strukturlar tərəfindən elektron xidmətlər göstərir.*

*Dövlətimizin başçısına «Azərişıq»ın fəaliyyəti dövründə Aran regionunda görülən işlər barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, qısa müddətdə 35 kilovoltluq 45 yarımstansiyada təmir-bərpa işləri görülüb. Aran regionunda 250-dən artıq yeni tip Komplekt Transformator Məntəqəsi quraşdırılıb. Region üzrə 120 mindən artıq yeni elektron və smart tipli sayğac quraşdırılıb, İmişli, Sabirabad və Saatlı elektrik şəbəkələri üçün yeni ofis binaları tikilib. Bununla yanaşı, region üzrə hər bir rayon şəbəkəsində yeni yarımstansiyalar inşa olunub. Bunlar Saatlıda tikilən 110 kilovoltluq «Sarıcalar», İmişlidə 35 kilovoltluq «Məzrəli», Sabirabadda «Qaratoğay», Beyləqanda «Xalac», Ağcabədidə «Qiyamətdinli», Ağdamda «Qaradağlı», Zərdabda isə «Məlikli» yarımstansiyalarıdır.*

*Prezident İlham Əliyev 110 kilovoltluq «Sarıcalar» yarımstansiyası ilə yanaşı, 35 kilovoltluq 6 yarımstansiyanı da işə saldı.*

*Dövlətimizin başçısı müasir avadanlıqların quraşdırıldığı 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğulara baxdı. Burada şəbəkə işçiləri və növbətçi heyət üçün müvafiq otaqlar inşa edilib, yanğına qarşı xəbərdarlıq sistemi, yanğından mühafizə hovuzları yaradılıb.*

*Prezident İlham Əliyevə yarımstansiyanın həyətindəki 110 kilovoltluq açıq paylayıcı qurğu haqqında da ətraflı məlumat verildi. Ən son texnologiyalara əsaslanan belə layihələr həm paytaxtda, həm də bölgələrdə yenidənqurma tədbirlərinin ardıcıl olaraq həyata keçirildiyini bir daha göstərir.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Saatlı–Sarıcalar–Qara Nuru–Şirinbəyli–Fətəlikənd–Azadkənd avtomobil yolunun yenidən qurulmasından sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı–Sarıcalar–Qara Nuru–Şirinbəyli–Fətəlikənd–Azadkənd avtomobil yolunun yenidən qurulmasından sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Regionların inkişafı dövlət proqramlarına uyğun olaraq, son illərdə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə, Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönəldilən layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələrdən biri də Saatlı–Sarıcalar–Qara Nuru–Şirinbəyli–Fətəlikənd–Azadkənd avtomobil yolunun yenidən qurulması layihəsidir.*

*Görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, bu yol ölkəmizdə 2017-ci ildə həyata keçiriləcək 40 yol layihəsinin birincisidir. «Azəravtoyol» ASC-nin yenidən qurduğu Saatlı–Sarıcalar–Qara Nuru–Şirinbəyli–Fətəlikənd–Azadkənd avtomobil yolunun uzunluğu 39 kilometrdir. Layihəyə uyğun olaraq, yol yatağının eni 10 metr təşkil edir. Buraya yolun 6 metr enində hərəkət hissəsi və hər bir istiqamət üzrə 2 metr olmaqla, çiyinlər daxildir. Avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla, 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən*

*qurulub. Zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb. Bunun əvəzinə xüsusi material tökülərək, yenidən kipləşdirilib, yola 12 santimetr qalınlığında asfalt-beton örtüyü döşənib. Ümumilikdə burada 175 min kvadratmetr ərazinin asfaltlanması işləri aparılıb. Yenidənqurma işləri çərçivəsində zəruri olan yerlərdə 36 suötürücü boru tikilib. Bundan başqa, avtomobil yolunun 7, 31 və 39-cu kilometrlik hissələrində su kollektoru üzərində yerləşən su keçidlərinin təmiri işləri də aparılıb. Müvafiq olaraq həmin körpülərin uzunluqları 12, 14 və 16 metr təşkil edir. Tikinti işləri çərçivəsində hərəkətin normal təşkili üçün zəruri olan yerlərdə 157 yol nişanı və məlumatverici lövhə, 786 yol təhlükəsizlik dirəkləri quraşdırılıb, uzunluğu 98 kilometrdən artıq olan nişanlama xətləri çəkilib. Bütün işlər tərtib olunmuş qrafikə uyğun, vaxtında və yüksək keyfiyyətlə aparılıb. Bunun üçün əraziyə lazımi sayda texnika və qüvvə cəlb olunub. Yeni avtomobil yolunun istifadəyə verilməsi nəticəsində vətəndaşların gediş-gəlişində, xüsusən də payız-qış mövsümündə yaranan çətinlik tamamilə aradan qaldırılıb. Bu yol 51 mindən çox əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirərək, yük və sərnişindaşımasını xeyli yaxşılaşdıracaq. Yolun istifadəyə verilməsi sayəsində fermerlər yetişdirdikləri məhsulları rahat və daha tez mənzil başına çatdıra biləcəklər. Bu, layihənin iqtisadi səmərəsini daha da artırır. Ümumilikdə, kəndləri və qəsəbələri birləşdirən yolların dövlətimizin başçısının tapşırığına əsasən son illərdə müasir səviyyədə yenidən qurulması istiqamətində reallaşdırılan layihələr ardıcıl xarakter alıb. Bu layihələrin coğrafiyası getdikcə daha da genişlənərək, ölkəmizin bütün kənd və qəsəbələrini əhatə edir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Qıraqlı kəndi ərazisində fermer Humay Məmmədovanın pambıq sahəsi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonunun Qıraqlı kəndi ərazisində fermer Humay Məmmədovanın pambıq sahəsi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı pambıqçıları salamladı.*

**Humay Məmmədova** *(fermer):* Saatlı camaatı adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm, Sizə təşəkkür edirəm. Çünki biz pambıqçılar üçün bu şəraiti yaratdığınıza görə çox sevinirik. Saatlı zonası pambıqçılıqla yaşayır, inkişaf edir.

**İlham Əliyev:** Sağ olun. Biz də, əlbəttə, pambıqçılığı bərpa edirik.

**Humay Məmmədova:** Ulu öndərimizin Saatlıya çox səfəri olub. Ulu öndərimizlə 1974-cü, 1976-cı, 1978-ci illərdə görüşümüz olub. 1981-ci ildə briqadir işləmişəm, kolxoz sədri olmuşam.

**İlham Əliyev:** Kolxoz sədri?! Yəni təcrübəli insansınız.

**Humay Məmmədova:** Bəli, kolxoz sədri işləmişəm. 1981-ci ildə hektardan 50 sentner pambıq vermişəm.

**İlham Əliyev:** Bu səviyyəni gərək bərpa edək.

**Siraqəddin Cabbarov** (*Saatlı Rayon İcra Hakimiyyətinin başçısı*)**:** Rayon üzrə 40 sentner olub. Ötən il 30 sentner olub.

**Humay Məmmədova:** 40 ildən çox pambıq sahəsində işləmişəm. İndi də fermerəm, hazırda 12 nəfər təcrübəli işçimiz var.

**İlham Əliyev:** İndi yeni, gözəl texnika ilə təmin olunmusunuz. 12 nəfər işçiniz var?

**Humay Məmmədova:** Bəli. Bu sahə də bizimdir, mənim sahəmdir.

**İlham Əliyev:** Gedək, sahəyə baxaq.

**Humay Məmmədova:** Suyumuz, işığımız, qazımız, yolumuz, hər bir işimiz çox yaxşıdır. Çox şükür.

**İlham Əliyev:** Bu da bizdə istehsal olunan texnikadır, Gəncə Traktor zavodunda. Həmçinin xarici texnika da var.

*Dövlətimizin başçısı pambıqçılığın inkişafına mühüm töhfə olan yeni texnikalara baxdı.*

*Bildirildi ki, ötən il Qıraqlı kənd bələdiyyəsinə məxsus 18 hektar sahədə pambıq əkilib. Humay Məmmədova 2016-cı ildə hər hektardan 30 sentner məhsul götürüb. Pambıqçılıq üçün əlverişsiz hava şəraiti, aramsız yağışlar olmasaydı, məhsuldarlıq daha da yüksək olardı. 2017-ci ildə fermer əkin sahəsində vaxtında şum işləri aparıb və torpaq arata qoyulub. Bu il hər hektardan 40 sentnerdən artıq məhsulun götürülməsi planlaşdırılıb. Ümumilikdə, rayon pambıqçıları ötən il 8109 hektar sahədə pambıq əkiblər ki, bu da 2015-ci illə müqayisədə 2 dəfə çoxdur. Pambıq istehsalçıları 6 milyon manata yaxın real gəlir əldə ediblər. Bu il fermerlər ötən illə müqayisədə 2 dəfə çox, yəni 17150 hektar sahədə pambıq əkəcəklər.*

**İlham Əliyev:** Burada yaxşı iş görürsünüz. Əvvəlki illərdən çox gözəl təcrübəniz olub. İndi pambıqçılığı bərpa edirik.

**Humay Məmmədova:** Bəli, ulu öndərimizlə çox görüşlərimiz olub. Saatlının ən birinci təsərrüfatı pambıqçılıq olub.

**İlham Əliyev:** Əlbəttə, Saatlı indi də pambıqçılıqla inkişaf edəcək.

**Humay Məmmədova**: İndi pambıqçılığı bizə qaytardığınıza görə çox sevinirik.

**İlham Əliyev:** Bu il Saatlıda 17 min hektarda pambıq əkiləcək. 2015-ci ildə ölkəmizdə cəmi 18 min hektarda pambıq əkilmişdi. Bu il ancaq Saatlıda 17 min hektarda pambıq əkiləcək. Gələn il daha çox olacaq, artacaq. Su, elektrik, texnika, gübrələr, subsidiyalar var, alış qiyməti qalxıb. Zəhmətkeşlər də hər gün pul qazanacaqlar. Bizdə, bax, belə texnika ilə işləmək adama xoş gəlir.

**Humay Məmmədova:** Bəli, hamısı var, çox razıyıq. Allah Sizə ömür versin.

**Siraqəddin Cabbarov:** Allah köməyiniz olsun. Təsərrüfatların hamısında belə texnikalar var.

**İlham Əliyev:** İndi kifayət qədər kombaynlar da alınıbdır. Yay vaxtlarında bu texnika ilə işləmək çox rahatdır. Onlarda kondisioner də var.

**Siraqəddin Cabbarov**: Bəli, hər cür şərait var.

**Humay Məmmədova:** İşsizlərimiz pambıq yığımı vaxtı işə cəlb olunurlar, gəlib işləyirlər, işsiz qalmırlar.

**İlham Əliyev:** Əlbəttə, işsiz qalmamalıdırlar. Kim işləmək istəyirsə gəlsin işləsin. Sizdə hər hektarda orta hesabla neçə nəfər işləyəcək?

**Humay Məmmədova:** 18 hektarın hər 2 hektarında orta hesabla bir nəfər.

**İlham Əliyev:** 2 hektara bir nəfər?

**Siraqəddin Cabbarov**: Bu, hektarı çox olanlarda belədir. Ancaq pay torpaqlarında bir hektarda ən azı 5 nəfər işləyir. Ailənin nə qədər üzvü varsa, hamısı orada işləyir.

**İlham Əliyev:** Yəni orta hesabla 2 nəfər.

**Zeynal Nağdəliyev** *(Prezident Administrasiyası rəhbərinin müavini, şöbə müdiri)*: Respublika üzrə göstərici hektara 1,5 nəfərdir.

**İlham Əliyev:** 1,5 nəfər. Deməli, bu il 200 mindən çox insan işləyəcək.

**Çingiz Gözəlov** *(Pambıq zavodunun direktoru):* Cənab Prezident, biz 1500 fermerlə müqavilə bağlamışıq.

* * *

*Sonra pambıq səpininə start verildi.*

## Heydər Əliyev Fondu tərəfindən Saatlıda inşa edilmiş 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Heydər Əliyev Fondu tərəfindən Saatlıda inşa edilmiş 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimiz bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət göstərir. Müasir körpələr evi-uşaq bağçalarının*

*istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqli nəticəsidir.*

*Dövlətimizin başçısı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Saatlı rayonunda 20 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə 1368 uşaq tərbiyə alır. Rayonun tələbatını nəzərə alaraq, Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər biri 100 yerlik olmaqla, 2 yeni məktəbəqədər təhsil müəssisəsi üçün binalar inşa edilib. Şəhərin Heydər Əliyev prospektində yerləşən bu Körpələr evi-uşaq bağçası onlardan biridir. Burada inşaat işləri 2015-ci ilin mayında başlanılıb və 2016-cı ilin dekabrında başa çatdırılıb. İkimərtəbəli binanın ümumi sahəsi 942,6 kvadratmetrdir. Binada 4 qrup və 4 yataq otağı vardır. Bu otaqlarda balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün imkanlar yaradılıb. Bundan başqa, burada uşaqların asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkili üçün də hərtərəfli şərait mövcuddur. Binada tibb otağı, yeməkxana, mətbəx, camaşırxana və digər müxtəlif təyinatlı otaqlar var. Körpələr evi-uşaq bağçasında metodiki kabinet, oyun və musiqi zalları zəruri avadanlıqlarla təchiz edilib. Burada ümumilikdə 27 nəfər işlə təmin ediləcək.*

*Binanın ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Həyətdə uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksionlar quraşdırılıb.*

## Saatlı şəhərinin su təchizatı sistemlərinin istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı şəhərinin su təchizatı sistemlərinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində Saatlı şəhərində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi həyata keçirilir. Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi «Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi» çərçivəsində icra olunan bu layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Saatlı şəhərində 22 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasını nəzərdə tutur. Layihə çərçivəsində Saatlı rayonunun 7 kəndində 17 min nəfərin su təchizatı yaxşılaşdırılacaq. «Saatlı şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi çərçivəsində şəhərdə hər birinin tutumu 5000 kubmetr olan 2 su anbarı, nasos stansiyası inşa edilib. Şəhərdə 137 kilometr uzunluğunda paylayıcı su şəbəkəsi yaradılıb, 5000-dən artıq ünvana birləşmə verilib və sayğaclaşma işləri aparılıb. Bununla da yeni mənbədən bütün şəhərə içməli suyun verilməsi təmin edilib.*

*Qeyd edək ki, Saatlı şəhərində ilk mərkəzləşdirilmiş içməli su təchizatı sistemi ötən əsrin 60-cı illərində yaradılıb. Şəhərə içməli su Araz çayından və Sabir adına kanaldan götürülüb çökdürülərək verilirdi. Yeni layihəyə qədər «Azərsu» Açıq Səhmdar Cəmiyyəti şəhərin 19 min sakinindən 33 faizinə xidmət göstərirdi. Mərkəzləşdirilmiş qaydada su alan əhaliyə hər gün 2-3 saatlıq qrafik əsasında su verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi.*

*Saatlı şəhəri və ətraf kəndlərin keyfiyyətli və dayanıqlı su təchizatının təmin edilməsi məqsədilə Hacıqabul rayonu ərazisində yerləşən və Abşeron yarımadasını içməli su ilə təmin edən Kür sutəmizləyici qurğuların imkanlarından istifadə edilib. Bu məqsədlə 2014-cü ildə 62 kilometr uzunluğunda Sabirabad–Saatlı qrup su kəməri tikilərək istismara verilib. Magistral su kəmərinin 12 kilometrlik hissəsi metal, qalan hissəsi isə polietilen borulardan tikilib. Kəmər 1 yerdə Kür çayı, 1 yerdə dəmir yolu, 6 yerdə magistral avtomobil yolu, 3 yerdə beton kanal və 15 yerdə drenaj kollektoru ilə kəsişir. Sabirabad, Saatlı və Hacıqabul rayonlarının 160 minə yaxın sakinini keyfiyyətli içməli su ilə təmin etmək üçün tikilmiş Sabirabad–Saatlı magistral su kəməri 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla, Sabirabad şəhəri və rayonun 28 kəndində 100 min, Saatlı şəhəri və rayonun 12 kəndində 47 min, Hacıqabul rayonunun 4 kəndində isə 10 min nəfərin içməli suya olan tələbatını ödəyəcək.*

*Prezident İlham Əliyevin «Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında» 2017-ci il 17 mart tarixli Sərəncamına əsasən bu ilin sonuna qədər magistral kəmər boyunca yerləşən 30 kəndə içməli suyun verilməsi təmin ediləcək. Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi bu layihə Saatlı şəhəri ilə yanaşı, Sabirabad, Şamaxı və Qəbələ şəhərlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əhatə edir. 2014-cü ildə prezident İlham Əliyevin iştirakı ilə Sabirabad şəhərinə içməli suyun verilməsi mərasimi keçirilib. Şamaxı şəhərində içməli su təchizatı və kanalizasiya sistemlərinin, eləcə də tullantı sutəmizləyici qurğunun tikintisi yekunlaşmaq üzrədir. Qəbələ şəhərində icra olunan layihənin birinci mərhələsi çərçivəsində su mənbəyində işlər yekunlaşıb, magistral xətlərin və anbarların tikintisi başa çatdırılıb, şəhərdaxili su şəbəkəsinin bir hissəsinin inşası isə yekunlaşmaq üzrədir.*

*Prezident İlham Əliyev Saatlı şəhərinin su təchizatı sistemlərinin istismara verilməsini bildirən düyməni basdı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# SAATLI RAYONUNDA PAMBIQÇILIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ* İŞTİRAK

*28 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə martın 28-də Saatlıda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir.*

*Dövlətimizin başçısı müşavirədə giriş nitqi söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Biz bugünkü müşavirədə ölkəmizdə pambıqçılığın inkişafı ilə bağlı məsələləri müzakirə edəcəyik. Bildiyiniz kimi, pambıqçılığın inkişafı Azərbaycanda prioritet sahə sayılır. Uzun fasilədən sonra pambıqçılığa dair birinci müşavirəni keçən il Sabirabad şəhərində keçirdik. Bu il Saatlı şəhərində keçiririk. Bu il ən çox pambıq tədarükü Saatlı rayonunda gözlənilir. Pambıqçılığın rayonun inkişafına çox böyük xeyri var. Biz pambıqçılıqla məşğul olan bütün rayonlarda sürətli inkişafı görürük.

---

* Pambыqчылыьын inkiшafы mяsяlяlяrinя dair keçirilən respublika mцшavirяsində Saatlы Rayon Иcra Hakimiyyяtinin baшчысы Siraqəddin Cabbarov, Bilяsuvar Rayon Иcra Hakimiyyяtinin baшчысы Mahir Quliyev, «Gilan Holdinq»in Gilan kяnd tяsяrrцfatы qrupunun pambыqчылыq цzrя mцшaviri Bəhruz Camalov, Beylяqan Rayon Иcra Hakimiyyяtinin baшчысы Vaqif Abdullayev, Bяrdя Rayon Иcra Hakimiyyяtinin baшчысы Vidadi İsayev, «CTS Aqro» MMC-nin baш direktor яvяzi Arif İbrahimov, Tяrtяr Rayon Иcra Hakimiyyяtinin baшчысы Müstəqim Məmmədov və «Azяrbaycan Meliorasiya vя Su Tяsяrrцfatы» Aчыq Sяhmdar Cяmiyyяtinin sяdri Яhməd Яhmяdzadя çıxış etdilər.

Əvvəlki illərdə Saatlı rayonunun inkişafı ilə bağlı çox böyük işlər görülübdür.

Rayonun infrastrukturu tamamilə yenidən qurulub. Elek-trik enerjisi ilə təminat xeyli yaxşılaşıb. Bu gün açılışında iştirak etdiyim yeni yarımstansiyanın fəaliyyəti həm əhaliyə, həm də bütün təsərrüfatlara fasiləsiz elektrik enerjisini verməklə, əlbəttə, böyük bir inkişafa yol açır.

Eyni zamanda, Saatlı rayonunun su problemləri də həll olunur. Uzun illər ərzində əhali bu problemdən əziyyət çəkirdi. Şəhərin cəmi 30 faizi su ilə təmin olunurdu, özü də gündə 2-3 saat. İndi isə fasiləsiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir.

Mənə verilən məlumata görə, qazlaşdırma 80 faizə çatıb və əminəm ki, yaxın gələcəkdə Saatlıda bir dənə də yaşayış məntəqəsi qazsız olmayacaq. Məsələ belə qoyulub. Biz buna da nail olacağıq. Saatlı rayonunun, demək olar ki, bütün kənd yolları əsaslı təmir edilir, tikilir. Əvvəlki illərdə bir neçə önəmli kənd yolu layihəsi icra edilib. Birinin açılışını bu gün etdik. Bir neçə kəndi birləşdirən daha bir kənd yolu layihəsi var ki, o da yaxın zamanlarda icra ediləcək və əhalinin istifadəsinə veriləcəkdir.

Sosial obyektlərin tikintisi uğurla gedir. Müasir xəstəxana, Olimpiya Mərkəzi, məktəblər, uşaq bağçaları, bir sözlə, Saatlı rayonunun hərtərəfli inkişafı Dövlət Proqramı əsasında uğurla gedir. Vaxtilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilir və ölkəmizdə yeni reallıqlar yaradıbdır. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki – bu gün də bu vəzifə qarşımızda durur – bütün infrastruktur layihələri icra edilsin, müasir infrastruktur yaradılsın, elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorasiya problemləri həll olunsun, kənd yolları, magistral yollar tikilsin və bu özlüyündə sürətli iqtisadi və sosial inkişafa təkan verəcək. Belə də oldu. Nəzərə alsaq ki, regionların sosial-iqtisadi inkişafına dair artıq bir neçə Dövlət Proqramı icra edilib, görərik ki, bu proqramların çox böyük əhəmiyyəti var. İnfrastruktur layihələri icra olunandan sonra biznes üçün daha da yaxşı şərait yaradıldı.

Azərbaycan dövləti bu istiqamətdə ardıcıl siyasət aparır, sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, yeni ixrac bazarlarının araşdırılması və o bazarlara çıxmağımız ölkəmizin hərtərəfli inkişafına gətirib çıxarıb.

Biz fəaliyyətimizi gələcəkdə də uğurla davam etdirəcəyik. Qeyri-neft sektorunun inkişafı prioritet sahədir, xüsusilə indiki şəraitdə ki, neftin qiyməti dünya bazarlarında kəskin şəkildə aşağı düşüb. Biz indi qeyri-neft sektorunun inkişafına həm daha çox fikir verəcəyik, həm də daha da fəal iş aparılacaq.

Pambıqçılığın Azərbaycanda qədim ənənələri vardır. Əsrlərboyu xalqımız pambıqçılıqla məşğul olubdur. Ancaq pambıqçılığın ən sürətli və uğurlu inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə keçən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində Azərbaycanda pambıqçılıq sürətlə inkişaf edib. Əgər biz statistikaya nəzər salsaq görərik ki, ulu öndərin dövründə Azərbaycanda pambıq tədarükü bir neçə dəfə artıb. Ötən əsrin 80-ci illərinin əvvəllərində 800 min ton – 1 milyon tona qədər pambıq tədarük edilirdi.

Bu, əlbəttə, respublikanın inkişafına səbəb olmuşdu. Məşğulluq yüksək səviyyədə təmin edilirdi. Pambıqçılıqla məşğul olan zəhmətkeşlər öz həyat şəraitini xeyli dərəcədə yaxşılaşdırmışdılar. Kəndlərimiz abadlaşmışdı, o vaxt Azərbaycana böyük investisiya cəlb olunmuşdu. Əlbəttə, biz o vaxt müstəqil dövlət deyildik və Azərbaycan xalqı onu da unutmamalıdır ki, Sovet İttifaqının tərkibində Azərbaycan 2 respublikadan biri idi ki, öz tələbatını özü ödəyirdi, eyni zamanda, ümumittifaq büdcəsinə də töhfə verirdi. Qalan 13 respublika dotasiya ilə yaşayırdı.

Bir daha qeyd etmək istəyirəm ki, pambıqçılığın ənənələri böyükdür. Əfsuslar olsun ki, ulu öndər Azərbaycandan Moskvaya gedəndən sonra bütün sahələrdə olduğu kimi, biz pambıqçılıqda da tənəzzüllə qarşılaşdıq. İldən-ilə diqqət azalırdı, ildən-ilə pambıq sahələri kiçilirdi və bu proses, əfsuslar olsun ki, son illərə qədər davam edirdi.

Müstəqillik dövrünə gəldikdə, əlbəttə, biz müstəqilliyin ilk illərini yaxşı xatırlayırıq. Bu illər çox ağır keçirdi, dərin siyasi, iqtisadi, hərbi böhran yaşanırdı. Müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr Azərbaycanı məhvə aparırdılar, vətəndaş müharibəsi, kütləvi itaətsizlik, dərin böhran hökm sürürdü. Sənaye, kənd təsərrüfatı, demək olar ki, tamamilə dağıdılmışdı. Bizim üçün ənənəvi olan pambıqçılıq, üzümçülük məhvə doğru gedirdi. Ancaq 1993-cü ildən sonra ulu öndərin rəhbərliyi ilə vəziyyət sabitləşməyə başladı. Əgər statistik göstəricilərə nəzər salsaq görərik ki, 1996-cı ildən sonra Azərbaycanda hər il iqtisadi inkişaf var idi. Ancaq əfsuslar olsun ki, biz pambıqçılıqda istədiyimiz nəticəyə çata bilməmişdik. Bunun bir neçə səbəbi var idi. Birinci səbəb, əlbəttə, müstəqilliyin ilk illərində bizim kifayət qədər maliyyə imkanımızın olmaması idi. Burada əyləşən vətəndaşlar, yoldaşlar bilirlər ki, pambıqçılıq böyük investisiya tələb edən sahədir. Bizim o vaxt imkanımız yox idi. Olan imkanlarımızı da biz ən təcili məsələlərin həllinə yönəldirdik. Digər tərəfdən, biz müstəqillik dövründə ərzaq təhlükəsizliyi problemləri ilə üzləşmişdik. Çünki sovet vaxtında Ümumittifaq sənaye-iqtisadi kompleksi mövcud idi, Azərbaycanda üzümçülük, pambıqçılıq, tütünçülük inkişaf edirdi, meyvə-tərəvəz istehsalı artırdı. Ancaq biz ərzaq məhsullarını başqa respublikalardan – Rusiyadan, Ukraynadan, Belarusdan gətirirdik. Böyük bir asılılıq mövcud idi.

Ona görə biz ilk növbədə çalışırdıq ki, ərzaq təhlükəsizliyimizi təmin edək. Bunu da, demək olar ki, maksimum dərəcədə təmin edə bilmişik. Bu gün biz özümüzü ətlə 100 faiz təmin edirik. Süd və süd məhsulları, toyuq əti ilə təxminən 80–90 faiz təmin edirik. Sovet dövründə bu belə deyildi, biz tam asılı vəziyyətdə idik. Müstəqillik dövründə Azərbaycanda meyvə-tərəvəz istehsalı bir neçə dəfə artıbdır və bu bizim üçün böyük ixrac potensialıdır, böyük ixrac imkanlarımızdır. Ona görə biz daha çox ərzaq təhlükəsizliyi məsələlərinə diqqət göstərirdik. Texniki bitkilər – pambıqçılıq, tütünçülük, baramaçılıq isə bir qədər diqqətdən kənarda qaldı və əfsuslar olsun ki, demək olar,

biz bu sahələri itirirdik. Onu da açıq deməliyəm ki, pambıqçılığa dövlət dəstəyi çox zəif idi.

Hesab edirəm ki, bu gün pambıqçılığın inkişafı artıq reallıqdır və 2016-cı il dönüş ili oldu. 2015-ci il, demək olar ki, bizim müasir tariximizdə pambıqçılıqda ən pis il olmuşdur, 18 min hektardan cəmi 35 min ton pambıq tədarük edilmişdir. Keçən il qısa müddət ərzində – düzdür, bir qədər vaxt itirdik – bütün gücləri səfərbər edərək, biz dönüş yarada bildik. Çox ciddi tədbirlər görüldü, texnika alındı, dövlət dəstəyi göstərildi, imkan daxilində meliorasiya işləri aparıldı. Keçən il biz 51 min hektarda pambıq əkdik və nəticədə 90 min tona yaxın məhsul götürdük. Yəni bu, 2015-ci illə müqayisədə 3 dəfə çoxdur.

Ancaq bu il daha da ciddi hazırlaşmışıq. Bu il bütün aqrotexniki tədbirlər ən yüksək səviyyədə təşkil edilibdir. Bu gün mən Saatlı rayonunun bir pambıq tarlasında oldum. Orada da artıq biz səpinə rəsmi start verdik. Ən müasir texnika alınıb, lazım olan bütün avadanlıq, gübrələr, dərmanlar, hər şey hazırdır. Əlbəttə, bu il daha çox məhsul gözləyirik. Bu il və keçən il Dövlət İnvestisiya Proqramında pambıqçılığın inkişafı ilə bağlı böyük vəsait nəzərdə tutulubdur. Kompleks tədbirlər görülübdür. İlk növbədə, biz özümüzü texnika ilə təmin etməli idik və bunu etdik. Keçən il və bu il Azərbaycana minlərlə yeni texnika gətirilib. Keçən il 100-ə yaxın pambıqyığan kombayn gətirilmişdir. Bu il 200-dən çox müasir kombayn sifariş edilib.

Meliorasiya işləri uğurla aparılıb. «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyəti, eyni zamanda, yerli icra orqanları bu işlərdə fəal iştirak edirlər. Biz meliorativ tədbirləri genişləndirərək, dövriyyəyə yeni əkin sahələrini əlavə etdik. Hesab edirəm ki, bütün bu kompleks tədbirlər nəticəsində bu il rekord nəticə gözlənilir. Biz əkin sahələrini böyük dərəcədə genişləndirdik. Son məlumata görə, bu il 136 min hektarda pambığın səpini gözlənilir və orta məhsuldarlıq 20 sentner səviyyəsində olmalıdır. Keçən illə müqayisədə bu, artım deməkdir. Ancaq biz və pambıqçılar yaxşı bilirik ki, bu bizi qane edə bilməz. Sovet vaxtı məhsuldarlıq daha da böyük idi.

Nəzərə alsaq ki, bu gün həm müasir texnika alırıq, həm bütün digər tədbirləri ən yüksək səviyyədə görürük, əlbəttə, gələcək illərdə məhsuldarlıq daha da artmalıdır.

Pambıqçılığın ölkə iqtisadiyyatına çox böyük xeyri var. Bu, ölkəmizə valyuta gətirir və pambıq elə bir məhsuldur ki, dünya birjalarında satılır. Pambığın və mahlıcın satışı üçün bazarları aramaq lazım gəlmir və bu, əlbəttə, böyük üstünlükdür. Pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir. Keçən il pambıqçılığa on minlərlə insan cəlb edilmişdir. Bu il bu rəqəm daha da böyük olacaq. Bölgələrdə məşğulluğun artırılması baxımından pambıqçılığın çox böyük əhəmiyyəti var. Bunu artıq pambıq əkən bütün rayonların ictimaiyyəti və vəzifəli şəxslər yaxşı bilirlər, görürlər ki, bu gün bu rayonlarda işləmək istəyən, ancaq hələ işsiz qalan vətəndaş özü üçün iş tapa bilər.

Dövlət öz tədbirlərini görür. Onu da qeyd etməliyəm ki, ilin əvvəlindən ancaq ictimai işlərə 40 mindən çox vətəndaş cəlb edilibdir, 40 mindən çox yeni iş yeri ancaq dövlət sektorunda yaradılıbdır. Dövlət şirkətlərində, dövlət qurumlarında, yerli icra orqanlarında 40 mindən çox vətəndaş işlə təmin edilibdir. Bu, təmir-tikinti işləridir, yaşıllıqlara qulluq etmək üçün nəzərdə tutulan iş yerləridir. Biz yeni iş yerləri yaratmalıyıq. Çünki biz işsizliyi daim aşağı səviyyədə saxlamalıyıq. Bu gün dünya miqyasında işsizliklə mübarizədə Azərbaycan nümunəvi ölkə kimi göstərilir. Çünki bizdə işsizlik çox aşağı səviyyədədir və bu, aşağı səviyyədə qalmalıdır. Bəzi qonşu ölkələrdə işsizlik artıq böhran həddinə çatır, orada demoqrafik böhran yaşanır. Bizdə isə əhali artır. Əhali artdıqca biz yeni iş yerləri haqqında düşünməliyik. Əhalinin artımı çox müsbət göstəricidir və müsbət prosesdir. Azərbaycan əhalisi 10 milyona yaxınlaşır. Bu, yaxın gələcəkdə tarixi nailiyyət olacaq. Bu bizim qarşımızda yeni vəzifələr qoyur. Biz iş yerlərinin yaradılması ilə daim məşğul olmalıyıq ki, işsizlik aşağı səviyyədə olsun. Ona görə məşğulluq üçün pambıqçılığın çox böyük xeyri var.

Keçən ildən başlayaraq, pambıqçılığa çox böyük dövlət dəstəyi göstəririk. Bu gün biz pambıqçılıqla bağlı ikinci müşavirəni

keçiririk. Bu müşavirələrin keçirilməsi özlüyündə dövlət dəstəyinin təzahürüdür. Biz vətəndaşları, fermerləri stimullaşdırmaq üçün çox ciddi tədbirlər gördük. Pambığın alış qiyməti keçən il 41 qəpikdən 50 qəpiyə qaldırıldı, eyni zamanda, 10 qəpik subsidiya verilir. Vətəndaşlar hər gün tarla başında öz halal pulunu alırlar. Artıq vətəndaşlar tərəfindən pambıqçılığa çox böyük maraq yaranıb. Bu çox önəmli amildir. Dövlət öz dəstəyini göstərir və göstərəcəkdir. Biz pambıqçılığın inkişafı üçün yüz milyonlarla dollar xərcləmişik və xərcləyəcəyik. Ancaq əgər vətəndaşlar tərəfindən bu sahəyə maraq göstərilməsəydi, bizim işlərimiz yarımçıq qala bilərdi. Ona görə, bax, burada həm dövlət dəstəyi, bütün dövlət qurumlarının, özəl qurumların birgə fəaliyyəti və ictimaiyyət tərəfindən göstərilən dəstək tamamilə yeni bir vəziyyətə gətirib çıxarır. Əminəm ki, bu il göstəricilər daha yaxşı olacaq və buna şübhə yoxdur. Əlbəttə ki, biz gələcəkdə pambıqçılığı daha sürətlə inkişaf etdirəcəyik. Pambıqçılıq daha geniş vüsət alacaq və həm vətəndaşlara, həm dövlətə bunun böyük xeyri olacaqdır.

Azərbaycanda dövlət həmişə sahibkarlara kömək göstərir. Bu kömək və yardım müxtəlif sahələrdə özünü büruzə verir. Əlbəttə, ilk növbədə, mənim siyasi dəstəyim xüsusi əhəmiyyət daşıyır. Mən hər il dəfələrlə sahibkarlarla görüşürəm, çalışıram ki, onların problemləri həll olunsun və onlar da ölkə iqtisadiyyatına daha böyük həvəslə yatırım, yəni sərmayə qoysunlar. Eyni zamanda, sahibkarlara böyük maliyyə dəstəyi göstərilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu günə qədər 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilibdir. Bu kreditlər iqtisadiyyatın real sektoruna verilir. Bu kreditlər hesabına on minlərlə yeni iş yeri, yüzlərlə, minlərlə yeni müəssisə yaradılıb və bir sözlə, ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar açılıbdır. Məhz bunun nəticəsində bu ilin ilk 2 ayında qeyri-neft sənayemiz 5 faiz, kənd təsərrüfatı isə 3 faizdən çox artıbdır. Bu, iqtisadiyyatın real sektorunun – qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafının göstəriciləridir. Çünki neft sənayesinin inkişafı

qiymətlərlə tənzimlənir. Neftin qiyməti qalxarsa, əlbəttə ki, göstərici də qalxacaq. Neftin hasilatı qalxarsa, göstərici də qalxacaq, düşərsə, düşəcək. Ona görə bu, göstərici deyil. Bizim üçün əsas göstərici qeyri-neft sektorunun və kənd təsərrüfatının göstəriciləridir. Hər 2 göstərici çox müsbətdir. Hesab edirəm ki, bu gün dünya miqyasında ən yüksək inkişaf göstəriciləri məhz bizim göstəricilərimizdir. Bunu beynəlxalq mötəbər qurumlar da qeyd edir. Onların arasında xüsusilə Davos Dünya İqtisadi Forumu ən mötəbər dünya forumudur və onun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı dünya miqyasında öz rəqabətqabliyyətliliyinə görə 37-ci yerdədir. Dünyada 200-dən çox ölkə var. Biz bu parametrə görə 37-ci yerdəyik. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Bundan əlavə, biz keçən ilə nisbətən 3 pillə yuxarı qalxmışıq. Əlbəttə, bu bizim işimizə verilən yüksək qiymətdir və bizi sevindirir. Ancaq əsas məsələ ölkəmizdə gedən proseslərdir və bu proseslər müsbət istiqamətdə gedir.

Azərbaycanda sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan həm bölgədə, həm dünyada öz siyasəti ilə seçilir. Azərbaycanda təhlükəsizlik tədbirləri təmin edilir, ictimai proseslər müsbət istiqamətdə gedir, vətəndaş həmrəyliyi möhkəmlənir, iqtisadi inkişaf, regionların inkişafı sürətlə gedir. Biz bu gün bir nümunə göstəririk – ölkəni necə idarə etmək lazımdır? Bu nümunəni biz göstəririk və əlbəttə ki, bu siyasət xalq tərəfindən də bəyənilir, dəstəklənir. Bizim gələcək planlarımızın reallaşdırılması üçün bu, əsas amildir. Xalq–iqtidar birliyi hər bir ölkənin uğurlu inkişafını şərtləndirən əsas amildir.

Bizim uğurlu iqtisadi siyasətimiz, regionların inkişafı və yeni təşəbbüslər, islahatlar əminəm ki, dayanıqlı inkişafı təmin edəcəkdir. Bu yaxınlarda bir çox sahələr üzrə strateji yol xəritələri tərtib edilib, onlar dərc olunub. İctimaiyyət artıq bunu bilir. Hər bir sahə üzrə konkret proqramlar var, biz bu proqramlar əsasında işləyirik və işləyəcəyik.

Növbəti illərdə əsas vəzifələrdən biri qeyri-neft məhsulları ixracının artırılmasıdır. Çünki neft-qaz sahəsində hər şey müsbət istiqamətdə gedir. Bizim böyük «Cənub Qaz Dəhlizi» la-

yihəsi uğurla icra edilir. Bu da tarixi layihədir. Ancaq bizim əsas məqsədimiz qeyri-neft ixracımızı artırmaqdır. Bunu etmək üçün kənd təsərrüfatının ənənəvi sahələri inkişaf etməlidir. Burada təkcə pambıqçılıqdan söhbət getmir. Biz keçən il tütünçülükdə də, baramaçılıqda da ciddi dönüş yarada bilmişik. Tütün istehsalı artır. Biz artıq quru tütünün ixracı ilə də ciddi məşğuluq, kontraktlar imzalanıbdır. Üzümçülüyün inkişafı sürətlə gedir, şərab məhsullarının ixracı da artmalıdır və artıq artır. Baramaçılıq sürətlə inkişaf edir. Əgər 2015-ci ildə cəmi 200 kiloqramdan bir qədər çox barama tədarük olunubsa, keçən il bu, 70 tona çatıb, bu il daha da yüksək rəqəm olacaqdır. Şəki İpək kombinatının işi bərpa edilib. Orada da subsidiyalar verilir. Tütünçülükdə də subsidiya verilir. İndi şəkər çuğundurunun kütləvi əkini başlanıb. Bu bizə çox lazımdır. Çünki bizim Şəkər zavodumuz daha çox xaricdən gələn xammalla işləyir. Biz daha çox yerli xammalı təmin etməliyik. Bu da məşğulluq və ixrac potensialı deməkdir. Ona görə qeyri-neft məhsullarının, xüsusilə kənd təsərrüfatı məhsullarının ixracı bizim üçün indiki inkişaf mərhələmizdə əsas vəzifədir.

Biz bir neçə ölkədə ticarət evləri yaradırıq. «Made in Azerbaijan» brendi artıq dünyaya yayılıbdır. İndi bütün siyasi təmaslarda, həmkarlarımla görüşlər əsnasında ən vacib məsələ məhz Azərbaycan məhsullarının ixracı məsələsidir. Bu məsələni mən qaldırıram və siyasi dəstək olan yerdə, əlbəttə, bizim sahibkarlarımız üçün də yeni imkanlar yaranır. Sahibkarlar özləri də fəal olmalıdırlar, özləri yeni bazarlara çıxmalıdırlar. Onsuz da Azərbaycan dövləti bunu təşkil edir. Biznes-forumlar keçirilir, hökumət nümayəndə heyətlərinin tərkibində artıq iş adamları da həmişə təmsil olunurlar. Onlar da fəal olmalıdırlar, öz məhsullarını təbliğ etməlidirlər, çalışmalıdırlar ki, bu imkandan istifadə edib öz məhsullarını daha çox xarici bazarlara satsınlar. Daxili bazarı da maksimum dərəcədə təmin etməliyik və bunu edirik.

Bir sözlə, artıq keçən il ərzində pambıqçılıqda əldə edilən müsbət təcrübə gələcəyə nikbinliklə baxmaq üçün böyük əsas

verir. Bugünkü müşavirədə pambıqçılığın inkişafı ilə bağlı önəmli məsələlər müzakirə ediləcək. Əminəm ki, bu gün start verdiyimiz səpin kampaniyası uğurla başa çatacaq və biz bol məhsul əldə edəcəyik.

## Azərbaycan prezidenti İlham Əliyevin yekun nitqi

Bu il 22 rayonda pambıq əkiləcək. Mənə verilən son məlumata görə, əkin sahələri 136 min hektar olacaq. Rayonlar üzrə hektarların həcmi aşağıdakı kimidir və mən istəyirəm bu rəqəmləri səsləndirim, bunu həm ictimaiyyət, həm də zəhmətkeşlər bilsinlər ki, burada işləmək üçün çox böyük imkanlar yaranıb.

Ağcabədi rayonunda 8800, Ağdamda 3000, Ağdaşda 3000, Ağsuda 2500, Beyləqanda 8500, Bərdədə 8500, Biləsuvarda 11000, Cəlilabadda 500, Füzulidə 2000, Goranboyda 5000, Hacıqabulda 1200, İmişlidə 18 000, Kürdəmirdə 4000, Neftçalada 10 000, Saatlıda 17100, Sabirabadda 15 000, Salyanda 7000, Samuxda 30, Tərtərdə 3000, Ucarda 2500, Yevlaxda 2000-ə yaxın, Zərdabda 3100 hektarda pambıq əkiləcək. Bu, yaxşı göstəricidir, keçən illə müqayisədə təxminən 3 dəfə çoxdur. Biz çalışmalıyıq ki, növbəti illər üçün əkin sahələrini genişləndirək.

Orta məhsuldarlıq 20 sentner ətrafında gözlənilir. Əlbəttə ki, çox da ola bilər, az da. Misal üçün, keçən il 17 sentner olub. Ancaq keçən il, əlbəttə ki, biz bir qədər vaxt itirdik, hava şəraiti imkan vermədi. Burada qeyd olundu ki, hətta yanvar ayında pambıq yığılırdı. Ancaq kütləvi surətdə yığım dekabr ayına qədər davam edirdi. Bu il bütün işlər vaxtında görülməlidir. Bütün hazırlıq işləri vaxtında və əsaslı görülüb. Səpinə artıq bu gün start verildi və yığım da vaxtında aparıl-malıdır. Əgər biz hektardan orta hesabla 20 sentner götür-sək, bu 270 min ton pambıq tədarükü deməkdir. Əgər biz 2015-ci ildə cəmi 35 min ton pambıq yığıldığını nəzərə alsaq, bu, qısa müddət ərzində çox böyük göstəricidir. Qısa müddət ərzində görülən işlər, bax, bu gözəl nəticəyə gətirib çıxarıb. Bu onu göstərir ki, dövlət dəstəyi olan yerdə, işlər düzgün təşkil olunanda hər şeyi etmək

mümkündür. Biz Azərbay-canda pambıqçılığı artıq, demək olar ki, bərpa etmişik və bundan sonra gələcək illərdə ancaq inkişaf yolu ilə gedəcə-yik. Bütün tarlalarda zəhmətkeşlər üçün yaxşı şərait yaradıl-malıdır. Əkin sahələri artdıqca, bütün lazımi infrastruktur, tədbirlər, tarla düşərgələri, hər şey yüksək səviyyədə təşkil edilməlidir ki, zəhmətkeşlər razı qalsınlar.

Biz itkiləri həm tarlalarda, həm də ki, yollarda minimuma endirməliyik. Pambıq sahələrinə gedən yollar əsaslı təmir edilir. Ümumiyyətlə, ölkəmizdə kənd yollarının təmiri və tikintisi, yeni yolların salınması geniş vüsət alıb. Biz son illər ərzində bir çox layihələr həyata keçirmişik. Təkcə bu il 40-dan çox layihə icra edilib və bu layihələr yüzlərlə kəndi birləşdirən layihələrdir. Mən artıq giriş sözümdə qeyd etdim, Saatlı rayonunda bir kənd yolu layihəsi qalıb, o da icra olunandan sonra bir dənə də asfaltsız, təmirsiz kənd yolu qalmayacaq. Bütün rayonlarda da bu proqram icra edilir. Bu il və gələn il buna böyük vəsait ayrılıb və ayrılacaq. Burada biz kəndləri birləşdiririk. Bu, vətəndaşlar üçün böyük rahatlıq deməkdir. Biz əsas əkin sahələrinə də yollar çəkirik ki, itkilər az olsun, yanacaq sərfiyyatı aşağı düşsün, fermerlər öz məhsullarını bazarlara, ya da emal müəssisələrinə daha qısa müddət ərzində çatdıra bilsinlər.

Qəbul məntəqələrində və pambıqtəmizləmə zavodlarında fasiləsiz elektrik enerjisi təmin edilməlidir. Nasos stansiya-larına da fasiləsiz enerji verilməlidir. Bu gün Saatlıda açılı-şında iştirak etdiyim yeni yarımstansiyanın timsalında biz yeniləşən enerji təsərrüfatını görürük. Bütün bölgələrdə yarımstansiyalar tikilir, yeni xətlər çəkilir, dirəklər dəyişdirilir. Bir sözlə, fasiləsiz elektrik enerjisi həm əhaliyə, həm də iqtisadiyyata lazımdır. Xüsusilə pambıqçılıq sahəsi üçün fasiləsiz elektrik enerjisi mühüm əhəmiyyət daşıyır. Keçən il bu işlər yaxşı səviyyədə görülüb, bu il də ən yüksək səviyyədə təmin edilməlidir.

Əkin sahələrinin genişlənməsini nəzərə alsaq, bu il pam-bıqçılıqda 200 mindən çox insan işlə təmin olunur və oluna-caq. Keçən il bu rəqəm 64 min idi. Burada da iş üçün 3 dəfə-dən çox

imkanlar yaranıb. Bu, əlbəttə, məşğulluğun artırıl-masına, işsizliyin azalmasına gətirib çıxaracaq. İşləmək istəyən vətəndaşlar özləri üçün iş tapa biləcəklər.

Mən artıq qeyd etdim ki, keçən il pambığın qiyməti 9 qəpik artırıldı, 10 qəpik də subsidiya verilir. Bu bir daha göstərir ki, dövlət bu sahəyə çox böyük əhəmiyyət verir. Eyni zamanda, onu göstərir ki, dövlət fermerlərə öz dəstəyini əsirgəmir. Hesab edirəm ki, fermerlərimiz üçün yaradılmış şərait heç bir başqa ölkədə yoxdur. Bizim fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Həm investisiya, həm ixrac üçün təşviq mexanizmi artıq işə salınıb. Bu da fermerlərə əlavə stimul verir, onlar üçün əlavə imkanlar yaradır. İndi, demək olar ki, bütün əsas kənd təsərrüfatı sahələri, o cümlədən pambıqçılıq üçün subsidiyalar verilir.

Güzəştli şərtlərlə gübrələr verilir. Fermerlər gübrənin qiymətinin cəmi 30 faizini ödəyirlər. Güzəştli şərtlərlə yanacaq və kreditlər verilir. Mən artıq qeyd etdim ki, iqtisadiyyatın real sektoruna 2 milyard manat ən aşağı faizlə kreditlər ayrılıb. Bu, əsasən bölgələrə gedən vəsaitdir. Metodik tövsiyələr verilir, kənd yolları, magistral yollar salınır. Yəni bütün infrastruktur layihələri, bütün bunlar dövlət tərəfindən göstərilən dəstək və böyük maliyyə dəstəyidir. Bunu ona görə edirik ki, insanlar daha da yaxşı yaşasınlar, fermerlər, işləyən vətəndaşlar daha çox pul qazansınlar və onların yaşayış səviyyəsi artsın. Bu il ancaq pambıq becərən 22 rayonda 200 min yeni iş yeri açılıb və növbəti illərdə bu rəqəm daha da artacaq. Odur ki, bütün aidiyyəti qurumlar, ümumiyyətlə, bizim gələcəkdə əmək resurslarımızla bağlı olan siyasəti həm təhlil etməli, həm də təkliflər verməlidir.

Mən artıq qeyd etdim ki, uğurlu iqtisadi siyasət, sabitlik, əmin-amanlıq nəticəsində Azərbaycanda əhali artır və artacaq. Biz gərək əmək resurslarımızdan səmərəli istifadə edək. Həm yeni iş yerlərinin yaradılması ilə bağlı tədbirlər görülür və yaradılacaq proqnozlaşdırılan iş yerləri ilə bağlı biz əmək resurslarını səfərbər etməliyik ki, burada həm boşluq, həm əmək

resurslarının çatışmazlığı yaranmasın, eyni zamanda, işsizlik də artmasın. Ona görə burada çox düşünülmüş siyasət aparılmalıdır və xüsusilə pambıqçılıqda sürətlə artan iş yerlərinin nəzərə alınması mütləq gündəlikdə olmalıdır.

Kadr hazırlığı məsələləri böyük əhəmiyyət daşıyır. Ümumiyyətlə, növbəti illərdə peşə hazırlığı Azərbaycanda geniş vüsət almalıdır və buna böyük ehtiyac var. Peşə məktəblərinin yaradılması prosesi gedir, daha da sürətlə getməlidir. Bu proses iqtisadiyyatın ümumi inkişafı ilə uzlaşmalıdır. Biz iqtisadi inkişafımızı planlaşdırırıq. Bizim regional inkişaf proqramlarımız dərc olunur. Yəni biz öz beşillik fəaliyyət planımızı tərtib edirik və eyni zamanda, sənaye, kənd təsərrüfatı və digər sahələrlə bağlı proqramlar bizə yol göstərir. Ona görə peşə hazırlığı buna uyğun şəkildə aparılmalıdır. Nə qədər və hansı istiqamətdə peşə məktəbləri olmalıdır? Kənd təsərrüfatı, sənaye, turizm sahələrində ixtisaslaşmış peşə məktəblərinin yaradılmasına böyük ehtiyac var, çünki bu sahələr bundan sonra da Azərbaycanda sürətlə inkişaf edəcək.

Kənd təsərrüfatı mütəxəssisləri, aqronomlar – bu peşələr üzrə kadrlar hazırlanmalıdır. Bildiyimə görə, burada müəy-yən qıtlıq yaşanır və biz gəncləri bu sahəyə cəlb etməliyik, stimullaşdırmalıyıq ki, onlar da bilsinlər, peşəkar olandan sonra onların yaşayış səviyyəsi yüksək dərəcədə yaxşılaşacaqdır. Bu istiqamətdə işlər keçən il görülüb və bu il də davam edəcək. Pivot suvarma sistemləri ölkəmizə gətirilib. Əvvəlki illərdə bəzi rayonlarda bu sistemlərdən özəl qurumlar istifadə etmişlər. Ancaq onların sayı bizi qane edə bilməz. Ona görə dövlət bu sahəyə də öz dəstəyini göstərməyə başlayıb. Pivot sistemləri dünyada ən müasir və ən səmərəli suvarma sistemidir. Pivot sistemləri məhsuldarlığı bir neçə dəfə artıra bilər. Bu sistemlərdən Azərbaycanda təkcə pambıqçılıqda yox, başqa sahələrdə də istifadə olunur və olunacaqdır. Bu sistemlər böyük dönüş yaradacaq. Eyni torpaqda məhsuldarlıq artdıqca həm fermerlər, həm də dövlət ancaq xeyir götürəcək.

Nəzərə alsaq ki, kənd təsərrüfatının inkişafı, xüsusilə suvarma, meliorasiya ilə bağlı bizim bundan sonra da böyük planlarımız olacaq və vardır, biz pivot suvarma sistemlərini Azərbaycanda özümüz istehsal etməliyik. Bilirəm ki, belə bir təşəbbüs artıq irəli sürülüb. Buna dəstək vermək lazımdır və dövlət qurumları dəstək versinlər ki, tezliklə biz özümüzü pivot sistemləri ilə özümüz təmin edə bilək.

Bütövlükdə, əvvəlki illərdə və son illər ərzində meliorasiya sahəsinə ayrılmış böyük vəsait artıq öz nəticəsini göstərir. Biz son illər ərzində 4 böyük su anbarını yaratdıq. Onlardan Taxtakörpü və Şəmkirçay ən böyük su hövzələridir. Göytəpə və Tovuzçay su anbarları da istifadəyə verilib və bunun nəticəsində on minlərlə yeni torpaqlar əkinə cəlb olunur. İndi bütün işlər görülür. Bu istiqamətdə işlər davam etdirilməlidir və suvarma ilə bağlı indi çox ciddi fəaliyyət proqramı hazırlanır. Əlbəttə, kanalların təmizlənməsi, yeni kanalların çəkilməsi, eyni zamanda, əkin sahələrində pivot sistemlərinin qurulması böyük məna daşıyır.

Ölkəmizdə Pestisid İstehsalı zavodunun yaradılması da çox vacibdir. Biz pestisidləri xaricdən alırıq. Valyutanı xari-cə xərcləməmək üçün biz bunu daxildə təşkil edə bilərik. Bildiyiniz kimi, ölkəmizdə böyük Gübrə zavodu tikilir. Gələn il fəaliyyətə başlayacaq və biz özümüzü azot gübrələri ilə tam təmin edəcəyik və xaricə də ixrac edəcəyik. Pestisid İstehsalı zavodunun yaradılması da zəruridir.

Mən artıq bu barədə keçən müşavirədə demişəm, bir daha demək istəyirəm ki, bir neçə ildən sonra bizə yeni pambıqtəmizləmə zavodları lazım olacaq. Burada deyildi ki, İmişlidə yeni bir zavodun tikintisi nəzərdə tutulur. Ancaq biz zavodların tikintisini pambığın proqnozlaşdırılan tədarükü ilə uzlaşdırmalıyıq. Mənə verilən məlumata görə, bizdə hazırda cəmi 22 zavod fəaliyyət göstərir və o zavodların emal gücü 400 min tondur. Sovet vaxtında isə zavodların emal gücü 900 min ton idi. O zavodların bir çoxu artıq fəaliyyətsizdir, 22 zavod fəaliyyətdədir. Əgər pambıqçılığı götürdüyümüz sürətlə inkişaf etdirsək, biz təqribən 1-

2 ilə 400 min tona çatacağıq. Ona görə indidən bütün işlər görülməlidir. İqtisadiyyat Nazirliyi, Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Nazirliyi, özəl qurumlar – işləyin və mənə məlumat verin. Biz vaxt itirməməliyik.

Bu il görülmüş tədbirlər nəticəsində 150 min hektar suvarılmamış torpaqlara su çəkilişi təmin ediləcəkdir. Bu, hesab edirəm ki, tarixi nailiyyətdir. 1 il ərzində bu qədər torpaq sahəsini su ilə təmin etmək doğrudan da böyük nailiyyətdir. Bunu biz çox operativ şəkildə, qısa müddətdə həll etdik, həm «Meliorasiya və Su Təsərrüfatı» Səhmdar Cəmiyyətinin xətti ilə, həm yerli icra orqanlarının fəaliyyəti nəticəsində biz buna nail ola bilmişik. Bu 150 min hektarın böyük hissəsi pambıqçılıq üçün nəzərdə tutulur və əlbəttə ki, biz bunu etməsəydik, bugünkü rəqəmlərdən danışa bilməzdik.

Biz işləri davam etdirməliyik. Mənə artıq gələn il üçün təkliflər təqdim olundu. İlkin hesablamalara görə, gələn il biz təqribən əlavə 90 min hektara yaxın torpağa su çəkə bilərik. Bu istiqamətdə işlər artıq başlanır və mütləq bu, Dövlət İnvestisiya Proqramına salınmalıdır. Bizim hələ ki, bölüşdürülməmiş ehtiyatımız var. Biz bu il də vəsait əlavə edə bilərik ki, gələn ilin əkin mövsümünə yeni torpaqlara su gətirək.

Əlbəttə ki, biz bu gün qarşımıza o qədər də böyük olmayan hədəflər qoyuruq. Hektardan 20 sentner çox aşağı göstəricidir. Bu gün olduğum pambıq tarlasında mənə verilən məlumata görə, onlar 40 sentner götürəcəklər. Bu gün səsləndirildi, bəzi təsərrüfatlar 50 sentner götürür. Əlbəttə, bunlar böyük göstəricilərdir. Ancaq sovet dövründə orta məhsul-darlıq 30–35 sentner idi. Yəni biz buna çalışmalıyıq. O vaxt hələ müasir suvarma sistemləri, müasir traktorlar, kombayn-lar yox idi. Ona görə bu mümkündür və biz həm əkin sahələ-rini genişləndirməliyik, həm də məhsuldarlığı artırmalıyıq.

Keçən il 51 min hektardan 90 min tona yaxın pambıq yığılmışdı. Qeyd etdiyim kimi, bu il 136 min hektardan 270 min ton gözlənilir, bəlkə də çox ola bilər. Ancaq mən istəmirəm ki, qarşıya hansısa bir hədəf, yaxud da ki, plan qoyum. Əlbəttə, həyat,

təbii şərait, hava şəraiti bunu göstərər. Bunun da böyük rolu var. Ancaq biz real imkanımızı bilməliyik və çalışmalıyıq ki, işlər daha da böyük səmərə ilə aparılsın. Məndə olan məlumata görə, pivot suvarması ilə çox rahat surətdə hər hektardan təqribən 35–40 sentner pambıq götürmək mümkündür. Hesab edirəm ki, açıq suvarma yolu ilə 25 sentner də real rəqəm ola bilər. Hesab edirəm ki, biz 2020-ci ildə açıq suvarma yolu ilə 140 min hektarda pambıq əkə bilərik və təqribən 60–65 min hektar pivot sistemləri ilə təmin oluna bilər. Əgər biz buna nail olsaq, orta məhsuldarlıq 30 sentnerə çatacaq və bu, il ərzində 600 min ton pambıq tədarükü deməkdir. Bu, real rəqəmlərdir. Bu rəqəmlərə çatmaq üçün dövlət öz üzərinə düşən vəzifəni icra edəcək, nə qədər lazımdırsa vəsait ayrılacaq, Dövlət İnvestisiya Proqramında nəzərdə tutulacaq, əlavə texnika alınacaq, yeni kanallar çəkiləcək. Sadəcə, zəhmətkeşlər, fermerlər və yerli icra orqanları buna hazır olmalıdırlar. Mən ona görə bu rəqəmləri bu gün səsləndirirəm ki, siz buna hazır olasınız. Ona görə yox ki, mən sizə indi plan tapşırığı verirəm, xeyr, o dövr artıq yoxdur. Amma biz hər şeyi gərək düzgün planlaşdıraq və belə olan halda, nəticə daha da yaxşı olacaqdır. Nəticə etibarilə biz 200 min hektarda pambıq yetişdirə bilərik və bu işlərdə minimum 300 min insan işləyəcək və hər gün pul qazanacaqdır.

Mən texnika ilə bağlı bəzi rəqəmləri səsləndirmək istəyirəm ki, siz də biləsiniz, Azərbaycan ictimaiyyəti də bilsin. Keçən il 1800 ədəd texnika, o cümlədən 94 pambıqyığan kombayn və 300-ə yaxın traktor alınıb. Bu il 3811 ədəd texnika, o cümlədən 209 pambıqyığan kombayn və 810 traktor sifariş edilib. Bu texnikaların alınması üçün keçən il və bu il 150 milyon dollar vəsait xərclənib. Bu, dövlətin pambıqçılığa göstərdiyi real diqqətin təkcə bir əlamətidir. Əgər texnikanı, meliorasiya işlərini və digər lazımi tədbirləri əlavə etsək, görərik ki, buna nə qədər böyük diqqət göstəririk, bir məqsədlə ki, insanlar daha yaxşı yaşasınlar.

Əlbəttə, pambıqçılığın inkişafı ölkəmizə əlavə gəlir gətirəcək. Ancaq istəyirəm biləsiniz, bu gəlir neftdən əldə olunan gəlirlə

müqayisə edilə bilməz. Neft satışından ölkəmizə milyardlarla dollar valyuta gəlir. Bu il əgər neftin qiyməti 40 dollar səviyyəsində olarsa – bizim büdcədə bu rəqəm nəzərdə tutulub – ölkəmizə 5 milyard dollardan çox valyuta gələcək. Ona görə pambıqçılığın inkişafı, ilk növbədə, məşğulluğun artırılması və bu rayonlarda yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün aparılır. Ona görə biz neftdən əldə edilən vəsaiti bu sahəyə qoyuruq ki, camaat daha da yaxşı dolansın, işləsin, pul qazansın, halal zəhmətlə dolansın. Biz pul qazanmaq üçün yaxşı imkanlar yaradırıq. Ona görə pambıqçılığın inkişafı prezident kimi, mənim üçün ilk növbədə, sosial layihədir, ondan sonra iqtisadi layihədir, daha sonra isə valyuta gətirən layihədir.

Burada, əlbəttə, pambığı becərən gəlir qazanır. Dövlət ancaq burada maraqlıdır ki, ölkəyə daha çox valyuta gəlsin. Amma bunu yenə də neft və qazla müqayisə etmək düzgün olmazdı. Bu texnikanın alınması nəticəsində, əlbəttə ki, məhsuldarlıq da, məhsulun həcmi də artacaq.

Bir məsələni də qeyd etmək istəyirəm. Mənə verilən məlumata görə, keçən il pambığın təqribən 50 faizi əllə, 50 faizi isə texnika ilə yığılıbdır. Əlbəttə, texnika ilə yığım daha da səmərəlidir və şirkətlər üçün daha da əlverişlidir. Ancaq hesab edirəm ki, ilk növbədə, biz bu sahədə yenə də sosial amili nəzərə almalıyıq. Əgər vətəndaşlar əllə yığmaq istəyəcəklərsə və daha çox insan buna cəlb olunacaqsa, şərait yaradılmalıdır ki, nə qədər mümkündürsə əllə yığsınlar. Çünki əllə yığanda işçilər pul qazanır, texnika ilə yığanda isə daha çox firmalar pul qazanır. Məni maraqlandıran odur ki, pambıqçılıqda işləyən vətəndaş hər gün evinə pul aparsın. Ona görə şərait yaradılmalıdır. Çünki bilirəm, keçən il bəzi yerlərdə vətəndaşlar hətta deyirdilər ki, qoy texnika tarlalara çıxmasın, etiraz edirdilər, istəyirdilər ki, özləri yığsınlar. Burada da deyildi ki, yanvar ayında gedib yağışdan sonra açılan qozaların pambığını yığıblar. Nəyə görə? Çünki bu, gəlir gətirir. Bu il də belə olmalıdır. İmkan yaratmaq lazımdır ki, nə qədər mümkündürsə

əl ilə, nə qədər mümkün deyilsə, texnika ilə yığılsın. Onda daha da ədalətli olacaqdır.

Pambıqçılığın inkişafı Azərbaycanda yüngül sənayenin də inkişafına böyük təkan verəcək. Keçən il Mingəçevirdə sənaye parkının təməli qoyuldu. Orada 9 zavod tikiləcəkdir, o cümlədən İplik zavodu. Bu ilin sonuna qədər artıq ilk zavodlar fəaliyyətə başlamalıdır. Bu da çox böyük, ciddi iqtisadi təşəbbüsdür. Bu 9 zavodun və ümumiyyətlə, sənaye parkının fəaliyyəti nəticəsində ən azı 5000 insan işlə təmin ediləcək. Mingəçevir kimi şəhər üçün bu çox yaxşı göstəricidir. Bilirsiniz ki, bəzi böyük şəhərlərdə işsizlik rayon yerlərindən daha çoxdur. Ona görə Mingəçevir Sənaye Parkının yaradılması bu baxımdan da çox əhəmiyyətlidir.

Eyni zamanda, biz hazır məhsul satacağıq, mahlıc, iplik yox. Çalışmalıyıq ki, hazır məhsul, tekstil sataq, xarici bazarlarda özümüz üçün yer edək. Bir daha demək istəyirəm ki, mən bütün həmkarlarımla təmaslarda bu məsələni ön plana çəkirəm. Ticarət dövriyyəsinin və Azərbaycan məhsullarının ixracının artırılması məsələlərini ortaya qoyuram ki, bizim üçün yeni bazarlar açılsın. Ənənəvi bazarlar var və biz o bazarlarda işləyirik. Biz yeni bazarlara çıxmalıyıq. Ticarət evlərinin yaradılması bu məqsədi güdür. İndi mən qeyd etdim, bir daha bildirmək istəyirəm ki, yaxın gələcəkdə Rusiyada, Belarusda, Ukraynada, Çində, Birləşmiş Ərəb Əmirliklərində ticarət missiyalarımız fəaliyyətə başlayacaq. Hesab edirəm ki, indiki mərhələdə bu bizim üçün əsas bazarlardır. Biz Avropa İttifaqı bazarlarına da çıxmalıyıq, daha geniş çıxmalıyıq. İndi də ixrac edirik, ancaq hesab edirəm ki, bu, lazımi səviyyədə deyil. Biz bu istiqamətdə də işləyirik.

Bütün bu tapşırıqları yerinə yetirmək üçün növbəti bir neçə ayda çox fəal iş aparılmalıdır. Yerli icra orqanlarının üzərinə böyük vəzifə düşür. Keçən il də onlar qısa müddət ərzində yaxşı işlədilər. Çünki keçən il biz gecikdik, sonra hava şəraiti, yağışlar imkan vermədi. Buna baxmayaraq, keçən il üçün yaxşı məhsul götürdük. Onlar bu il də bütün işləri lazımi səviyyədə

təşkil etməlidirlər. Qeyd etdiyim kimi, əmək resurslarından səmərəli istifadə olunmalıdır. Texnika ilə bağlı əminəm ki, problem olmayacaq. Texnika vaxtında tarlalara çıxarılacaq. Tədarükçü şirkətlər yerli icra orqanları ilə sıx əməkdaşlıq etməlidir. Bizim mərkəzi və yerli orqanlar da birgə işləməlidir. İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, «Meliorasiya və Su Təsərrüfatı» Səhmdar Cəmiyyəti, yerli icra orqanlarının nümayəndələri birlikdə işləməlidirlər. Ümumi rəhbərliyi və koordinasiya məsələlərini mən Prezident Administrasiyasına tapşırıram. Keçən il də mən Prezident Administrasiyasına bu vəzifəni tapşırmışdım, onlar vəzifənin icrası ilə bağlı yaxşı işlər gördülər, bu il də belə olacaq. Əminəm ki, görülən və görüləcək bütün işlər nəticəsində bu il də pambıqçılıqda yaxşı nəticələr olacaqdır.

Sizə bol məhsul arzulayıram. Sağ olun.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümü ilə əlaqədar səmimi təbriklərimi qəbul edin.

Budəfəki yubiley ölkələrimizin keçdiyi yola nəzər salmaq, görülmüş işlərə yekun vurmaq və gələcəklə bağlı planlar qurmaq üçün yaxşı fürsətdir. Biz tarixi baxımdan qısa zaman kəsiyində həm ortaq keçmişimizin müsbət nəticələrini qoruyub saxlamağa və çoxaltmağa, həm də qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni səviyyəsinə çatmağa nail olmuşuq. Bu gün dövlətlərimizin münasibətləri bir-birimizin maraqlarına qarşılıqlı hörmətə, bərabərhüquqluluğa, iki ölkənin xalqları arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan strateji tərəfdaşlıq xarakteri daşıyır.

Bütün səviyyələrdə etimada əsaslanan əlaqələrin inkişafını və siyasi, parlamentlərarası və idarələrarası əlaqələrin intensivləşməsini, ən müxtəlif sahələrdə əməkdaşlığın ardıcıl olaraq dərinləşməsini böyük məmnuniyyətlə qeyd etmək istəyirəm. Dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsində humanitar əlaqələr xüsusi rol oynayır. Azərbaycanda rus dilinə və rus mədəniyyətinə olduqca qayğıkeş münasibət bəslənilir, ortaq mədəni və tarixi irs qorunub saxlanılır.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi üçün Rusiya Federasiyasının səylərini yüksək qiymətləndiririk.

Əminəm ki, bizim dövlətlərarası münasibətlərimiz, çoxşaxəli Azərbaycan–Rusiya qarşılıqlı əlaqələri bundan sonra da xalq-

larımızın mənafelərinə, regionda sülhə, sabitliyə və tərəqqiyə xidmət edəcək.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rusiya xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 mart 2017-ci il*

## *bp* ŞİRKƏTİNİN BAŞ ƏMƏLİYYAT RƏHBƏRİ QORDON BİRREL VƏ REGİONAL PREZİDENTİ QARİ COUNZ İLƏ GÖRÜŞ

*29 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da bp şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri Qordon Birreli və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counzu qəbul etmişdir.*

*Prezident İlham Əliyev bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə keçmiş regional prezidenti Qordon Birreli bp şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. Qordon Birrelin Azərbaycandakı fəaliyyət illərinin ölkəmizdə enerji sahəsində mühüm inkişafa nail olunduğu dövrə təsadüf etdiyini deyən dövlətimizin başçısı bu illər ərzində böyük nailiyyətlərin əldə olunduğunu vurğuladı. Qordon Birrelin ölkəmizdəki fəaliyyətinin uğurlu olduğunu bildirən prezident İlham Əliyev onun Azərbaycan ilə bp arasında əməkdaşlığa öz töhfəsini verdiyini qeyd etdi, Qordon Birrelin fəaliyyətinin həm Azərbaycan hökuməti, həmçinin bp rəhbərliyi və şirkətin tərəfdaşları tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.*

*bp şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri Qordon Birrel bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə yeni təyin olunmuş regional prezidenti Qari Counzu prezident İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı Qari Counza fəaliyyətində uğurlar arzuladı, ölkəmizin bp ilə əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə və qarşıya qoyulan bütün məqsədlərə nail olunacağına ümidvar olduğunu bildirdi.*

*Qordon Birrel Azərbaycanda işlədiyi dövrü məmnunluqla xatırladaraq, bu illər ərzində fəaliyyətinə verilən böyük dəstəyə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. bp ilə Azərbaycan arasında əməkdaşlığın vacib məqamlarından danışan Qordon Birrel gələn il «Şahdəniz-2» yatağından çıxarılması nəzərdə tutulan qazın ilk olaraq Türkiyəyə, daha sonra 2020-ci ildə Avropaya ixrac olunmasının önəmini vurğuladı. Qordon Birrel Novruz bayramı günlərində Bakıda olduğunu məmnunluqla qeyd edərək, şəhərimizin gözəlliyinin onda dərin təəssürat yaratdığını vurğuladı.*

*Görüşdə «Azəri–Çıraq–Günəşli» layihəsinin uzadılması ilə bağlı məsələlər, həmçinin «Şahdəniz» və «Dayaz Sulu Abşeron» layihələri ətrafında müzakirələr aparıldı.*

## APREL QƏLƏBƏLƏRİNİN İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BİR QRUP HƏRBÇİ İLƏ GÖRÜŞ

*31 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüş keçirmişdir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı

Aprel döyüşlərindən 1 il keçir. Mən bu hərbi qələbə gününün ildönümü ərəfəsində Müdafiə Nazirliyinin rəhbərliyini, döyüşlərdə iştirak etmiş hərbçiləri dəvət etmişəm. Xahiş edirəm, aprel döyüşlərində Vətən uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin və eyni zamanda, həlak olmuş mülki şəxslərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin, Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bir il bundan əvvəl Ermənistan növbəti dəfə silahlı təxribata əl atdı, bizim mövqelərimizə atəş açdı, hücum etdi, yaşayış məntəqələrimizi atəşə tutdu. Bu təxribat nəticəsində hərbçilərimiz şəhid oldu, yaralandı, mülki şəxslər arasında da həlak olanlar oldu. Onların arasında azyaşlı bir qız uşağı da həlak olub. Bu, növbəti təxribat idi. Əvvəlki dövrlərdə də Ermənistana beynəlxalq təzyiq gücləndikcə onlar bu cür təxribatlara əl atırdılar. 2014-cü ilin noyabr ayında da buna oxşar hadisə baş

vermişdi. O vaxt da Azərbaycan Ordusu onlara tutarlı cavab vermişdi. Onların keçənilki təxribatı daha da genişmiqyaslı idi. Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edilibdir, biz indi on minlərlə hektar torpaq sahəsinə nəzarət edirik.

Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa olsun bərpa edəcəkdir. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq, strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək.

Təmas xətti dəyişdirildi. Bu gün Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü özündə saxlayır. Aprel döyüşləri – mən bunu əvvəllər də qeyd etmişdim – hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq–iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi, birinci yerdə duran prioritet məsələdir.

Ermənistan uzun illər ərzində öz ordusu haqqında miflər yaradırdı ki, onların güclü ordusu var və bu ordu böyük qələbə əldə etmişdir. Halbuki biz hamımız yaxşı bilirik ki, keçən əsrin 90-cı illərinin əvvəllərində nələr baş verirdi. O vaxt Azərbaycanda xaos, anarxiya hökm sürürdü, hakimiyyət uğrunda mübarizə gedirdi. O vaxt – 1992-ci ildə AXC–Müsavat cütlüyü çevriliş

etdi və bundan sonra biz cəbhədə torpaqlarımızı itirməyə başladıq. Şuşa, Laçın 1992-ci ildə, Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşəndən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradıldı və biz strateji mövqelərimizi o vaxt itirdik. O, dövlətə, xalqa qarşı bir xəyanət idi və ermənilər, Ermənistan, onların havadarları bu vəziyyətdən istifadə edərək, xarici dəstək, xarici müdaxilə hesabına bizim torpaqlarımızı işğal etmişdir. Bu tarixdir, biz bu tarixi bilirik və gənc nəsil də tarixi olduğu kimi bilməlidir. Qeyd etdiyim kimi, ondan sonra Ermənistan rəhbərliyi uzun illər miflər yaradırdı. Aprel döyüşləri bu mifləri, bu əfsanələri darmadağın etdi və göstərdi ki, bu gün əgər bölgədə güclü ordu varsa, o da Azərbaycan Ordusudur. Bu döyüşlər göstərdi ki, xarici yardım almadan Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilmir və bilməz. Onlar özləri də məcbur qalıb bunu etiraf etməyə başlamışlar.

Aprel döyüşləri zamanı onlar beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrə müraciət etmişlər ki, döyüşlər tezliklə dayandırılsın. Sonra isə onlar bəzi ölkələri ittiham etməyə başlamışlar ki, onların yardımına gəlməyiblər. Halbuki Dağlıq Qarabağ məsələsi bizim daxili məsələmizdir. Dağlıq Qarabağ bütün dünya tərəfindən, Minsk qrupunun həmsədr ölkələri tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır. Dağlıq Qarabağda və işğal edilmiş bütün torpaqlarda baş verən və baş verə biləcək hadisələr bizim daxili işimizdir. Heç bir beynəlxalq təşkilat, yaxud da ki, hansısa bir ölkə bizim daxili işimizə qarışa bilməz.

Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özünü tam şəkildə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Halbuki onlar o dəstəyə çox arxalanırdılar, ona bel bağlayırdılar. O dəstəyi almadıqdan sonra həmişə olduğu kimi, müxtəlif ölkələri ittiham etməyə başladılar. Axırda məcbur olub aprel döyüşlərinin məğlubiyyətini etiraf etdilər. Gah deyirdilər ki, onlar torpaqları itirməyiblər. Gah deyirdilər ki, o, əhəmiyyətsiz torpaqlardır. Gah da deyirdilər ki, onlar o

torpaqları geri qaytaracaqlar. Bütün bunlar hamısı yalandır. Ermənistan rəhbərliyi özünü o qədər biabırçı vəziyyətə saldı ki, onun acı nəticələrini Ermənistan bu gün də hiss edir.

Aprel döyüşləri, demək olar ki, onların ideoloji əsaslarını dağıtdı. Bu gün Ermənistan cəmiyyəti sarsıntı, təşviş içində-dir. Artıq vəziyyətə daha praqmatik baxımdan yanaşan qüv-vələr açıq-aydın bildirirlər ki, əgər Azərbaycan ilə münasibətlər yoluna qoyulmasa, Ermənistanın gələcəyi yoxdur. Mən bunu dəfələrlə demişəm ki, Ermənistanın bir ölkə kimi bundan sonra da yaşaması üçün yeganə yol qonşularla münasibətləri tənzimləməkdir. Bunun üçün də yeganə yol ondan ibarətdir ki, bizim işğal edilmiş torpaqlardan işğalçı qüvvələr qeyd-şərtsiz və dərhal çıxmalıdır. Bu baxımdan bu döyüşlərin çox böyük təsiri oldu. Bu təsir bu gün də özünü göstərir. Bu döyüşlər Azərbaycan xalqının, dövlətimizin, ordumuzun gücünü əyani şəkildə göstərdi. Göstərdi ki, son illər ərzində ordu quruculuğuna yetirilən diqqət, aparılan siyasət, maddi-texniki bazanın möhkəmləndirilməsi, ordumuzun döyüş potensialının gücləndirilməsi bu nəticələrə gətirib çıxarır.

Bu gün həm danışıqlar prosesində, həm də bölgədə yeni bir vəziyyət yaranıb. Düzdür, Ermənistan çalışır ki, danışıqlardan boyun qaçırsın. Ancaq buna müvəffəq olmayacaq. Nə qədər çalışsa da, məcbur olub danışıqlara qayıdacaq. Çünki danışıqlar aparılmasa, onlar yaxşı bilirlər ki, vəziyyət hansı istiqamətdə inkişaf edəcək. Əlbəttə, aprel döyüşlərindən sonra danışıqlar masasında bizim mövqemiz daha da möhkəmlənib və bunu bütün beynəlxalq aləm əyani şəkildə gördü. Əlbəttə, onlar bilirdilər ki, Azərbaycan dövləti Dağlıq Qarabağ problemini istənilən yolla həll edə bilər. Bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə bəyan etmişlər və bu yaxınlarda da bəyanatlar səsləndi ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bunu dəstəkləyirik. Status-kvonun dəyişdirilməsi işğala son qoymaq deməkdir. Çünki status-kvonu Ermənistan dəyişdirməlidir. Onlar işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan çıxarmaqla, status-kvo dəyişdiriləcək və sülh üçün əsas yaranacaq.

Biz bu döyüşlər zamanı və döyüşlərdən sonra xalqımızın qəhrəmanlığını gördük. Ermənistan həmişə olduğu kimi, döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə atəş açır. Bu dəfə də belə oldu. Bizim yüzlərlə kəndlimizin evləri dağıdıldı, bir neçə mülki şəxs həlak oldu. Ancaq təmas xəttinə yaxın yerlərdə yaşayan insanlarımız, vətəndaşlarımız çox böyük cəsarət göstərdilər. Biri də yerindən tərpənmədi. Öz evlərini, kəndlərini tərk etmədilər. Ermənilər hesab edirdilər ki, keçən əsrin 90-cı illərinin əvvəllərində olduğu kimi olacaq. Ancaq onlar səhv etdilər. O vaxt satqın AXC–Müsavat rəhbərliyi ancaq hakimiyyət barədə düşünürdü və vətəndaşlar da onu bilirdilər ki, o hakimiyyətdən hər hansı bir dəstək, hər hansı bir kömək gözləmək əbəsdir, mənasızdır. Bu dəfə isə vətəndaşlarımız tam əmin idilər ki, Azərbaycan dövləti və ordusu onları müdafiə edəcək, onların əziyyətlərinin, tökülmüş qanın əvəzini çıxacaq. Belə də oldu. Hesab edirəm ki, bu, əsas amildir. Ona görə düşmənlə üz-üzə, daim təhlükədə yaşayan Azərbaycan vətəndaşları çox yüksək qiymətə layiqdirlər. Aprel döyüşlərindən sonra mən təmas xəttində yerləşən kəndlərə baş çəkərkən, bir daha Azərbaycan xalqının cəsarətini və Vətənə bağlılığını əyani şəkildə gördüm.

Aprel döyüşlərində hərbçilərimiz qəhrəmanlıq göstərdilər. Şəhid hərbçilərimizin xatirəsi bizim qəlbimizdə, Azərbaycan xalqının ürəyində daim yaşayacaq. Döyüşlərdən sonra hərbi hospitalda yaralı hərbçilərə baş çəkərkən gördüm ki, onlarda nə qədər böyük Vətən sevgisi var. Ağır, yaralı vəziyyətdə olmalarına baxmayaraq, deyirdilər ki, bizim arzumuz tezliklə sağalıb yenə də cəbhə bölgəsinə getməkdir. Budur bu gün Azərbaycan gənci, Azərbaycan vətəndaşı, onun düşüncəsi, onun əqidəsi və Vətənə olan sevgisi. Bizim ölkəmizi gücləndirən əsas amillər bunlardır.

Bu gün Azərbaycan xalqı vahid amal ətrafında birləşib – ölkəmizi daha da gücləndirməliyik, müstəqilliyimizi daha da möhkəmləndirməliyik, ordumuzun gücünü daha da artırmalıyıq ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Mən əminəm ki, biz

buna nail olacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlərboyu xalqımız bu torpaqda yaşayıb, yaradıb, qurub, tikib. Biz Dağlıq Qarabağ bölgəsinin tarixini yaxşı bilirik. İndi XIX əsrdə ermənilərin oraya necə köçürülməsi barədə çox gözəl elmi əsərlər, kitablar yazılır. Hətta XX əsrin əvvəllərində çar Rusiyasında dərc edilmiş xəritələrə baxmaq kifayətdir görək ki, nəinki Dağlıq Qarabağda, indiki Ermənistan Respublikasında da əksər toponimlər Azərbaycan mənşəlidir. O da sirr deyil və bunu artıq beynəlxalq aləm də bilir ki, indiki Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan, Zəngəzur, Göyçə mahalları bizim tarixi torpağımızdır. Biz ədalətsizlik, böyük dövlətlərin siyasəti nəticəsində bu torpaqlardan məhrum olduq. Əlbəttə, biz bu tarixi bilməliyik. Bilməliyik ki, qondarma «Dağlıq Qarabağ qurumu»nun heç bir gələcəyi yoxdur. Biz başqa ölkələrin torpağına iddiaçı deyilik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik.

Əfsuslar olsun ki, 1918-ci ildə gənc Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı Ermənistana, demək olar, bağışladı. Bütün sənədlər var. Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də o idi ki, İrəvan paytaxt kimi Ermənistana verilsin. Baxmayaraq ki, o vaxt İrəvanda əhalinin əksəriyyəti azərbaycanlılar idi. Bu, böyük səhv idi. Bu o vaxt gənc Azərbaycan dövlətini erməni təxribatlarından qorumadı. Bəlkə də buna ümid edirdilər. Biz, demək olar ki, İrəvanı o vaxt itirdik. Amma görürük ki, ermənilərin iddiaları azalmır. Onlar vaxtaşırı ən yüksək səviyyədə müxtəlif cəfəng şüarlar, fikirlər səsləndirirlər ki, yenə də onların qonşu ölkələrin torpağına iddiaları var. Biz aprel döyüşləri zamanı onları yerinə oturtduq. Hər an hazır olmalıyıq ki, onları yerinə oturdaq. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək. Heç bir ölkə bu qondarma qurumu tanımır. Orada bu yaxınlarda keçirilmiş qondarma «referendum» bunu bir daha göstərdi. Bizim bütün qonşu dövlətlərimiz, beynəlxalq təşkilatlar, Minsk qrupunun

həmsədr ölkələri birmənalı şəkildə bəyanatlar vermişlər ki, onlar bu «referendum»u tanımırlar. Bu o deməkdir ki, Ermənistan və onun rəhbərliyi növbəti dəfə özünü biabır etdi. Hər dəfə orada qondarma «referendum» keçirilərkən bu bizim xeyrimizə işləyir. Çünki hər dəfə beynəlxalq təşkilatlar və dövlətlər bunu qəbul etmirlər. Beləliklə, hər dəfə Azərbaycanın ərazi bütövlüyünü onlar bir daha dəstəkləyirlər və təsdiqləyirlər.

Biz ərazi bütövlüyümüzü, əlbəttə ki, bərpa edəcəyik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi, Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də ölkəmizin tərkibində olacaqdır. Sadəcə, ötən əsrin 90-cı illərinin əvvəllərində ovaxtkı hakimiyyətin, xüsusilə AXC–Müsavat hakimiyyətinin yarıtmaz fəaliyyəti nəticəsində biz o torpaqları müvəqqəti olaraq itirmişik. Ancaq biz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik.

Bu gün Ermənistan rəhbərliyi öz təxribatçı fəaliyyətini davam etdirir. Aprel döyüşlərindən sonra bir müddət təşviş, qorxu içində idi. İndi elə bil ki, o stresdən bir qədər çıxmağa çalışır və yenə də cəfəng bəyanatlar verir, bizi hədələməyə, hansısa silahlarla qorxutmağa çalışır. Bizim buna gülməyimiz gəlir. Çünki onlar yaxşı bilməlidirlər və bilirlər, bu gün Azərbaycan Ordusu o qədər güclüdür ki, bu gün bizim o qədər güclü texnikamız, silah-sursatımız, müasir silahlarımız var ki, düşmənin istənilən strateji və hərbi obyektini məhv etməyə hər an hazırıq. Onlar bunu bilir və bilməlidirlər, elə bir strateji və hərbi hədəf yoxdur ki, biz onu məhv edə bilməyək. Biz sadəcə olaraq, çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir – mən onu bir daha qeyd etmək istəyirəm – dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır.

Aprel döyüşləri zamanı biz sadəcə olaraq, imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi,

biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrindəydiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan, demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın.

Bizim işimiz haqq işidir. Bunu xalqımız, beynəlxalq aləm bilir və bizim haqq işimiz bizə haqq verir ki, məsələni istədiyimiz yolla həll edək. Baxın, BMT Təhlükəsizlik Şurası – dünyada bu təşkilatdan ali qurum yoxdur – 4 qətnamə qəbul edib və tələb edib ki, erməni silahlı qüvvələri torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılsın. Əməl edilmir. Amma bu, beynəlxalq təşkilatın qərarıdır, qətnaməsidir. Bu əsasdır. Digər beynəlxalq təşkilatlar da oxşar qərarlar qəbul ediblər. Yəni bu, məsələnin həlli üçün hüquqi baza yaradır, çox önəmlidir. Əgər biz buna tarixi həqiqəti də əlavə etsək, əlbəttə ki, burada iki fikir ola bilməz. Dağlıq Qarabağ tarixi və hüquqi cəhətdən Azərbaycan torpağıdır və biz, əlbəttə, bu torpaqlara qayıdacağıq. Bunun üçün daha güclü olmalıyıq. Bütün siyasi və beynəlxalq tədbirlər görülübdür. Sadəcə olaraq, iqtisadiyyatımızı, ordumuzu daha da gücləndirməliyik.

Deyə bilərəm ki, Ermənistan öz müstəqil həyatını, bax, bu işğala qurban verdi. Çünki əgər bu işğal olmasaydı, əgər onlar Azərbaycan ilə münasibətləri normal qura bilsəydilər, bu gün Ermənistan müstəqil ölkə kimi, bəlkə də özünü göstərə bilərdi. Ancaq bu gün hamı bilir ki, Ermənistan müstəqil dövlət deyil. Onlar bu işğala görə müxtəlif ölkələrdən, müxtəlif xarici dairələrdən, beynəlxalq maliyyə qurumlarından, demək olar ki, tam asılı vəziyyətə düşüblər. Çünki bunların iqtisadiyyatı iflic

vəziyyətindədir, xarici borc kritik həddə çatıb, yoxsulluq, demək olar ki, 40–50 faiz səviyyəsindədir, heç bir perspektiv yoxdur. Bunlar öz xalqını nə qədər aldadacaqlar? Ona görə də bu vəziyyətə düşmələrinin əsas səbəbi onların işğalçı siyasətidir. Bu gün bu yolu seçmiş Ermənistan rəhbərliyi öz xalqını uçuruma aparır.

Biz isə müstəqillik dövründə əsl müstəqil ölkəyə çevrildik. Biz sübut etdik ki, bizim taleyimiz öz əlimizdədir, heç bir kənar qüvvə bizə heç nəyi diktə edə bilməz və tarix bunu göstərdi. Biz ləyaqətlə yaşayırıq, dünya arenasında öz maraqlarımızı müdafiə edirik və sözümüzü deyirik. Ermənistan isə, demək olar ki, bütün bu imkanlardan məhrum olub və bu heç bir ölkəyə başucalığı gətirmir. Bugünkü Ermənistan rəhbərliyi nə qədər tez dərk etsə ki, onların maraqları üçün işğala son qoyulmalıdır, məsələ o qədər tez həllini tapar, sülh bərpa olunar və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edər.

Biz öz siyasətimizi davam etdirəcəyik, ölkəmizi gücləndirəcəyik, ordumuza daim yüksək diqqət göstəriləcəkdir. Bildiyiniz kimi, baxmayaraq ki, indi maliyyə vəziyyətimiz əvvəlki illərdəki kimi deyil, bu da təbiidir, ancaq ordumuzun ehtiyaclarını ödəmək üçün heç bir məhdudiyyət yoxdur. Mən hökumətə də bunu demişəm, bütün dövlət qurumları bunu bilir. İlk növbədə, ordumuzun sifarişləri təmin edilməlidir və büdcə xərclərinin tərkibində ən böyük xərclər hərbi xərclərdir. Yeni şəhərciklər salınır, hərbi bazalar tikilir, ən müasir silah, texnika alınır. Aprel döyüşlərindən sonra çox böyük məbləğdə yeni kontraktlar imzalanıbdır və ən müasir, yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan silahlar sifariş edilibdir. Onların bir hissəsi Azərbaycana gətirilib. Sadəcə, Ermənistan rəhbərlərindən fərqli olaraq, biz bunu təbliğat naminə nümayiş etdirmirik. Amma lazım gələrsə və vaxt gələndə, lazım bildiyimiz anda biz bir daha göstərəcəyik ki, nəyimiz var. Qoy onlar bilsinlər ki, bu gün Azərbaycan Ordusu həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu, həm də maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır.

Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu bizim əsas vəzifəmizdir. Necə ki, keçən il azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır. Mən bu gün sizi dəvət edərək, 1 il əvvəl baş vermiş hadisələrə bir daha öz qiymətimi vermək, ordumuzu uğurlar münasibətilə təbrik etmək istəyirəm. Sizə və Silahlı Qüvvələrin bütün şəxsi heyətinə yeni uğurlar və qələbələr arzulayıram. Sağ olun.

* * *

**Zakir Həsənov** *(Müdafiə naziri, general-polkovnik):* Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Məruzə edirəm ki, Sizin rəhbərliyiniz ilə Silahlı Qüvvələr-də həyata keçirilən islahatlar nəticəsində ordu yeni, müasir, dağıdıcı qüvvəyə malik silah, döyüş texnikası və avadanlıqlarla təmin olunur. Ordunun döyüş hazırlığı gündən-günə artır, mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Xüsusi qeyd etmək istəyirəm ki, sosial bazanın möhkəmlənməsi istiqamətində böyük işlər görülübdür. Yeni müasir, işıqlı hərbi şəhərciklər şəxsi heyətin istifadəsinə verilibdir. Zabit və gizirlər həm xidməti, həm də daimi mənzillərlə – 1000-dən çox mənzillə təmin olunublar. Mən xüsusi qeyd etmək istəyirəm ki, Sizin tapşırığınızla biz «açıq qapı» günü keçirmişik. İcazə verin, valideynlərin xahişini Sizə çatdırım. Onlar dərin minnətdarlıqlarını bildirirlər ki, hərbi qulluqçular üçün belə yüksək səviyyədə şərait yaradılıb və təminat yüksək səviyyədədir.

Möhtərəm cənab Prezident, Silahlı Qüvvələrin şəxsi heyəti Sizin diqqət və qayğınızı daim hiss edir və buna görə Sizə dərin minnətdarlığını bildirir. Silahlı Qüvvələr Sizin əmr və göstərişlərinizi hər an yerinə yetirməyə hazırdır və qadirdir. Sağ olun, cənab Prezident.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sankt-Peterburq metrosunda baş vermiş partlayış nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən sarsıtdı.

Biz heç bir təqsiri olmayan dinc vətəndaşlara qarşı yönəlmiş hər bir əməli qətiyyətlə pisləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Zərərçəkənlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 aprel 2017-ci il*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 aprel 2017-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin aprelin 3-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qazaxıstan Respublikası Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan Prezidentinə raport verdi.*

*Qazaxıstan Respublikasının və Azərbaycan Respublika-sının Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident Nursultan Nazarbayev Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Qazaxıstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Nursultan Nazarbayevə, Qazaxıstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Qazaxıstan prezidentləri rəsmi foto çəkdirdilər.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*3 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin aprelin 3-də rəsmi qarşılanma mərasimindən sonra məhdud tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Nursultan Abişeviç, xoş gəlmisiniz! Sizi Azərbaycanda görməyə çox şadam. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcək. Bizim münasibətlərimiz çox uğurla inkişaf edir. Biz bir sıra istiqamətlər üzrə əməkdaşlıq edir, beynəlxalq aləmdə həmişə bir-birimizi dəstəkləyir, regionda çoxsaylı mühüm birgə tədbirlər, təşəbbüslər həyata keçiririk.

Bugünkü səfərin gündəliyi kifayət qədər genişdir. Müzakirə edəcəyimiz xeyli məsələlər var. Əminəm ki, qəbul edəcəyimiz qərarlar, imzalanacaq sənədlər ölkələrimiz arasında münasibətlərin daha fəal inkişafı işinə xidmət edəcək. Biz buna çox böyük əhəmiyyət veririk. Qazaxıstan bizim üçün dost, qardaş ölkədir. Onun çox böyük potensialı var və Sizin rəhbərliyinizlə Qazaxıstanın qazandığı nailiyyətlər bir dost kimi, bizi sevindirir. Buna görə əminəm ki, səfəriniz çox məhsuldar, səmərəli olacaq, yaxşı nəticələr verəcək. Bu, ölkələrimizi daha da yaxınlaşdıracaq və regionumuzda daha əlverişli şərait yaradacaqdır. Bir daha xoş gəlmisiniz!

**N u r s u l t a n N a z a r b a y e v:** Əvvəla, ölkənizə rəsmi səfərə dəvətə görə çox sağ olun, İlham Heydər oğlu. Mən bu sə-

fəri böyük məmnuniyyətlə edirəm. Çünki mən burada özümü evimdəki kimi hiss edirəm.

Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər heç vaxt və heç bir halda pozulmayıb, əksinə, biz tariximizin, mədəniyyətimizin, dinimizin yaxınlığını qeyd etmişik və münasibətlərimizi bu etimad əsasında qurmuşuq. Müstəqilliyi bərpa etdikdən sonra biz Heydər Əliyevlə birlikdə bunun bünövrəsini yaratmışıq və indi həmin işi davam etdiririk.

Nümayəndə heyətimiz buraya səmimi əminliklə gəlib ki, bu səfər və danışıqlar ticari-iqtisadi, siyasi münasibətlərin möhkəmləndirilməsinin, xalqlarımızın və ölkələrimizin daha da yaxınlaşmasının yeni əsasını qoyacaq. Biz artıq dünən Sizinlə ilkin danışıqlara başlamışıq və bu yeni şəraitdə hansı perspektivlərin, imkanların olduğunu görürük. Elə indi – dünyada böyük dəyişikliklərin, iqtisadi-siyasi cəhətdən böhranın baş verdiyi zamanda bizim ixrac-birja məhsullarımız çöküb. Bu bir tərəfdən, pisdir, digər tərəfdən, məlum olduğu kimi, problemdə imkanları da görmək lazımdır. Biz də bu imkanları onda görürük ki, iqtisadiyyatı şaxələndirməliyik, yeni istehsal sahələri yaratmalıyıq, yeni işlər görməliyik, buna isə elmi və innovasiyaları cəlb etməliyik. Bu işlər həm sizdə, həm də bizdə həyata keçirilir və yeni əsaslar üzərində ölkələrimizin iqtisadi əlaqələrini kəskin şəkildə yüksəltmək mümkündür. İşimizi davam etdirmək üçün vaxtı bir daha dəqiqləşdirməliyik.

Mən Sizi keçirilmiş referendum münasibətilə təbrik edirəm. Əminəm ki, bu referendum Azərbaycan xalqının rifahına xidmət edəcək. Bu referendum xalqın şəxsən Sizə olan etimadını bir daha nümayiş etdirdi. Belə mürəkkəb dövrdə bu çox mühüm məqamdır. Biz səmimi-qəlbdən Sizi təbrik edirik.

Mən Bakı şəhərinin necə inkişaf etdiyini, daha da gözəl-ləşdiyini görürəm. Yeni paytaxt quran insan kimi, mənim üçün bu aydındır, bunun necə başa gəldiyini bilirəm. Şəhər gözəlləşir, çünki bu, ölkənin simasıdır. Hər gələn paytaxtı, ölkəni görür, həmçinin Azərbaycan da inkişaf edir. Mən bir daha qeyd edirəm ki, biz yaxın qonşularıq və biri-birinə etibar edən dostlarıq.

Bizim nümayəndə heyətinə göstərilən səmimi qəbula görə sağ olun. Aparacağımız danışıqlar və imzalayacağımız Bəyannamə özlüyündə bizim gələcəkdə ölkələrimiz və xalqlarımız üçün nəzərdə tutduğumuz böyük işlərdən xəbər verir. Təşəkkür edirəm.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin aprelin 3-də geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Nursultan Abişeviç, hörmətli qonaqlar! Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Sağ olun ki, bizim dəvətimizi qəbul edərək, ölkəmizə səfərə gəlmisiniz.

Bu səfər ölkələrimiz arasında dostluq, qardaşlıq münasi-bətlərinin daha da möhkəmlənməsi üçün çox böyük əhəmiy-yət kəsb edir. Mən ilk növbədə, Qazaxıstanın BMT Təhlü-kəsizlik Şurasına üzv seçilməsi münasibətilə Sizi bir daha təbrik etmək istərdim. Bu, dünya miqyaslı məsələlərdə Qaza-xıstanın rolunun, Sizin şəxsi nüfuzunuzun etiraf edilməsi və təkcə bizim regionda deyil, bütövlükdə planetdə sülhün möhkəmlənməsi üçün Sizin irəli sürdüyünüz təşəbbüslərin tanınması deməkdir.

Biz münasibətlərimizin inkişafından çox məmnunuq, biz daim əlaqə saxlayırıq. Bu gün biz artıq bir sıra məsələlərə dair fikir mübadiləsi apardıq. Biz bu işə dünən axşam başladıq və artıq baş tutmuş fikir mübadiləsi göstərir ki, müzakirə edilən bütün məsələlər barədə mövqelərimiz tamamilə üst-üstə düşür. Siyasət sahəsində fəal qarşılıqlı əlaqələrimizi, iqtisadi sahədə, nəqliyyat sahəsində yaxşı perspektivləri ətraflı müzakirə etmişik və indi nümayəndə heyətlərinin iştirakı ilə diskussiyaları davam etdirəcəyik.

Əminəm ki, bizim bu gün qəbul edəcəyimiz qərarlar qısa müddətdə əmtəə dövriyyəsini əhəmiyyətli dərəcədə artırmağa və regional əməkdaşlıq baxımından yeni şərait yaratmağa imkan verəcək. Həm Qazaxıstan, həm də Azərbaycan kon-kret

nəqliyyat, enerji layihələri, iqtisadi inkişafla bağlı layi-hələr vasitəsilə regional əməkdaşlığı möhkəmlətmək üçün çox iş görür. Mənim üçün bu da xoşdur ki, şirkətlərimiz arasında qarşılıqlı investisiyalar qoyuluşu başlanır və artıq yaxşı nəticələr verir.

Fikrimcə, Sizin səfəriniz və qəbul ediləcək qərarlar investisiyaların həcmini artırmaq üçün özəl sektoru da stimullaşdıracaq. Sizi bir daha salamlamaq və əmin olduğumu bildirmək istərdim ki, bu səfər çox uğurlu keçəcək və ölkələrimizi daha da yaxınlaşdıracaq. Xoş gəlmisiniz!

**Nursultan Nazarbayev:** Sağ olun, hörmətli İlham Heydər oğlu. Mən ilk növbədə, Sizin ölkənizə çoxdan gözlənilən bu səfərə dəvət üçün dərin təşəkkürümü bildirmək istərdim. Biz azərbaycanlı qardaşlarımızın səmimiyyətini, qonaqpərvərliyini hiss edirik. Dövlətlərarası 5 sənəd, müvafiq sazişlər, idarələrarası razılaşmalar hazırlanıb. Bu sənədlər bizim iştirakımızla imzalanacaq. Son illərdə bizim münasibətlərimizdə yeni mərhələ olan bu sənədlər dövlətlərimiz arasında iqtisadi və maliyyə sahələrində əməkdaşlıq məsələlərini həll edəcək.

Biz həqiqətən, bütün məsələləri müzakirə etdik. İmzalanmaq üçün hazırlanmış Bəyannamədə hər şey – bütün istiqamətlər üzrə münasibətlərimiz nəzərə alınıb. Biz aydınlaşdırdıq ki, yaxın 2-3 il ərzində əmtəə dövriyyəsini kəskin şəkildə – bir neçə dəfə artırmağa imkan var. İdarələr arasında, xüsusən nəqliyyat-kommunikasiya nazirlikləri arasında imzalanacaq sənədlər, müvafiq razılaşmalar hər iki dövlət üçün böyük səmərə vəd edir.

Digər məsələlərə – həm iqtisadi və siyasi, həm də mədəni-humanitar məsələlərə gəldikdə isə biz münasibətlərimizi bir daha vurğulamaq üçün gənclərin dövlətlərimizdəki müvafiq ali məktəblərə qəbul edilməsi, mədəni münasibətlərin, ziyalıların görüşlərinin, iki ölkənin qarşılıqlı mədəniyyət günlərinin bərpa olunması məsələlərinə diqqət yetirməliyik. Bunun üçün yaxşı imkanlar, bir növ körpü var. Qazaxıstanda bizim vətəndaşlarımız olan 130 min etnik azərbaycanlı yaşayır. Onlar bizim vətəndaşlarımızdır və bütün məsələlərə tam şəkildə

qoşulublar. Bu bizim ticari əlaqələrimiz üçün yaxşı körpüdür. Mən bilirəm ki, məhz onlar müştərək müəssisələr açır, biznes qurur və bizim münasibətlərimizi yaxşılaşdırmağa kömək edirlər. Fikrimcə, biz bunu dəstəkləməliyik.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*3 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə aprelin 3-də geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Qazaxıstan sənədləri imzalanmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev «Prezidentlərin Birgə Bəyannaməsi»ni imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» QSC ilə Qazaxıstan Dəmir Yolları Milli Şirkəti arasında logistika və dəmir yolu nəqliyyat maşınqayırması sahəsində strateji əməkdaşlıq haqqında Saziş»i «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov və «Qazaxıstan Dəmir Yolları» Milli Şirkətinin prezidenti Kanat Alpısbayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında ikiqat vergitutma sahəsində Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol»u Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov və Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Qazaxıstanın İnvestisiya və İnkişaf naziri Jenis Kasımbek imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2017–2018-ci illər üzrə Əməkdaşlıq Proqramı»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qazaxıstanın Xarici İşlər naziri Kairat Abdraxmanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Qazaxıstanın Baş nazirinin birinci müavini Askar Mamin imzaladılar.*

# QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev aprelin 3-də Azərbaycan–Qazaxıstan sənədlərinin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Nursultan Abişeviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Nursultan Abişeviç, bir daha Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm. Siz bizim əziz dostumuzsunuz. Azərbaycanda Sizi çox sevirlər, hörmət edirlər və Sizin səfəriniz ikitərəfli münasibətlərimizdə böyük hadisədir. Bizim ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəm təməli var. Bu il biz dövlətlərimiz arasında diplomatik münasibətlər qurulmasının 25 illiyini qeyd edirik, hərçənd xalqlarımızın qarşılıqlı münasibətlərinin tarixi yüzilliklərlə hesablanır. Bu tarix həmişə dostluq, əməkdaşlıq, qarşılıqlı dəstək tarixi olub.

Bu gün Qazaxıstan və Azərbaycan fəal inkişaf edən iki müstəqil dövlət kimi, əməkdaşlığın ikitərəfli formatını möh-kəmləndirir. Nursultan Abişeviçin bugünkü səfəri, apardığı-mız danışıqlar, imzalanmış sənədlər ölkələrimiz arasında olduqca möhkəm əlaqələrin mövcudluğunu sübut edir. Biz qarşılıqlı siyasi fəaliyyəti fəal inkişaf etdirir, həm rəsmi səfərlər, həm də

beynəlxalq tədbirlər çərçivəsində çox tez-tez görüşürük. Söhbət etmək və münasibətlərimizin inkişaf yollarını müəyyənləşdirmək üçün həmişə vaxt tapırıq. Biz beynəlxalq strukturlarda fəal əməkdaşlıq edir, bir-birimizə həmişə qarşılıqlı dəstək oluruq. Bu da bizim münasibətlərimizin səmimiliyinin yaxşı göstəricisidir. Fürsətdən istifadə edərək, bir daha Nursultan Abişeviçi və bütün qardaş Qazaxıstanı dünya siyasətinin ali strukturuna – BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbrik etmək istəyirəm. Bu, dünya ictimaiyyətinin Qazaxıstana münasibətinin göstəricisi, Qazaxıstanın uğurlarının, eləcə də onun beynəlxalq və qlobal işlərdə rolunun tanınması deməkdir. Əminəm ki, BMT Təhlükəsizlik Şurasının üzvü kimi, Qazaxıstanın fəaliyyəti sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə yönələcək. Əminəm ki, bu qurumda onun işi uğurlu olacaq. Həmçinin Azərbaycanın təmsil olunmadığı beynəlxalq strukturlarda Azərbaycanı dəstəklədiyinizə görə təşəkkür etmək istərdim.

Bu gün biz, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələləri müzakirə etdik. Mən Nursultan Abişeviçə nizamlanma məsələsində indiki vəziyyət barədə məlumat verdim. Bizim mövqemiz indicə imzalanmış Birgə Bəyannamədə də əksini tapıb. Mən bu mövqeyə görə minnətdaram. Münaqişə beynəlxalq hüququn norma və prinsipləri, beynəlxalq təşkilatların, ilk növbədə, Ermənistan qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi çərçivəsində nizamlanmalıdır. Qərar suverenlik, beynəlxalq miqyasda tanınmış sərhədlər və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində qəbul olunmalıdır və nizamlanmanın bu əsas bəndləri bu gün imzalanan Bəyannamədə əks olunub. Bu, münaqişələrin nizamlanması üzrə Qazaxıstanın prinsipial mövqeyinin daha bir göstəricisidir. Münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında nizamlanmalıdır. Bu həmçinin Qazaxıstanın ölkəmizə münasibətinin təcəssümüdür.

Biz bu gün ticari-iqtisadi inkişafa dair məsələləri siyahı üzrə birbaşa müzakirə etdik və əmtəə dövriyyəsini sürətlə artıra biləcəyimiz mövqeləri müəyyənləşdirdik. Əmtəə dövriyyəmizdə artım olsa da, bu bizim nə potensialımızı, nə də niyyətlərimizi əks etdirə bilməz. Buna görə də gələn ay hökumətlərarası birgə Komissiyanın növbəti iclasının keçirilməsi qərara alınıb. Artıq konkret olaraq müzakirə etdiyimiz bəndlər üzrə prezidentlərin göstərişləri, ölkələrimizin ixrac mövqeləri nəzərə alınmaqla, qısa müddətdə əmtəə dövriyyəsini, daha dəqiq desək, qarşılıqlı ixracı artırmağa imkan verəcək sənədlər hazırlanıb qəbul edilməlidir. Bunun üçün hər cür imkan vardır.

Mən həmçinin çox şadam ki, Azərbaycan Qazaxıstana fəal sərmayə qoymağa başlayıb və Aktauda Logistika Mərkəzinin açılışı və həmin şəhərdə Energetika-Maşınqayırma zavodunun inşası bizim ticari-iqtisadi əməkdaşlığımızın möhkəmlənməsinə yönəldilmiş birbaşa Azərbaycan investisiyalarıdır. Qazaxıstan bazarı bizim üçün böyük maraq doğurur. Bir daha demək istəyirəm ki, biz Qazaxıstana ixrac edə biləcəyimiz və oradan idxal edə biləcəyimiz mövqeləri bənd-bənd konkret müzakirə etdik. Həmçinin müasir texnika əldə olunması ilə əlaqədar iri layihələri müzakirə etdik. Biz Qazaxıstandan müasir nəqliyyat vasitələri, teplovozlar, elektrovozlar alırıq. Mən həmçinin Nursultan Abişeviçə bütün gəmi növləri, tankerlər, bərələr istehsal edən bizim Bakı Gəmiqayırma zavodunun potensialı barədə məlumat verdim. Biz özümüz sifarişlər yerləşdiririk və həmçinin bu müasir müəssisənin imkanlarından istifadə etməyə Qazaxıstan şirkətlərini də dəvət edirik.

Tranzitlə əlaqədar məsələlər həm məhdud tərkibdə söhbət çərçivəsində, həm də ölkələrimizin nəqliyyat nazirliklərinin rəhbərlərinin iştirakı ilə nümayəndə heyətlərinin geniş tər-kibdə görüşündə bu gün çox geniş müzakirə olundu. Çox böyük potensiala malikik və yaxın vaxtlarda bu potensial bütünlüklə işə düşəcək. Biz bu il Asiyadan Avropaya və Avropadan Asiyaya bizim ərazimizlə daşımaların vaxtını əhəmiyyətli dərəcədə azaldacaq Bakı–Tbilisi–Qars dəmir yolunun işə

düşəcəyini gözləyirik. Qazaxıstanda da, Azərbaycanda da bütün lazımi infrastruktur yaradılıb. Həmçinin məmnuniyyətlə qeyd edildi ki, bir neçə gün əvvəl artıq yeni Kurık limanından Azərbaycana ilk yük göndərilib və bu da həmçinin potensialın göstəricisidir. Bu, müəyyən dərəcədə test yükü idi. Əminəm ki, bu, iqtisadi baxımdan çox səmərəli olacaq. Biz həmçinin qeyd etdik ki, son 1 ildə Azərbaycandan və Qazaxıstandan qonşu dövlətlərə yüklərin tranziti əhəmiyyətli dərəcədə, bəzi mövqelərə görə isə hətta 8 dəfə artıb. Əlbəttə, bunun üçün təkcə infrastrukturlar kifayət deyil, hərçənd bunsuz mümkün də deyil. Biz Şərq–Qərb yolunun üstündə yerləşən bütün dövlətlərin tariflərinin endirilməsi və eyniləşdirilməsi üzərində çox fəal işləyirik. Bu gün bizim verdiyimiz tapşırıqlar bu yolu həm xeyli qısaldacaq, həm də iqtisadi baxımdan cazibədar edəcək.

Neft əməliyyatları tranziti sahəsində əməkdaşlıq da müzakirə olundu. Biz həmçinin necə irəli gedə biləcəyimizi dəqiq başa düşürük. Başqa sözlə, bütün ticari-iqtisadi, tranzit, nəqliyyat, enerji məsələləri bloku çox geniş müzakirə olundu, özü də konstruktiv və müfəssəl. Buna görə biz yaxın vaxtlarda yaxşı nəticələr gözləyirik.

Əlbəttə, humanitar sahədə əməkdaşlıq da müzakirə olundu. Biz bu əməkdaşlığın möhkəmləndirilməsi üzrə konkret addımlar müəyyənləşdirmişik. Eləcə də gənc nəslin biri-birini yaxşı tanıması, dostluq etməsi və xalqlarımız arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi, ölkələrimizin yaxınlaşması məqsədilə Qazaxıstan və Azərbaycan rəhbərlərinin apardıqları siyasəti onların da gələcəkdə aparması üçün Qazaxıstan və Azərbaycan gənclərinin müxtəlif tədbirlərdə iştirakını nəzərdə tutmuşuq.

Bir daha Nursultan Abişeviçə Azərbaycana rəsmi səfərə gəlməyə vaxt tapdığına görə təşəkkür etmək, ən yaxşı arzula-rımı və yeni görüşlərə ümid bəslədiyimi bildirmək istəyirəm. Bir daha xoş gəlmisiniz!

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Əvvəla, mən bu rəsmi səfərə dəvətə görə təşəkkür etmək istəyirəm. Biz bu səfəri səbirsizliklə gözləyirdik. Böyük məm-nuniyyətlə buraya gəlmişik. Mən azərbaycanlı dostlarımızdan qardaşlıq münasibəti, dostluq hissi və qonaqpərvərlik duyuram.

Dünən axşam və bu gün səhər məhdud və geniş tərkibli görüşlərdə biz bütün məsələlər kompleksini müzakirə etdik. Siz bu barədə ətraflı məlumat verdiniz. Mənə yalnız bunu əlavə etmək qalır ki, bizim qarşılıqlı münasibətlərimizin əsas məsələsi ticarətdir. Ticarəti genişləndirmək əsasında bütün digər münasibətləri inkişaf etdirmək lazımdır. Ticarət bazisdir, təməldir. Biz ticari münasibətlərdə əmtəə dövriyyəsinin artırılmasının vacibliyini xüsusilə qeyd etdik. Demək olmaz ki, 140 milyon dollar potensialımıza cavab vermir, amma bizim imkanlarımızı göstərmir. Buna görə də bu sahədə birinci yerə Xəzər dənizi ilə nəqliyyat-logistika əməkdaşlığı çıxır. Qazaxıstan yeni İpək yoluna cəlb olunub – Çin Xalq Respublikasının «bir kəmər–bir yol» təşəbbüsü əsasında Çinin sərhədindən Xəzər dənizinə qədər ümumi uzunluğu 2000 kilometrədək olan dəmir yolu inşa edilib. Artıq bu yol işləyir və öz bəhrələrini verir. Qərbi Çin–Qərbi Avropa avtobanının 2700 kilometrlik hissəsi inşa olunub. İndi söhbət Çindən konteynerlərin gətirilməsindən gedir. Yəqin eşitmisiniz, konteynerlər artıq Qərbi Avropaya, Böyük Britaniyaya 14 sutka ərzində çatdırılır, halbuki dənizlər və okeanlar vasitəsilə 40–45 sutkaya gətirilirdi. İndi isə məsələ belə qoyulub ki, yüklər Avropaya Qafqaz – Bakı, Xəzər dənizi vasitəsilə gətirilsin. Burada isə böyük potensial mövcuddur. Hesablamalar göstərir ki, daşımaların həcmi 6-7 milyard dollarlarla ölçüləcək. Onların böyük hissəsi Bakıdan keçəcək. Hesablamalar onu da göstərir ki, bu, Azərbaycana 500–600 milyon dollar gəlir gətirəcək. Yəni burada çox böyük potensial var. Biz bütün dövlətlərdən –

Türkiyədən, Gürcüstandan, Azərbaycandan xahiş etmişik və Qazaxıstana tapşırıq vermişik ki, daşımalar üçün tariflərin sərfəli olmasına diqqət yetirsinlər. Türkiyə ilə Rusiya arasında baş verən hadisələrlə əlaqədar Qafqaz vasitəsilə daşımaların həcmi artıb. Biz dərhal hiss etdik ki, həm Bakı, həm də Aktau hətta bunun öhdəsindən gəlməkdə çətinlik çəkirdilər. İndi Ukrayna bu marşrut vasitəsilə bütün Mərkəzi Asiya ilə ticarət qurmaq istəyir. Buna görə də burada çox böyük imkanlar açılır, biz bunu qeyd etdik.

İkinci məsələ. İlham Heydər oğlu qeyd etdi, əgər Qazaxıstanın idxalının nə olduğuna, Azərbaycanın ixrac və idxalının nələr olduğuna baxsaq görərik ki, biz bir-birimizdə olan malları uzaq ölkələrdən alırıq. Məsələn, şəkər. Qazaxıstanda böyük şəkər qıtlığı var. Biz onu alırıq, amma Azərbaycandan da ala bilərik. Yaxud Azərbaycan, məsələn, siqaretləri 250 milyona alır. Biz bunun yarısını verə bilərik və sair. Əgər bu malların siyahısına nəzər yetirsək, biz əmtəə dövriyyəsini kəskin artıra bilərik. Biz 2020-ci ilədək əmtəə dövriyyəsini 500 milyon dollara qədər artırmağı qarşıya vəzifə qoymuşuq. Amma mən dünən eşidəndə ki, bizim təkcə Nəqliyyat nazirliklərimiz 500 milyonluq müqavilə imzalayıblar, onda deyə bilərik ki, biz 1 milyard həcmində əmtəə dövriyyəsinə nail ola bilərik.

Sənaye siyasəti hesabına biz müasir parovozlar, teplo-vozlar, dəmir yollarının yuxarı hissələrinin, istiqamətləndirici tənzimləyicilərinin və sairlərinin inşasını aparmışıq. Bütün bunlar Azərbaycan üçün zəruridir, biz bunları tədarük edəcəyik – metal məhsullar, mis, polad və sair. Təkcə Azərbaycandan Aktauya gətirilən tərəvəz məhsulları artıq bütün Qazaxıstana yayılır və bu həcm bir il ərzində 12 dəfə artıb. Bu, ölkələrimiz arasındakı nəhəng imkanlardan xəbər verir, yəni ticarət, bax, budur.

Ticarətdə ikinci energetikadır. Biz vaxtilə Bakı–Tbilisi–Ceyhan boru kəmərini dəstəkləmişik, gələcəkdə belə perspektiv var ki, Qazaxıstan nefti bu magistral ilə də Türki-yəyə, Avropaya və daha uzaqlara gedəcək. Biz bu məsələni də müzakirə etdik.

Azərbaycan tərəfinin Bakıda inşa etdiyi xüsusi Logistika Mərkəzi, Bakıda və Aktaudakı taxıl terminallarımız ölkələrimiz arasında müvafiq məhsulu saxlamağa və boşaltmağa imkan verir. Yəni nəqliyyat, energetika, kənd təsərrüfatı məhsulları ilə ticarət ölkələrimiz arasında əmtəə dövriyyəsinin əsas sahələridir.

Əlbəttə, prezidentlər görüşərkən regional təhlükəsizlik, ümumi təhlükəsizlik problemlərini müzakirə etməyə bilməz-lər və bununla əlaqədar Qazaxıstan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvi kimi, əsas diqqətini regionumuza və Suriyaya, Əfqanıstan da daxil olmaqla, Mərkəzi Asiya regionuna yönəldəcək. Bununla əlaqədar bir daha qeyd edə bilərəm ki, Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı Qazaxıstan bizim səs verdiyimiz Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qətnamələrə, yəni beynəlxalq münasibətlərin hamılıqla qəbul olunmuş normalarına əsaslanır. Ümumiyyətlə, Qazaxıstan Azərbaycanla olduğu kimi, Ermənistan və Gürcüstanla da mehriban münasibətlər saxlayır. Biz istərdik ki, burada sülh olsun və məsələ sülh yolu ilə həll edilsin. Biz bu yolda əlimizdən gələni edirik, necə deyərlər, hamıya məsələnin sülh yolu ilə həll olunmasını təklif edirik. Yeri gəlmişkən, bu həm Ermənistan, həm də Azərbaycan xalqlarının, eləcə də bizim hamımızın maraqlarına cavab verir. Hamımız bir yerdə yaşayırıq. Biz ticarət etməli, yaşamalı və inkişaf etməliyik.

Bizi həmçinin bütün dünyanı bürüyən terrorçuluq narahat edir. Siz bilirsiniz ki, Suriya prosesinin nizamlanması Astanada da gedir, biz həm müxalifəti, həm hökuməti, həm də bütün bu məsələlərə cəlb olunmuş dövlətləri öz paytaxtımızda toplaya bildik. Biz bu məsələlər üzərində işləyirik. Düşünürük ki, bu səfər zamanı bizim danışıqlarımız Azərbaycan–Qazaxıstan münasibətlərinə tamamilə yeni yol açacaq, yeni impuls verəcək. Bunlar hər iki dövlət üçün sərfəlidir, ölkələrimiz arasındakı ənənəvi dostluğu, etimadı möhkəmləndirir. Çünki bizim eyni tariximiz, mədəniyyətimiz, dilimiz, ümumi köklərimiz var və bu da bizi yaxınlaşdırır. Qazaxıstan ilə Azərbaycan arasında həll

edilməmiş heç bir problemin, münaqişəli vəziyyətlərin olmaması əməkdaşlıq üçün bütün yolları üzümüzə açır. Şəxsən mən danışıqlardan, uğurlardan çox razıyam. Əlbəttə, bu, Azərbaycan tərəfinin dəstəyi ilə mümkün olub. İlham Heydər oğlu, Sizin tərəfinizdən Qazaxıstana göstərilən qonaqpərvərliyə, dostluğa görə mən şəxsən Sizə çox minnətdaram. Mən Sizi Qazaxıstana rəsmi səfərə dəvət edirəm. Sizi iyunun 10-da keçiriləcək «Ekspo–2017»nin açılışında fəxri qonaq olmağa dəvət edirəm. Mən həmçinin sədr kimi, Sizi Şanxay Əməkdaşlıq Təşkilatına qonaq qismində dəvət edirəm. Həmin görüşlərdə dialoqumuzu davam etdirərik və bu gün verdiyimiz tapşırıqların necə icra olunduğunu yoxlayarıq.

Hökumətlərarası birgə Komissiyaya, bizim hökumətlərə bütün imkanları təhlil edərək, yol xəritəsini, müvafiq razılaşmaları və praktik işləri tərtib etmək tapşırılıb. Hamınıza diqqətə, dostluğa və bu münasibətə görə təşəkkür edirəm. Azərbaycan xalqına böyük uğurlar, xoşbəxtlik və tərəqqi arzulayıram. Referendumun keçirilməsi münasibətilə Sizi təbrik edirəm. Ümidvaram ki, bu Sizin xalqınızın rifahına və dövlətlərimiz arasında dostluğun inkişafına xidmət edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVƏ «HEYDƏR ƏLİYEV» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*3 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə «Heydər Əliyev» ordeninin təqdim edilməsi mərasimində çıxış etmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Nursultan Abişeviç, hörmətli qonaqlar, əziz dostlar!

Bu gün bizim münasibətlərimizin tarixində çox əlamətdar gündür. Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərdə böyük hadisədir. Səfər çox uğurlu, səmərəli olub, yaxşı nəticələr verib. Biz bu gün bu barədə artıq mətbuata və ictimaiyyətə məlumat vermişik. Mən böyük məmnuniyyətlə elan edirəm ki, bu gün Nursultan Abişeviç Nazarbayevin «Heydər Əliyev» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamı imzalanıb.

«Heydər Əliyev» ordeni Azərbaycan dövlətinin ali mükafatıdır və mənə çox xoşdur ki, bu gün həmin mükafatı Heydər Əliyevin böyük dostu və Azərbaycan xalqının, Azərbaycanın dostu Nursultan Abişeviç Nazarbayevə təqdim edirəm. Nursultan Abişeviç, bu həm də ona görə rəmzi xarakter daşıyır ki, Siz uzun illər boyu Heydər Əliyev ilə dostluq etmisiniz və onunla birlikdə işləmisiniz. Siz sovet dövründə də həmişə ünsiyyət saxlayırdınız. Atamın söhbətlərindən xatırlayıram ki, sizin aranızda həmişə çox səmimi və yaxın münasibətlər olub. Ölkələrimizin müstəqilliyi

dövründə də sizin aranızda həmişə xüsusi münasibətlər olub. Bunu bizim vətəndaşlar da bilirdi və indi də bilirlər, MDB məkanında da bunu bilirlər. Əslində Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin əsasını siz ikiniz qoymusunuz.

Təəssüf ki, Azərbaycanda müstəqilliyin ilk illəri faciəli hadisələrlə, çətin sınaqlarla dolu olub. Azərbaycanın həmin dövrdəki rəhbərliyi nəinki özünün tarixi dostları ilə münasibətləri nizamlaya bilməyib, hətta onların çoxu ilə bu münasibətləri o dərəcədə korlayıb ki, sonradan uzun illər boyu həmin münasibətləri qaydaya salmaq lazım gəlib. Qazaxıstanın bəxti gətirib ki, müstəqilliyin lap əvvəlindən bu ölkəyə Nursultan Abişeviç Nazarbayev kimi görkəmli lider rəhbərlik edib. Bu, Qazaxıstanı çox bəlalardan, çox risklərdən qoruyub. Bu gün – Qazaxıstanın müstəqilliyinin elan edilməsindən 25 il sonra qüdrətli dövlət çox məsələləri həll edir, uğurla inkişaf edir, irəliləyir. Buna görə də Heydər Əliyevin adını daşıyan ordenin Sizə təqdim edilməsi ədalətli qərardır və bir daha demək istəyirəm ki, bu qərar rəmzi məna daşıyır.

Sizin rəhbərliyinizlə Qazaxıstan dünyada böyük nüfuz sahibi olan güclü dövlətə çevrilib. Ölkənizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi bunun ən yaxşı göstəricisidir. Çox nümunə göstərmək olar, lakin mənim fikrimcə, bu, dünya birliyinin Sizə və sizin ölkənizə münasibətinin göstəricisidir. Siz regional məsələlərdə çox böyük rol oynayırsınız, çoxsaylı uğurlu layihələr barədə təşəbbüs irəli sürürsünüz, həmçinin istər bizim regionda, istərsə də bütün planetdə sülhün möhkəmləndirilməsi işinə böyük töhfə verirsiniz. Suriyada sülhün möhkəmləndirilməsi və risklərin azaldılması üçün Sizin sülhyaratma səyləriniz dünya birliyi tərəfindən çox yüksək qiymətləndirilir. Siz uzun illər boyu sanki həlli mümkün olmayan məsələləri həll etməyə nail olmusunuz.

Sizi həm də «Ekspo–2017» sərgisinin keçirilməsinə uğurla hazırlaşmağınız münasibətilə təbrik etmək istərdim. Bu, ölkənin yetkinliyinin, onun imkanlarının, potensialının, habelə Sizin əməkdaşlığa yönəlmiş siyasətinizin daha bir göstəricisidir. Ona

görə ki, bu, əməkdaşlığın genişləndirilməsinə, əmtəə dövriyyəsinin artırılmasına, ölkənin potensialının nümayiş etdirilməsinə yönəlmiş sırf sülh təşəbbüsüdür. Sizin rəhbərliyinizlə Qazaxıstan uğurla tərəqqi edir, regionlarda coşqun inkişaf prosesi gedir. Siz paytaxt Astananı yaratmısınız. Sizin respublikanın hər bir sakini bu nadir, son dərəcə gözəl şəhərlə haqlı olaraq fəxr edə bilər. Siz qısa müddətdə praktiki olaraq, həlli mümkün olmayan işlər görmüsünüz və bu gün mahiyyət etibarı ilə ölkənin potensialını, onun coşqun inkişafını təcəssüm etdirən gözəl paytaxt şəhəri yaratmısınız. Mən hər dəfə Astanaya gələndə görürəm ki, quruculuq prosesi hələ də davam edir. Hərçənd hesab etmək olar ki, artıq hər şey edilib, lakin Sizin daim qurub-yaratmaq, irəliyə doğru hərəkət etmək xarakteriniz bütün istiqamətlər üzrə fəal inkişafı stimullaşdırır. Qazaxıstan dövlətinin güclü iqtisadi potensialı hamıya məlumdur. Sizin sənayeləşdirmə siyasətiniz çox yaxşı nəticələr verib. Siz Qazaxıstanda ölkənizin sakinləri olan çoxsaylı xalqlar arasında nadir şərait – sülh və qarşılıqlı anlaşma ab-havası yaratmısınız. Bu gün xüsusən, dini, etnik zəmində münaqişələr, müxtəlif iddialara əsaslanan münaqişələr fonunda Qazaxıstanın nadir təcrübəsinə daha çox ehtiyac var. Ola bilsin ki, əvvəllər bu məsələni belə qəbul etmirdilər, düşünürdülər ki, bu belə olmalıdır. Lakin əslində belə deyil. Bu, böyük istedad tələb edir, hər bir xalqın nümayəndəsinin özünü öz ölkəsində, öz evində olduğu kimi hiss etməsi və öz ölkəsi üçün daha çox iş görməyə çalışması üçün şərait yaratmaqdan ötrü bu məsələyə çox ehtiyatla yanaşmaq tələb olunur.

Nursultan Abişeviç, Siz prezident olduğunuz illərdə çox təşəbbüslər irəli sürmüsünüz, onlar çox uğurlu layihələrə çevrilib. Siz irəli sürdüyünüz bütün təşəbbüsləri reallaşdıra bilmisiniz. Sizin rəhbər istedadınız burada da təzahür edir və hesab edirəm ki, bu istedadın əsası öz xalqınıza sevgidir. Mən Sizin öz ölkənizə necə münasibət bəslədiyinizi, öz xalqınızı necə sevdiyinizi dəfələrlə görmüşəm və müşahidə etmişəm. Bu vətənpərvərlik hissi, öz ölkəsinə, öz xalqına görə qürur hissi

heyranlığa layiqdir. Azərbaycanda Sizi çox sevirlər, Siz bunu bilirsiniz. Öz ölkəniz üçün etdiklərinizə, Azərbaycana münasibətinizə görə Sizi hamı özünə doğma hesab edir, Sizə böyük hörmət bəsləyir. Biz bunu hiss edirik, bilirik, görürük. Azərbaycan xalqı Sizi xüsusən bizim iştirak etmədiyimiz təşkilatlarda Azərbaycanın dəstəklənməsi üzrə fəaliyyətinizə görə yüksək qiymətləndirir. İnanın ki, Sizin hər bir sözünüz, hər bir hərəkətiniz çox geniş ictimai rezonansa səbəb olur. Buna görə düşünürəm ki, Sizə hələ uzun illər boyu fəal işləmək, sağlamlıq arzularımı çatdırmaqla, bu gün bütün xalqımızın fikrini ifadə etmiş olaram. Siz Qazaxıstana, Qazaxıstanın bütün dostlarına lazımsınız. İcazə verin, bu şərəfli missiyanı yerinə yetirim və yüksək mükafatı Sizə təqdim edim.

* * *

*Prezident İlham Əliyev «Heydər Əliyev» ordenini prezident Nursultan Nazarbayevə təqdim etdi.*

*Sonra Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev çıxış etdi.*

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin çıxışı

Hörmətli İlham Heydər oğlu, dostlar, xanımlar və cənablar!

Mən çox həyəcanlıyam, ölkənizin bu ali ordenini Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Məni ən çox riqqətə gətirən odur ki, bu orden Heydər Əlirza oğlu Əliyevin adını daşıyır. Mən Heydər Əliyev ilə 25 il ərzində – 1979-cu ildən onun ömrünün sonuna qədər tanış idim. Bütün bu illər ərzində onu yaxından tanımışam. Heydər Əliyev Sovet İttifaqının rəhbərliyində olanda mən ona güvənirdim, onun dəstəyini hiss edirdim. İndi, bu il isə siz də, biz də müstəqilliyin, ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 25 illiyini qeyd edirik. Bu çox rəmzi məna daşıyır. Mən o vaxt Heydər Əliyevlə bərabər razılaşdığımız işləri faktiki olaraq, davam etdirirəm. Bizim

bugünkü danışıqlarımız, görüşlərimiz onu göstərir ki, biz onun başladığı işi uğurla davam etdiririk. Heydər Əliyev, əlbəttə, öz ölkəsinin və xalqının müstəsna patriotu, Azərbaycanda qan tökülməsinə son qoymuş və bugünkü Azərbaycanın əsasını yaratmış qeyri-adi və böyük insan idi. Bu bizim münasibətlərimizin daha da möhkəmlənməsinin əlamətidir. Mən belə bir ordenin laureatı adını böyük şərəflə daşıyacağam.

İlham Heydər oğlu, mən demək istəyirəm ki, Siz bizim tanıdığımız Bakı şəhərinin simasının dəyişdirilməsində böyük uğurlar qazanmısınız. Bakı qədim şəhərdir, vaxtilə burada neft mancanaqları mərkəzi küçələrdə qoyulmuşdu. İndi köhnə Bakının və ən yeni, modernləşdirilmiş Bakının gözəl koloritini tanımaq olmur. Onun dənizkənarı bulvarı, gözəl binaları göz oxşayır. Boş çöldə Astana şəhərini tikmiş bir insan kimi, mən bunun nə demək olduğunu bilirəm. Ona görə fürsətdən istifadə edib Sizi bu münasibətlə təbrik edirəm. Biz Sizin Azərbaycan xalqının, ölkənizin, şəhərinizin rifahı üçün gördüyünüz bütün işləri müşahidə edirik. Beləliklə, Azərbaycan xalqına dost, ona etimad bəsləyən, xoş gələcək, əmin-amanlıq və firavanlıq arzulayan Qazaxıstan həmişə Sizin yanınızda olacaq. Mən şəxsən Sizə möhkəm cansağlığı arzu edirəm. Siz öz ölkəniz üçün, ölkələrimiz arasında möhkəm dostluq üçün hələ çox iş görəcəksiniz. Mən istəyirəm ki, bizim münasibətlərimiz iki dövlətin və onların xalqlarının rifahına xidmət etsin.

* * *

*Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin şərəfinə ziyafət verildi.*

**SERBİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Vuçiç!

Serbiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Serbiya əlaqələri uğurla inkişaf etməkdədir. Ötən dövr ərzində ölkələrimiz arasında siyasi, iqtisadi, mədəniyyət, humanitar və digər sahələrdə əlaqələr genişlənmiş və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. İnanıram ki, Azərbaycan ilə Serbiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin dərinləşməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizinlə görüşlərimizi və apardığımız fikir mübadilələrini xoş təəssüratlarla xatırlayıram. Yüksək səviyyəli səfərlərin əlaqələrimizin inkişafı baxımından mühüm əhəmiyyətini nəzərə alaraq, Sizi münasib bildiyiniz vaxtda Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Serbiya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2017-ci il*

## SERBİYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ NEBOYŞA RODİÇ İLƏ GÖRÜŞ

*4 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Serbiya Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Neboyşa Rodiçi qəbul etmişdir.*

*Səfir Neboyşa Rodiç Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü ildə təltif edildiyi Serbiyanın Ali ordenini dövlətimizin başçısına təqdim etdi.*

*Səfir dövlətimizin başçısına Ali ordenə layiq görülməsi münasibətilə Serbiyanın prezidenti Tomislav Nikoliçin təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev Ali ordenə layiq görülməsini yüksək qiymətləndirdi və təbriklərə görə minnətdarlığını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı İlham Əliyev prezident Tomislav Nikoliçin Azərbaycana səfəri və onunla Bakıda keçirdiyi görüşü məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev Serbiyada keçirilmiş son prezident seçkilərində Aleksandr Vuçiçin qələbəsi münasibətilə təbriklərini çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Aleksandr Vuçiçi Azərbaycana səfərə dəvət etdi.*

*Səfir Neboyşa Rodiç prezident İlham Əliyevin Serbiyaya səfərinin ölkəsində səbirsizliklə gözlənildiyini bildirdi.*

*Serbiya səfiri Azərbaycanda fəaliyyət göstərdiyi dövrdə ölkəmizin hər yerində böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi.*

*Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edildi, Azərbaycanın Serbiyanın yol infrastrukturunun modernləşdirilməsi istiqamətində həyata keçirdiyi işlər yüksək qiymətləndirildi.*

## İSLAM HƏMRƏYLİYİ İDMAN FEDERASİYASININ PREZİDENTİ ABDULLAH BİN MOSAAD BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*5 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Al Səudu qəbul etmişdir.*

*IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda uğurla keçiriləcəyinə əminliyini ifadə edən şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud bu böyük idman tədbirində 3000-dən artıq idmançının iştirakının önəmini vurğuladı.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Al Səuda IV İslam Həmrəyliyi oyunları ilə bağlı verdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı IV İslam Həmrəyliyi oyunları ilə bağlı bütün hazırlıq işlərinin görüldüyünü, Azərbaycanın qardaş ölkələrdən çoxsaylı idmançıları qəbul etməyə hazır olduğunu məmnunluqla qeyd etdi.*

*Şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud son vaxtlar Səudiyyə Ərəbistanından Azərbaycana səfər edən turistlərin sayının artdığını dedi və ölkəmizdə turizmin inkişafı üçün bütün lazımi imkanların mövcud olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanından Azərbaycana səfər edən turistlərin sayının bir neçə dəfə artdığını vurğulayaraq, bunun ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi işinə töhfə verdiyini nəzərə çatdırdı.*

*Azərbaycan ilə münasibətlərin ölkəsi üçün mühüm əhəmiyyət daşıdığını deyən şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud qeyd etdi ki, Azərbaycana hər zaman səfər edərkən Səudiyyə Ərəbistanının rəhbərliyi ona Azərbaycanın çox əhəmiyyətli ölkə olduğunu bildirir və respublikamızla əlaqələri daha da inkişaf etdirmək barədə tapşırıq verir.*

## ESTONİYA RESPUBLİKASININ DÖVLƏT İDARƏÇİLİK NAZİRİ MİXAİL KORBUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Estoniya Respublikasının Dövlət İdarəçilik naziri, Azərbaycan–Estoniya hökumətlərarası Komissiyasının sədri Mixail Korbun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Estoniyanın Dövlət İdarəçilik naziri, Azərbaycan–Estoniya hökumətlərarası Komissiyasının sədri Mixail Korbun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Azərbaycan–Estoniya hökumətlər-arası Komissiyasının fəaliyyətinə toxunan dövlətimizin başçısı ticari-iqtisadi münasibətlərimizin bundan sonra necə inkişaf etdirilməsi ilə bağlı məsələlərin ətraflı müzakirəsi baxımından Komissiyanın bu yaxınlarda keçiriləcək iclasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu, həmçinin qarşılıqlı ixrac imkanlarının araşdırılmasının əhəmiyyətini qeyd etdi, bu baxımdan ölkələrimizdə lazımi potensialın mövcud olduğunu bildirdi. Prezident İlham Əliyev investisiya qoyuluşu məsələlərinin də böyük maraq doğurduğunu vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimizin informasiya texnologiyaları sahəsində uzun müddət çox uğurlu əməkdaşlıq həyata keçirdiyini və Estoniya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərdiklərini məmnunluqla qeyd etdi. Estoniyanın bu sahədə*

*böyük təcrübəyə malik olduğunu deyən prezident İlham Əliyev Estoniyaya səfəri zamanı həmin nailiyyətlərin şahidi olduğunu bildirdi. Prezident İlham Əliyev səfər zamanı Estoniya nümayəndə heyətinin Şimal–Cənub nəqliyyat dəhlizinin yeni imkanları nəzərə alınmaqla, Azərbaycanın bu istiqamətdə gördüyü işlərlə tanış olacaqlarına əminliyini söylədi.*

*Estoniyanın Dövlət İdarəçilik naziri, Azərbaycan–Estoniya hökumətlərarası Komissiyasının sədri Mixail Korb ölkələri-miz arasında işbirliyi sahəsində təcrübənin mövcud olduğunu və bu təcrübənin daha çox xidmət sahəsini əhatə etdiyini vurğuladı. Azərbaycan ilə ticarət dövriyyəsinin o qədər də böyük olmadığını, lakin bu istiqamətdə inkişaf meyillərinin müşahidə edildiyini deyən Estoniyanın Dövlət İdarəçilik naziri keçən illə müqayisədə ticarət dövriyyəsinin, demək olar ki, 2,5 dəfə artdığını məmnunluqla vurğuladı.*

## «BAKI–2017» IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ XƏZƏRDƏN BAŞLANAN SU SƏYAHƏTİNƏ START MƏRASİMİNDƏ İŞTİRAK

*5 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2017» İslam Həmrəyliyi oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud aprelin 5-də paytaxtımızdakı Daş Salnamə Muzeyində «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının Xəzərdən başlanan su səyahətinə start verilməsi mərasimində iştirak etmişlər.*

*Azərbaycan prezidenti İlham Əliyev və «Bakı–2017» İslam Həmrəyliyi oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud ilə görüşdülər.*

*Bu il mayın 12-dən 22-dək Bakıda keçiriləcək IV İslam Həmrəyliyi oyunları bütün Azərbaycan, eləcə də islam dünyası üçün mötəbər idman təntənəsidir. 10 gün ərzində bütün islam dünyasının nəbzi Azərbaycanda döyünəcək.*

*«Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının Xəzərdən başlanan su səyahətinə həsr olunmuş mərasim Azərbaycan rəqsləri ilə başlandı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Gələn ay Azərbaycan IV İslam Həmrəyliyi oyunlarını qəbul edəcək. Bu oyunların Azərbaycanda keçirilməsi ölkəmizin həyatında çox əlamətdar hadisədir. İlk növbədə, İslam Həmrəyliyi İdman Federasiyasına və onun prezidenti cənab Abdullah bin Mosaad bin Əbdüləzizə və Federasiyanın bü-tün üzvlərinə IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda keçirilməsi haqqında qəbul edilmiş qərara görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Biz, cənab Prezident, Sizin və rəhbərlik etdiyiniz Federasiyanın dəstəyini həmişə hiss etmişik və şadam ki, Siz bizimlə bərabər bugünkü mərasimdə iştirak edirsiniz. IV İslam Həm-rəyliyi oyunlarının keçirilməsi bizim üçün böyük şərəfdir. Biz bunu islam ölkələrinin Azərbaycana olan hörmətinin və inamının təzahürü kimi qəbul edirik. Eyni zamanda, bu bizim üçün böyük məsuliyyətdir və demək olar ki, bütün hazırlıq işləri başa çatıb. Biz oyunları qəbul etmək üçün tam hazırıq. Fürsətdən istifadə edərək, IV İslam Həmrəyliyi oyunlarının hazırlanmasında xüsusi rol oynayan Təşkilat Komitəsinə, onun bütün üzvlərinə və Komitənin sədri Mehriban Əliyevaya da təşəkkürümü bildirmək istəyirəm.

Bir aydan bir qədər sonra 57 ölkəni təmsil edən 3000-dən çox idmançı Azərbaycanda yarışacaq. Biz bütün qonaqları qəbul etməyə hazırıq, onları səbirsizliklə gözləyirik. Qeyd etdiyim kimi, bu oyunlarda 57 ölkənin idmançıları iştirak edəcəklər və bu, oyunların tarixində bir rekorddur. Biz buna çox sevinirik. Minlərlə rəsmi nümayəndə, qonaq ölkəmizə gələcək. Əminəm ki, qonaqların ölkəmizlə, onun reallıqları ilə, bizim qədim tariximizlə tanış olmaq üçün imkanları olacaqdır.

Azərbaycan qədim tarixə, mədəniyyətə malik ölkədir. Bizim mədəniyyətimiz, tariximiz qürur mənbəyimizdir, milli sərvətimizdir. Qədim tariximizi əks etdirən tarixi dini abidə-lərimiz sübut edir ki, Azərbaycan xalqı qədim xalqdır və ta qədim

dövrlərdən bu diyarda yaşayıb, qurub-yaradıbdır. Azərbaycan qədim müsəlman diyarıdır. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi 743-cü ildə tikilmişdir. Bu məscid bir neçə il bundan əvvəl əsaslı bərpa edilib və qapılarını Azərbaycan xalqının üzünə açıbdır. Əminəm ki, qonaqlar Bakının və digər bölgələrimizin tarixi yerləri ilə tanış olacaqlar.

Oyunların keçirilməsində könüllülərin rolu xüsusi əhəmiyyət daşıyır. Şadam ki, bu oyunların keçirilməsində 8000-dən çox könüllü iştirak edəcək. Onlarsız bu oyunları keçirmək qeyri-mümkündür.

Qədim tarixə malik olan Azərbaycan cəmi 25 ildir ki, müstəqil dövlət kimi yaşayır. Keçən il biz müstəqilliyimizin bərpa olunmasının 25 illiyini qeyd etmişik. Bu illər inkişaf, quruculuq illəri olub. Hesab edirəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıbdır. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malikdir. Biz bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsinin dəstəyi və səsi ilə dünyanın ən ali beynəlxalq orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq. Bu, beynəlxalq aləmdə bizə olan münasibətin, hörmətin təzahürüdür.

Azərbaycanda bütün sosial məsələlər öz həllini tapır. İşsizlik 5 faiz səviyyəsindədir. Son 13 il ərzində iqtisadiyyatımız 3 dəfə artıb. Savadlılıq 100 faiz səviyyəsindədir. Bütün bunlar bu gün ölkəmizin sürətli inkişafını əks etdirir. Bizim şəhərlərimiz gözəlləşir, abadlaşır. Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Biz islam həmrəyliyi üçün çox böyük işlər görürük. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox mötəbər tədbirlər həyata keçirilib. Biz islam mədəniyyətini dünyada təbliğ etmək üçün çoxsaylı tədbirlər, təqdimatlar, sərgilər keçiririk, istəyirik bütün dünya bilsin və görsün ki, islam sülh dinidir, mərhəmət dinidir. Bizim qədim mədəniyyətimiz var və biz mədəniyyətimizlə fəxr edirik.

Bu il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilibdir. Bu da bütün müsəlman ölkələrini bir-biri ilə daha da sıx birləşdirmək üçün tərəfimizdən irəli sürülən önəmli təşəbbüsdür. Bu gün bütün müsəlman ölkələri birlik, həmrəylik nümayiş etdir-

məlidir. Əminəm ki, gələn ay keçiriləcək oyunlar həm böyük idman bayramı olacaq, həm də bizim dostluğumuzu əks etdirəcəkdir. Bütün müsəlman ölkələri 10 gün ərzində Bakıda öz təmsilçiləri vasitəsilə bir-biri ilə sıx əlaqələr quracaq, bir-birinin əlini sıxacaq. Biz Bakıdan bütün dünyaya nümayiş etdirəcəyik ki, islam aləmi birdir və bizim birliyimiz bizim gücümüzü artırır.

Azərbaycan idman sahəsində də böyük uğurlar əldə edib. Bizim müasir idman infrastrukturumuz istənilən beynəlxalq mötəbər yarışı keçirməyə imkan yaradır. Bakıda ən müasir idman qurğuları istifadəyə verilib. Eyni zamanda, bizim digər şəhərlərdə 40-dan çox müasir Olimpiya İdman Kom-pleksi fəaliyyət göstərir və bu özlüyündə idmana olan marağı artırır. Gənc nəsil, uşaqlar, yeniyetmələr idman bölmələrinə gedir və idmanla məşğul olurlar. Biz görkəmli idmançılarımızla fəxr edirik. Bizim artıq bir çox olimpiya çempionumuz var. Azərbaycan mötəbər beynəlxalq idman yarışlarında daim yüksək nəticələr göstərir. 2 il əvvəl Bakıda keçirilmiş I Avropa oyunlarında Azərbaycan idmançıları 56 medal qazanıblar və komanda hesabında ikinci yerə layiq görülüblər. Təsəvvür edin, bütün Avropa ölkələrinin iştirakı ilə keçirilmiş oyunlarda Azərbaycan komandası ikinci yerə layiq görülübdür. Keçən il Rio Olimpiya oyunlarının nəticələri göstərdi ki, bu qələbə təsadüfi deyildir. Rio Olimpiya oyunlarında Azərbaycan 18 medal qazanıbdır və medalların sayına görə biz dünya miqyasında 14-cü yerdəyik. Baxın, cəmi 25 il müstəqil ölkə kimi yaşayan Azərbaycan medalların sayına görə 200 ölkə arasında 14-cü yerə layiq görülübdür. Avropa ölkələri arasında isə biz 7-ci yerdəyik. Rio Olimpiya oyunlarında Azərbaycan müsəlman ölkələri arasında 1-ci yerdə idi. Bu bizi sevindirir və ruhlandırır. Bu, gənc, müstəqil Azərbaycan dövlətinin gücünü, idmançılarımızın vətənpərvərliyini göstərir. Hər dəfə bayrağımız beynəlxalq yarışlarda qaldırılanda hər bir vətənpərvər Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir.

Əziz dostlar, İslam Həmrəyliyi oyunlarının rəmzi sudur. Su həyat deməkdir. Təbiət və insan susuz yaşaya bilməz. Azərbaycan füsunkar təbiətə malik bir ölkədir. Gözəl göllərimiz, çaylarımız, bulaqlarımız, şəlalələrimiz, gözəl Xəzər dənizimiz bizim təbii sərvətimizdir. Bu gün Xəzərin sahilindən ölkəmizin müxtəlif istiqamətlərinə böyük səyahət başlanır. Su əslində bir rəmzdir və oyunların rəmzi məhz sudur. Hesab edirəm ki, bu seçim yüksək qiymətə layiq olmalıdır. Qoy bizim yolumuz su kimi aydın, niyyətimiz su kimi təmiz olsun.

## Şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səudun çıxışı

Bismillahir-rəhmanir-rəhim!

Aləmlərin rəbbi olan Allaha həmd olsun!

Peyğəmbərlərin ən şərəflisi Məhəmmədə, onun ailəsinə və bütün səhabələrinə Allahın salamı olsun!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli iştirakçılar!

Allahın salamı, rəhmi və bərəkəti sizinlə olsun!

IV İslam Həmrəyliyi oyunlarına hazırlıq işlərinin yüksək səviyyədə təşkilini və gözəl tərtibatı əks etdirən bu tədbirdə sizi salamlamaq mənə xoşdur.

Bu oyunlar dövlətlərimizin idmançıları arasında həmrəy-liyi təşviq etmək, qardaşlıq və dostluq münasibətlərini gücləndirmək üçün islam dünyasının övladlarını bir yerə toplayacaq. İslam ölkələrindən olan iştirakçılar və izləyicilər bu oyunlarla fəxr edirlər.

Heç şübhəsiz, bu oyunlar nəcib əxlaq və əsl dəyərlərlə yanaşı, yarışmaq, dözümlülük və yüksək çalışqanlıq ruhu ilə seçilən müsəlman idmançısının düzgün və ideal simasını göstərmək üçün əlverişli fürsətdir. Bunu bütün idmançılar oyunlar zamanı keçiriləcək müxtəlif yarışlarda Allahın izni ilə gerçəkləşdirməyə can atacaqlar.

Cənab Prezident, Azərbaycan Respublikasının ev sahibliyi edəcəyi IV İslam Həmrəyliyi oyunlarına son hazırlıq işləri ilə əlaqədar gördüklərim tam qaneedicidir. Mən oyunların uğurla keçirilməsi üçün ən yaxşı imkanları təmin etmək işində böyük dəstəyə və diqqətə görə İslam Həmrəyliyi İdman Federasiyası adından Sizə səmimi təşəkkürümü və minnətdarlığımı bildirirəm. Allaha şükürlər olsun ki, bu dəstək və diqqət tərtibat və təşkilat işlərində öz bəhrəsini vermişdir və uğura, fərqlənməyə əminlik yaradır.

İcazə verin, bu xoş fürsətdən istifadə edərək, bu oyunların hazırlanması və təşkilində göstərdiyi böyük səylərə və yüksək rəhbərliyə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, oyunların Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevaya təşəkkür edim.

Bu tədbirdə iştirak edənlərə, Azərbaycan Respublikasının xalqına təşəkkür edir, hamıya uğurlar arzulayıram.

Sağ olun. Allahın salamı, rəhmi və bərəkəti sizinlə olsun.

* * *

*Sonra mərasim bədii hissə ilə davam etdi.*

*Ustad xanəndələr Alim Qasımovun və Fərqanə Qasımovanın ifasında Azərbaycan və dünya musiqisinin şah əsəri olan muğam təqdim edildi.*

*Qeyd edək ki, «Bakı–2017» İslam Həmrəyliyi oyunlarının səyahəti su ünsürünə həsr olunub. Çünki su hər bir canlı üçün həyat mənbəyidir. Paklıq və birlik rəmzi olan suyun islamda böyük mənəvi dəyəri var və o, Xəzər dənizinin sahilində yerləşən Bakı üçün də xüsusi əhəmiyyəti ilə seçilir.*

*Bakıdan olan uşaq 2 nüfuzlu idmançının – taekvando üzrə dünya çempionatının ikiqat mükafatçısı Rəşad Əhmədov və Rio Olimpiya oyunlarının gümüş mükafatçısı Mariya Stad-nikin müşayiəti ilə Xəzər dənizinin sahillərindən birlik rəmzi olan suyu bütün Azərbaycana paylamaq üçün topladı.*

*Sonra uşaqlar səhnəyə daxil oldular.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər dənizindən götürülmüş suyu özləri ilə aparmaq üçün Azərbaycanın bütün guşələrindən gəlmiş uşaqlara təqdim etdi.*

*Ölkənin 15-dən çox tarixi şəhərini, 5 gölü, 1 su anbarını, 3 çayı, 1 bulağı, 3 şəlaləni və Xəzər dənizini əhatə edən su səyahəti bununla da 3000 kilometrdən çox məsafəni qət edəcək. Azərbaycanın müxtəlif guşələrində böyük təbii gözəlliyə malik 15 su məkanının hər birində 2 atletin müşayiəti ilə yerli uşaq xüsusi mərasimdə mis qabı su ilə dolduracaq.*

*Prezident İlham Əliyevin göndərdiyi Xəzərin suyu ilə yanaşı, götürüləcək digər sular sonradan axşam festivalında təqdim olunacaq. Azərbaycan musiqisi və rəqsləri, möhtəşəm su effektləri və əlvan atəşfəşanlığı ilə zəngin olan bu tədbirdə hər kəs iştirak edə biləcək.*

*Beləliklə, səyahət başlandı. «Xəzərdən başlanan səyahət» mayın 12-də Bakıda IV İslam Həmrəyliyi oyunlarının açılışı mərasimi ilə başa çatacaq. Həmin vaxt uşaqlar ölkənin göl və çaylarından, şəlalə və bulaqlarından topladıqları Azərbaycanın saf suları ilə islam dünyasının 50-dən çox dövlətindən olan idmançıları oyunlarda salamlayacaqlar.*

*Sonda möhtəşəm atəşfəşanlıq oldu.*

*IV İslam Həmrəyliyi oyunları həm ölkəmiz, həm də islam aləmi üçün çox önəmli idman yarışı olacaq. Bu oyunların Azərbaycanda keçirilməsi bir daha göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik ölkədir. Digər tərəfdən, indiyə qədər Azərbaycanda bütün mötəbər beynəlxalq tədbirlərin yüksək səviyyədə baş tutması, I Avropa oyunlarında qazanılan möhtəşəm qələbələr İslam Həmrəyliyi oyunlarının da uğurla keçiriləcəyinə təminat verir. Bunu isə ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, beynəlxalq miqyasdakı nüfuzu və inkişafı şərtləndirir.*

## RUSİYA FEDERASİYASI STAVROPOL VİLAYƏTİNİN QUBERNATORU VLADİMİR VLADİMİROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Rusiya Federasiyası Stavropol vilayətinin qubernatoru Vladimir Vladimirovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu bildirildi, ölkəmizin Rusiyanın ayrı-ayrı regionları ilə əməkdaşlığının önəmi vurğulandı, Azərbaycanın Stavropol vilayəti üçün ticarət və iqtisadi əməkdaşlıq baxımından ən vacib tərəfdaş ölkə olduğu qeyd edildi.*

*Dövlətimizin başçısı Rusiya Federasiyası Stavropol vilayətinin qubernatoru Vladimir Vladimirovun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərindən və XVI Beynəlxalq turizm və səyahətlər sərgisində iştirakından məmnunluğunu ifadə etdi. Stavropol vilayətinin Beynəlxalq turizm və səyahətlər sərgisində bir neçə dəfə iştirak etdiyini vurğulayan prezident İlham Əliyev ötən dövr ərzində Stavropol vilayətində turizmin daha da inkişaf etdiyini əminliklə bildirdi.*

*Turizmin cəlbedici investisiya sahəsi olduğunu vurğulayan Rusiya Federasiyasının Stavropol vilayətinin qubernatoru Vladimir Vladimirov rəhbərlik etdiyi vilayətdə artıq 5 sanato-riyanın inşasına başlanıldığını və bu layihələrdən birinin Azərbaycandan olan investorlar tərəfindən həyata keçirilməsini məmnunluqla vurğuladı. Vladimir Vladimirov bildirdi ki, Rusiyanın Baş naziri Dmitri Medvedev Stavropolda olarkən həmin sanatoriyanın inşasını yüksək qiymətləndirdi və Kislovodskda*

*növbəti bir layihənin azərbaycanlı investorlara həvalə edilməsi ilə bağlı tapşırıq verdi.*

*Azərbaycanlı investorlar tərəfindən həyata keçirilən bu layihələrin yüksək səviyyədə icra olunduğunu vurğulayan prezident İlham Əliyev bunu əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Söhbət zamanı yeni inşa olunan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi vasitəsilə Stavropoldan kənd təsərrüfatı məhsullarının xarici bazarlara çatdırılmasının əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Rusiyanın Stavropol vilayəti arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən turizm sektorunda daha da inkişaf etdirilməsi üçün böyük potensialın və qarşılıqlı marağın olduğu qeyd edildi.*

## «AITF–2017» XVI AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*6 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində aprelin 6-da «AITF–2017» XVI Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus–2017» XI Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşlar.*

*Sərgilər barədə dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi. Bildirildi ki, builki sərgidə 22 ölkəni təmsil edən 272 şirkət iştirak edir. Ziyarətçilər 90-dan artıq xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola biləcəklər. Sərgidə 17 milli və regional stend təmsil olunur.*

*Prezident İlham Əliyev əvvəlcə Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış oldu. Nazirlikdən başqa, burada 7 qurum təmsil olunur. Bu şirkətlər sərgidə turizmin müxtəlif istiqamətləri üzrə xidmətlər təklif edir. Ümumilikdə stenddə Azərbaycanın turizm marşrutları, turizm məkanları, paytaxtla yanaşı, bölgələrimizdə mövcud turizm infrastrukturu və rayonlarımızın turizm potensialı barədə məlumat verilir.*

*Dövlətimizin başçısı sonra Azərbaycan Turizm Assosiasiyasının stendinə baxdı. Burada 15 şirkət təmsil olunur. Şirkətlər hotel və turizm üzrə ixtisaslaşmış qurumlardır. Stenddə Bakı və regionlarda mövcud olan hotel kompleksləri, istirahət məkanları, əyləncə mərkəzləri barədə məlumat almaq mümkündür.*

*Kuba sərgidə birinci dəfə iştirak edir. Bu ölkənin Azərbaycandakı səfirliyinin stendində Kubanın turizm imkanları barədə məlumat verilir. Kubanın belə mötəbər sərgidə iştirak etməsində əsas məqsədlərdən biri turizm potensialını təbliğ etmək və daha çox turist cəlb etməkdir.*

*Azərbaycanın qədim diyarı olan Naxçıvan da sərgidə geniş təmsil olunur. Stenddə muxtar respublikadakı hotellər və istirahət mərkəzləri barədə ətraflı məlumat verilir. Naxçıvan özünün qədim tarixi və müasir siması ilə turistlərin diqqətini cəlb edir. İlbəil artan turist sayı da bunu təsdiqləyir. Əsasən qonşu dövlətlərdən – İran və Türkiyədən gələn turistlər çoxluq təşkil edir.*

*Sərgidə ölkəmizin digər bölgələrinin turizm imkanları da nümayiş etdirilir. Prezident İlham Əliyev ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi hər zaman diqqətdə saxlayır. Bunun nəticəsidir ki, indi paytaxtla yanaşı, bölgələrimizdə də müasir turizm infrastrukturu yaradılıb. Azərbaycanın qədim və zəngin mədəniyyəti, milli mətbəximizin müxtəlifliyi, xalqımızın qonaqpərvərliyi də turistləri ölkəmizə cəlb edir. Azərbaycanda turizmin kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, idman və digər növləri inkişaf etməkdədir. Ölkəmizin zəngin flora və faunası, gölləri, çayları, dağları respublikamıza bir dəfə səfər edən turistləri yenidən Azərbaycana gəlməyə sövq edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qarabağ stendi ilə də tanış oldular. Bu stend sərgidə böyük maraqla qarşılanır. Burada Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ barədə ətraflı məlumat verilir.*

*Sərgiyə Ukrayna da böyük maraq göstərir. Bu ölkənin turizm imkanlarını nümayiş etdirmək baxımından sərgi mühüm platformadır. Son 6 ildə Ukrayna mütəmadi olaraq bu sərgidə iştirak edir. Ukrayna stendində bu ölkənin hotel-kurort kompleksləri, həmçinin səhiyyə turizm obyektləri xidmətlərini təklif edir.*

*Dövlətimizin başçısına «ASAN viza»nın stendi barədə məlumat verildi. Bildirildi ki, sistem işə başlayandan bu günədək 40 min 63 nəfərə elektron viza verilib. Elektron viza üçün müraciət*

*edənlər arasında İran İslam Respublikasının vətəndaşları çoxluq təşkil edir. Almaniya, Böyük Britaniya, ABŞ, Pakistan, Hindistan, İsrail, Türkmənistan, İtaliya və Fransa vətəndaşları da bu xidmətdən istifadə edənlər sırasındadır. Elektron viza alanların əksəriyyətinin ölkəmizə səfərində məqsəd turizmdir.*

*Sərgidə Türkiyənin İzmir valiliyi də ayrıca stendlə təmsil olunur. Stenddə İzmirin səfalı məkanları, hotel xidmətləri nümayiş etdirilir. Burada 6 şirkətin xidmətləri təklif olunur. Qardaş Türkiyə Respublikasının bu diyarı turistlərin diqqətini yay turizmi, o cümlədən sörfinq kimi əyləncəvi istirahətlə də cəlb edir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Şopinq Festivalının stendinə baxdılar. Aprelin 10-dan mayın 10-dək Azərbaycanın paytaxtında ilk dəfə Ticarət festivalı keçiriləcəkdir. İldə 2 dəfə təşkil olunması planlaşdırılan festivalın keçirilməsində məqsəd turizm baxımından ölkəmizin cəlbediciliyinin yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılmasıdır.*

*Prezident İlham Əliyevə festival zamanı alınacaq məhsula görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması prosesi nümayiş olundu.*

*Rusiyanın Stavropol vilayəti də sərgidə geniş təmsil olunur. Vilayətin qubernatoru Vladimir Vladimirov dövlətimizin başçısına stend haqqında məlumat verdi. Burada 50-yə yaxın şirkət, 30-dək sanatoriya öz xidmətlərini təklif edir. Şirkətlər turizm, idman turizmi, sağlamlıq, müalicə istiqamətləri üzrə turlar təşkil edir. Bu il Azərbaycandan Rusiyanın bu bölgəsinə gedən turistlərin sayında 20 faizə yaxın artım olub. Bakı ilə Mineralnıye Vodı arasında həftədə 3 dəfə hava əlaqəsinin olması qarşılıqlı turizm mübadiləsinin artmasına şərait yaradır. Stavropol şirkətləri sərgiyə böyük maraq göstərir.*

*Sərgidə iştirak edən şirkətlər arasında Sankt-Peterburqun «Ermitaj Media» şirkəti də vardır. Bu, Dövlət Ermitaj Muzeyini və onun qəzetini, həmçinin rəsmi dövlət «Ermitaj» hotelini birləşdirən media holdinqdir. İlk dəfədir sərgidə təmsil olunan şir-*

*kət burada öz hotel və muzey xidmətlərini təklif edir. Əsas məqsədi Rusiyanın mədəni dəyərlərini qorumaq və təbliğ etməkdir.*

*«Azərbaycan Hava Yolları» – AZAL bu gün nəinki regionda, eləcə də dünyada aparıcı şirkətlərdən biridir. Bu gün Azərbaycanın mülki aviasiyası Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarına uyğun olmaqla, sərnişindaşımada bütün norma və tələblərə tam cavab verir. Təyyarə parkını və maddi-texniki bazasını müasirləşdirən «Azərbaycan Hava Yolları»nın təyyarələri dünyanın onlarla şəhərinə müntəzəm uçuşlar yerinə yetirir. Azərbaycanda turizmin inkişafına bir çox ölkələrlə olan birbaşa hava əlaqəsi də töhfə verir.*

*Tatarıstan bu sərgiyə yeni qoşulanlar arasındadır. Kazan stendində 4 şirkət təmsil olunur. Onlar turizm, hotel və yeməkxana komplekslərini təmsil edirlər. Tatarıstan növbəti illərdə də sərgiyə qatılmaq niyyətindədir.*

*Macarıstan artıq 7-ci dəfədir ki, sərgidə iştirak edir. 3 şirkətlə təmsil olunan bu ölkə geniş turizm imkanlarına malikdir. Burada Macarıstanın böyük hotellər şəbəkəsi, kurortlar və turizm şirkətləri təmsil olunur. Turizm mövsümündə bu ölkəyə gedən azərbaycanlıların sayı ilbəil artır.*

*Gürcüstan sərgiyə Milli Turizm Administrasiyasının stendi ilə qatılıb. Administrasiyanın stendində 6 şirkət xidmətlərini təklif edir. Onlardan 3-ü hotel, 3-ü isə region turizm müəssisəsidir. Şirkətlər əsasən bu ölkənin bölgələrində yaradılmış turizm potensialı, müxtəlif turizm istiqamətləri üzrə xidmətlər göstərir. Gürcüstan hər il bu sərgiyə qatılır və gələn şirkətlərin sayı da ilbəil artır.*

*Dövlətimizin başçısı İlham Əliyev «Natural Halı» şirkəti-nin stendinə də baxdı. Şirkət Azərbaycanın müxtəlif bölgələ-rində xalçalar toxutdurur. Onların hamısı əllə toxumadır. Burada əsasən Təbriz şəhərinin, eləcə də Türkmənistanın və digər ölkələrin əllə toxunan xalçaları vardır.*

*Bolqarıstan stendində bu ölkənin turizm potensialı nümayiş olunur. Stenddə Varna meriyası və 3 şirkət Bolqarıstanın*

*mədəni, dəniz, sağlamlıq və qış kurort turizmi istiqamətlərini təqdim edir.*

*Qardaş Türkiyə həmişə olduğu kimi, bu il də sərgidə geniş təmsil olunur. Bu ölkənin müxtəlif bölgələrinin turizm mar-şrutları, turizm xəritələri böyük maraqla qarşılanır. Sərgidə Türkiyəni təmsil edən 15 şirkət turizm, sağlamlıq və müalicəvi xidmətlərini təklif edir.*

*Üç şirkətlə təmsil olunan Mərakeş də sərgiyə böyük maraq göstərir. Mərakeş azərbaycanlı turistlərin bu ölkəyə səfər etməsi, həmçinin Mərakeş vətəndaşlarının Azərbaycana gəlməsində maraqlıdır.*

*Dominikan Respublikası 3-cü dəfədir sərgiyə qatılır. Bu ölkənin turizm şirkətləri sərgidə öz xidmətlərinin geniş çeşidini təklif edir. Dominikan turizm üçün cəlbedici ölkə sayılır.*

*Rusiya Federasiyası Dağıstan Respublikasının stendində turizm marşrutları, turizm xəritəsi barədə geniş məlumat verilir. Respublika sərgidə 4 şirkətlə təmsil olunur.*

*Sərgidə iştirak edən ölkələr arasında Kolumbiya da vardır. Bu ölkə ilk dəfədir ki, Bakı sərgisinə qatılıb. Kolumbiya sərgiyə növbəti ildə daha böyük nümayəndə heyəti ilə qatılmaq niyyətindədir.*

*Belarus ötən il bu sərgidə 6 şirkətlə təmsil olunmuşdusa, bu il şirkətlərin sayı 10-a çatıb. İkinci dəfə sərgidə iştirak edən Belarusun bu beynəlxalq tədbirə marağı ilbəil artır. Belarus stendində əsasən, sanatoriya, kurort, müalicə, tibbi və idman turizmi növləri üzrə xidmətlər təqdim olunur.*

*BMT Ümumdünya Turizm Təşkilatı və Asiya–Sakit Okean Turizm Assosiasiyası kimi, beynəlxalq qurumlar tərəfindən də dəstəklənən sərginin təşkilatçıları qismində «Iteca Caspian» və onun Böyük Britaniyadan olan tərəfdaşı «ITE Group» şirkətləri çıxış edir.*

*Stendlərlə tanış olan prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgilərin işinə uğurlar arzuladılar.*

## ÜMUMRUSİYA DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN TELERADİO APARICISI VLADİMİR SOLOVYOV İLƏ GÖRÜŞ

*7 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Ümumrusiya Dövlət Teleradio Şirkətinin telera-dio aparıcısı Vladimir Solovyovla görüşmüşdür.*

*Vladimir Solovyov Bakıya ilk dəfə səfər etdiyini bildirərək, paytaxtımızda sürətli inkişaf proseslərinin onda böyük təəssü-rat doğurduğunu və Bakının çox gözəl şəhər olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən inkişaf prosesləri barədə danışarkən qeyd etdi ki, ölkəmiz haqqında reallıqların dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal işlər görülür. Dövlətimizin başçısı, həmçinin Azərbaycanın tarixi və bugünkü reallıqları barədə söhbət açaraq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan ilə Rusiya arasında bütün digər sahələrdə olduğu kimi, humanitar əlaqələr, o cümlədən media sahəsində də uğurlu əməkdaşlıq həyata keçirilir.*

*Vladimir Solovyov ətraflı və dolğun informasiyaya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi, Azərbaycanda gedən proseslərlə yaxından tanış olmağın onun üçün böyük maraq doğurduğunu qeyd etdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz dinc insanlara qarşı yönəlmiş belə qəddar əməllərdən hədsiz dərəcədə hiddətlənir, dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2017-ci il*

## NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*10 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 10-da Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz birinci rübün yekunlarını müzakirə edəcək, növbəti aylarda görüləcək işlər haqqında danışacağıq.

Birinci rübdə ölkəmiz uğurla inkişaf edib, bizim bütün proqnozlarımız həyatda öz əksini tapır. Hələ keçən ilin sonlarında mən tam əminliklə qeyd etmişdim ki, 2017-ci ildə ölkəmizin sürətli inkişafı təmin ediləcək. Birinci rübün nəticələri göstərir ki, Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib, bizim beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir,

* Nazirlяr Kabinetinin 2017-ci ilin birinci rцbцnцn sosial-iqtisadi inkiшafыnыn yekunlarыna vя qarшыda duran vяzifяlяrя hяsr olunмuш iclasыnda Mцdafiя Sяnayesi naziри Yavər Camalov, «Azяrbaycan Dяmir Yollarы» Qapalы Sяhmdar Cяmiyyяtinin sяdri Cavid Qurbanov və «Azяrbaycan Xяzяr Dяniz Gяmiчiliyi» Qapalы Sяhmdar Cяmiyyяtinin sяdri Rauf Vəliyev çıxış etdilər.

bütün sosial məsələlər öz həllini tapır. Çox ciddi sosial təşəbbüslər irəli sürülübdür.

Ordu quruculuğu uğurla gedir və əminəm ki, biz bu il istədiyimiz nəticələrə, bütün hədəflərə çatacaq və 2017-ci il də ölkəmiz üçün uğurlu il olacaqdır.

Əfsuslar olsun ki, dünyada və regionda mövcud beynəl-xalq vəziyyət hələ ki, çox gərgindir. Mövcud olan münaqişələr, qanlı toqquşmalar davam edir. Yeni risklər yaranır, yeni təhdidlər ortaya çıxır və bütövlükdə, əfsuslar olsun ki, 2017-ci ildə bölgədə sabitlik istiqamətində ciddi addımlar atılmamışdır. Əksinə, bir daha qeyd etmək istəyirəm ki, risklər artır. Əlbəttə, biz bu bölgədə yaşayan bir ölkə kimi, bundan narahatıq və öz tədbirlərimizi görürük ki, Azərbaycan dövləti və Azərbaycan xalqı inkişaf etsin, normal yaşasın, ölkəmizdə təhlükəsizlik təmin edilsin və özümüzü potensial risklərdən qoruya bilək.

İlin əvvəlindən beynəlxalq fəaliyyətimiz də çox uğurlu olub. Mən birinci rübdə 7 xarici səfər etmişəm. Bu səfərlərin çox böyük əhəmiyyəti var. İlk növbədə, beynəlxalq konfranslarda mənim iştirakım ölkəmizin maraqlarının təmin edilməsi üçün çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, dünyanın 2 mötəbər beynəlxalq tədbiri var – biri Davos Dünya İqtisadi Forumu, hansı ki, siyasi və iqtisadi məsələləri diqqətdə saxlayır və dünyanın siyasi və iqtisadi elitası orada iştirak edir. İkincisi isə Münhen Təhlükəsizlik Konfransıdır ki, bu da daha çox təhlükəsizlik və siyasi məsələlərin müzakirəsinə həsr olunur. Hər 2 mötəbər tədbirdə iştirak edərkən, mən ölkəmizin mövqeyini, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı mövqeyini dünya ictimaiyyətinə bir daha çatdırdım. Eyni zamanda, Davos İqtisadi Forumunda dövlət başçıları, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, bizim maraqlarımızı təmin edir. Mən 10 ildən çoxdur ki, Davos Dünya İqtisadi Forumunda iştirak edirəm və o görüşlər əsnasında ölkəmiz üçün bir çox önəmli layihə həyata keçirilir. Bizim bu tədbirlərdə iştirakımız, fəal rolumuz ölkəmizə rəğbəti, hörməti artırır və bu

gün Azərbaycan beynəlxalq arenada çox etibarlı tərəfdaş kimi tanınır.

Birinci rübdə Avropa Komissiyasına uğurlu səfərim olub. Biz buna da çox böyük əhəmiyyət veririk. Çünki Avropa ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır, əsas investorlarımızdır və biz Avropa İttifaqı ilə uzun illərdir ki, səmərəli əməkdaşlıq aparırıq. Bu dəfə də Avropa qurumlarının rəhbərləri ilə bütün görüşlər çox səmimi, qarşılıqlı anlaşma şəraitində keçdi, bütün danışıqlar və söhbətlər qarşılıqlı hörmət əsasında aparıldı. Həm Avropa Komissiyasının rəhbərləri, həm də mən bunu rəsmi çıxışlarda da qeyd etmişik. Səfərdən dərhal sonra Avropa Komissiyası ilə yeni saziş üzərində danışıqlara başlamışıq və əminəm ki, bu danışıqlar tezliklə yaxşı nəticələrə gətirib çıxaracaqdır.

Mənim rəsmi səfərlərim də olub. Pakistan İslam Respublikasına çox uğurlu səfərim olub. Pakistan bizim üçün çox yaxın, dost, qardaş ölkədir. Bilirsiniz ki, Dağlıq Qarabağ münaqişəsinə görə Pakistan Ermənistanla heç bir əlaqə qurmayıb, diplomatik əlaqələri yoxdur. Biz bu mövqeni çox yüksək qiymətləndiririk. İkitərəfli əlaqələrimizin gündəliyi genişlənir, həm iqtisadi, siyasi, eyni zamanda, hərbi-texniki əməkdaşlıq da müzakirə mövzusudur və yaxşı nəticələr var. Son 5 il ərzində İqtisadi Əməkdaşlıq Təşkilatına uğurlu sədrlik etmişik və Pakistanda bu təşkilatın Zirvə görüşündə bizim sədrliyimiz dövründə gördüyümüz işlərə yüksək qiymət verilib.

Qətər Dövlətinə mənim uğurlu səfərim olub. Biz Körfəz ölkələri ilə çox yaxın əlaqələr qurmuşuq. Qətər bizim üçün çox yaxın, dost ölkədir. Qətərin Əmiri Azərbaycana səfər etmişdi, mən də cavab səfərim çərçivəsində çox uğurlu danışıqlar aparmışam, siyasi və iqtisadi, sərmayə qoyuluşu, birgə iqtisadi fəaliyyət sahələrində gələcək əməkdaşlıq çox geniş müzakirə edilibdir.

İran İslam Respublikasına uğurlu səfərim də artıq ənənəvi xarakter daşıyır. Son bir neçə il ərzində İrana 3 dəfə rəsmi səfər etmişəm. İran Prezidenti də Azərbaycana müntəzəm olaraq rəsmi

səfərlər edir. Mən son 3 il ərzində İran Prezidenti ilə 8 dəfə görüşmüşəm. İran bizim üçün dost, qardaş ölkədir, yaxın qonşudur. İranla əlaqələrimizin möhkəmləndirilməsi həm ölkəmizin maraqlarına xidmət edir, həm də bölgə üçün çox önəmlidir. Bu, bölgədə sabitliyi möhkəmləndirir və ikitərəfli formatda çox önəmli məsələlər müzakirə edilir. Yenə də bir çox sazişlər imzalandı və əvvəlki illərdə imzalanan sazişlər artıq həyatda öz əksini tapır. Əldə olunmuş bütün razılaşmalar icra edilir və həm ticarət dövriyyəsinin artırılmasında – İranla bizim ticarət dövriyyəmiz təqribən 70 faiz səviyyəsində artıbdır – eyni zamanda, nəqliyyat, energetika, logistika və digər sahələrdə çox uğurlu əməkdaşlıq aparılır.

Bu il Fransada rəsmi səfərdə olmuşam. Bu səfərin də çox böyük mənası vardır. Fransa dünyanın aparıcı ölkələrindən biridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür, Minsk qrupunun həmsədridir. Bu səfər də çox uğurlu keçdi, Fransa–Azərbaycan dostluq əlaqələri bir daha təsdiqləndi. Mənə Fransada çox böyük hörmət göstərildi. Siyasi, iqtisadi, humanitar məsələlərin müzakirəsi göstərdi ki, Fransa–Azərbaycan əlaqələrinin artıq çox möhkəm dayaqları var. Bu ölkədə Azərbaycana çox böyük maraq var, orada Fransanın aparıcı biznes qurumları ilə keçirdiyim görüş – bu görüş təqribən 2 saata yaxın çəkdi – göstərdi ki, doğrudan da həm çox böyük maraq var, həm də bizim gördüyümüz işlərə çox yüksək qiymət verilir və Fransa şirkətləri Azərbaycanda böyük həvəslə fəaliyyət göstərir.

Sadaladığım ancaq bu 7 səfər göstərir ki, bizim diploma-tiyamız çox uğurludur, beynəlxalq mövqelərimiz möhkəm-lənir və Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Hətta bir-biri ilə o qədər də yaxşı müna-sibətlər qurmayan ölkələr Azərbaycanla əməkdaşlığa gəldikdə, tərəddüdsüz və birmənalı şəkildə bu əməkdaşlığın dərinləşməsinə maraq göstərirlər və bunda maraqlıdırlar. Biz isə bütün ölkələrlə, xüsusilə bölgədə yerləşən ölkələrlə əlaqələrimizi daha da genişləndiririk. Bu həm siyasi, həm iqtisadi maraqlarımızı

təmin edir, həm də bölgədə əməkdaşlıq ruhunu gücləndirir və sabitliyi möhkəmləndirir.

Eyni zamanda, bu ilin birinci rübündə 7 dövlət başçısı Azərbaycana səfər edibdir. Bu da çox önəmlidir. Çünki bu səfərlər ölkəmizə olan hörmətin əlamətidir. Səfərlər çərçivəsində çox ciddi müzakirələr aparılır və görün, bizim beynəlxalq təmaslarımız nə qədər çoxşaxəlidir.

Birinci rübdə Azərbaycanda V Qlobal Forum keçirilib. Bu da artıq dünya miqyasında önəmli beynəlxalq tədbirlərin sırasına daxil edilib. Bu Forumda dünyanın 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak ediblər.

Bir hadisəni də qeyd etmək istəyirəm. Bu da çox əlamətdar hadisədir. Əslində bu hadisə bizim dünyadakı rolumuzu əks etdirir. Bu da Amerika və Rusiya orduları Baş qərargah rəislərinin birinci görüşünün Bakıda keçirilməsidir. Hər iki ölkə Azərbaycanı birinci görüş üçün seçməklə, həm bizə olan hörmətini növbəti dəfə ifadə edir, həm də bu bizim rolumuzu əyani şəkildə sübut edir. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib. Əlbəttə, birinci rübdə beynəlxalq fəaliyyətimizdə bir çox digər önəmli hadisələr də baş veribdir. Ancaq əsas məsələlər bundan ibarətdir.

Əlbəttə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli həmişəki kimi, diqqət mərkəzində olub. Baxmayaraq ki, Ermənistan danışıqlar prosesini hər vəchlə dayandırmağa, onu boykot etməyə çalışır, ancaq buna nail ola bilmir və nail ola bilməyəcək də. Minsk qrupunun həmsədr ölkələri artıq bir neçə dəfə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu əslində işğala son qoyulması deməkdir. Hesab edirəm, Ermənistana, onun işğalçı siyasətinə Minsk qrupu tərəfindən təzyiq daha da gücləndirilməlidir ki, onlar beynəlxalq normalara riayət etsinlər və işğala son qoysunlar.

Bizim danışıqlar prosesindəki mövqemizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Ərazi bütövlüyü prinsipi danışıqlar

mövzusu deyil və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Mən bütün beynəlxalq təmaslarda qeyd edirəm ki, bu məsələdə heç bir ölkə, yaxud təşkilat tərəfindən ikili standartlar özünü göstərməməlidir. Çünki bəzi hallarda biz bu ikili standartlarla üzləşirik. Postsovet məkanında mövcud olan digər münaqişələrə bəzən daha böyük diqqət göstərilir, yaxud da ki, o münaqişələrin həlli ilə bağlı daha dəqiq ifadələr işlənilir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Postsovet məkanında mövcud olan digər münaqişələrdən fərqli olaraq, BMT Təhlükəsizlik Şurası bu münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. O qətnamələr bəllidir, bütün dünya bunu bilir, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Budur əsas prinsip və bu prinsipdən kənarda heç bir başqa məsələ müzakirə oluna bilməz.

Onu da qeyd etməliyəm ki, Ermənistanın bütün cəhdlərinə baxmayaraq, onların qeyri-konstruktiv və qeyri-səmimi siyasəti artıq qınaq obyektinə çevrilib. Nə qədər tez danışıqlar masasına qayıtsalar, onlar üçün bir o qədər yaxşı olacaq. Çünki Azərbaycan gündən-günə güclənir, möhkəmlənir, həm siyasi, həm hərbi, həm də iqtisadi potensialımız artır və gec-tez biz bu məsələni istədiyimiz kimi ədalətli həll edəcəyik.

Birinci rübdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə hadisəni qeyd etmək istəyirəm. Birincisi, Dağlıq Qarabağda keçirilən qondarma «referen-dum»u qeyd etmək istəyirəm. Bu «referendum»un keçiril-məsi ilə Ermənistan özünü bir daha biabır və ifşa etdi. Mən bir dəfə demişəm və bir daha demək istəyirəm ki, onlar orada nə qədər çox qanunsuz «referendum» keçirsələr, bu bir o qədər çox bizim xeyrimizə işləyir. Çünki bütün qonşu ölkələrimiz, Minsk qrupuna həmsədrlik edən ölkələr, Avropa İttifaqı və bir çox ölkələr dərhal bu «referendum»u pislədilər. Bəyan etdilər ki, bu «referendum»u tanımırlar və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Əslində bu «referendum»un keçirilməsi ilə onlar bütün ölkələri bu həqiqəti bir daha təkrar etməyə sövq etdilər. Əlbəttə, bütün beynəlxalq aləm bu «referendum»u qəbul etməməklə, bizim ərazi bütövlüyümüzə və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsip əsasında həll edilməsinə öz dəstəyini göstərmiş oldu.

Digər hadisə də əlamətdardır. Çünki ilk dəfə olaraq, bizim qanunlarımızı bir neçə dəfə kobudcasına pozmuş, Dağlıq Qarabağa qanunsuz səfərlər etmiş, Azərbaycan dövlətini, xalqını təhqir etmiş bir nəfər xaricdə saxlanılaraq, bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verildi və Azərbaycana gətirildi. Bu, ilk dəfə baş verən hadisədir. Bu, ədalətin bərpasıdır. Bu, beynəlxalq hüququn aliliyidir. Ekstradisiya ilə bağlı olan bütün məsələlər beynəlxalq qanun və konvensiyalar əsasında baş verib. Əminəm ki, bu həm bizim qanunlarımızı kobudcasına pozan və bununla qürrələnən şəxsə də, onun kimilərinə də dərs olub və dərs olacaq.

Bir önəmli hadisə də baş verdi. Biz Cocuq Mərcanlı kəndinin bərpasına başladıq. Hesab edirəm ki, bu da tarixi hadisədir. İndi orada yeni qəsəbə salınır. Birinci növbədə 50 ev, məktəb, uşaq bağçası, məscid tikilir, yeni yol salınır. Sonra əlavə 150 ev və tibb məntəqəsi tikiləcək. Onu da qeyd etməliyəm ki, o məscid Şuşa məscidinin memarlığını təkrarlayır. Bu mənim göstərişim idi. Erməni vəhşiləri tərəfindən dağıdılmış bütün abidələrimizin, məscidlərimizin bərpası günü də gələcək. Cocuq Mərcanlının bərpası tarixi hadisədir, bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq. Eyni zamanda, onu göstərir ki, Azərbaycan öz ərazilərini bərpa edəndən sonra bütün kəndləri, bütün şəhərləri yenidən quracaq. Bu bir daha onu göstərir ki, 20 ildən artıq başqa yerdə məskunlaşan Cocuq Mərcanlı kəndinin sakinləri öz doğma kəndinə tezliklə qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, orada bütün evlər dağıdılıb və ora təmas xəttinə yaxındır. Budur torpaq sevgisi, Vətən sevgisi! Ona görə həm dövlət, həm bizim siyasətimiz, həm də xalq bu məsələdə vəhdət təşkil edir. Bu vəhdət, bu birlik bizi

daha da ruhlandırır və göstərir ki, biz haqq yolundayıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Onu da qeyd etməliyəm ki, bu il köçkünlər üçün digər yerlərdə yeni binalar tikilir, qəsəbələr salınır. Onlardan biri Tərtər rayonunda inşa edilən böyük qəsəbədir, yaxın aylarda istifadəyə veriləcək. Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlərin problemləri də əminəm ki, yaxın vaxtlarda öz həllini tapacaq. İlk növbədə, ən ağır vəziyyətdə yaşayan 4000 köçkün ailəsi yeni evlərə köçürüləcək. Bu proses mərhələli yollarla həll ediləcək, həm yeni binalar tikilir, həm də vaxtilə tikilmiş mövcud binalarda mənzillər alınacaq və məcburi köçkünlər orada yerləşdiriləcək. Hesab edirəm ki, yaxın bir neçə aydan sonra birinci qrup köçkünlər yeni evlərə köçürüləcək.

Əlbəttə, bütün bu məsələləri həll etmək üçün güclü iqtisadi potensialımız olmalıdır. Biz bu potensialı yaratmışıq. 2017-ci ilin birinci rübünün yekunları onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çox dinamik şəkildə inkişaf edir. Mən bəzi rəqəmləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Bu rəqəmlər mövcud iqtisadi vəziyyətimizi hər şeydən yaxşı əks etdirir.

İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektoru-nun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. İqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz artıbdır, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olubdur, kənd təsərrüfatı 3,5 faiz artıbdır. Xüsusilə qeyd etmək istəyirəm ki, bitkiçilik 20 faizdən çox artıbdır. Bu onu göstərir ki, bizim gördüyümüz işlər, ciddi islahatlar, investisiyalar artıq öz nəticələrini verir.

Birinci rübdə bizim valyuta ehtiyatlarımız 1 milyard dollar səviyyəsində artıbdır. Bu gün valyuta ehtiyatlarımız 38,5 milyard dollardır. Bu, böyük rəqəmdir. Biz keçən il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Baxmayaraq ki, neftin qiyməti kəskin səviyyədə aşağı düşüb, bu il nəinki qoruya bilmişik, birinci 3 ayda biz hətta əlavə 1 milyard dollar qazanmışıq. Əminəm ki, biz il ərzində valyuta ehtiyatlarımızı artıracağıq. Bu çox önəmli

məsələdir. Çünki hamıya aydındır ki, 2015–2016-cı illər böhran illəri idi. Neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi, inşaat sektorunda keçən il yaşanan durğunluq istər-istəməz təbii ki, bizim iqtisadi inkişafımıza mənfi təsir göstərə bilərdi. Bəlkə də hər hansı bir başqa hökumət bunun çıxış yolunu ancaq valyuta ehtiyatlarının istifadəsində görə bilərdi. Ən asan yol da bu idi. Ancaq, bax, məsuliyyətli yanaşma və uzunmüddətli inkişaf planlarımız, əlbəttə ki, bizim üçün başqa seçimi diktə edir. Bu, məsuliyyətli seçim idi, bu, xalqın maraqlarını hər şeydən üstün tutan seçim idi. Biz tezliklə ciddi islahatları dəyərləndirdik, çox operativ tədbirlər gördük. İqtisadiyyatımızın restrukturizasiyası ilə bağlı çox ciddi addımlar atıldı. Biznesi, investisiyaları, ixracı stimullaşdırmaq istiqamətində müvafiq qərar və qanunlar qəbul edildi. Beləliklə, biz iqtisadi dayanıqlılığımızı qoruya və valyuta ehtiyatlarımızı artıra bildik. Neftlə zəngin olan ölkələrin, demək olar ki, əksəriyyəti keçən il və bu il öz valyuta ehtiyatlarını itirirlər. Biz isə artırırıq.

Bu ilin 3 ayında ticarət dövriyyəsi 15 faiz artıbdır. Bu da çox yaxşı göstəricidir. İxrac təxminən 50 faiz artıbdır. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft ixracımız təqribən 10 faiz artıbdır, idxal isə 17 faiz azalıbdır. Bu da bizim siyasətimizin təzahürüdür. Çünki idxaldan asılılığımızı azaltmaq üçün yerli istehsalı stimullaşdırdıq, biznes qurumlarına çox gözəl şərait yaratdıq, xüsusilə kənd təsərrüfatı sahəsinə texnikanın alınması və digər tədbirlərə dövlət investisiyaları qoyuldu. Bu barədə artıq çox danışmışıq, təkrar etmək istəmirəm. İdxalın azalması, ixracın kəskin artması bizim iqtisadi sabitliyimizi təmin edir. Ancaq birinci rübdə ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Bu göstəricilər iqtisadi vəziyyətimizi real əks etdirir. Əgər əlavə etsəm ki, bu il Davos Dünya İqtisadi Forumu iqtisadiyyatların rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb, artıq mənzərə tamamlanır. Biz böhranlı illərdə öz reytinqimizi 3 pillə artıra bilmişik. İnkişafda olan ölkələr arasında reytinqə görə Azərbaycan 1-2-ci yerləri bölüşür. Budur

bizim işimizə verilən real və etibarlı qiymət. Biz bu yolla gedəcəyik, iqtisadi potensialımızı gücləndirəcəyik.

Birinci rübdə 85 min yeni iş yeri yaradılıbdır. Onlardan 70 mini daimi iş yeridir. Cəmisi 9 min iş yeri bağlanılıbdır. Biz artıq yenə də gözəl mənzərəni görürük. Sevindirici hal ondan ibarətdir ki, iş yerlərinin yaradılması təkcə dövlət sektorunda yox, özəl sektorda da davam edir. Mən əvvəlki toplantıda qeyd etmişdim ki, biz bu il dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaradacağıq. Onlar artıq yaradılıb. Amma 40 mindən çox iş yeri özəl sektorda yaradılıbdır. Bu da iqtisadi inkişafın təzahürüdür.

Bu il «Cənub Qaz Dəhlizi»nin icrası ilə bağlı da önəmli hadisə baş verib. «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurası üçüncü dəfə Bakıda görüş keçirib. Bu layihədə iştirak edən bütün ölkələrin, Avropa Komissiyasının, Amerikanın, Böyük Britaniyanın yüksəkvəzifəli nümayəndələri öz iştirakları ilə bir daha bu layihəyə dəstəklərini göstərmiş oldular. Məşvərət Şurasının yekunu olaraq, qətnamə qəbul edildi. Bu qətnamədə yenə də ölkəmizin liderlik rolu qeyd edilir. «Cənub Qaz Dəhlizi»nin icrası artıq reallıqdır. Düzdür, bizə əngəl törətmək istəyənlər də var. Bu da təbiidir. Biz bunu hələ 10 il bundan əvvəl görmüşük. Yadımdadır, o vaxt Bakı–Tbilisi–Ceyhan neft kəməri tikiləndə bizim siyasətimizə zərbə vurmaq istəyən qüvvələr, erməni lobbisi və bu layihəyə müsbət yanaşmayan bəzi dairələr müxtəlif yollarla daha çox ekoloji bəhanələr gətirərək çalışırdılar ki, bizim işimizə zərbə vursunlar. Buna müəyyən dərəcədə nail oldular. Yadımdadır, o vaxt hətta bəzi beynəlxalq maliyyə qurumları da kreditləşməni bir qədər yubatdılar. Buna baxmayaraq, Bakı–Tbilisi–Ceyhan 2006-cı ildə açıldı. Bu gün də bəzi dairələr, bəzi kənar qüvvələr çalışırlar ki, yenə də ekoloji bəhanələr gətirərək, «Cənub Qaz Dəhlizi»nin bəzi seqmentlərində işləri yubatsınlar. Ancaq bunun heç bir əsası yoxdur. Bu sadəcə olaraq, bir bəhanədir. Bütün ekoloji normalar gözlənilir, bütün məsələlər razılaşdırılıb. Tezliklə «Cənub Qaz Dəhlizi»nin istifadəyə verilməsi həm bizim, həm də bu layihədə iştirak edən və bu layihədən gələcəkdə xeyir götürəcək bütün tərəflər üçün önəmlidir.

Mən əminəm ki, 2017-ci il bu baxımdan həlledici il olacaq və biz gələn il TANAP layihəsinin açılışını qeyd etməliyik.

Bu ilin əvvəlindən nəqliyyat sektorunda da yaxşı nəticələr var. Xüsusilə qeyd etməliyəm ki, Astaraçay çayı üzərində tikdiyimiz körpü vasitəsilə bu ilin mart ayında Azərbaycandan İrana artıq birinci qatar keçibdir. Biz Şimal–Cənub dəhlizi ilə bağlı ərazimizdə olan bütün işləri yekunlaşdırdıq. Əminəm ki, bu il Şimal–Cənub layihəsinin icrasında birgə səylərlə müsbət irəliləyiş olacaq. O ki qaldı Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsinə, Türkiyə tərəfi artıq bir neçə dəfə rəsmi qaydada bəyan edib ki, bu il bu layihə də istifadəyə veriləcək. Bilirsiniz ki, Azərbaycan bu layihə ilə bağlı öz üzərinə düşən bütün vəzifələri artıq icra edib.

Bir rəqəmi də diqqətə çatdırmaq istəyirəm. Bu da turizmlə bağlıdır. Keçən il turistlərin, xarici vətəndaşların ölkəmizə səfərləri 11 faiz artıbdır. Bu ilin birinci rübündə artıq 25 faiz artım var. Bu da çox gözəl göstəricidir. Bunun, əlbəttə ki, bir çox səbəbləri vardır. Birincisi, Azərbaycanda mövcud olan və son illər ərzində yaradılmış müasir infrastruktur. Bizim 6 beynəlxalq aeroportumuz var. Bizim ən son modellərlə təchiz edilmiş hava nəqliyyatımız var. Bütün bölgələrə gözəl yollar çəkilibdir. Bakıda və bölgələrdə gözəl hotellər tikilibdir. Bakıda dünyanın, demək olar ki, bütün aparıcı hotel şəbəkələri öz hotellərini idarə edir. Bütün bölgələrdə müasir hotel infrastrukturu, müalicəvi turizm inkişaf edir. Biz ənənəvi turizm bölgələrini bərpa etdik. Vaxtilə, sovet dönəmində Naftalana 70 min turist gəlirdi. Verilən son məlumata görə, hər il təxminən 30–35 min insan buraya müalicə almağa gəlir. Biz Qalaaltı kurortunu bərpa etmişik, özü də yüksək səviyyədə. Sovet vaxtında orada olan vətəndaş indi görür ki, burada yerlə göy qədər fərq var. Biz digər müalicəvi turizm zonalarını yaratdıq, yeni turizm obyektləri istifadəyə verildi. Qusarda «Şahdağ», Qəbələdə «Tufandağ» xizək kompleksləri ən müasir turizm infrastrukturudur. Bunlar olmasaydı, ölkəmizə kim gələrdi?! İkincisi, ölkəmizdə mövcud olan sabitlik. İndi turistlər də

baxırlar ki, hara getsinlər. Onlar riskli yerlərə getmək istəmirlər. Bilirlər ki, Azərbaycanda onların təhlükəsizliyi qorunacaq. Bilirlər ki, Azərbaycan sabit ölkədir. Bu da önəmli amildir.

Növbəti amil mənim göstərişimlə «ASAN viza» sistemi-nin yaradılmasıdır. Mənə bu yaxınlarda məruzə edildi ki, 3 ay ərzində «ASAN viza» xətti ilə 40 min viza verilib. Bu sistem Azərbaycana viza ilə gələnlərə şamil olunur. 80-dən çox ölkənin vətəndaşı elektron viza alır. Bunlar olmasaydı, turizm inkişaf edə bilərdimi?! Əlbəttə, bizim tariximiz, tarixi abidələrimiz, gözəl iqlimimiz, xalqımızın qonaqpərvərliyi, zəngin mətbəxi də bu işdə rol oynayır. Ancaq bunlar hamısı var idi. Bəs niyə turizm inkişaf etmirdi? Biz bu sahədə inkişafı niyə görmürdük? Ancaq bu məsələni mən şəxsən öz nəzarətimə götürəndən sonra burada dönüş yarandı. Mənim yadımdadır, dəfələrlə müxtəlif dövlət qurumlarına göstəriş vermişdim ki, bu viza məsələlərini həll edin. Çünki vizalarla bağlı pozuntular bizim imicimizə zərbə vururdu. Xarici vətəndaş o vizanı səfirlikdən almaq üçün min əziyyətə qatlaşmalı olurdu, onu get-gələ salırdılar, qanunsuz tələblər irəli sürürdülər. Bu məsələ birdəfəlik həll olundu. İndi bu olmasaydı, Azərbaycana kim gələrdi?! Bəzi xarici ölkələrdə olarkən görüşlər əsnasında mənə deyirdilər ki, biz Azərbaycana gəlmək istəyirik, bizim vətəndaşlar gəlmək istəyirlər, amma çox çətindir. Gərək 1 həftə, 2 həftə əvvəl planlaşdırasan, bilinmir hələ sənə viza verəcəklər, ya verməyəcəklər, bizim konsulumuz olan başqa şəhərə getməlisən. Xarici vətəndaş min bir əziyyətdən çıxırdı ki, Azərbaycana gəlsin. Mən bu məsələni tam diqqətə götürdüm və dərhal inqilabi dönüşlər yarandı. Turist axınının əsas səbəbləri budur – bizim siyasətimiz, verdiyim göstərişlər, onların icrası, viza və təhlükəsizlik məsələləri, müasir infrastruktur, hotellər, istirahət zonaları və əlbəttə ki, Bakının gözəlliyi.

Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakı necə idi? Bu, artıq yaddan çıxır, bulvar nə gündə idi? Adam qorxurdu bulvara getməyə. Heç kim bulvara çıxıb orada ailəsi ilə gəzmirdi. Qaranlıq küçələr, dağılmış binalar, dax-

malar, dar yollar – bu idi əvvəlki Bakı. İndi Bakının tarixi binaları tarixi irsimiz qorunmaqla, təmir edildi. İçərişəhər artıq dünyanın ən cəlbedici tarixi yerlərindən birinə çevrildi. Bakı Bulvarının uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırıldı, söküntü işləri aparıldı, yeni yollar açıldı, yeni parklar salındı. Bu gün Bakı parklar, göllər şəharidir. Biz gölləri təmizlədik. Biz ekoloji fəlakət mənbəyi olan Bibiheybət buxtasını təmizlədik. Biz ekoloji təhlükə mənbəyi olan Böyükşor gölünü təmizlədik və hələ ki, burada işlər davam edir. Bunlar olmasaydı, hansı turist Azərbaycana gələrdi?! Biz beynəlxalq yarışlar keçirdik, dünyanın diqqətini cəlb etdik. Biz «Eurovision», Avropa oyunları, 500 milyon auditoriyası olan «Formula-1»i keçirdik. Biz İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bunlar olmasaydı, kimsə gələrdimi?! Əsas amillər bunlardır, bunu hamı bilsin və düzgün qiymətləndirsin.

Biz gələn ay İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bütün hazırlıq işləri yekunlaşır. Bu da böyük bir idman bayramı olacaqdır. Mən artıq təntənəli mərasimdə qeyd etdim ki, bu təkcə idman oyunları deyil, həm də birlik oyunlarıdır. Biz bu istiqamətdə də səylərimizlə müsəlman ölkələri arasındakı birliyi möhkəmləndirəcəyik.

## YEKUN NİTQİ

Beləliklə, 2017-ci il yaxşı başlanır, yaxşı nəticələr var. Çalışmalıyıq ki, il ərzində bu dinamikanı saxlayaq və 2017-ci ili də uğurla başa vuraq.

Önəmli məsələlərdən biri makroiqtisadi sabitlikdir. Bu makroiqtisadi sabitliyi möhkəmləndirməliyik. Süni qiymət artımına yol verilməməlidir. İstehlak qiymətlərinə daim diqqət göstərilməlidir, bu, nəzarət altında olmalıdır. Hesab edirəm ki, bütövlükdə makroiqtisadi sabitlik baxımından 2017-ci il əvvəlki illərlə müqayisədə daha uğurlu olacaqdır. Bunu deməyə kifayət qədər əsaslar var. Bu istiqamətdə düşünülmüş və çox çevik siyasət aparılmalıdır.

Dövlət büdcəsinin icrası da uğurla gedir. Həm gömrük, həm vergi orqanları rüblük planı artıqlaması ilə yerinə yetiribdir. Bu, yaxşı haldır. Büdcə xərcləri də 100 faiz icra edilməlidir. Çünki əvvəlki illərdə bəzi hallarda investisiya xərclərində nəzərdə tutulan vəsaitdən tam istifadə edilmirdi. Bu il isə həm qəbul edilmiş pul proqramı, həm də xərclərlə gəlirlər arasındakı tarazlıq tam təmin edilməlidir. Builki investisiya proqramı kifayət qədər təsirli olmalıdır. Bu gün ölkə üçün ən lazımlı layihələrə kifayət qədər vəsait ayrılır və birinci rübdə işlər yaxşı gedir. Gərək investisiya proqramı tam şəkildə icra edilsin.

Mən qeyd etmişəm ki, bizim maliyyə vəziyyətimiz yaxşı-dır. Biz bu il valyuta ehtiyatlarımızı 3 ay ərzində 1 milyard dollar səviyyəsində artırmışıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfədən çox artıqdır. Hesab edirəm ki, bu, dünya miqyasında çox nadir hallarda rast gəlinən bir mənzərədir. Bu baxımdan Azərbaycan fərqlənir. Bir çox inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsuldan çoxdur. Valyuta ehtiyatları xarici borcun heç 20 faizini ödəyə bilmir. Ancaq bizdə xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, bu çox aşağı göstəricidir. Valyuta ehtiyatlarımız isə xarici borcdan 5 dəfədən çox artıqdır. Hesab edirəm ki, müxtəlif reytinq agentlikləri bu amilləri nəzərə almalıdır. Giriş sözümdə qeyd etdiyim kimi, ilin birinci rübünün iqtisadi göstəriciləri də ən gözəl nəticələrdən biridir. Bu il inşaat sektorunda canlanma müşahidə olunur. Bu da təbiidir. Çünki keçən il görülmüş işlər, qəbul edilmiş qərarlar artıq özünü büruzə verir. Mənə verilən məlumata görə, hazırda Bakı şəhərində 300-dən çox yeni hündürmərtəbəli bina tikilir. Bu da özlüyündə gözəl bir göstəricidir. Burada minlərlə yeni iş yeri yaradılır. Keçən il biz daha çox inşaat sektorunda iş yerlərini itirdik. Bu il isə bərpa edilir. Həm qəbul edilmiş qərarlar, həm dövlət investisiyaları və əlbəttə, özəl sektorun fəallaşması yeni bir vəziyyətə gətirib çıxarır. Keçən il Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə böyük şəhərciyin təməl daşı qoyuldu, inşaat işləri gedir. İndi ikinci layihənin icrası gözlənilir. «Ağ şəhər» layihəsinin birinci

mərhələsi başa çatıb. Hələ növbəti 5 il ərzində onlarla bina tikiləcəkdir. Bakının müxtəlif yerlərində artıq müddəti keçmiş və yararsız vəziyyətdə olan binalar sahibkarlar tərəfindən sökülür. Orada yaşayan vətəndaşlara ya kompensasiya verilir, ya da vəsait ayrılır ki, onlar kirayədə yaşasınlar. Köhnəlmiş, qəzalı vəziyyətdə olan o binaların yerində artıq hündürmərtəbəli, gözəl memarlığı ilə seçilən binalar tikilir.

Birinci belə pilot layihə Sabunçu rayonunda icra edilibdir. Yeni tikilmiş o binanın açılışında mən şəxsən iştirak etmişəm. Orada gördüm ki, vətəndaşlar buna necə sevinirlər. Çünki onlar həm yeni mənzillərə köçürülür, onların qəzalı binalardan canı qurtarır, həm də mən xüsusi tapşırıq vermişdim ki, yeni binalarda mənzillərin sahəsi daha da böyük olsun. Vətəndaşlara əvvəlkindən təxminən 10, bəzi hallarda 20, yaxud 30 faiz daha böyük ölçüdə təmirli mənzillər verilir. Əlbəttə, vətəndaşlar buna çox sevinirlər. Bu, sahibkarlar üçün də əlverişlidir. Çünki onlar 3-4 mərtəbəli binanın yerində hündürmərtəbəli bina tikirlər. Onlar da gəlir götürürlər, inşaat sektoru da inkişaf edir, inşaat materiallarının istehsalı artır, iş yerləri yaradılır. Yəni bu proses artıq geniş vüsət alıbdır. Mənə verilən son məlumata görə, Bakı şəhərində bu yolla həyata keçirilən layihələrin sayı artıq 75-ə çatıb. Bu proses davam edir. Mən yerli icra orqanlarına, sahibkarlara bir daha müraciət edirəm ki, onlar bu işi düzgün təşkil etsinlər. Sahibkarlar təşəbbüs göstərsinlər, yerli icra orqanları isə öz növbəsində, onlara şərait yaratsın, kömək etsin. Beləliklə, biz burada bir neçə məqsədi təmin edəcəyik. Qeyd etdim ki, iş yerləri açılacaq, inşaat sektoru inkişaf edəcək, insanların təhlükəsizliyi, rifahı və şəhərimizin abadlaşması təmin olunacaq.

Növbəti önəmli layihə mikrorayonlarla bağlıdır. Artıq birinci mikrorayonla bağlı layihə hazırlanıb, əminəm ki, tezliklə icra ediləcək. Orada köhnəlmiş binaların yerində yeni, müasir, gözəl memarlıq üslubunda binalar tikiləcək. Mən xüsusi tapşırıq vermişəm ki, yeni tikilən, xüsusilə sökülüb yenidən tikilən binaların birinci mərtəbəsində mütləq ictimai yerlər, uşaq

bağçası nəzərdə tutulsun. Beləliklə, bu yolla tikilən 75 binanın hər birinin birinci mərtəbəsində uşaq bağçası olacaqdır. Bu da Bakının uşaq bağçası ilə bağlı mövcud olan probleminin həllinə müsbət təsir göstərəcək. Bu yolla biz gələn 3-4 il ərzində uşaq bağçası problemini həll edəcəyik. Çünki indi buna daha böyük tələbat var, həm əhalinin, həm də uşaqların sayı artır. Eyni zamanda, iş yerləri yaradılır. İndi bir çox hallarda ailədə hər iki valideyn işlə təmin edilir. Ona görə də bizdə uşaq bağçalarına çox böyük ehtiyac olacaq. Uşaq bağçasının tikintisi üçün xüsusi yer də ayrılmalıdır. Amma ən yaxşı variant odur ki, yeni tikilmiş binalarda mütləq uşaq bağçası olsun. Tikintiyə icazə verənlər də, yerli icra orqanları da sahibkarlara mütləq, bax, bu tövsiyəni versinlər.

Sənaye istehsalı və kənd təsərrüfatı əsas prioritet istiqa-mətlərdir. Hər iki istiqamət üzrə yaxşı nəticələr var. Qeyd etdiyim kimi, qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı 3,5 faiz artıb. İndi rayonlarda sənaye zonaları yaradılır. Mingəçevir Sənaye Parkında ilk zavodlar bu ilin sonunda istifadəyə veriləcək. Sumqayıt Texnologiyalar Parkında, Kimya Sənaye Parkında, Pirallahı və Balaxanı Sənaye parklarında, Neftçala Sənaye Məhəlləsində işlər yaxşı gedir. Bu proses gedir. Bir neçə il bundan əvvəl mən qeyd etdim və tapşırıq verdim ki, hər bir rayonda sənaye zonası tikilsin. Biz artıq bunu görürük. Bütün rayonlar bu işlərə fəal qoşulmalıdır.

Mən sahibkarların diqqətini böyük bir layihəyə cəlb etmək istəyirəm. Bu, Sumqayıt Kimya Sənaye Parkında yaradılmaqda olan «SOCAR Polymer» zavodudur. Çox nəhəng sənaye müəssisəsidir, 100 milyonlarla dollar sərmayə qoyulur və çox gözəl məhsul istehsal edəcək. Bu məhsul, əlbəttə, həm daxildə istifadə olunacaq, həm də ixracyönümlüdür. Ancaq mən qeyd etməliyəm ki, bu xammalın əsasında çox ciddi bir sənaye sahəsi yaradıla bilər. Biz, demək olar ki, indi bütün hazır plastik məhsulları xaricdən idxal edirik. Ancaq «SOCAR Polymer»in işə düşməsindən sonra Azərbaycanda hazır məhsul istehsal etmək üçün yaxşı imkanlar yaranır və bu, biznes üçün də çox

gəlirli bir sahə olacaqdır. Ona görə bizim dövlət qurumlarına müraciət edirəm, onlar sahibkarlara bunu daha da yaxşı başa salsınlar ki, «SOCAR Polymer»in bir çox hazır məhsulu əsasında zavodlar, fabriklər yaradıla bilər. Bu həm yeni iş yerlərinin yaradılması deməkdir, həm də sahibkarlara əlavə gəlir gətirəcək və bizim ixrac məhsulumuz da daha böyük qiymətə xarici bazarlara çıxarılacaqdır. Əgər belə olmasa, «SOCAR Polymer»in məhsulu ancaq xammal kimi xaricə satılacaq. Əlbəttə, bu da yaxşı haldır, amma əminəm ki, mənim məsləhətim nəzərə alınacaqdır.

Kənd təsərrüfatı sahəsində görüləcək işlər haqqında bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinin yekunlarının müzakirəsi zamanı mən kifayət qədər geniş danışdım. Bütün tapşırıqlar, göstərişlər verildi. Onları təkrar etmək istəmirəm. Sadəcə, bir neçə məqamı qeyd etmək istəyirəm. Kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpaq sahəsinin suvarılması nəzərdə tutulur, vəsait ayrılıb və bu layihələr nəzarət altında olmalıdır ki, biz il ərzində bu rəqəmə çata bilək. Hesab edirəm ki, bu, inqilabi bir dəyişiklik olacaq və kənd təsərrüfatı istehsalını, əlbəttə ki, artıran amillərdən biridir, bəlkə də birincisidir. Kənd təsərrüfatı məhsullarının həcmi artmalıdır, daxili tələbatı tam təmin etməliyik. İxracyönümlü məhsulların həcmini artırmalıyıq, məhsuldarlıq yüksəldilməlidir, ən müasir texnologiyalar tətbiq olunmalıdır. Torpaqların dəqiq uçotu aparılmalıdır. Bu istiqamətlərdə işlər gedir, göstərişlər verilib. Torpaqların müasir üsullarla dəqiq təhlili aparılmalıdır. Torpaqların keyfiyyəti haqqında bizdə müfəssəl məlumat olmalıdır. Biz bu sahədə böyük təcrübə toplamış ölkələrin təcrübəsini gətirməliyik, ondan istifadə etməliyik ki, hansı sahədə, hansı bölgədə hansı məhsul yetişdirilməlidir. Yəni bundan sonra da biz buna kortəbii yox, ancaq fərdi qaydada yanaşmalıyıq və subsidiya məsələləri də buna görə hesablanmalıdır. Mən artıq müvafiq göstərişlər vermişəm, biz buna baxmalıyıq. İndi subsidiyaların verilmə prosedurları təkmilləşdirilir. Ancaq

hesab edirəm ki, biz gələcəkdə rayonlaşma siyasətinə daha da ciddi baxmalıyıq. Biz bilməliyik, hansı bölgələrdə hansı məhsulun yetişdirilməsinə nə qədər subsidiya verilməlidir ki, təbii imkanlarımızdan daha da səmərə ilə istifadə edək.

Bu il kənd təsərrüfatının inkişafında mühüm rol oynayan 2 zavodun – Pivot Suvarma Sistemləri və Pestisid zavodlarının istifadəyə verilməsi nəzərdə tutulur. Bu il artıq bu, təmin edilməlidir. Gələn il isə Azot Gübrəsi zavodu istifadəyə verilməlidir. Biz bunu təxminən 1 ildən sonra gözləyirik. Beləliklə, biz azot gübrələri ilə özümüzü nəinki təmin edəcəyik, həm də ixrac imkanlarımız yaranacaqdır.

Bütövlükdə özümüzü ərzaq məhsulları ilə təminetmə istiqamətində işlər yaxşı gedir. Hər il regionların sosial-iqtisadi inkişafına dair konfransda mən bu rəqəmləri səsləndirirəm. Deyə bilərəm ki, bizim yeganə zəif yerimiz taxılçılıqdır. Bunu nəzərə alaraq, mən göstəriş verdim ki, Prezident Administrasiyasında geniş müşavirə keçirilsin və keçirildi. Bütün tapşırıqlar verildi. Ondan sonra mən taxılçılığın inkişafı və ilk növbədə, təhlilin aparılması ilə bağlı müvafiq sərəncam imzaladım. Burada çox geniş informasiya yığılmalıdır, statistika düzgün təhlil edilməlidir və bir çox suallara cavab verilməlidir. Necə olur ki, biz taxılçılığa 1 milyon hektar torpaq ayırmışıq, amma özümüzü ərzaq buğdası ilə təmin edə bilmirik. Bu sual sadə səslənsə də onun arxasında bir çox məqamlar var. Ona görə dəqiq təhlil aparılmalıdır, bizə nə qədər ərzaq buğdası, bütövlükdə taxılçılıq üçün torpaq sahəsi lazımdır ki, özümüzü keyfiyyətli buğda ilə, taxılla təmin edək və əlbəttə, idxaldan asılılığı azaldaq. Çünki mənə verilən məlumata görə, biz hər il idxala təxminən 300 milyon manat pul ayırırıq. Burada, əlbəttə ki, uçot, təhlil, elektron nəzarət, peyk nəzarəti olmalıdır. Bizim peykimiz var və qısa müddət ərzində torpaqların münbitliyinin, məhsuldarlığının dəqiq analizi aparılmalıdır.

Digər önəmli məsələlərdən biri qeyri-neft sektorunun istehsal etdiyi malların ixracı ilə bağlıdır. Bu da indi uğurla inkişaf edən bir istiqamətdir. Həm islahatlar aparıldı, həm institusional

tədbirlər görüldü, «Azexport» portalı yaradıldı. Azərbaycan brendi indi dünyada təbliğ edilir. Biz bir çox sərgilərdə iştirak etmişik və yenə də iştirak etməliyik. Müxtəlif ölkələrdə ticarət evləri yaradılır, ticarət-ixrac missiyaları həyata keçirilir. Müvafiq sərəncamlar verildi, vəsait ayrıldı. Xarici media vasitələrində reklam kampaniyaları aparılmalıdır ki, biz «Made in Azerbaijan» brendini tanıtdıraq. Mən giriş nitqimdə qeyd etdim ki, qeyri-neft sektorunun ixracı təxminən 10 faiz artıbdır, amma potensial daha da böyükdür. Ona görə biz yeni ixrac bazarlarına çıxışı təmin etməliyik. Ənənəvi olan ixrac bazarlarına daha geniş çeşiddə məhsulla çıxmalıyıq. Eyni zamanda, yeni ixrac bazarlarını axtarmalıyıq. Logistika mərkəzləri yaradılmalıdır. İndi Qazaxıstanın Aktau vilayətində Azərbaycan Logistika Mərkəzi yaradılıb. Görürük ki, bunun böyük faydası var. Bir sözlə, bu həm daxili istehsalı, həm də valyuta gəlirlərimizi artırmaq üçün böyük əhəmiyyət daşıyan sahədir.

Təbii ki, həmişə olduğu kimi, il ərzində infrastruktur layihələrinə, onların icrasına diqqət yetiriləcəkdir. Elektrik enerjisi ilə təminat diqqət mərkəzindədir, yeni yarımstansiyalar tikilir, xüsusilə buna ehtiyac olan bölgələrdə. Bu layihələr kənd təsərrüfatının inkişafı ilə paralel şəkildə aparılmalıdır ki, həm əhaliyə, həm də kənd təsərrüfatının inkişafına da xidmət göstərsin.

Azərbaycanda qazlaşdırmanın səviyyəsi 92 faizdir. Bu il daha da artacaq. İçməli su layihələri nəzərdə tutulan investisiya həcmində tam icra edilməlidir. Bu il biz kəndlərdə yaşayan əhalinin təmiz içməli su ilə təmin edilməsi üçün 270 kiçik layihə icra edəcəyik. Bu təmizləyici qurğuların 170 kənddə quraşdırılması «Azərsu»nun, 100 kənddə isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmin ediləcəkdir. Müvafiq sərəncam imzalanıb. Bütün kəndlərin adları bu sərəncamda göstərilib. Mən xüsusilə belə bir tapşırıq vermişəm – həm o kəndlərin sakinləri, həm də bu işi icra edənlər bilsinlər ki, bu məsələ nəzarət altındadır. Əgər sadəcə, o sərəncamda yazılsaydı ki, 100 və ya 200 kəndin su problemi həll edilsin, buna filan qədər vəsait

ayrılsın, sonra ona nəzarət etmək çox çətin olacaqdı: 100 kəndəmi, yoxsa 50 kəndə su verildi? Sərəncamda bütün o rayonların, kəndlərin adı göstərilib və mən o kəndlərin sakinlərindən xahiş edirəm ki, onlar da nəzarət etsinlər, götürüb o sərəncama baxsınlar. Əgər onların kəndi o siyahıda varsa və o iş görülmürsə, dərhal yerli icra orqanlarına, Prezident Administrasiyasına məlumat versinlər. Əlbəttə ki, əgər o işdə hansısa bir qüsur olarsa, buna yol verən şəxslər müvafiq qaydada cəzalandırılacaqlar. Mən bunu ona görə deyirəm ki, ictimai nəzarət güclənsin. Mən dəfələrlə bu barədə demişəm ki, ictimai nəzarəti gücləndirmək üçün gərək ictimaiyyətdə məlumat olsun. Bax, bu məlumatı biz veririk, 270 kəndin modul tipli təmizləyici qurğularla təmin edilməsi bu il başa çatmalıdır, vəsait ayrılıb və nəzarət də olmalıdır.

Kənd yolları layihələri icra edilir. Bu il yüzlərlə kəndi birləşdirən layihələr icra ediləcək. Bakı şəhərində yeni yollar salınır, «Sovetski» adlanan ərazidə böyük yol infrastrukturu yaradılır, yaxın gələcəkdə istifadəyə veriləcək və ümumiyyətlə, şəhərimizin bu hissəsi gözəl bir məkana çevriləcək. İndi işlər gedir, ilk növbədə, yollar çəkilir. Bu yollar əvvəlki yollardan öz gözəlliyi ilə fərqlənəcək. Əgər əvvəlki yolların eni 3–5 metr idisə, indi salınan yolların eni 15–20 metrdir. Bu, gələcəyə hesablanan və Bakıda nəqliyyatın hərəkətini böyük dərəcədə yüngülləşdirən bir layihədir. Bu yolun qurulması ilə paralel olaraq, bütün o zonada yaşıllıqlar, parklar salınacaq və şəhər sakinləri üçün yeni gözəl istirahət məkanı yaradılacaqdır. Onilliklər ərzində o zonada layihəni icra etmək mümkün olmamışdır və biz artıq buna nail olduq. Əminəm ki, sakinlər də razı olmalıdırlar. Göstəriş vermişdim ki, kompensasiya tam ödənilsin. Əlbəttə ki, parklarda istirahət edəcək, o yollardan istifadə edəcək vətəndaşlar da razı qalacaqlar.

Bakı şəhərində digər yollar da salınır. Göstəriş vermişəm ki, harada mümkündür, necə deyərlər, yeni damarlar açmalı-yıq. Onlardan biri Yusif Səfərov küçəsinə paralel olaraq indi tikilən küçədir. O küçə də şəhər nəqliyyatının bir hissəsini özünə cəlb

edəcək. Onun böyük müsbət təsiri olacaqdır. Bilgəh–Sumqayıt yolunun tikintisi, genişləndirilmə işləri gedir. Bu da Sumqayıtı alternativ yolla Bakı ilə, xüsusilə Bakıətrafı qəsəbələrlə, Beynəlxalq Aeroportla birləşdirəcək. Ən yüksək standartlar səviyyəsində salınan yol bu il istifadəyə verilməlidir.

Sosial infrastruktur layihələri icra edilir. Mənə verilən məlumata görə, qəzalı məktəblərin yerində artıq modul tipli 3 məktəb tikilibdir və əlavə modul tipli 12 məktəbin tikintisi nəzərdə tutulur. Bu il və gələn il Azərbaycanda bir dənə də olsun qəzalı məktəb qalmamalıdır. Bakı şəhərində məktəb-lərin böyük əksəriyyəti artıq təmirlidir, yeni məktəblər tikilib, amma hələ ki, harada təmirə ehtiyac var, bu məsələlər də öz həllini tapır.

Birinci rübdə 13 tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu il 2 olimpiya kompleksi – Abşeron və Ağcabədi olimpiya kompleksləri istifadəyə verilməlidir. Sosial proqramlardan biri də əhalinin tibbi müayinədənkeçmə layihəsidir. Builki layihə gələn ay başa çatacaq. 5 milyon insan tibbi müayinədən pulsuz keçəcək. Əgər əvvəlki illərdə daha çox təbliğat işi aparılırdı ki, insanlar getsinlər, bu müayinədən keçsinlər, indi biz görürük, buna ehtiyac yoxdur. İndi vətən-daşlar da görürlər, bilirlər ki, bu onlar üçün, onların sağlamlığı üçün lazımdır. Son illər ərzində bütün rayonlarda müasir tibb müəssisələri yaratdıq, ən müasir laboratoriyalar var. Burada ən müasir avadanlıqlar quraşdırılıb və indi istənilən analizi, müayinəni hətta kiçik rayonlarda da aparmaq mümkündür.

Bölgələrdə məşğulluğun artırılması daim diqqət mərkəzindədir. Mən bunu dəfələrlə demişəm ki, biz bu məsələni daim diqqətdə saxlamalıyıq. Çünki bizdə əhali artır, bu il də, gələn illərdə də artacaq və artan əhali üçün gələcəkdə yeni iş yerləri lazım olacaq. Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır, əhali artır. Ancaq bu bizi daha da fəal işləməyə sövq etməlidir. Ona görə məşğulluğun artırılması həmişə gündəlikdə duran məsələ olacaq. Biz bunu həll edirik. Mən qeyd etdim ki, həm dövlət, həm özəl sektorda 70 min daimi iş yeri yaradılıbdır, mövsümi işlərlə birlikdə 85 min. Bu, 3 ay üçün böyük rəqəmdir

və bu işləri davam etdirməliyik. Eyni zamanda, özünüməşğulluq proqramı geniş vüsət almalıdır. Artıq birinci addımlar atılıb və bu həm dövlət orqanları, yerli icra orqanları, həm də özəl qurumlar tərəfindən həyata keçirilən layihələr olmalıdır. Çünki hər bir ailənin, yəni hələ yoxsulluq şəraitində yaşayan ailənin imkanı olmalıdır ki, öz ehtiyacını özü ödəsin və biz bu imkanı yaratmalıyıq. Əlbəttə, dövlət çətin vəziyyətdə yaşayan vətəndaşlara həmişə qayğı, diqqət göstərir, ünvanlı sosial yardım proqramı icra edilir. Ancaq biz tədricən özünüməşğulluq sisteminə keçməliyik. Bu, vətəndaşlar üçün də daha əlverişlidir, daha yaxşıdır. Onların öz ailə büdcələri olacaq. Sadəcə, biz onlara kömək etməliyik. Kənd yerində onlara şərait yaradılmalıdır, mal-qara, ev quşları verilməlidir. Arıçılıq, heyvandarlıq burada çox böyük rol oynaya bilər ki, onlar öz büdcələrini özləri təmin etsinlər. Amma dövlət, əlbəttə, ilk mərhələdə onlara kömək göstərəcək. Ona görə Nazirlər Kabineti özünüməşğulluq proqramına xüsusi diqqət yetirməlidir. Yenə də deyirəm, burada bütün müvafiq qurumlar, strukturlar vahid siyasət aparmalıdır. Bu işlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə aparılır, ancaq hesab edirəm ki, digər nazirliklər – İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları və sahibkarlar buna qoşulmalıdır. Mənə mütəmadi qaydada məruzə edilməlidir ki, bu istiqamətdə hansı işlər görülübdür.

Bu il sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesi davam edir və 150 milyon manat məbləğində güzəştli kreditlər veriləcək. Qeyd etməliyəm ki, son illər ərzindəki siyasətimizə uyğun olan bir proses də ondan ibarətdir ki, Azərbaycanda 32 iri fermer təsərrüfatı yaradılıb. Bu fermer təsərrüfatlarının əkin sahəsi 44 min hektardır. Hazırda 24 rayonda 142 min hektarda 33 aqropark yaradılır. Bu aqroparkların yaradılmasına xərclənən vəsait 1 milyard manat dəyərindədir. Bu 33 aqropark və bundan əvvəl yaradılmış 32 iri fermer təsərrüfatı məhsuldarlığın artmasına, daxili tələbatın ödənilməsinə və ixrac potensialının güclənməsinə çox böyük

təsir edəcək. Xüsusilə nəzərə alsaq ki, bu aqroparklar və təsərrüfatlar müasir texnologiyalar əsasında qurulur.

Biz xarici sərmayənin cəlb edilməsi ilə bağlı daha da fəal iş aparmalıyıq – həm dövlət orqanları, həm də yerli icra orqanları. Yerli icra hakimiyyətləri də sərmayə cəlb etməlidir. Onlar həm yerli, həm xarici iş adamlarını maraqlandırmalıdırlar ki, gəlib investisiya qoysunlar. Yerlərdən təşəb-büs daha da geniş vüsət almalıdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, bizim büdcə təşkilatlarımız istifadə etdikləri elektrik enerjisinin dəyərini 100 faiz ödəməlidir.

Bu il 2 «ASAN xidmət» Mərkəzi açılmalıdır – Quba və Mingəçevir şəhərlərində. İlin sonuna qədər bu, təmin edilməlidir. Vəsait nəzərdə tutulub və 2 mərkəzin tikintisi aparılır – İmişli və Şəki şəhərlərində. Bu 2 mərkəz də gələn il istifadəyə verilməlidir.

Qarşımızda duran əsas məsələlər bundan ibarətdir. Yenə də deyirəm, ilin birinci rübü ümidvericidir, bir daha onu göstərir ki, həm proqnozlarımız yerinə yetirilir, həm siyasətimiz uğurludur. Elə etməliyik ki, cari ilin sonuna qədər bu müsbət dinamikanı saxlayaq, ölkəmizi daha da gücləndirək. Sağ olun.

## RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik, humanitar və bütün digər sahələrdə inkişafından məmnunluq ifadə edərək qeyd etdi ki, təhlükəsizlik məsələləri ilə bağlı əməkdaşlıq ümumilikdə əlaqələrimizin uğurlu inkişafının əsasını təşkil edir. Beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində əməkdaşlığımızın çox yaxşı səviyyədə olduğunu bildirən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan ilə Rusiyanın həyata keçirdiyi daimi təmaslar və bir çox məsələlərin birgə həlli bu baxımdan böyük önəm daşıyır, həmçinin regionumuzda mövcud olan vəziyyət təhlükəsizlik sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsini zəruri edir. Prezident İlham Əliyev əminliyini ifadə etdi ki, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin ölkəmizə səfəri qarşılıqlı fəaliyyətin, təhlükəsizlik sahəsində əməkdaşlığın, risklərin minimallaşdırılması, ölkələrimizin inkişafı və xalqlarımızın firavanlığının təmin edilməsi kimi məqsədlərə nail olunması işinə öz töhfəsini verəcək.*

*Nikolay Patruşev ilk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin səmimi salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Rusiya Federasiyası Təhlü-*

*kəsizlik Şurasının katibi qeyd etdi ki, Azərbaycan və Rusiya dövlət başçılarının ölkələrimiz arasında münasibətlərin inkişafından razılıq ifadə etmələri böyük önəm daşıyır və prezidentlər arasında olan münasibətlər bütün digər qurumların da səmərəli fəaliyyətinə təkan verir. Əlaqələrimizin inkişafında təhlükəsizlik məsələlərinin böyük rol oynadığını deyən Nikolay Patruşev qeyd etdi ki, təhlükəsizlik təmin olunarsa iqtisadi, mədəni və bütün digər sahələrdə əməkdaşlığın inkişafında hər hansı bir problem ola bilməz. Bu gün beynəlxalq aləmdə vəziyyətin kifayət qədər gərgin olduğunu qeyd edən qonaq səfəri zamanı Azərbaycan tərəfi ilə beynəlxalq və regional təhlükəsizlik məsələlərinin müzakirə olunacağını vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Rusiya Federasiyasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ SABİQ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*11 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Türkiyə Respublikasının sabiq prezidenti Abdullah Gülü qəbul etmişdir.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının sabiq prezidenti Abdullah Gül ilə Bakıda, Türkiyədə və başqa ölkələrdə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.*

*«Azərbaycan hər zaman bizim qəlbimizdə, könlümüzdədir» – deyən Türkiyə Respublikasının sabiq prezidenti Abdullah Gül Türkiyədə Baş nazir və prezidentlərin, o cümlədən özünün də ilk xarici səfərlərini Azərbaycana etməsindən məmnunluğunu ifadə etdi. Abdullah Gül ölkəmizə hər gəlişi zamanı Azərbaycanın sürətli inkişaf etdiyinin və daha da gözəlləşdiyinin şahidi olduğunu bildirdi.*

*Dövlət başçısı kimi, ilk rəsmi səfərlərini Türkiyəyə həyata keçirdiyini məmnunluqla qeyd edən prezident İlham Əliyev yüksəkrütbəli dövlət məmurlarının da ənənəvi olaraq bu cür qarşılıqlı səfərlərinin önəmini vurğuladı.*

*Söhbət zamanı dövlətimizin başçısı son bir neçə ildə Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən genişmiqyaslı islahatlarla bağlı məlumatları diqqətə çatdırdı.*

## UKRAYNANIN KİYEV ŞƏHƏR DÖVLƏT ADMİNİSTRASİYASININ BAŞÇISI VİTALİ KLİÇKO İLƏ GÖRÜŞ

*13 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Ukraynanın Kiyev Şəhər Dövlət Administrasiya-sının başçısı Vitali Kliçkonu qəbul etmişdir.*

*Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçko ilə bu yaxınlarda Münhendəki görüşünü xatırladan dövlətimizin başçısı onun Azərbaycana səfərinin maraqlı keçə-cəyinə, ölkələrimiz, o cümlədən Bakı ilə Kiyev arasında əlaqələrin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Əməkdaşlıq və qarşılıqlı təcrübə üçün yaxşı perspektivlərin olduğunu vurğulayan dövlətimizin başçısı İlham Əliyev Vitali Kliçkonun bu səfərinin həmkarları ilə görüşmək, paytaxtımız-da gedən inkişaf prosesləri və Bakıda inşa olunan idman obyektləri ilə yaxından tanış olmaq üçün əlverişli imkan yaratdığını qeyd etdi.*

*Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçko Bakıda uzun müddət olmadığını və paytaxtımızın gözəl-liyinin onda dərin təəssürat yaratdığını vurğuladı. O bu səfəri ilə bağlı ölkələrimiz, eləcə də Bakı ilə Kiyev arasında əməkdaşlığın genişləndirilməsi baxımından böyük hazırlıq işlərinin görüldüyü-nü vurğuladı.*

*Sonra Vitali Kliçko dünya şöhrətli boksçu Məhəmməd Əliyə həsr olunmuş, üzərində Məhəmməd Əlinin şəxsi avtoqrafı olan məhdud nəşrli kitab-albomun bir nüsxəsini hədiyyə olaraq, prezident İlham Əliyevə təqdim etdi. Qeyd edək ki, dövlətimizin*

*başçısına təqdim olunan bu kitab-albom məhdud nəşrin 16-cı nüsxəsidir.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram!

Yüz illər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri mövcud olmuş, ayrı-ayrı dinlər və etiqadlar qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmişdir. Bu gün ölkəmiz dünyada nümunəvi tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi mənəvi irsin və etnik mədəni müxtəlifliyin qorunmasını, multikultural ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Təsadüfi deyildir ki, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən sivilizasiyalararası və dinlərarası dialoq problemlərinə həsr edilmiş mötəbər beynəlxalq tədbirlərin son illər bizim ölkəmizdə keçirilməsi artıq ənənə halını alıbdır. Müasir mərhələdə milli azlıqların dil və mədəniyyətinin inkişafı, etnik dini müxtəlifliyin, tarixi mənəvi irsin qorunub saxlanılması Azərbaycan dövlətinin xüsusi diqqət və qayğı ilə yanaşdığı məsələlərdəndir və biz bu sahədə səylərimizi gələcəkdə də davam etdirəcəyik.

Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma Vətəndir. Ümidvaram ki, xristian həmvətənlərimiz müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi, cəmiyyətdə

vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin bərqərar olunması yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcək, xalqımızın xoşbəxt gələcəyi naminə öz səylərini daha da artıracaqlar.

Yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duy-ğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Bu əziz gündə sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 aprel 2017-ci il*

## QAFQAZŞÜNASLARIN I BEYNƏLXALQ FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində Qafqazşünasların I Beynəlxalq Forumunun öz işinə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə gələcək elmi fəaliyyətinizdə uğurlar arzulayıram.

Qafqaz qədim sivilizasiya mərkəzi kimi, əsrlərdən bəri müxtəlif xalqların qaynayıb qarışdığı və bir-birinin adət-ənənələrinə qarşılıqlı ehtiram göstərərək, əmin-amanlıq şəraitində yaşadığı unikal məkan olmuşdur. Tarixi İpək yolu üzərində yerləşən və hələ erkən dövrlərdən qüdrətli imperiyaların can atdığı bu region özünün müstəsna coğrafi mövqeyinə, zəngin təbii sərvətlərinə və strateji əhəmiyyətinə görə son əsrlərdə də böyük dövlətlərin geosiyasi maraq dairəsinə düşmüşdür.

Postsovet dövründə tarix elminin ideoloji buxovlardan azad olması, həmçinin qafqazşünaslıq sahəsində bir sıra mühüm məsələlərin yeni yanaşmalar işığında daha dərindən öyrənilməsi zərurətini meydana çıxarmışdır. Bu isə Qafqazın uzun müddətdir araşdırıcılar tərəfindən diqqət mərkəzində saxlanılan keçmişi, mədəniyyəti və eləcə də müasir problem-ləri ilə bağlı təşkil etdiyiniz ilk belə mötəbər beynəlxalq foruma xüsusi aktuallıq qazandırır. Tədbirinizə dünyanın tanınmış elm mərkəzlərini təmsil edən 150-dən artıq alim və tədqiqatçının qatılması təqdirəlayiq haldır. Çoxtərəfli formatda keçirilən yüksək səviyyəli elmi toplantılar xalqlar və ölkələr, müvafiq elm-tədqiqat institutları və alimlər arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə kömək edir. Şübhə yoxdur ki, Azərbaycan bundan sonra da müxtəlif ölkələrin qafqazşünas alimləri arasında qarşılıqlı münasibətlərin davam etdirilməsinə töhfəsini əsirgəməyəcəkdir.

Ümidvaram ki, forum çərçivəsində aparacağınız müzakirələr və fikir mübadilələri, irəli sürəcəyiniz tövsiyə və təkliflər qafqazşünaslığın aktual problemlərinin həllində dönüş mərhələsi olacaq, beynəlxalq elmi əməkdaşlığınızın yeni istiqamətlərinin müəyyənləşməsinə xidmət göstərəcək və bütövlükdə regionda sülhün, əmin-amanlığın möhkəmləndirilməsinə təkan verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 aprel 2017-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Türkiyə Respublikasının Konstitusiyasına dəyişikliyi nəzərdə tutan ümumxalq səsverməsinin – referendumun mü-vəffəqiyyətlə başa çatması münasibətilə Sizi və Sizin simanız-da qardaş Türkiyə xalqını səmimi-qəlbdən təbrik edirəm.

Referendumun nəticələri xalqın Sizə olan inam və etimadının təzahürü, qardaş Türkiyənin daha da inkişafı və qüdrətlənməsi istiqamətində apardığınız uğurlu siyasətə və xidmətlərinizə verilən qiymətdir. Heç şübhə yoxdur ki, bu referendum qardaş ölkənizin tarixində yeni mərhələnin başlanğıcı olacaq, sabit və güclü Türkiyənin beynəlxalq müstəvidə rolunu və mövqeyini daha da gücləndirəcəkdir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, son illər ərzində Azərbaycan və Türkiyə arasında əməkdaşlıq münasibətləri böyük inkişaf yolu qət etmişdir. İkitərəfli və çoxtərəfli müstəvidə uğurlu əməkdaşlığımız, eləcə də birgə səylərimizlə həyata keçirdiyimiz irimiqyaslı layihələr bölgədə sülhə, sabitliyə və inkişafa xidmət edir. Əminəm ki, birgə səylərimizlə müstəsna xarakter daşıyan əlaqələrimiz, dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı və ölkələrimizin maraqlarına uyğun olaraq bundan sonra daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, yeni müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına isə daim tərəqqi və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 aprel 2017-ci il*

## YEVLAX RAYONUNA SƏFƏR

*16 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Yevlax rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Rayonda görülən işlər, həyata keçirilən layihələr barədə Azərbaycan Prezidentinə məlumat verildi.*

*Bildirildi ki, son illər rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb. Rayonda çoxlu sosial infrastruktur obyekt-ləri tikilib, yeni istehsal müəssisələri yaradılıbdır.*

### Mingəçevir–Bəhramtəpə avtomobil yolunun Mingəçevir–Aran qəsəbəsi hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Yevlax rayonunda Mingəçevir–Bəhramtəpə avtomobil yolunun Mingəçevir–Aran qəsəbəsi hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində Mingəçevir–Bəhramtəpə avtomobil yolunun Mingəçevir şəhəri–Mingəçevir dəmir yolu stansiyası arasında yerləşən hissəsinin yenidən qurul-*

*ması işləri yekunlaşıb. Bu hissənin uzunluğu 16,5 kilometrdir. Yol üçüncü texniki dərəcədən ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Layihəyə əsasən, yol 2 hərəkət zolağından ibarətdir.*

*Tikinti işləri nəticəsində yol yatağının eni 12 metrdən 15 metrə qədər genişləndirilib. Hərəkət hissəsinin eni 7,5, hər iki istiqamət üzrə çiyinlərin eni isə 3,75 metrdir. Mingəçevir–Aran qəsəbəsi avtomobil yolunda bütün tikinti işləri texnoloji ardıcıllığa riayət edilməklə, başa çatdırılıb. Yol nişanları və məlumatverici lövhələrin quraşdırılması, həmçinin yol cizgi və yolgöstərici xətlərinin çəkilməsi işləri yerinə yetirilib. Mingəçevir–Bəhramtəpə avtomobil yolunun bu hissəsində Kürəkçay üzərində biraşırımlı körpünün, 26 dairəvi borunun və digər infrastrukturun yaradılması işləri uğurla icra olunub.*

*Qeyd edildi ki, Mingəçevir–Bəhramtəpə avtomobil yolunun Mingəçevir şəhəri–Mingəçevir dəmir yolu stansiyası arasındakı hissəsinin yenidən qurulması ilə vətəndaşların Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yoluna rahat və maneəsiz gediş-gəlişi təmin olunub.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Salahlı–Balçılı–Ağqıraqlı–Varvara–Cırdaxan avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Yevlax rayonunda Salahlı–Balçılı–Ağqıraqlı–Varvara–Cırdaxan avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycan Prezidentinin sərəncamına əsasən, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin hesabına bu il reallaşdırılan 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələrindən biri də Yevlax rayonunun Salahlı–Balçılı–Ağqıraqlı–Varvara–Cırdaxan avtomobil yolu layihəsidir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, uzunluğu*

*18 kilometr olan avtomobil yolu yenidən qurulduqdan sonra istismara tam hazırdır. Layihə çərçivəsində yolda torpaq işləri zamanı zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb, bunun əvəzinə xüsusi material tökülərək, bərkitmə işləri görülüb. Dördüncü texniki dərəcəyə uyğun yenidən qurulan yolun hərəkət hissəsinin eni 6, çiyinlərinin eni hər iki istiqamət üzrə 1,5 metrdir. Layihə çərçivəsində yolboyu müxtəlif diametrli 16 su borusunun tikinti işləri aparılıb, 360 təhlükəsizlik dirəyi, 118 yol nişanı və göstərici lövhələr quraşdırılıb, həmçinin 25 kilometr uzunluğunda yol cizgi və yolgöstərici xətləri çəkilib.*

*Qeyd edildi ki, 8000 nəfərin yaşadığı 6 kəndi birləşdirən Salahlı–Balçılı–Ağqıraqlı–Varvara–Cırdaxan avtomobil yolu-nun tikintisi əhalinin gediş-gəlişini rahatlaşdıracaq, yük və sərnişin daşınmasını xeyli asanlaşdıracaqdır. Ən əsası isə avtomobil yolu ilə Mingəçevir–Bəhramtəpə, həmçinin Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yoluna rahat çıxış əldə olunmaqla, əhalinin yetişdirdiyi məhsulları qısa müddətdə bazarlara çatdırmaq imkanı yaranacaqdır. Bu isə öz növbəsində, həmin bölgədə kənd təsərrüfatının inkişafına müsbət təsir edəcəkdir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Varvara Su-Elektrik Stansiyasının yenidən qurulmasından sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Varvara Su-Elektrik Stansiyasının yenidən qurulmasından sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb. Bu işlərin nəticəsində ölkə iqtisadiyyatının bütün sahələri kimi, elektroenergetika sistemində də köklü dəyişikliklər aparılır, əsaslı islahatlar həyata keçirilir. Bu istiqamətdə görülən işlərin sırasında yeni*

*su-elektrik stansiyalarının inşasına, mövcud olanların isə əsaslı şəkildə yenidən qurulmasına xüsusi diqqət yetirilir. Yevlaxda Varvara Su-Elektrik Stansiyasının yenidən qurulması da bu qəbildən olan tədbirlərdəndir. Bu layihələrin icrası həm bölgələrin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına və əlavə iş yerlərinin açılmasına zəmin yaradır.*

*Qoyuluş gücü 16,5 MVt olan Varvara Su-Elektrik Stansiyası 1954–1957-ci illərdə inşa olunub. Ümumilikdə 3 hidroaqreqatdan ibarət olan bu stansiyanın 1-ci hidroaqreqatı 1956-cı ildə, digər 2 hidroaqreqatı isə 1957-ci ildə istismara verilib. Həmin vaxtdan ötən 60 ildə stansiyanın avadanlıqları fiziki cəhətdən köhnəlib, gücü nəzərəçarpacaq dərəcədə aşağı düşüb. 1990-cı ildən sonra isə stansiya cəmi 2-3 MVt güclə işləyib. Buna görə də 2010-cu ildən başlayaraq, Mingəçevir Su-Elektrik stansiyaları silsiləsinin yenidən qurulması layihəsi çərçivəsində Varvara Su-Elektrik Stansiyasında da yenidən qurulma işləri həyata keçirilib və uğurla başa çatdırılıb.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına Varvara Su-Elektrik Stansiyasında görülən yenidən qurulma işləri barədə məlumat verdi. Bildirildi ki, yenidən qurulma işləri çərçivəsində stansiyanın bütün hidrogeneratorları və hidroturbinləri yeniləri ilə əvəzlənib. Bunun nəticəsində isə stansiyanın gücü artaraq, 18 MVt-a çatıb. Stansiyanın binası müasir tələblər nəzərə alınmaqla, yenidən qurulub. Bundan başqa, 35 kilovoltluq qapalı paylayıcı qurğu və müvafiq ötürücü şəbəkə tam yenilənib, idarəetmə və tənzimləmə sistemi texnologiyanın son nailiyyətlərindən istifadə edilməklə müasirləşdirilib, bütün köməkçi avadanlıqlar təzələnib. Yenidən qurulma zamanı sunəqledici kanalın sağ və sol sahillərində bərkitmə işləri görülüb, güc və xüsusi sərfiyyat transformatorları daha güclüləri və yeniləri ilə əvəz edilib.*

*Prezident İlham Əliyev Varvara Su-Elektrik Stansiyasını işə saldı.*

*Diqqətə çatdırıldı ki, Varvara Su-Elektrik Stansiyası Mingəçevir SES-in su sərfiyyatını tənzimləməklə yanaşı, ildə orta hesabla 100 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal etməyə imkan verəcək.*

*Avadanlıqların təchizatı, eləcə də tikinti-quraşdırma işləri «Azərenerji» ASC-nin sifarişi ilə yerli «Azenco» şirkəti tərəfindən həyata keçirilib. İşlərin keyfiyyətlə və vaxtında icra edilməsi üçün bütün qüvvələr səfərbər olunub. Yenidən qurulma işlərinə 150 nəfərdən çox yerli mütəxəssis cəlb edilib. Stansiyanın ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, müasir işıqlandırma sistemi yaradılıb, ətraf mühitin mühafizə-si gücləndirilib və yeni yaşıllıq zolağı salınıb.*

*Qeyd edək ki, Varvara Su-Elektrik Stansiyasının yenidən qurulması ilə yanaşı, son vaxtlar 12 su-elektrik stansiyası işə salınıb. Bu il daha bir neçə su-elektrik stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bundan başqa, 2017-ci ildə Mingəçevir Su-Elektrik Stansiyasının yenidən qurulmasının başa çatdırılması da planlaşdırılır.*

## Varvara balıqartırma müəssisəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Varvara balıqartırma müəssisəsinin açılışında iştirak etmişdir.*

*Bu gün ölkəmizdə qeyri-neft sektorunun şaxələndirilməsi və bir çox sahələri əhatə etməsi müşahidə olunur. Bu sırada Azərbaycanda balıqçılıq sənayesinin inkişaf etdirilməsi də xüsusi əhəmiyyətə malikdir. Ölkəmizdə qədim ənənələri olan balıqçılıq sənayesində yeni texnologiyaların tətbiq olunması, dünya standartlarına cavab verən ixrac məhsullarının hazırlanması indi qarşıda duran prioritet məsələlərdən biridir. Digər tərəfdən, bu sənaye sahələrinin regionlarda inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyulan məqsədlərin reallaşdırılması bölgələrdə başlanan inkişaf proseslərinin daha güclü xarakter almasına imkan verir. Belə müəssisələrdən biri də Varvara balıqartırma mü-*

*əssisəsidir. İstehsal gücünə, perspektiv inkişaf imkanlarına görə nəinki MDB məkanında, eləcə də Avropa ölkələrində analoqu olmayan müəssisə 3 sahədən – Mingəçevir Su Anbarındakı müxtəlif tutumlu 87 balıqsaxlama və böyütmə qəfəsindən, müxtəlif tutumlu 91 hovuzdan ibarət inkubasiya sahəsi və ümumi sahəsi 60 hektara yaxın olan Varvara balıqartırma və yetişdirmə sahəsindən ibarətdir. Müəssisənin Mingəçevir Su Anbarındakı qəfəslərində 20 min ədədə yaxın nərə növündən olan balıq bəslənilir. Bu balıq növləri müəssisənin inkubasiya sahəsində yetişdirilərək, müəyyən mərhələyə çatdıqdan sonra xüsusi şəraitdə qəfəslərə köçürülür. Gün ərzində xüsusi rejimdə və təbii yemlərlə bəslənən balıqlar bəlli çəkiyə çatandan sonra Varvara balıqartırma və yetişdirmə sahəsinə köçürülür. Qəfəslərə müəssisənin ayrıca təlim görmüş 24 əməkdaşı qulluq edir. Ümumi sahəsi 9066 kvadratmetr olan qəfəslərin istehsal gücü 317 ton 312 kiloqramdır. 91 vannadan ibarət olan və 474 kvadratmetr sahəni əhatə edən inkubasiya sexində müxtəlif növ balıq kürülərindən inkubasiya yolu ilə körpə balıqlar alınır. Körpə balıqlar nəzərdə tutulan çəkini alana qədər burada yemlənir. Sonra isə növbəti mərhələyə start verilir. İnkubasiya sexinin ümumi istehsal gücü 2,5 tondur. Bu ərazidə eyni zamanda, ümumi tutumu 150 ton olan 5 soyuducu anbar, o cümlədən şoklama soyuducusu inşa olunub. Bununla belə, bu sahədə regionun ən böyük hisləmə sexi və yem anbarı yerləşir. Müəssisənin əsas hədəfi istehsal etdiyi kürü və balıq məhsullarını «Made in Azerbaijan» brendi altında çoxsaylı xarici ölkələrə ixrac etməkdir. Gələcək illərdə müəssisədə istehsal imkanlarının genişləndirilməsi hesabına əlavə 1500 yeni iş yerinin açılması nəzərdə tutulub.*

*Varvara balıqartırma müəssisəsinin direktoru Məhəmməd Allahverdiyev dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, müəssisənin yaradılmasına 2008-ci ildən başlanılıb. Müəssisənin ümumi sahəsi 750 min kvadratmetr, su sahəsi isə 85 min kvadratmetrdir. Burada nərə cinsli balıqlar üçün 17, axçalı balıqlar üçün isə 11 nohur yara-*

*dılıb. Müəssisədə ilkin mərhələdə ildə 15 min kiloqram qara kürü, 112 min kiloqram axçalı balıqlar, yəni sazan, ağamur, enlialın, 200 min kiloqram nərə cinsli balıqlar, 28 milyon nərə cinsli balıq körpəsi istehsal ediləcək. 2020–2023-cü illərdə nərə cinsli balıq körpələrinin sayını 50 milyona çatdırmaqla, qara kürü və balıq əti istehsalının artırılması nəzərdə tutulub.*

*Prezident İlham Əliyev müəssisənin fəaliyyətini və inkişaf istiqamətini əks etdirən stendlərə baxdı.*

*Dövlətimizin başçısına müəssisənin inkişaf planı, ərazidəki tikililər və Mingəçevir su hövzəsinin balıqartırma sahəsi barədə məlumat verildi. Bildirildi ki, Mingəçevir su hövzəsinin balıqartırma sahəsində tor yumaq üçün üzən qurğu və üzən qaldırıcı kran vardır. Mingəçevir Balıq zavodunda isə inkubasiya sexi, beton hovuzlar, soyuducu və yem anbarları, helikopter meydançası, yeməkxana, ofis binası, qazanxana inşa olunub. Məlumat verildi ki, Varvara balıqartırma müəssisəsində istehsal ediləcək nərə cinsli körpələrin bir qismi müəssisədə saxlanılacaq, bir qismi isə IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Kür çayına buraxılaraq, Xəzər dənizinin bioresurslarının bərpasına yönəldiləcək. Hazırda müəssisədə müxtəlif yaşda və çəkidə 93665 ədəd, o cümlədən 1762 ədəd kələmo, 4964 ədəd hibrid, 16689 ədəd nərə, 15524 ədəd uzunburun və 54726 ədəd bölgə balıqları vardır.*

*Müəssisədə quraşdırılan xüsusi ultrasəs müayinəsi aparatı ilə balıqlarda kürünün hansı səviyyədə olması yoxlanılır. Bu isə kürüalmada daha səmərəli üsullardan hesab olunur. Balıqlar tam təbii yemlərlə qidalanır. Nərə cinsli balıqların körpələri Rusiyanın Həştərxan vilayətindən gətirilib, Xıllı Nərə Balıqartırma zavodundan alınıb, bəziləri isə müəssisədə inkubasiya edilib.*

*Müəssisənin kürü emalı sahəsində olan dövlətimizin başçısına məlumat verildi ki, bu sahə müasir tələblər səviyyəsində qurulub.*

*Prezident İlham Əliyevə kürünün konservləşdirilməsi prosesi nümayiş etdirildi.*

*Körpə balıqların yemlənməsi üçün müəssisədə təbii yem və qara kürü sahələri yaradılıb, soyuducular, ehtiyat elektrik generatorları, transformator və videomüşahidə sistemi qurulub, optik internet xətti çəkilib və 29 nəqliyyat vasitəsi alınıb. Burada müasir laboratoriyalar və hər saatdan bir suyun temperaturunu, tərkibini və oksigenini ölçmək üçün cihazlar qurulub.*

*Bildirildi ki, istehsal edilən məhsulların bir hissəsinin yerli bazarlara çıxarılması, bir hissəsinin isə ixrac edilməsi nəzərdə tutulur. Hazırda müəssisədə 247 nəfər daimi iş yeri ilə təmin olunub. Burada orta əməkhaqqı 500 manatdır.*

*Onu da qeyd edək ki, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutu ilə birgə balıqşünas, ixtioloq, ixtiopatoloq, bioloq ixtisasları üzrə mütəxəssislərin hazırlanması istiqamətində tədbirlər həyata keçirilir.*

*Müəssisənin ərazisində helikopter meydançası, anbarlar və digər zəruri tikililər inşa edilib. Müəssisənin ofis binası da müasirliyi ilə diqqət çəkir. Burada inzibati otaqlar, iclas və konfrans zalları işçilərin ixtiyarına veriləcək. Ofis binasında xüsusi qonaqlar üçün istirahət otaqları, yeməkxana və digər otaqlar yaradılıb.*

*Müəssisə ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## Aran Regional İnkişaf Mərkəzinin təqdimat mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Yevlax şəhərində Aran Regional İnkişaf Mərkəzinin təqdimat mərasimində iştirak etmişdir.*

*Azərbaycan iqtisadiyyatının inkişafında və qeyri-neft sektorunun şaxələndirilməsində özəl sektor xüsusi rol oynayır və bu baxımdan sahibkarlığın inkişafı prioritet istiqamətlərdəndir. Dövlətimizin başçısının «Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır» – strateji xəttinə uyğun olaraq, Azərbaycanda in-*

*novativ sahibkarlığın stimullaşdırılması və inkişafı üçün özəl bölməyə xüsusi diqqət göstərilir, müxtəlif istiqamətlər üzrə dövlət dəstəyi tədbirləri həyata keçirilir. Son illərdə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, dövlət dəstəyinin genişləndirilməsi ilə bağlı görülmüş işlər, real sektora göstərilən maliyyə dəstəyi, sahibkarlığın dəstəklənməsi məqsədilə institusional mexanizmlərin yaradılması belə tədbirlərdəndir.*

*Yevlaxda yaradılan Aran Regional İnkişaf Mərkəzinin fəaliyyəti də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Regionun prioritet istiqamətləri üzrə təkliflərin hazırlanması, mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyələr arasında əlaqələndirmə işlərinin aparılması və monitorinqlərin keçirilməsi, beynəlxalq təşkilatları, xarici və yerli ekspertləri və digər qurumları cəlb etməklə, müvafiq layihələrin icra olunması, biznesin inkişafı, sahibkarlıq subyektləri arasında biznes əlaqələrinin və işgüzar əməkdaşlığın gücləndirilməsi üçün müxtəlif tədbirlərin təşkili, sahibkarlıq subyektlərinə müxtəlif təşkilati-məsləhət xidmətlərinin göstərilməsi, sahibkarlıq fəaliyyətinə başlayan gənclər və biznesini təkmilləşdirmək istəyən kiçik və orta sahibkarlar üçün davamlı maarifləndirmə işlərinin təşkili, konsaltinq və informasiya xidmətlərinin göstərilməsi mərkəzin əsas fəaliyyət istiqamətlərinə daxildir. Ölkədə fəaliyyət göstərən biznes inkubatorlar da məhz gənclərin sahibkarlıq fəaliyyətinin hərtərəfli hazırlanmasına xidmət edir. Biznes inkubator sahibkarlığa başlamaq istəyənlərə zəruri maddi-texniki, təşkilati, həmçinin metodik dəstəyi təmin etmək məqsədini daşıyır.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, ümumi ərazisi 1 hektardan artıq olan mərkəzin sahəsi 6900 kvadratmetrdən çoxdur. Biznes inkubator, sərgi zalı, 180 nəfərlik akt və kiçik konfrans zallarından, inzibati otaqlardan və yardımçı tikililərdən ibarət olan mərkəzin yaradılmasında məqsəd Aran iqtisadi rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı prioritetlərin müəyyən edilməsi, bu istiqa-*

*mətlər üzrə təkliflərin hazırlanması, regional siyasətin icrasının əlaqələndirilməsi və zəruri tədbirlərin görülməsi, sahibkarlığın inkişafı, kiçik və orta sahibkarlar üçün davamlı dəstək tədbirlərinin keçirilməsi, maarifləndirmə işlərinin təşkili, müasir konsaltinq və informasiya xidmətlərinin göstərilməsidir.*

*Sonra dövlətimizin başçısı Aran Regional İnkişaf Mərkəzinin foyesində təşkil edilmiş ixracyönümlü qeyri-neft məhsullarının sərgisi ilə tanış oldu.*

*Bildirildi ki, sərgidə qeyri-neft məhsulları ixrac edən 60-dan çox şirkətin 450-yə yaxın çeşiddə şərab, çay, meyvə-tərəvəz, mineral sular, şirələr, bal, şirniyyat, tekstil və digər məhsulları nümayiş olunur. Bu məhsullar daxili tələbata yönəldilməklə yanaşı, Avropa, MDB ölkələri, Amerika, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Türkiyə, İran, Səudiyyə Ərəbistanı və digər ölkələrə ixrac edilir. Məsələn, artıq 18 ildir bazarda olan «Gazelli Group» Azərbaycanın ilk milli kosmetika istehsalçısıdır. Şirkətin məhsullarının hazırlanmasında ölkənin təbii nemətlərindən istifadə edilir. 250-dən çox insanı işlə təmin edən bu şirkət «Triple Youth» məhsulu ilə dünyada nüfuz qazanıb. Bu məhsulun hazırlanmasında Naftalandan alınan ağ yağdan istifadə olunur. Bu isə dünyada bir ilkdir.*

*Dövlətimizin başçısına «Made in Azerbaijan» brendinin təşviqi məqsədilə yerli şirkətlərin xaricdə keçirilən sərgilərdə iştirakı barədə də məlumat verildi. Bildirildi ki, Azərbaycan məhsulları Honq Konq, Quancou, Dubay və Almaniyada keçirilən sərgilərdə vahid ölkə stendində nümayiş olunub və ziyarətçilər tərəfindən maraqla qarşılanıb. Bu sərgilərin nəticəsi olaraq, bağlanmış müqavilələr üzrə artıq ixraca başlanılıb. Eyni zamanda, bir sıra məhsulların ixracı üçün razılaşmalar əldə olunub. Bundan başqa, xarici ölkələrdə təşkil olunan sərgilərdə fərdi qaydada iştirak edən sahibkarlara da dəstək verilib.*

*Daha sonra prezident İlham Əliyevə biznes inkubatorlar haqqında məlumat verildi.*

*Qeyd edək ki, gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, onların işgüzar fəallığının artırılması, sahibkarlığa dövlət*

*dəstəyinin daha da gücləndirilməsi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 2013-cü ildən regionlarda gənclər üçün biznes inkubatorların yaradılmasına başlanılıb. Yevlaxdakı Aran Regional İnkişaf Mərkəzində artıq ölkə üzrə ikinci regional biznes inkubator yaradılıb. Bu iqtisadi rayondan olan 21 təşəbbüskar gənc müsabiqə yolu ilə kənd təsərrüfatı, balıqçılıq, qablaşdırma, kiçik istehsal, İKT, xidmət və digər sahələr üzrə biznes inkubator üçün rezident qəbul edilib və onlar burada müasir ofislərlə təmin olunublar. Rezidentlərə biznes ideyanın yaradılması və işlənməsi üzrə ödənişsiz treninqlər keçiriləcək, biznes ideyanın reallaşdırılması və qurulması üzrə məsləhət xidmətləri göstəriləcəkdir. Bu işdə onlara İqtisadiyyat Nazirliyinin əməkdaşları, təcrübəli ekspert və mütəxəssislər kömək edirlər.*

*Azərbaycanda ilk regional biznes inkubator 2013-cü ildə Quba–Xaçmaz Regional İnkişaf Mərkəzində yaradılıb. Hazır-da 25 gənc bitkiçilik, heyvandarlıq, arıçılıq, məişət xidməti, dekorativ əl işləri, balıqçılıq və digər sahələrdə biznes ideyalarının reallaşdırılması yollarını öyrənir, müxtəlif məsləhətlər alırlar.*

# YEVLAX RAYONUNDA QEYRİ-NEFT İXRACATÇILARININ RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ* İŞTİRAK

*17 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilmişdir.*

*Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.*

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün Yevlax rayonunda qeyri-neft ixracatçılarının birinci respublika müşavirəsi keçirilir. Bu müşavirənin böyük əhəmiyyəti var. Əminəm ki, müşavirədən sonra bizim qeyri-neft ixracımız artacaq. Bunu deməyə əsas var. Çünki son illər ərzində Azərbaycanda ciddi islahatlar aparılıb, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları qəbul edilib, sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilib və göstərilir. Beləliklə, biz qeyri-neft ixracının artırılmasına nail ola bilmişik. Birinci müşavirə Yevlax rayonunda keçirilir.

Son illər ərzində Yevlax rayonunun sosial-iqtisadi inkişa-fını sürətləndirmək üçün bir çox önəmli addımlar atılıb, həm iqtisadi, həm sosial layihələr icra edilib. Mənim bu səfərim çər-

---

* Yevlax rayonunda keçirilən qeyri-neft ixracatчыларынын respublika mцшавирясиндə İqtisadiyyat naziri Şahin Mustafayev, Шяrab Иstehsalчылары вя Иxracatчылары Assosiasiyasынын сядri Elçin Məmmədov, Fындыq Иstehsalчылары вя Иxracatчылары Assosiasiyasынын сядri İsmayıl Orucov, «Azersun Holdinq» MMC-nin баш icraчы direktoru Savaş Uzan, «Az-Granata» MMC-nin direktoru Rövşən Fərhadov, «GюkNUR Bakы» MMC-nin mцdiri Fərid Fərhadzadə, «D.Fruits Kяndli Tясяrrцfatы» MMC-nin tясisчisi İsamэddin Dəmirov və biznes иnkubator иштirakчысы Ariz Mikayılov çıxış etdilər.

çivəsində biz bir neçə önəmli obyektin açılışını qeyd etdik. 2 yol layihəsi istismara verildi. Uzun illər ərzində, demək olar ki, fəaliyyətsiz qalan Varvara Su-Elektrik Stansiyasının yenidən qurulması öz həllini tapdı və indi bu stansiya 18 meqavat enerji gücünə malikdir. Yevlaxda müasir balıqartırma müəssisəsinin açılışını qeyd etdik. Bu da böyük müəssisədir və böyük investisiya qoyulubdur, eyni zamanda, bu müəssisənin çox böyük ixrac potensialı var.

Əslində bizim fəaliyyətimizin əsas istiqamətləri daxili tələbatı daxili istehsal hesabına ödəməkdən və ixrac potensialımızı artırmaqdan ibarətdir. Biz bu yolla gedirik. Sahibkarlarla mənim müntəzəm olaraq ildə bir neçə dəfə görüşlərim keçirilir. Son 13-14 il ərzində yüzlərlə sahibkarla görüş keçirilib. Mən sahibkarlıq fəaliyyəti sahəsində bir çox müəssisələrin açılışında şəxsən iştirak etmişəm. Sahibkarlar yaxşı bilirlər ki, onların fəaliyyətinə dövlət tərəfindən çox böyük dəstək, həmçinin siyasi dəstək verilir. Bu gün cəmiyyətdə sahibkarlara münasibət müsbətə doğru dəyişir və əlbəttə, sahibkarların sosial məsuliyyəti də gündəlikdə duran məsələlərdən biridir. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm. Bu həm sahibkarlara lazımdır ki, cəmiyyət onların işini daha yüksək qiymətləndirsin, eyni zamanda, sahibkarlar da öz tərəflərindən nəinki biznes maraqların, ümumiyyətlə, ölkə qarşısında duran vəzifələrin, o cümlədən sosial vəzifələrin icrası üçün də səylərini qoysunlar. Əminəm ki, onlar maddi imkanları artdıqca bu məsələyə daha da böyük diqqət və vəsait ayıracaqlar.

O ki qaldı dövlət siyasətinə, bir daha demək istəyirəm, sahibkarlığın inkişafı bizim üçün prioritet məsələlərdən biridir. Qeyd etdiyim kimi, sahibkarlığın inkişafı üçün həm siyasi dəstək verilir, eyni zamanda, dövlət qurumları tərəfindən çox böyük metodiki dəstək göstərilir, belə gözəl regional inkişaf mərkəzləri yaradılır. Bu, ikinci mərkəzdir. Mən Xaç-maz rayonunda birinci mərkəzin açılışında da şəxsən iştirak etmişdim. Sahibkarlar üçün Yevlax rayonundakı Aran Regional

İnkişaf Mərkəzi də dövlət tərəfindən tikilib istifadəyə verilibdir. Bu da sahibkarlığın inkişafına növbəti dəstəyin əlamətidir.

Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilibdir. Bu kreditlər, eyni zamanda, sahibkarların qoyduqları vəsaitlər hesabına icra edilən layihələr bu gün deməyə əsas verir ki, biz qeyri-neft ixracımızı artırırıq. Çünki əgər bu kreditlər olmasaydı, bir çox layihələr icra edilməmiş qalardı və bu gün nəinki ixrac potensialımızın artırılmasından, ümumiyyətlə, daxili tələba-tın ödənilməsindən söhbət belə, gedə bilməzdi. Dövlət siyasəti, sahibkarlığa göstərilən həm siyasi, həm mənəvi, həm maliyyə dəstəyi, sahibkarlığın inkişafı üçün aparılan ciddi islahatlar və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir.

Əlbəttə, sahibkarlığın inkişafı haqqında danışarkən biz mütləq regional inkişaf proqramlarını qeyd etməliyik. Birinci proqram 2004-cü ilin əvvəlində – fevral ayında qəbul edilmişdi. Bu proqramın qəbul edilməsi mənim 2003-cü ildə seçkiqabağı proqramımın bir hissəsi idi. O vaxt bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, regionların inkişafı mənim üçün əsas vəzifələrdən biri olacaq və belə də oldu. 2004-cü ildə birinci, 2009-cu ildə ikinci və 2014-cü ildə üçüncü regional inkişaf proqramları qəbul olundu və icra edildi. Onu da qeyd etməliyəm ki, birinci və ikinci proqram artıqlaması ilə icra olundu. O proqramlarda nəzərdə tutulan bütün vəzifələr həyatda öz əksini tapdı. Hazırda biz üçüncü regional inkişaf proqramının icrası ilə məşğuluq. Əminəm ki, bu proqram da uğurla icra ediləcək.

Bu proqramların icrası nəticəsində biz nələri əldə etdik? İlk növbədə, regionlarda müasir infrastruktur yaradıldı. Əgər biz infrastruktur layihələrinə vəsait qoymasaydıq, heç bir inkişafdan söhbət gedə bilməzdi. Onu biz o vaxt etməyə başladıq ki, hələ ölkəyə böyük həcmdə neft gəlirləri daxil olmurdu. Neft gəlirləri Bakı–Tbilisi–Ceyhan neft kəmərinin 2006-cı ildə istismara verilməsindən sonra gəlməyə başladı. Ancaq biz

birinci regional inkişaf proqramını 2004-cü ildə qəbul etdik və onu icra etməyə başladıq. Bu onu göstərir ki, bizim uğurlarımızın təməlində təkcə maliyyə vəziyyətimiz dayanmır, həm də düşünülmüş siyasət, güclü iradə və düzgün seçilmiş ardıcıl fəaliyyətimiz həm regional inkişaf proqramlarının icrasına gətirib çıxartdı, həm də bütün digər sahələrdə biz ardıcıl siyasət apararaq, ölkəmizi gücləndirdik.

Demək olar ki, 2004-cü ildən bu günə qədər Azərbaycanda əsas infrastruktur layihələri icra edilibdir. Biz elektrik enerjisini idxal edirdik, artıq ixrac etməyə başlamışıq, 30-a yaxın elektrik stansiyası tikilib istifadəyə verilibdir. Bu, inkişaf üçün birinci şərtdir. Əgər enerji gücü olmasa, heç bir müəssisəni yaratmaq mümkün olmayacaq. Digər tərəfdən, infrastruktur layihələrimiz sosial xarakter daşıyır. Çünki dayanıqlı enerji ilə vətəndaşları təmin etmək hər bir dövlətin borcudur. Biz buna da nail olduq. Əvvəlki illəri yaxşı xatırlayırıq, işıqlar sönürdü, hətta Bakı şəhərində fasilələr yaranırdı. Bu gün isə biz dayanıqlı elektrik enerjisini, demək olar ki, təmin etmişik. Hələ də işlər gedir, enerji infrastrukturu yenilənir, yarımstansiyalar tikilir, yeni xətlər çəkilir, elektrik dirəkləri təzələnir. Ancaq demək olar ki, biz işlərin böyük hissəsini görə bilmişik.

Azərbaycanda qazlaşdırma 92 faizə çatıb. Xatırlayıram, prezident kimi, bölgələrə ilk səfərlərimdə vətəndaşlar tərəfindən qaldırılan məsələlərdən biri də qazlaşdırma ilə bağlı idi. O vaxt nəinki kəndlərdə, hətta rayon mərkəzlərində təbii qaz yox idi. Bakı şəhəri 100 faiz təbii qazla təmin edilmirdi. Biz bu məsələni də, demək olar ki, həll etdik. Qazlaşdırmanı 92 faizə çatdırmaq hər bir ölkə üçün böyük nailiyyətdir. Ancaq biz bununla kifayətlənmirik. Növbəti illərdə daha da yüksək faizə çatacağıq.

Birinci proqram qəbul olunduqdan sonra 11 min kilometrdən çox uzunluğu olan yollar salınıb. Bütün qonşu ölkələrlə bizi birləşdirən yollar ya istismara verilib, ya da ki, artıq buna yaxındır. Kənd yollarının salınması geniş vüsət alıbdır. Dünən Yevlax rayonunda 2 yol layihəsini istismara verdik. Demək olar

ki, Yevlax rayonunda əsas kənd yolları artıq normal vəziyyətdədir. Bu il yüzlərlə kəndi birləşdirən yeni yol layihələri icra ediləcək. Bu həm sosial, həm də iqtisadi məsələdir. Çünki bu həm də insanlara rahatlıq verir, eyni zamanda, məhsulu bazarlara vaxtında çatdırmaq üçün yolların böyük əhəmiyyəti vardır. Yol olmayan yerlərə investisiya da gəlmir, inkişaf da olmur. Proqramın əsas istiqamətləri bu idi.

Sosial infrastrukturun yaradılması sayəsində 3000-dən çox məktəb, 600-dən çox xəstəxana tikilmiş, yaxud təmir edilmişdir. Böyük meliorasiya layihələri icra edilibdir. Deyə bilərəm ki, onların içərisində 2 layihə – Taxtakörpü və Şəmkirçay su anbarları tarixi əhəmiyyət daşıyır. Həmin layihələrə böyük dövlət vəsaiti qoyulubdur. Bu su anbarlarının fəaliyyəti bundan sonra da kənd təsərrüfatına daim böyük dəstək olacaq. Digər meliorasiya layihələri icra edilibdir və bu proses davam edir. Hesab edirəm ki, bu il bu istiqamətdə ən ciddi addımlar atılacaq. Mən bunu artıq demişəm, fermerlərə bu il təxminən 150 min hektar yeni suvarılan torpaq təhvil veriləcək. Bir il ərzində bu qədər suvarılan torpağı əldə etməyimiz tarixi nailiyyətdir.

Bir sözlə, regional inkişaf proqramlarının icrası öz gözəl nəticələrini verib. Minlərlə yeni müəssisə yaradılıb. 1 milyon 700 min yeni iş yeri yaradılıb ki, onların 1 milyon 300 mini daimi iş yeridir.

Regionlarımız abadlaşıb, şəhərlərimiz gözəlləşib. İndi hər bir bölgəyə səfər edərkən gözəllik, abadlıq görürsən. Bütün bunları biz etdik. Bunlar bizim siyasətimiz nəticəsində müm-kün olubdur. Bu bir daha onu göstərir ki, tutduğumuz yol düzgün yoldur və bu təşəbbüslərin yerinə yetirilməsi artıq tam yeni bir vəziyyət yaradıbdır.

Biz bu gün inamla deyə bilərik ki, Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib. Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir. İxracatda isə biz bunu hələ ki, deyə bilmərik. İxracımızın böyük hissəsi hələ ki, neft və qazla bağlıdır. Bu da yəqin ki, indiki dövr üçün təbiidir. Çünki biz neft-qaz potensialımızı artırırıq. Ancaq

qarşıda duran vəzifələrdən biri də odur ki, biz ixracda da şaxələndirməyə nail olaq. Necə ki, buna ümumi daxili məhsulda nail olmuşuq, ixracda da buna nail olmalıyıq.

Bu ilin göstəriciləri də çox sevindiricidir. Mən bu barədə artıq demişəm, bir daha demək istəyirəm ki, bu ilin 3 ayının göstəriciləri bizi çox ruhlandırır. Bu bir daha göstərir ki, 2016-cı ildə qəbul etdiyimiz qərarlar və başladığımız islahat-lar qısa müddət ərzində öz gözəl nəticələrini verib. Bu ilin 3 ayında iqtisadiyyatımızın qeyri-neft sektoru 2,4 faiz artıb. Bu çox yaxşı göstəricidir. Qeyri-neft sənayemiz 2 faiz, kənd təsərrüfatı 3,5 faiz artıb. 3 ay ərzində 80 mindən çox yeni iş yeri yaradılıb. Ticarət dövriyyəmiz 15 faiz, ixrac 50 faizə yaxın artıb, idxal 17 faiz azalıbdır. Kənd təsərrüfatı məhsullarının ixracı isə 44 faiz artıbdır. Müsbət saldomuz 1 milyard dollardan artıqdır. Biz 3 ayda 1 milyard dollar vəsait qazanmışıq, valyuta ehtiyatlarımız artır. Bu müsbət dinamika deməyə əsas verir ki, biz il ərzində daha da böyük nəticələrə gəlib çatacağıq. Çünki götürdüyümüz bu temp və geniş vüsət almış islahatlar, o cümlədən sahibkarlar tərəfindən bizim siyasətimizə göstərilən praktiki dəstək – onlar öz işi ilə, öz investisiyaları ilə bunu göstərirlər – deməyə əsas verir ki, 2017-ci il çox uğurlu il olacaq. Yeni iqtisadi modelə keçməklə, bundan sonra iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik.

Keçən il qəbul edilmiş qərarlar, qanunlar, imzaladığım fərman və sərəncamlar iqtisadiyyatımızı daha da şaxələndir-mək üçün yaxşı imkanlar yaratdı. Xüsusilə qeyri-neft ixracı ilə bağlı atılmış addımlar artıq öz gözəl nəticələrini vermək-dədir. Biz təşviq sistemini tətbiq etməyə başladıq. Mən əvvəlki illərdə də bu barədə demişdim. Çünki bir neçə ölkədə təşviq sistemi özünü doğruldub və ixracın sürətli artımına gətirib çıxarıbdır. Biz dünyada mövcud olan ən qabaqcıl təcrübəni öyrənmişik və Azərbaycanda investisiyanın və ixracın təşviqi sistemlərini tətbiq etməyə başlamışıq. Hər iki mexanizm işə salınıb və artıq uğurla icra edilir. Sahibkarlar bəlkə də ilk anlarda inanmırdılar ki, dövlət onlara bu güzəşti də edəcək. Bəzi hallarda buna təəccüb edirdilər.

Ancaq indi görürlər ki, əgər o, ixracyönümlü məhsulu istehsal edirsə və onu dünya bazarlarına çıxarırsa, dövlət onun qiymətinin müəyyən faizini ona qaytarır. Yəni bu çox böyük stimul verən təşəbbüsdür. Sahibkar iqtisadi cəhətdən bundan həm əlavə qazanc əldə edir, eyni zamanda, hesab edirəm ki, bunun mənəvi cəhətdən də mənası var. Çünki sahibkarda inam artır, öz işini daha da böyük inamla qurur, ölkəmizə daha da böyük inamla sərmayə cəlb edir.

İnvestisiya təşviqi mexanizmi işə salındı. Artıq qısa müddət ərzində investisiya təşviqi üzrə 130 sənəd verilibdir. Bu proqram çərçivəsində ölkə iqtisadiyyatına sahibkarlar tərəfindən 1 milyard 250 milyon manat həcmində sərmayə qoyulur və qoyulacaq. Bu investisiya təşviqi mexanizmini işə salmaqla, görün biz investisiya üçün nə qədər vəsait cəlb etmişik. Sahibkarlar özləri bunu təşkil edirlər. Dövlət, əlbəttə ki, öz dəstəyini göstərir.

Qeyd etdiyim kimi, güzəştli kreditlər, metodiki tövsiyələr və əlbəttə, infrastruktur layihələri öz bəhrələrini verir. Biz bu il 150 min hektara ilk dəfə olaraq su verəcəyik. Bütün bunlar iqtisadi potensialımızı artırır və imkan yaradır ki, sahibkar-lar vəsait qoysunlar, məhsul yetişdirsinlər və xarici bazarlara çıxarsınlar, daxili bazarı təmin etsinlər. Yəni bu 2 təşviq təşəbbüsümüz çox böyük qiymətə layiqdir. Bununla bərabər, keçən il biz «Azexport» portalını yaratdıq. Bu da dövlət tərəfindən atılmış addımdır ki, biz sahibkarların işini yüngülləşdirək. «Azexport» portalı bu gün artıq dünya miqyasında özünü tanıtdıra bilib. Bu portala maraq getdikcə daha böyük olacaq. İndi əsas vəzifəmiz ondan ibarətdir ki, biz xaricdən sifariş olunan malların istehsalını təmin edə bilək. İndi bəzi hallarda sifariş olunur, ancaq ixraca göndəriləcək kifayət qədər məhsulumuz hələ ki, yoxdur. Ancaq «Azexport» portalının yaradılması çox müsbət hadisədir və getdikcə bu portala dünyada maraq artacaq.

«Made in Azerbaijan» brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Artıq bu brend bu gün dünya-da şöhrət qazanır. Əlbəttə ki, dövlət tərəfindən təşkil edilmiş sərgilər və o

sərgilərdə sahibkarların iştirakı gözəl nəticələrə gətirib çıxarır. Mənə verilən məlumata görə, bir neçə sərgidə artıq kontraktlar da imzalanıb. Əgər biz bu sərgilərdə iştirak etməsəydik, kontraktlar da imzalanmazdı. Yəni biz gördük ki, sahibkarlara əlavə kömək göstərilməlidir.

Mən artıq qeyd etmişəm, kreditlər verilir, fermerlər torpaq vergisindən başqa, bütün vergilərdən azaddırlar. Texnika alınır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir. Bütün bunlar qeyri-neft sektorumuzu canlandırdı. Ancaq sahibkarlara əlavə dəstək verilməlidir ki, onlar artıq öz məhsullarını xarici bazarlara çıxarsınlar. Çünki bu onlara da, dövlətə də lazımdır. Bu, ölkəmizə valyuta gətirir. Ona görə biz bu sərgilərdə iştirakımızı genişləndirməyə başladıq. Xarici ölkələrə bir neçə ixrac missiyası ezam edildi. Bu missiyaların da çox böyük faydası var. Qərara gəldik ki, bir neçə ölkədə Azərbaycanın ticarət evlərini yaradaq və biz artıq buna yaxınlaşırıq. Yəni dövlət tərəfindən atılmış bütün bu addımlar, əlbəttə, sahibkarlar üçün yeni imkanlar yaradır.

Beləliklə, biz bundan sonra bu gözəl nəticələr əsasında işimizi daha da təkmilləşdirməliyik, fəaliyyətimizi genişləndirməliyik. Əlbəttə, qeyri-neft ixracını artırmaq üçün ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etməliyik və biz buna yaxınlaşırıq. Hər il regional inkişaf proqramına yekun vururuq. Bu mövzu daim gündəlikdə olur ki, biz hansı məhsullarla özümüzü nə qədər təmin edirik, hər il də dinamikanı görürük. Ancaq hələ ki, buna tam nail ola bilməmişik. Ona görə də hesab edirəm, növbəti 3-4 il ərzində biz çalışmalıyıq ki, əsas istehlak mallarımızla özümüzü tam şəkildə təmin edək. Beləliklə, ixrac üçün əlavə imkanlar yaranacaqdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, biz daim inkişafda olmalıyıq. Çünki ölkə dinamik şəkildə inkişaf edir və əhali artır. İnkişaf etmiş ölkələrdə əhalinin sayı ya sabit qalır, ya da ki, azalır. Bizim ölkəmizdə isə əhali artır. 2004-cü ildə birinci regional proqramı qəbul edərkən bizdə əhalinin sayı indikindən az idi. İndi əhalinin sayı 10 milyona yaxınlaşır. Bu, əlbəttə ki,

bizim böyük üstünlüyümüzdür, eyni zamanda, onu göstərir ki, iqtisadi inkişaf çox sürətli olub. Ona görə insanlar daha da yaxşı yaşamağa başlayıblar, rifah yüksəlib və təbii ki, əhali də artır. Ancaq bu müsbət tendensiya bizim qarşımızda çox ciddi vəzifələr qoyur. Biz istehsalımızı daim artırmalıyıq ki, daxili tələbatı tam ödəyək və ixraca rəqabətqabliyyətli mallar təqdim edək. Ona görə növbəti illərdə daxili tələbatı yerli məhsullarla təmin etmək məsələsi birinci dərəcəli vəzifədir. Biz dövlətin dəstəyi ilə yeni bazarlara çıxış əldə etməliyik. Biz bunu edirik və edəcəyik, ixracyönümlü məhsulların həcmini artırmalıyıq. Ərzaq təhlükəsizliyi də bu iki amillə bilavasitə bağlı olan məsələdir. Biz buna da yaxınlaşırıq ki, ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək.

Biz növbəti illərdə görüləcək işlər haqqında danışacağıq. Bu müşavirənin əsas məqsədi ondan ibarətdir ki, biz gələcək fəaliyyətimizi planlı şəkildə aparaq. Bu gün veriləcək tapşırıqlar, qarşıya qoyulacaq vəzifələr, əlbəttə ki, icra edilməlidir və ediləcəkdir. Onların icrası nəticəsində biz daha da böyük ixrac potensialına nail olacağıq. Əlbəttə ki, biz bunu ancaq sahibkarların köməyi ilə, onların fəaliyyəti hesabına təmin edə bilərik. Dövlət isə həmişəki kimi, sahibkarların yanında olacaqdır.

## YEKUN NİTQİ

Bugünkü müşavirədən sonra ixrac potensialımız daha da artacaq və biz daxili tələbatı daha çox yerli məhsullarla təmin edəcəyik. Əminəm ki, 2017-ci ilə yekun vurarkən biz yaxşı dinamikanı görəcəyik. Qeyd etdiyim kimi, ixracı artırmaq üçün ilk növbədə, daxili tələbat tam ödənilməlidir – həm ərzaq məhsulları, həm də inşaat materialları ilə. Bu istiqamətdə konkret addımlar atılır və atılacaqdır. Növbəti illərdə ixracyönümlü müəssisələrin yaradılmasına daha böyük diqqət göstərilməlidir. Əslində Azərbaycanda bundan sonra da yaradılacaq müəssisələr hər iki məqsədi güdməlidir – həm daxili tələbat ödənilməli, həm də ixrac imkanları olmalıdır. Buna

nail olmaq üçün dövlət orqanları ardıcıl fəaliyyət göstərir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə gələcəkdə ödəniləcək kreditlər də ixracyönümlü müəssisələrin yaranmasına təkan verməlidir. Çünki ixracyönümlü məhsullar daxili bazarda da asanlıqla öz yerini tapacaq. Bu məsələlərin həllində yerli icra orqanları fəal iştirak etməlidirlər. Əlbəttə ki, burada əsas yük dövlət qurumlarının üzərinə düşür.

Azərbaycanda gözəl investisiya mühiti mövcuddur. Biz son illər ərzində 200 milyard dollardan çox sərmayə cəlb etmişik. Bunun bir hissəsi neft, bir hissəsi qeyri-neft sektoru-na qoyulan sərmayədir. Bütövlükdə, Azərbaycanda investi-siya iqlimi çox müsbətdir. Mötəbər beynəlxalq qurumlar bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünya miqyasında 37-ci yerə layiq görüb. İl ərzində biz 3 pillə qabağa getmişik. Yəni bütövlükdə iqtisadi liberallaşma, dərin islahatlar, gözəl investisiya iqlimi və MDB məkanında adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə ön sıralarda olmağımız, əlbəttə ki, xarici və daxili investorları cəlb etmək üçün əlavə şərait yaradır. Yerli icra orqanları da bu məsələni daim diqqətdə saxlamalıdır. Gələcəkdə yerli icra orqanlarının fəaliyyətinə veriləcək qiymət eyni zamanda, bu amilə də əsaslanacaqdır – bu və ya digər rayona nə qədər sərmayə gətirilib. Yerli icra orqanları mərkəzi icra orqanları ilə birlikdə bu işləri təşkil etməlidir. Təbii ki, ixrac ediləcək məhsullar beynəlxalq standartlara cavab verməlidir. Əks təqdirdə, onların ixrac perspektivləri olmayacaq. Ölkəmizdə fəaliyyət göstərən laboratoriyalar beynəlxalq akkreditasiyadan keçməlidir və bu məsələ tezliklə öz həllini tapmalıdır. Azərbaycanda istehsal olunan məhsullara verilən sertifikatlar xarici ölkələr tərəfindən tanınmalıdır.

Kadr hazırlığına xüsusi diqqət göstərilməlidir. Biz ixrac üzrə mütəxəssislər hazırlamalıyıq. Ümumiyyətlə, kadr hazırlığı indi qarşımızda duran ən vacib məsələlərdən biridir. Çünki ölkə inkişaf edir, yeni müəssisələr yaradılır və bu müəssisələrdə

fəaliyyət göstərən kadrlar hazırlıqlı olmalıdır. Xüsusilə ixracyönümlü müəssisələrdə hazırlıqlı kadrların təlimi mühüm məna daşıyır və dövlət orqanları bu işlərdə fəal olmalıdır.

İxrac prosedurlarını sadələşdirmək lazımdır. Bu istiqamətdə də addımlar atılır. Əvvəlki illərdə olduğu kimi, indi ixrac qarşısında süni əngəllər yoxdur. Ancaq həm institusional tədbirlər görülməli, həm də real həyatda bütün müvafiq dövlət qurumları ixracı stimullaşdırmaq və asanlaşdırmaq üçün əlavə səylər göstərməlidir.

Mən giriş sözümdə qeyd etdim ki, Azərbaycan bir çox ölkələrdə ticarət evləri yaradacaq. Birinci ticarət evi yaxın həftələrdə Belarusda yaradılacaq. Digər postsovet ölkələrində – Rusiyada, Ukraynada, Qazaxıstanda belə evlərin yaradılması gündəlikdədir. Bu həm ölkəmizi təbliğ edəcək, həm də ixracatçılar üçün yeni imkanlar yaradacaqdır. Bununla bərabər, Asiya qitəsinin böyük ölkələrində mütləq ticarət evlərimiz olmalıdır. İndi Körfəz ölkələrində bizim məhsullarımıza böyük maraq göstərilir. Əslində bu marağın da mənbəyi bizim fəaliyyətimizdir. Çünki son vaxtlar biz Körfəz ölkələri ilə, o cümlədən bu istiqamətdə çox işgüzar əməkdaşlıq qura bilmişik və oraya Azərbaycan məhsullarının çıxarılmasına nail olmuşuq. Bizim xüsusilə kənd təsərrüfatı məhsullarımıza o ölkələrdə böyük maraq var və Körfəz ölkələrinin istehlak bazarı kifayət qədər böyükdür. Onlar bizdə istehsal edilən və ixrac olunan malların bir çoxunu xaricdən, başqa ölkələrdən gətirirlər, idxal edirlər. Ona görə biz bu bazarlara fəal girməliyik. Bunun üçün də Körfəz ölkələrində mütləq ticarət evləri yaradılmalıdır.

Bizim üçün prioritet olan ixrac bazarlarında böyük satış şəbəkələri ilə işgüzar əməkdaşlıq qurmalıyıq. Onların adları bəllidir. Onları Azərbaycana dəvət etmək, imkanlarımızı göstərmək, bizim əsas, qabaqcıl müəssisələrə səfərlərini təşkil etmək lazımdır. Gəlib öz gözləri ilə görsünlər ki, burada həm böyük potensial var, həm də bizim məhsullarımız rəqabətqabliyyətlidir. Əlbəttə, mən öz həmkarlarımla, başqa ölkələrin dövlət və hökumət başçıları ilə görüşlər zamanı daim bu mə-

sələni qaldırıram. Çünki bizim ticarət dövriyyəmiz artmalıdır və mallarımız o ölkələrin bazarlarına çıxmalıdır. Əlbəttə, siyasi dəstək göstərilir, ancaq biz müxtəlif səviyyələrlə işləməliyik və ən yaxşı yol, yenə də deyirəm, böyük satış şəbəkələri ilə münasibətlər qurmaq və onları Azərbaycana dəvət etməkdir.

İxrac missiyalarımız artıq öz səmərəsini göstərir. Bu missiyaların çox böyük faydası var və ilboyu bu missiyalar təşkil edilməlidir. Bu, avtomatik rejimdə olmalıdır, yəni artıq mənim göstərişimlə yox. Hər il müxtəlif dövlət qurumları öz iş planına salmalıdır ki, bu il neçə ixrac missiyası hansı ölkələrə ezam ediləcək. Bizim üçün ən yaxşı potensial bazar olan ölkələrə hər il missiyalar getməlidir. Böyük ölkələrin müxtəlif bölgələrinə xüsusi missiyalar təşkil edilməlidir. O ölkələrin təkcə paytaxt şəhərlərinə yox, bütün bölgələrinə, bütün regionlarına müntəzəm olaraq bizim qruplarımız getməlidir. Biz keçən il sahibkarlarımızın aparıcı beynəlxalq sərgilərdə iştirakını mütəşəkkil qaydada təmin etmişik. Əvvəlki illərdə bu o qədər də geniş vüsət almamışdı və bəzi hallarda bizim beynəlxalq sərgilərdə iştirakımız formal xarakter daşıyırdı. Bir qrup insan ezam edilirdi. Onlar orada bir neçə gün vaxt keçirirdilər və demək olar ki, bu iştirakın o qədər də böyük əhəmiyyəti olmurdu. Bizim beynəlxalq sərgilərdə iştirakımızın əsas vəzifəsi məhsulumuzu orada təbliğ etməkdir. Ən gözəl nəticə ondan ibarət ola bilər ki, o sərgi zamanı hansısa bir kontrakt da imzalansın. Artıq birinci təcrübə var və burada da səsləndirildi Çində böyük partiya şərabımızla bağlı artıq kontrakt imzalanıb və ixrac ediləcəkdir. Sərgilərdə iştirakımız praktiki məna daşımalıdır. Biz dünyanın bütün aparıcı sərgilərində iştirak etməliyik. Dövlət qurumları və sahibkarlar bunu öz iş qrafiklərinə salmalıdırlar. Əlbəttə ki, dövlət orqanları, xüsusilə İqtisadiyyat Nazirliyi bu işləri təşkil edir, təşkil edəcək və sahibkarlar da fəal olmalıdırlar. Çünki əvvəlki illərdə bizim problemlərimizdən biri də ondan ibarət idi ki, sahibkarlar tərəfindən ixrac məsələlərinə lazımi diqqət göstərilmirdi. Bunun müxtəlif səbəbləri var. Onu da deməliyik ki, dövlət orqanları da

buna o qədər də böyük fikir vermirdilər. Belə olan halda, işlər daha çox öz axarı ilə, kortəbii gedirdi. Ancaq bundan sonra biz ixrac məsələlərini mütəşəkkil qaydada, kompleks şəkildə həll etməliyik. Bugünkü müşavirənin məqsədi də məhz bundan ibarətdir.

«Azexport» portalı yaradılıb. Bu barədə mən giriş sözüm-də dedim. İndi biz «Azexport» portalını müfəssəl məlumat-larla təmin etməliyik. Sahibkarlar bu portala öz fəaliyyətləri haqqında məlumat yerləşdirsinlər və mütəmadi olaraq bu portalla maraqlansınlar, görsünlər ki, nəyə tələbat var, hansı sifarişlər yerləşdirilir. Çünki biz artıq bunun ilkin nəticələrini görürük. Portalın fəaliyyəti nəticəsində artıq bir çox kontraktlar imzalanıb. Ancaq nəyi görürük? Bəzən sifariş gəlir, ancaq ixrac ediləcək məhsulumuz olmur. Ona görə bu portalın mənası təkcə ondan ibarət deyil ki, biz öz məhsulumuzu ixrac edək, halbuki birinci vəzifə bundan ibarətdir. Eyni zamanda, bu portal bizə tələbat haqqında, regionlar haqqında məlumat verəcək, hansı regiondan, hansı ölkədən hansı məhsula tələbat var və bunu dövlət qurumları da, sahibkarlar da görəcək. Görəcək ki, misal üçün, filan məhsula tələbat var, ancaq Azərbaycanda bunun istehsalı lazımi səviyyədə deyil. Deməli, dövlət də Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə o sahəyə kreditlər verəcək. Sahibkar da görəcək ki, əgər o məhsulu istehsal etsə, yetişdirsə, bunun bazarı olacaqdır. Ona görə buna nail olmaq üçün birinci növbədə, bütün Azərbaycan şirkətləri öz məhsulları, ixracyönümlü məhsulları haqqında «Azexport» portalına məlumatlar yerləşdirsinlər və bu portalı izləsinlər. Əlbəttə ki, dövlət qurumları da daim monitorinq aparmalıdır. Tələbat əslində təklifi də stimullaşdıracaq.

Qeyd etdiyim kimi, «Made in Azerbaijan» brendi artıq dünyada özünü göstərir və dövlət xətti ilə bu brendin təbliği istiqamətində işlər gedir. Biz eyni zamanda, böyük dövlət şirkətlərini və özəl şirkətləri də bu işə cəlb etməliyik ki, onlar da fəaliyyət göstərdikləri ölkələrdə bu brendi təbliğ etsinlər. Xüsusilə burada dövlət qurumlarından söhbət gedir. O şirkətlər ki,

onların xaricdə geniş fəaliyyət dairəsi var, ilk növbədə, Dövlət Neft Şirkəti – SOCAR, Azərbaycan Hava Yolları – AZAL, «Azərbaycan Dəmir Yolları» QSC və digər böyük dövlət şirkətlərimiz xarici tərəfdaşlarla təmasdadırlar, xarici ölkələrdə fəaliyyət göstərirlər. Onlar «Made in Azerbaijan» brendinin təbliğində fəal iştirak etməlidirlər və müntəzəm olaraq dövlət qurumlarına məlumat verməlidirlər ki, bu brendin təbliğində hansı işləri görüblər. Ola bilər İqtisadiyyat Nazirliyi onlar üçün xüsusi bir tövsiyə, necə deyərlər, metodiki kitabça da hazırlasın ki, onlar bu işi planlı şəkildə aparsınlar. Çünki bunu hamı yaxşı bilir ki, reklam, əlbəttə, ticarətin ayrılmaz hissəsidir.

Biz xarici bazarları da geniş təhlil etməliyik, araşdırmalıyıq. Çünki indi bazarlar uğrunda mübarizə gedir. Bizə elə gəlməməlidir ki, biz burada istehsalı artıracağıq, ixracyö-nümlü məhsulları istehsal edəcəyik və ondan sonra bütün məsələlər öz həllini tapacaq. Yox, biz bazarlar uğrunda mübarizə aparmalıyıq və aparırıq. Bunun üçün, ilk növbədə, xarici bazarlar dəqiq təhlil edilməlidir, həm onların indiki vəziyyəti, həm də perspektivləri. Biz də bunu yaxşı bilirik ki, indi bir çox ölkələr daxili tələbatını daxili istehsal hesabına təmin etmək istəyir və təkcə biz bu işlə məşğul olmuruq. Ona görə bizim üçün bilmək vacibdir ki, məsələn, ənənəvi bazarlarda hansı tendensiyalar gedir, hansı dövlət proqramları icra edilir və bu proqramların nəticəsində hansı məhsulun istehsalı gözlənilir və öz işimizi buna uyğun şəkildə planlaşdırmalıyıq. Bizim üçün indi ənənəvi bazarlar var və o bazarlara ənənəvi məhsulumuz ixrac edilir. Ancaq bir gün o bazarlarda, o ölkələrdə onlar daxili tələbatı təmin edəcəklər, bizim məhsulumuza ehtiyac olmaya bilər, onda biz nə edəcəyik? Ona görə burada çox ciddi analiz aparılmalıdır ki, mövcud durum və potensial vəziyyət nədən ibarətdir.

Bununla paralel olaraq biz yeni bazarlara çıxmalıyıq. Elə fikirləşməməliyik ki, bizim burada ənənəvi qonşuluqda bazarlarımız var və nə istehsal ediriksə, onu da oraya göndəririk. Biz bu sahədə də çox dəqiq siyasət aparmalıyıq. İxracın şaxələndirilməsi

məsələləri təkcə çeşidlərlə ölçülmür. Biz coğrafiyanın şaxələndirilməsinə və bütövlükdə yeni bazarlara çıxışa nail olmalıyıq, ənənəvi bazarlarda mövqelərimizi daha da möhkəmləndirməliyik. Bunun, əlbəttə ki, müxtəlif yolları var. İlk növbədə və ən başlıcası hesab edirəm ki, burada əsas məsələ yaxşı siyasi əlaqələrin mövcudluğudur. Azərbaycanın, demək olar ki, bütün ölkələrlə, ilk növbədə qonşu ölkələrlə çox yaxşı işgüzar dostluq münasibətləri var. Bu, bu gün dünya miqyasında o qədər də tez-tez rast gəlinən mənzərə deyil. Daha çox qonşular arasında mübahisələr olur, problemlər yaranır. Ermənistan istisna olmaqla, bizim heç bir qonşu ilə heç bir problemimiz yoxdur. Əksinə, son illər ərzində apardığımız siyasət nəticəsində 4 qonşu ölkə ilə bizim münasibətimiz sürətlə inkişaf edib və bu gün ən yüksək səviyyədədir. Bu imkanlardan sahibkarlar da istifadə etməlidirlər. Onlar üçün qonşu bazarlara və hər hansı bir bazara çıxış əldə etmək üçün heç bir siyasi əngəl yoxdur. Amma biz görürük ki, harada siyasi problemlər var, bu, sahibkarlara da dərhal təsir edir, müxtəlif bəhanələrlə məhdudedici tədbirlər görülür, ixrac üçün problemlər yaranır. Bizim sahibkarlar bundan azaddırlar. Bizim siyasətimizin sayəsində bu, yoxdur.

Ancaq bir daha demək istəyirəm ki, biz bazarları, indiki durumu və perspektivləri çox dəqiq təhlil etməliyik və yeni bazarlara çıxış əldə etməliyik. Biz xarici bazarlarda öz mövqelərimizi möhkəmləndirməliyik və bunun üçün logistika mərkəzlərinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Birinci belə təcrübə var. Artıq burada çıxışlarda da səsləndirildi. Qazaxıstanın Aktau vilayətində Azərbaycanın xaricdə birinci Logistika Mərkəzi yaradıldı. Bu mərkəzin çox böyük əhəmiyyəti var. Bu bizə imkan verəcək ki, öz məhsullarımızı rahatlıqla Orta Asiya, Qazaxıstan bazarlarına ixrac edək. Başqa ölkələrdə də bu mərkəzlər yaradılmalıdır. Bu işlərdə xaricdə yaşayan azərbaycanlılar da öz rolunu oynamalıdırlar. Bilirsiniz ki, biz xaricdə yaşayan azərbaycanlıların problemlərinin həlli üçün böyük işlər görürük. Azərbaycan nadir ölkələrdəndir ki, artıq bizdə ənənəvi olaraq xaricdə yaşayan azərbaycanlıların

qurultayı keçirilir. Biz onlara həm siyasi dəstək göstəririk, eyni zamanda, onlar üçün biznes imkanları yaradırıq. Onlar da bu işlərdə fəal iştirak etməlidirlər. Bildiyimə görə, onlar bizim yeni təşəbbüslərimizə fəal qoşulurlar. Xaricdə yaşayan azərbaycanlılar, xüsusilə MDB məkanında yaşayan soydaşlarımız, o cümlədən bizneslə məşğuldurlar, onların böyük imkanları var. Onlar da öz biznes imkanlarını genişləndirmək və öz Vətəninə kömək etmək üçün orada fəal işləməlidirlər. Bu işlər başlanılıb və bizim dövlət qurumlarımız bu işlərlə məşğuldur. Mən onları da bu işlərə dəvət edirəm, onların da böyük ticarət şəbəkələri var. Onlar dünyanın müxtəlif yerlərindən məhsul idxal edirlər. Xüsusilə nəzərə alsaq ki, indi bizim imkanlarımız genişlənir, daha çox Azərbaycandan idxal etsinlər.

Biz məhsulun qablaşdırılmasına diqqət göstərməliyik. Mən şadam ki, son vaxtlar buna diqqət göstərilir. Bu Regio-nal İnkişaf Mərkəzinin foyesində kiçik bir sərgi də nümayiş etdirilir. Mən bu sərgidə yeni qablaşdırılmış məhsulları, malları görürəm. Buna çox böyük diqqət göstərilməlidir. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, çalışmalıyıq ki, Azərbaycanda qablaşdırma sənayesi inkişaf etsin. Biz hələ ki, bir çox qabları, həmçinin yardımçı materialları xaricdən idxal edirik. Bunu Azərbaycanda istehsal etmək üçün heç bir problem yoxdur. Bizim indi Şüşə zavodumuz fəaliyyət göstərir. Onun da işi təkmilləşdirilməlidir, istənilən növ şüşə qablar, bankalar istehsal olunmalıdır. Karton zavodumuz var. Ümumiyyətlə, qablaşdırma bizim idxaldan asılılığımızı azaldar. Çünki istehsal etdiyimiz məhsulların maya dəyərində biz həmişə xarici komponenti axtaranda görürük ki, qablaşdırma burada xüsusi rol oynayır. Ona görə Azərbaycanda qablaşdırma tam təşkil edilməlidir və buna böyük diqqət göstərilməlidir. Əlbəttə ki, bizim təqdim etdiyimiz mallar da göz oxşamalıdır.

Biz keçən ildən xarici kütləvi informasiya vasitələrində reklam kampaniyalarına başlamışıq. Bunu turizmə, eyni zamanda, Azərbaycanda istehsal olunan mallara aid etmək olar. Bu iş də müntəzəm olaraq aparılmalıdır. Bunun üçün müvafiq büdcə ayrıl-

malıdır və hesab edirəm ki, dövlət burada da sahibkarlara kömək göstərməlidir. Çünki sahibkar o əlavə vəsaiti xərcləmək üçün, əlbəttə, yüz dəfə fikirləşər ki, bu reklamı yerləşdirsin, yoxsa yox. Yəqin ona görə ki, ixrac ediləcək məhsulların həcmi böyük deyildir. Ona görə bizdə hələ ki, reklamla bağlı böyük anlayış yoxdur. Biz bunu etiraf etməliyik. Odur ki, dövlət öz hesabına bizim əsas ixracyönümlü malların təbliği üçün xarici kütləvi informasiya vasitələrində, televiziyalarda, qəzetlərdə reklam kampaniyaları təşkil etməlidir.

Qoy sahibkarlar istehsal etdikləri və hansı ölkələrə ixrac etdikləri məhsullar haqqında İqtisadiyyat Nazirliyinə öz təkliflərini versinlər. Biz buna başlamalıyıq. Əlbəttə, birinci mərhələdə buna qonşu ölkələrdən, MDB məkanından başla-malıyıq. Bu bizim sahibkarlara növbəti çox gözəl dəstəyimiz olacaqdır.

Sənaye istehsalı ilə bağlı deyə bilərik ki, indi Azərbaycanda bir neçə böyük sənaye müəssisəsi yaradılır. Mən bu barədə demişəm, sahibkarlara tövsiyələrimi vermişəm, bir daha demək istəyirəm ki, onlar bu böyük müəssisələrin istehsal edəcəyi xammaldan səmərəli şəkildə istifadə etsinlər, yeni fabriklər, zavodlar qursunlar ki, biz hazır məhsulu Azərbaycanda istehsal edək, idxaldan asılılıq azalsın və hazır məhsul ixrac edək. Mən Sumqayıt Kimya Sənaye Parkındakı zavodları xüsusi qeyd etmək istəyirəm. Orada biznes üçün, kiçik və orta sahibkarlıq, ixrac üçün çox böyük potensial var. Sumqayıt Polimer və Gübrə zavodları, Mingəçevir Sənaye Parkı. Bu il birinci zavodlar istifadəyə veriləcəkdir. Neftçala, Balaxanı, Pirallahı sənaye zonaları. Bu, artıq geniş vüsət alır və elə etməliyik ki, hər rayonda müasir sənaye zonası olsun. Biz bunu dəstəkləyirik və dəstəkləyəcəyik.

Ölkəmizdə yüksək texnologiyalar inkişaf edir. Biz indi kosmik sənayeni inkişaf etdiririk. Azərbaycan dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür. Bizim 2 peykimiz var, üçüncü peyk hazırlanır və biz bu xidmətləri artıq xaricə satırıq. Bu da ixracın bir növüdür. Biz birinci və ikinci peykləri orbitə buraxanda, əlbəttə ki, bir neçə məqsədi güdürdük. Bu yenilikdir, texnologiyadır. Kadr hazırlığı baxımından bunun böyük

əhəmiyyəti var. Azərbaycanın imici artacaq və eyni zamanda, biz buna bir biznes layihə kimi baxırıq və artıq ora qoyulan vəsaiti bu peyklər qaytarmağa başlayır. Bildiyimə görə, artıq üçüncü peykin xidmətlərinin bir hissəsi barədə kontraktlar imzalanıb. Ona görə bu da ölkəmizə gəlir, valyuta gətirən bir sahədir. Biz bunu dövlət xətti ilə etmişik. Ancaq inkişaf etmiş ölkələrdə biznes qurumları özləri peykləri sifariş edirlər, özləri orbitə buraxırlar və özləri də pul qazanırlar. Elə ölkələr var ki, o qədər də böyük deyil, amma o ölkələrdə bəlkə də onlarla peyk var. Nəyə görə? Çünki bu, biznes üçün əlverişlidir. Biz artıq kosmik sənayenin biznes imkanlarını da genişləndirməliyik və qeyd etdiyim kimi, bu bizim üçün valyuta mənbəyidir.

Bizim yeni bir ixrac istiqamətimiz də yaradılıb. Bu da hərbi texnikanın ixracıdır. Bu da yenilikdir. On il bundan əvvəl bunu təsəvvür etmək mümkün deyildi ki, Azərbaycan silah, texnika ilə nəinki öz tələbatını özü təmin edəcək, eyni zamanda, bunu ixrac da edəcək. Bu gün bu reallıqdır, biz buna nail olmuşuq. On iki il əvvəl Müdafiə Sənayesi Nazirliyi yarananda biz bilirdik ki, bu gün gələcək və gəldi. Bu gün biz nəinki ordumuzun əsas tələbatını özümüz ödəyirik, həmçinin ixrac da edirik. Biz beynəlxalq sərgilərdə iştirak etmişik. Bax, bu bir daha göstərir ki, sərgilərdə iştirak etmək nə qədər əhəmiyyətlidir. Bakıda 2 dəfə Beynəlxalq silah sərgisi təşkil edilib. Bizim silah ticarətimiz artır. Bu da ölkəyə böyük valyuta gətirir. Hazırda Azərbaycanda 1000-dən çox adda, o cümlədən ən son texnologiyalara əsaslanan hərbi təyinatlı məhsullar istehsal olunur. Bu sahə də daim diqqət mərkəzində olmalıdır və burada ixrac potensialı artır.

Biz təbii ki, öz resurslarımızdan səmərəli şəkildə istifadə etməliyik. Bu istiqamətdə də işlər ardıcıl gedir. Azərbayca-nın zəngin təbii ehtiyatları var. Bizim təbii ehtiyatlarımız təkcə neftlə, qazla məhdudlaşmır. Bizim qızıl yataqlarımız var və bir müddət bundan əvvəl «AzerGold» dövlət qurumu, səhmdar cəmiyyəti yaradılıbdır. Artıq o həm qızıl yataqlarının işlənilməsi, həm də ixracı ilə məşğuldur. Təkcə qızıl yataqları deyil, bizdə gümüş yataqları, digər qiymətli metalların

ehtiyatları var. Bu sahə dövlətə çox böyük gəlir gətirəcək. Milyonlarla, on milyonlarla dollar ixrac potensialı yaranır və artıq bu işlər müasir əsaslar üzərində qurulub. Bu da böyük ixrac potensialımızdır. Dövlət, əlbəttə, öz dəstəyini göstərir və göstərəcək ki, «AzerGold» dünya səviyyəli bir mədənçilik şirkətinə çevrilsin.

Bizim böyük bir sərvətimiz də var, ancaq ondan səmərəli şəkildə istifadə edə bilmirik. Bu da dəmir filizidir. Hələ Çar Rusiyası dövründə, həmçinin sovet vaxtında bizim dəmir filizimizə böyük maraq var idi. Hələ Çar Rusiyası zamanı Avropadan buraya gəlmiş insanlar, o vaxtın biznesmenləri buna çox böyük maraq göstərirdilər və işləri də təşkil etməyə çalışırdılar. Ancaq əfsuslar olsun ki, müstəqillik dövründə bu sahəyə kifayət qədər diqqət göstərilməmişdir. Əfsuslar olsun ki, biz bu günə qədər vahid bir istehsalat sahəsini yarada bilməmişik. Daşkəsən dəmir filizi yatağı dünya miqyasında böyük yataqlardan biridir və onun indiki vəziyyəti, əlbəttə, bizi qane edə bilməz. Müxtəlif dövrlərdə müxtəlif təkliflər irəli sürülmüşdü. Hətta dövlət qurumu da yaradıldı, ancaq sonra işləyə bilmədi. Özəl sektor da buna vaxtaşırı maraq göstərirdi. Vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı ciddi addımlar atılsın. Bütün istehsalat zənciri yaradılmalıdır, filizdən başlamış, son ixrac məhsuluna qədər. Həm bizim ixracımız artacaq, həm də idxaldan asılılıq kəskin şəkildə aşağı düşəcək. Çünki hazır məhsulun idxalı üçün xaricə böyük vəsait gedir və getdikcə daha çox gedəcək. Çünki bizim inkişaf dinamikamız bundan sonra da elə sürətli olacaq ki, daxili tələbat artacaq. Ona görə Daşkəsən dəmir filizi yatağının işlənməsi və istehsalat zəncirinin yaradılması gündəlikdə duran vacib məsələlərdən biridir.

Azərbaycanda turizm sürətlə inkişaf edir. Keçən il turist-lərin sayı 11 faiz, bu ilin 3 ayında isə 25 faiz artıbdır. Bunu indi gözlə görmək olar. Həm Bakıda, həm müxtəlif bölgələrdə turistlərin sayı kəskin şəkildə artır. Bunun, əlbəttə ki, səbəbləri var. Bu elə öz-özünə yaranan məsələ deyil. Son illər ərzində görülmüş işlər bu vəziyyətə gətirib çıxarıb. İlk növbədə, Azərbaycanda hökm

sürən sabitlik, əmin-amanlıq, ictimai-siyasi asayiş, əlbəttə ki, Azərbaycanı turistlər üçün çox cəlbedici ölkəyə çevirir. Xüsusilə indiki şəraitdə – dünyanın müxtəlif yerlərində gərginlik var, təhlükələr, qarşıdurmalar, sosial narazılıq artır, kütləvi etirazlar geniş vüsət alıbdır. Bunların heç biri Azərbaycanda yoxdur. Azərbaycanda xalq–iqtidar birliyi var. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bəyənilir. Azərbaycanda hökm sürən sabitliyin əsas amili də bundan ibarətdir.

Müstəqilliyimizin ilk illərində turizmin inkişafından söhbət gedə bilməzdi. Çünki Azərbaycan çox riskli, kasıb yer idi və turizm infrastrukturu, demək olar ki, yox idi. Amma biz turizmin inkişafına xidmət göstərən infrastruktur yaratdıq. Biz, misal üçün, son illər ərzində ölkəmizdə 6 beynəlxalq aeroport tikmişik. Biz bunu yaradanda ilk növbədə, insanların rahatlığını nəzərə alırdıq. Bu gün həmin beynəlxalq aeroportlar müxtəlif ölkələrə uçuşlar təşkil edir. İndi biz görürük ki, bunun turizmə nə qədər böyük faydası var, birbaşa reyslər açılır. Gəncədən, Naxçıvandan, Qəbələdən, Lənkərandan birbaşa reyslər açılır və o reyslərin sayı artır. Əvvəlki illərdə bu reyslərdən ancaq xaricdə yaşayan azərbaycanlılar, yaxud da ki, qonaqlar istifadə edirdilər. Amma indi bu reyslərdən turizm məqsədilə istifadə olunur. Bu aeroportlar və Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportu bu səviyyədə olmasaydı, turizmin inkişafından söhbət belə, gedə bilməzdi. Gözəl, müasir yollar salınıb. Bax, Bakı–Yevlax yolu indi dünyanın ən yüksək standartlarına cavab verir. Bizim qonşu ölkələrlə magistral yollar ya tam istifadəyə verilib, ya da ki, yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bütün bölgələrdə infrastruktur layihələri mövcuddur – elektrik, qazlaşdırma, içməli su. Həm Bakıda, həm də bölgələrdə ən müasir hotellər yaradılıbdır. Əlbəttə ki, bizim təbii şəraitimiz, gözəl iqlim, xalqımızın qonaqpərvərliyi, zəngin mətbəx, tarixi abidələr – bunlar da rol oynayır. Hesab edirəm ki, turizmin inkişafı üçün həlledicirol oynayan məqam bizim vizalarla bağlı siyasətimizdir. «ASAN viza»nın fəaliyyətə başlaması və vizanın sadələşdirilmiş elektron yollarla əldə edilməsi, əlbəttə ki, bu axını təmin edib. Biz turizmin inkişafının

ancaq birinci mərhələsindəyik. Çünki hələ Azərbaycanı tanıma prosesi gedir. Bu tanıma prosesində ölkəmizdə təşkil olunan beynəlxalq tədbirlər, əlbəttə ki, rol oynayıb, həm Avropa oyunları, həm bu yaxınlarda keçiriləcək İslam Həmrəyliyi oyunları və xüsusilə «Formula-1» yarışları. «Formula-1»in 500 milyon auditoriyası var. Onların hər biri şəhərimizin gözəlliyini öz gözü ilə görür və onların bir çoxu Bakıya gəlmək istəyir.

Bunlar turizmi inkişaf etdirən əsas amillərdir. Onu da demək istəyirəm ki, biz turizmə də ixrac məhsulu kimi baxmalıyıq. Çünki turizm bizə nə verir? Valyuta. İxrac nə verir? Valyuta. Biz turizmin inkişafından milyardlarla valyuta qazanacağıq. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, dünya miqyasında turizmin ən sürətlə inkişaf etdiyi yer Azərbaycandır. Budur bizim siyasətimizin nəticələri. Bölgələrdə müasir turizm infrastrukturu inkişaf etdirilməlidir. Mən sahibkarları da dəvət edirəm. Sahibkarlar bilsinlər ki, yeni hotellərə böyük ehtiyac olacaq. Çünki hələ indi – qış mövsümündə Bakıdakı hotellərin 85–90 faizi doludur. Görün yay mövsümündə nə olacaq?! Boş yer olmayacaq. Ona görə Bakıda və bizim əsas turizm mərkəzlərində yeni hotellərin yaradılması çox böyük əhəmiyyət daşıyır və bunun biznes üçün də çox böyük faydası olacaq.

İndi isə kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı qarşıda duran məsələlər haqqında demək istərdim. Hazırda 24 rayonda 33 aqropark yaradılır. Bu aqroparkların yaradılmasına 1,1 milyard manat dəyərində sərmayə qoyulur. Bu aqroparkların yerləşdiyi ərazi, istifadə etdiyi torpaq sahəsi 142 min hektardır. Əminəm ki, aqroparkların fəaliyyətə başlaması nəticəsində biz daxili tələbatı 100 faiz ödəyəcəyik və çox böyük ixrac potensialımız yaranacaqdır. Yenə də qayıdıram əvvəlki sözlərimə, biz indidən planlaşdırmalıyıq ki, nəyi haraya ixrac edəcəyik. Çünki sahibkarın özü çətinlik çəkəcək. Dövlət qurumları İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, əlbəttə ki, Prezident Administrasiyasının rəhbərliyi ilə gələcək illər ərzində bizim ixrac strategiyamızı müəyyən etməlidir. Biz artan ixrac potensialımızı necə realizə edəcəyimizi indidən bilməliyik.

Əlbəttə, elə ixrac məhsulları var ki, onlar üçün bazarlar axtarmaq lazım deyil. Onlardan biri də pambıqdır, birjalarda satılır. Ancaq meyvə-tərəvəz və digər məhsulların ixracı üçün biz indidən işləməliyik, planlar qurmalıyıq.

İxrac potensialımıza böyük təkan verəcək növbəti layihələr suvarma ilə bağlıdır. Təkcə bu il 150 min hektar əlavə əkin sahəsi dövriyyəyə cəlb ediləcək. Orada müxtəlif çeşidli məhsullar yetişdiriləcək və bu da əlavə ixrac potensialı deməkdir. Bu, böyük inkişafa təkan verəcək bir layihə olacaq. Əgər biz bu siyahıya tikilməkdə olan istixanaları da əlavə etsək, görərik ki, istehsal edəcəyimiz məhsulların həcmi daha böyük olacaqdır. 130 investisiya təşviqi sənədi arasında 26 istixana var. Bu 26 istixanada minlərlə iş yeri yaradılır və bu istixanalara qoyulan sərmayə 342 milyon manatdır. Bütün bunlar ixracyönümlü məhsullardır.

Mən suvarma ilə bağlı görülmüş işləri qeyd etdim. Hazırda yeni kanallar çəkilir, mövcud kanallar təmizlənir. Biz növbəti ildə də on minlərlə hektar yeni suvarılacaq torpağı fermerlərə təhvil verəcəyik. Biz buna hazırıq və beləliklə, istifadə olunmayan, münbit olmayan torpaqları əkin dövriyyəsinə cəlb edirik.

Meyvə-tərəvəz istehsalı artır. Ən çox gəlir gətirən, valyuta gətirən pomidor və xurmadır. Ən çox maraq buna var. Ona görə sahibkarlar da bunu nəzərə alsınlar. Logistika mərkəzləri yaradılmalıdır. Vaxtilə biz bir çox soyuducu anbarlar tikmişik. Ancaq bu soyuducu anbarlar əvvəlki istehsal həcminə hesablanıb. Növbəti illərdə bizə əlavə soyuducu anbarlar lazım olacaq. İqtisadiyyat Nazirliyi, Sahibkarlığa Kömək Milli Fondu, sahibkarlar özləri də bunu nəzərə alsınlar. Soyuducu anbarların potensialı bizim istehsalımızla uzlaşdırılmalıdır. Elə olmasın ki, biz istehsal etdiyimiz məhsulu saxlaya bilməyək.

Pambıqçılığın inkişafı sürətlə gedir. Bu rəqəmlər artıq bir neçə dəfə səsləndirilib, bir daha səsləndirmək istəyirəm. 2015-ci ildə 35 min ton, 2016-cı ildə 90 min ton pambıq tədarük olunub. Hesab edirəm, bu il ən azı təqribən 250 min ton pambıq tədarükü

gözlənilir. Əgər bu templə getsək, biz 3-4 ilə təqribən 400–500 min ton pambıq istehsal edəcəyik.

Üzümçülük üçün bizim gözəl təbii şəraitimiz var. Burada səsləndirildi, ötən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə üzümçülük nə qədər inkişaf edibdir. Biz indi üzümçülüyü bərpa etməliyik və bərpa edirik. Yeni üzüm bağları salınmalıdır və bizim şərab zavodlarımız da tam gücü ilə işləməlidir. Mənə verilən məlumata görə, şərab zavodlarının istehsal potensialı ildə 100 milyon butulkadır. Ancaq biz bunun təqribən 20–30 faizini istifadə edirik. Ona görə üzüm istehsalı, o cümlədən texniki üzümün istehsalı artmalıdır, şərab zavodlarımız tam gücü ilə işləməlidir və ixrac da nəzərəçarpacaq dərəcədə artmalıdır. Məndə olan məlumata görə, keçən il ixrac artıb. Ancaq əgər biz rəqəmlərə baxsaq görərik ki, konyak və şərab ixracı ölkəmizə cəmi 17,5 milyon dollar vəsait gətirib. Ona görə biz şərab və konyak məhsullarının istehsalını və ixracını ən azı 5 dəfə artıra bilərik, özü də qısa müddət ərzində. Biz buna da nail olmalıyıq. Üzümçülüyün, şərabçılığın inkişafı ilə bağlı əlavə təkliflər hazırlanacaqdır.

Tütünçülüyün böyük potensialı var. Biz bu sahəni də bərpa etməliyik. Sovet vaxtında indikindən 10 dəfə, bəlkə də ondan da çox tütün tədarük edilirdi. Bu il isə 3000 hektarda tütün əkilibdir və təqribən 3-4 min ton quru tütün tədarük ediləcəkdir. Biz bu rəqəmi qısa müddət ərzində 10 min ton səviyyəsinə qaldırmalıyıq. Buna da nail olmaq mümkündür. Pambıqçılıqda olduğu kimi, subsidiyalar verilir. Əlbəttə ki, yeni, müasir siqaret fabriklərinin tikintisi də nəzərdə tutulmalıdır. Ona görə yox ki, bizim vətəndaşlar daha çox siqaret çəksinlər, xeyr, siqaret çəkmək çox pis vərdişdir. Mən özüm siqaret çəkmirəm, heç kimə də məsləhət görmürəm. Ümid edirəm ki, Azərbaycanda siqaret çəkənlərin sayı azalacaq. Ancaq bunun ixracı çox gəlir gətirən bir sahədir və təbii şəraiti olan ölkədə tütünçülüyün inkişaf etdirilməməsi başa düşülən deyil. Ona görə biz tezliklə bu sahədə ciddi artıma nail olmalıyıq. Mən real rəqəmi

səsləndirirəm. Bir daha demək istəyirəm ki, 10 min ton quru tütün tədarükü real rəqəmdir.

Biz indi xalçaçılığı geniş təbliğ edirik. Bu bizim qədim sənətimizdir. «Azərxalça» yaradılıbdır, 13 şəhərdə yeni xalça kombinatları yaradılır. Onlardan birinin açılışında mən özüm olmuşam – Füzuli rayonunda. Qalan xalça fabrikləri bu il istifadəyə veriləcək. Bu, minlərlə iş yerinin yaradılması deməkdir və bu bizim gözəl ixrac potensialımızdır.

Yun tədarükü məsələlərinə əvvəlki illərdə o qədər də böyük diqqət göstərilmirdi. Məndə olan məlumata görə, bizim cəmi 1 fərli-başlı tədarük məntəqəmiz olub. Bütün bölgələrimizdə yun tədarükü təşkil edilməlidir. Vaxt gəlib çatıb ki, Azərbaycanda böyük Yun fabriki də yaradılsın. Bu sahəyə də çox ciddi diqqət göstərilməlidir. Bu, fermerlərə əlavə qazanc mənbəyi olacaq, ölkəyə isə valyuta gətirəcək.

Biz indi az da olsa, ət və toyuq ətinin ixracına başlamışıq. Hələ ki, biz özümüzü toyuq əti ilə təmin edə bilmirik. Ancaq ixrac da artıq başlanıb və bu, yaxşı haldır. Ümid edirəm ki, yaxın zamanlarda özümüzü tam şəkildə təmin edəcəyik və ixrac potensialı daha da artacaqdır.

Heyvandarlığın inkişafı gedir, cins mal-qara gətirilir, Süni Mayalanma Mərkəzi yaradılıb. Biz bir neçə il ərzində böyük potensial yaratmalıyıq ki, özümüzü həm süd, həm də ət məhsulları ilə tam şəkildə təmin edək. Cins mal-qaranın gətirilməsi və cinsin yaxşılaşdırılması prosesi daha da geniş vüsət almalıdır. Yeni fermalar yaradılmalıdır. Sahibkarlar buna daha böyük diqqət göstərməlidirlər. Biz süd və süd məhsulları ilə özümüzü təxminən 80 faiz səviyyəsində təmin edirik. Bir neçə il ərzində tam təmin edə bilərik.

Dünən mən Varvara balıqartırma müəssisəsinin açılışında oldum. Balıqçılığın da çox böyük perspektivləri var. Əfsuslar olsun ki, əvvəlki illərdə bu sahəyə lazımi diqqət göstərilmirdi. Bizim həm çaylarımızda, həm Xəzər dənizində bol balıq var. Biz balıqları artırırıq, yetişdiririk və Azərbaycanda çox böyük

balıqçılıq sənayesi yaradıla bilər. Bununla həm daxili bazar tam təmin edilər, həm də bunun böyük ixrac potensialı ola bilər.

Mineral sular sahəsi də inkişaf edir. Artıq ixraca da başlamışıq, ancaq az miqdarda. Bizim təbii bulaqlarımız vardır. Keyfiyyətli mineral sular istehsal və ixrac etmək, öz brendimizlə xaricə çıxmaq üçün çox gözəl imkanlar vardır. Bu sahəyə də mütləq diqqət göstərilməlidir.

Emal müəssisələri yaradılmalıdır, indi planlar haqqında məlumat verildi. Dövriyyəyə cəlb ediləcək minlərlə, on minlərlə hektar torpaq da bəllidir. Aydındır ki, orada yeni məhsullar yetişdiriləcək və yeni konserv zavodlarının yaranmasına ehtiyac vardır. İndi bizdə konserv zavodları fəaliyyət göstərir, ancaq onların sayı kifayət qədər deyil. Yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulmalıdır. Əlbəttə, ixrac edilən malların satışından sonra əldə edilən gəlir də tam şəkildə ölkəmizə gəlməlidir. Bunun üçün indi nəzarət mexanizmləri tətbiq olunur. Ona görə ki, əvvəlki illərdə, məndə olan məlumata görə, göndərilən malların dəyərinin təxminən 30 faizi ölkəmizə qayıtmırdı, orada-burada gizlədirdilər. Xaricdə müxtəlif hesablarda gizlədirdilər. Buna yol vermək olmaz. Valyuta tam şəkildə gəlməlidir və əlbəttə ki, indi yeni mexanizm işə düşüb. Əgər hansısa şirkət investisiya və ixrac təşviqini almaq istəyirsə, mütləq bu qaydalara riayət etməlidir.

Mən bir məsələyə də diqqət yetirmək istəyirəm. Çünki bunun da çox böyük əhəmiyyəti var. Bu da nəqliyyat sektoru ilə bağlıdır. Biz indi ixracı böyük dərəcədə artıracağıq. Biz ixracı nəqliyyat vasitəsilə xarici bazarlara ötürürük. Ona görə bizim vaqon parkımıza baxmalıyıq. Biz indi yeni elektrovozlar, vaqonlar alırıq. İndi vaqonların sayı, həcmi ixrac ediləcək məhsullarla üst-üstə düşməlidir. Dəmir yolunun reabilitasiyası, sürətin artırılması, bütün bunlar da ixraca, tranzitə hesablanmış məsələlərdir.

Mən bir neçə rəqəmi səsləndirmək istəyirəm, hesab edirəm ki, ictimaiyyət üçün də, sahibkarlar üçün də maraqlı olar. 2017-ci ilin birinci rübündə ən böyük artım pambıq lifinin ixracında

olubdur – 700 faizdən çox. Süd məhsullarının ixracı 260 faiz artıbdır. Meyvələr arasında ən böyük ixrac artımı almada olubdur – 144 faiz. Nar 125 faiz artıbdır. Bunlar çox yaxşı göstəricilərdir. Qalan rəqəmlər də məndə var. İqtisadiyyat naziri onları səsləndirdi, təkrar etmək istəmirəm.

2016-cı ildə bizə ən çox valyuta gətirən məhsulları qeyd etmək istəyirəm. Birinci yerdə fındıqdır – ölkəmizə 105 milyon valyuta gəlib. Fındıqçılığın inkişafı çox sürətlə gedir. Burada səsləndirildi, biz 15 min hektar yeni fındıq bağları saldıq və bu iş sürətlə gedir. O cümlədən baramaçılıq. Biz 2015-ci ildə 200 kiloqram barama tədarük etmişdiksə, keçən il bu, 70 ton olmuşdur. Bu il 100 ton olacaqdır. Fındıq bizim 19 rayonumuzda daha çox yetişdirilir, ancaq potensial 46 rayonda vardır. Hesab edirəm ki, biz fındığın istehsalını da, ixracını da 2 dəfə artıra bilərik. Biz 105 milyonu 200 milyona rahatlıqla çatdıra bilərik. Eyni zamanda, bu il badam bağlarının salınmasına başlanılıb. Bizdə onların sahəsi çox kiçikdir, cəmi 1000 hektar badam bağımız var. Onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır. Amma Bakı, Abşeron yarımadası badam üçün çox münbit məkandır. Ona görə indi yeni bağlar salınır, min hektarlarla badam bağları salınmalıdır. Mən sahibkarlara da bunu məsləhət görürəm. Həmçinin zeytunçuluq və şəkər çuğundurunun yetişdirilməsi. Biz zeytun yağı ilə özümüzü tam təmin etməliyik. Hələ ki, buna nail ola bilməmişik. İxrac edirik, ancaq daxili tələbat hələ ki, ödənilmir. Şəkər çuğunduru isə bu il çox geniş vüsət alıb. Biz şəkəri şəkər çuğundurundan emal etməliyik. Burada da çox böyük potensial var.

Deməli, birinci yerdə fındıqdır, ikinci yerdə pomidordur. Keçən il 94 milyon dollar dəyərində pomidor ixrac edilib. Üçüncü yerdə xurmadır – 68 milyon dollar, dördüncü yerdə şəkərdir – 62 milyon dollar. Amma burada biz bilməliyik ki, bu şəkərin böyük hissəsi qamış şəkərindən, xammalından istehsal olunub. Yəni şəkərin istehsalı üçün xaricdən xammal gətirilib. Biz çuğundura keçəndən sonra 62 milyonun hamısı ölkəmizdə qalacaq, yəni idxala pul ayrılmayacaq. Hesab edirəm ki, biz

şəkərin istehsalını rahatlıqla 2 dəfə artıra bilərik, ya İmişli rayonunda yerləşən zavodda, ya da geniş vüsət alarsa, yeni zavod tikilə bilər.

Beşinci yerdə pambıqdır. Pambıq keçən il bizə 24 milyon dollar valyuta gətirib. Amma bu, birinci ildir. Əminəm ki, bu rəqəm bu il bundan 2 dəfə çox olacaq. Bu 5 pozisiya üzrə ölkəmizə keçən il 350 milyon dollar valyuta gəlib. Biz ancaq bunları 2 dəfə artırmaqla, görün nə qədər böyük valyuta əldə edəcəyik.

Məndə siyahı böyükdür. Burada sənaye, ərzaq, kənd təsərrüfatı malları var. Bu gün müşavirənin ikinci hissəsində dövlət qurumlarının nümayəndələri sahibkarların suallarına cavab verəcəklər və bu məsələləri daha da geniş işıqlandıracaqlar.

Sənaye məhsulları arasında isə birinci yerdə plastik məmulatlardır – təxminən 100 milyon dollar. İkinci yerdə alüminium və ondan hazırlanan məmulatlardır – bu da 100 milyon dollara yaxındır. Biz alüminium sənayesini mütləq sürətlə inkişaf etdirməliyik. Üçüncü yerdə qara metallar və onlardan hazırlanan məmulatlardır – 96 milyon dollar. Dördüncü yerdə qiymətli metallardan hazırlanan məmulatlardır – 77 milyon dollar. Beşinci yerdə kimya sənayesi məhsullarıdır – 55 milyon dollar. Mən bu rəqəmləri nəyə görə səsləndirirəm? Ona görə ki, sahibkarlar da, ictimaiyyət də bunu bilsin, həm müsbət dinamikanı, həm də bizim potensialımızı görsünlər. İxracın inkişafı, artırılması ən əsas məsələlərdən biridir. Bir daha demək istəyirəm ki, dövlət sahibkarlar üçün hər şey edir. Dövlət infrastruktur yaradıb, kreditlər, subsidiyalar verir, fermerləri vergilərdən azad edib, aqrolizinq yaradıb, texnika alıb gətirir və paylayır. Gübrəni 70 faiz güzəştlə paylayır, yanacaq da həmçinin. Ticarət evləri yaradır, ixrac missiyaları, sərgilər təşkil edir. «Azexport» portalı, «Made in Azerbaijan» brendi, investisiya və ixrac təşviqi yaradılıb. Bundan sonra sahibkarlara ancaq bunlardan istifadə etmək və öz imkanlarını genişləndirmək, ölkəmizə daha böyük fayda gətirmək qalır. Sağ olun.

# BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*18 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Bolqarıstan Respublikasının sabiq prezidenti Rosen Plevnelievi qəbul etmişdir.*

*Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliev Azərbay-cana gəlişindən həmişə olduğu kimi, böyük məmnunluq hissi keçirdiyini bildirdi. Azərbaycan Respublikasının Prezidenti ilə görüşlərinə toxunan Rosen Plevneliev prezident İlham Əliyevlə ölkələrimiz arasında strateji tərəfdaşlığa dair sənədi imzalamasını xüsusilə vurğuladı. Rosen Plevneliev prezident İlham Əliyevin uzaqgörən siyasətinin «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi işinə töhfə verdiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev özünün Bolqarıstana səfərini, Bolqarıstan Prezidenti ilə görüşlərini xatırladaraq, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı və bundan sonra da səmərəli əməkdaşlığın həyata keçiriləcəyinə əminliyini ifadə etdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Belçikaya səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev bu səfər çərçivəsində səmərəli görüşlərin keçirildiyini və müzakirələrin aparıldığını qeyd etdi. Səfər zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişə start verildiyini deyən dövlətimizin başçısı həmin sazişin əməkdaşlığımızın daha da inkişaf etdirilməsində mühüm addım olduğunu vurğuladı, bu istiqamətdə işlərin fəal şəkildə davam etdiriləcəyinə və vaxtında yekunlaşdırılacağına ümidvar olduğunu bildirdi. Tərəflər arasında sazişlə bağlı ümumi anlaşmanın mövcud olduğunu qeyd edən prezident İlham Əliyev işlərin yekunlaşmasının danışıqlar prosesinin gedişindən asılı olacağını vurğuladı. Azərbaycan ilə Avropa İttifaqı arasında uzun illərdir yaxşı tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini, Avropa İttifaqının bir sıra ölkələri ilə sazişlər və memorandumlar imzalanmaq təcrübəsinin olduğunu qeyd etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, təmas xəttində vəziyyət, münaqişənin həlli ilə bağlı gedən danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «XX ƏSRDƏ TÜRK-MÜSƏLMAN XALQLARINA QARŞI SOYQIRIMLARI» MÖVZUSUNDA KEÇİRİLƏN IV BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi soyqırımı problemlərinə dair Azərbaycanda keçirilən növbəti elmi konfransda səmimi-qəlbdən salamlayıram.

Mürəkkəb geosiyasi proseslərin getdiyi indiki vaxtda sülh və sabitliyin təmin olunması tərəqqipərvər bəşəriyyəti narahat edən ən mühüm məsələlərdən biridir. Təəssüflə qeyd etməliyik ki, dünyada dinc birgəyaşayış normalarının pozul-masına rəvac verən ksenofobiya, ekstremizm, dini ayrı-seçkilik və terrorizm kimi hallar getdikcə artır. Qlobal təhlükəsizliyə zərbə vuran bu cür qorxulu meyillər hərbi toqquşmaların yaranmasına, mədəniyyət abidələrinin dağıdılmasına, günahsız insanların kütləvi şəkildə qətlə yetirilməsinə və mənəvi aşınmaya səbəb olur.

Konfransın keçirildiyi Lənkəran şəhərinin sakinləri də ölkəmizin digər regionlarında olduğu kimi, hələ 1918–1919-cu illərdə erməni-daşnak quldur dəstələrinin törətdiyi qırğınların ağrı-acısını öz üzərində yaxından hiss etmişlər. Tarixin çətin sınaqlarından mətanətlə çıxaraq, Azərbaycan dövlətinə sədaqəti, xalqımızın milli-mənəvi dəyərlərinə bağlılığı ilə həmişə qürur duyan cənub bölgəsindəki vətəndaşlarımız respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə fəal iştirak etmiş, bu yolda çoxsaylı şəhidlər vermişlər.

Zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə malik olan Azərbaycan dünyada sülhün və təhlükəsizliyin carçısı kimi çıxış edir, irqi, milli və dini ayrı-seçkiliyə qarşı prinsipial mövqe tutur. Deportasiya, etnik təmizləmə və kütləvi

qırğınların sarsıntılarını tarixi yaddaşında yaşadan xalqımız bu ilin fevral ayında müasir dövrün ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 25-ci ildönümünü dərin hüznlə qeyd etdi. Şübhə yoxdur ki, soyqırımında birbaşa əli olan şəxslərin hələ də beynəlxalq hüquqi normalara uyğun olaraq layiqli şəkildə cəzalandırılmaması onları yeni qanlı əməllərə, hərbi təcavüzkarlıq niyyətlərini davam etdirməyə şirnikləndirir. Buna görə də insanlıq əleyhinə cinayətlərə obyektiv hüquqi-siyasi qiymətin verilməsinə, günahkarların ədalət məhkəməsi önünə çıxarılmasına nail olmaq üçün tarixi gerçəkliyin geniş elmi araşdırılması və nəticələrin dünya ictimaiyyətinə çatdırılması olduqca vacibdir. İnanıram ki, bu mötəbər toplantıdakı müzakirələr əvvəlki elmi məclislərdə olduğu kimi, acı həqiqətlərin müfəssəl şəkildə işıqlandırılmasına və soyqırımı törədənlərin tarix qarşısında mühakimə olunmasına öz töhfəsini verəcəkdir. Bu şərəfli və məsuliyyətli işinizdə sizə yeni nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 aprel 2017-ci il*

## BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLÜMJİNOV İLƏ GÖRÜŞ

*21 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinovu qəbul etmişdir.*

*Beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan «Shamkir Chess 2017» superturnirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov bildirdi ki, belə mötəbər turnirin keçirilməsi həm Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfəsini verir, həm də regional turizmin inkişaf etdirilməsi baxımından önəmlidir. O, dünyada xeyli sayda insanın bu tədbirə böyük maraq göstərdiyini bildirdi.*

*«Shamkir Chess 2017» superturnirin əhəmiyyətinə toxunan dövlətimizin başçısı onun artıq ənənəvi bir tədbirə çevrildiyini, şəxsən Kirsan İlümjinovun və dünyanın aparıcı şahmatçılarının bu turnirdə iştirakını tədbirin səviyyəsinin daha da yüksəlməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev belə mötəbər beynəlxalq tədbirlərin təkcə Bakıda deyil, Azərbaycanın regionlarında da keçirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı ümumilikdə Azərbaycanın regionlarının inkişaf etdirilməsi və lazımi infrastrukturun yaradılması baxımından ölkəmizdə böyük işlərin görüldüyünü vurğuladı.*

*Söhbət zamanı Azərbaycanda dövlət səviyyəsində idmana böyük qayğı göstərildiyi bildirildi və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ HAYNTZ FİŞER İLƏ GÖRÜŞ

*22 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Avstriya Respublikasının sabiq prezidenti Hayntz Fişeri qəbul etmişdir.*

*Prezident İlham Əliyev Avstriyaya, Hayntz Fişer isə Azərbaycana qarşılıqlı səfərlərini məmnunluqla xatırlatdılar. Dövlətimizin başçısı İlham Əliyev və sabiq prezident Hayntz Fişer ən yüksək səviyyədə əldə olunmuş sazişlərin uğurla həyata keçirildiyini qeyd etdilər.*

*Söhbət zamanı bugünkü görüşün ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığı vurğulandı, bu illər ərzində Azərbaycan ilə Avstriya arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etdiyi məmnunluqla qeyd olundu.*

*Görüşdə, həmçinin Avstriyanın ATƏT-də sədrliyinin prioritetləri ətrafında məsələlər müzakirə edildi.*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2017-ci il*

**NİDERLAND KRALI ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA**

Əlahəzrət!

Niderland Krallığının milli bayramı – Kral Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

50 yaşınızın tamam olduğu belə bir xoş gündə Sizə bu əlamətdar yubileyiniz münasibətilə ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Niderland xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2017-ci il*

## YAPONİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ TERUYUKİ KATORİ İLƏ GÖRÜŞ

*25 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Teruyuki Katorinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Teruyuki Katori Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Teruyuki Katori etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu və əməkdaşlığımızın geniş sahələri əhatə etdiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan tərəfi dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi və genişləndirilməsində maraqlıdır. İqtisadi əlaqələrimizin də yüksək səviyyəsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu əməkdaşlığın enerji, bank sektoru və digər sahələri əhatə etdiyini nəzərə çatdırdı və Yaponiya hökumətinin dəstəyi ilə bir çox mühüm layihələrin həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev Yaponiya şirkətlərinin Azərbaycanda investor və kontraktor qismində fəaliyyət göstərməsi üçün yaxşı şəraitin mövcud olduğunu dedi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, səfir Teruyuki Katorinin ölkəmizdəki fəaliyyəti dövründə ikitərəfli münasibətlərimiz bundan sonra da uğurla inkişaf edəcək.*

*Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Teruyuki Katori Yaponiya imperatoru əlahəzrət*

*Akihitonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ikitərəfli münasibətlərimizin çox yaxşı səviyyədə olduğunu bildirdi. Azərbaycan ilə Yaponiya arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd edən səfir Teruyuki Katori əlaqələrimizin daha da genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Görüşdə Yaponiya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunuldu, ölkələrimiz arasında müasir texnologiyalar, neft və kimya, əczaçılıq, ağır sənaye, turizm, kənd təsərrüfatı, ticarət sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Yaponiyaya səfəri zamanı impera-tor əlahəzrət Akihito ilə görüşünü məmnunluqla xatırladaraq, onun da salamlarını Yaponiya İmperatoruna çatdırmağı xahiş etdi.*

## BİBİHEYBƏT MƏDƏNİNİN ƏRAZİSİNDƏ DÜNYADA SƏNAYE ÜSULU İLƏ QAZILMIŞ İLK QUYUNUN BƏRPADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*26 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da SOCAR-ın Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, XIX əsrdə burada «Nobel qardaşları neft hasilatı şirkəti»nə məxsus neft və neft məhsullarının daşınması üçün ağcaqayın ağacından hazırlanmış faner borunun bir hissəsi, həmçinin həmin şirkətin sifarişinə əsasən Bakıya gətirilmiş quyuüstü avadanlıqlar da nümayiş olunur. Hələ qədim dövrlərdən Azərbaycan dünyada neftin vətəni sayılırdı. Bakının neft mədənlərində quyular bir qayda olaraq əl ilə qazılırdı. XIX əsrin əvvəllərindən etibarən neft quyularının daha mütərəqqi üsullarla qazılması istiqamətində araşdırmalara başlanıldı. XIX əsrin 40-cı illərində daha mütərəqqi üsullarla quyular qazmaq və neft hasilatını artırmaq üçün yollar axtarılırdı. Tarixi mənbələr və son illərdə Rusiyanın Mərkəzi Dövlət Tarix Arxivindən tapılmış sənədlər dünyada sənaye üsulu ilə neft quyusunun qazılmasına Bibiheybətdə başlanıldığını bir daha sübut edir. Belə sənədlərdən biri Zaqafqaziya Vilayəti Baş İdarəsinin Şura üzvü, Dövlət müşaviri Vasili Semyonovun bu vilayətin Baş komandanı general Aleksandr Neydqarta yazdığı 1844-cü il 22 dekabr tarixli məktubdur. Məktubda Semyonov Abşeron yarımadasındakı neft mədənlərini ətraflı təsvir edir, hasilatın artırılması üçün konkret texniki və təşkilati təkliflər*

*verir. Semyonovun məktubuna müsbət rəy verildikdən sonra 1845-ci ilin aprelində Maliyyə naziri Fyodor Vronçenkonun göstərişi ilə «Kaspi Xəzinə Palatası» tərəfindən qazma işlərinə 1000 gümüş sikkə ayrılır və Bibiheybət rayonunda kəşfiyyat quyusunun qazılması haqqında tapşırıq verilir. 1846-cı ilin yanvarında Bakı neft və duz mədənlərinin direktoru, dağ mühəndisləri korpusunun zabiti Nikolay Voskoboynikovun rəhbərliyi ilə Bibiheybət yatağında 2 quyunun qazılmasına başlanılır. Quyulardan biri 21 metr dərinlikdən neft verir və bununla da dünyada sənaye üsulu ilə neft hasilatının əsası qoyulur. 1847-ci il 8–14 iyul tarixlərində Qafqaz canişini knyaz Mixail Vorontsovun imzaladığı hesabatlarda da dünyada ilk neft quyusunun Xəzər dənizinin sahilində qazılması faktı təsdiq olunur. Neftçıxarma işində əldə olunmuş inqilabi yeniliklər XIX əsrin 50-ci illərində Abşeronda hasilatın yüksəlməsinə, emal sənayesinin yaranmasına böyük təkan verir. Mexaniki üsulla quyu qazılması texnikasının və texnologiyasının inkişafı sayəsində Bakıda bir sıra yeni neft yataqları istismara verilir, quyular qazılır, hasilat artırılır, neft sənayesi infrastrukturu inkişaf etdirilir. 1899–1901-ci illərdə 11,5 milyon ton neft hasil edən Bakı neft sənayesi dünyada birinci yeri tuturdu. Müqayisə üçün deyək ki, 1859-cu ildə sənaye üsulu ilə neft quyularının qazılmasına başlanılmış Amerika Birləşmiş Ştatlarında bu göstərici o zaman 9,1 milyon ton təşkil edirdi.*

*Dövlətimizin başçısı burada quraşdırılan xüsusi interaktiv köşkə baxdı.*

*Bildirildi ki, bu köşk vasitəsilə Azərbaycanın neft tarixi, o cümlədən sənaye üsulu ilə qazılmış ilk quyu barədə ətraflı məlumat almaq mümkündür. İnteraktiv köşkə, eyni zamanda, ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdikləri neft strategiyası haqqında məlumat, Azərbaycanın neft sənayesi ilə bağlı tarixi foto və videolar da yerləşdirilib.*

*Prezident İlham Əliyev neftçilərlə söhbət etdi.*

**X o ş b ə x t  Y u s i f z a d ə** *(SOCAR-ın birinci vitse-prezidenti)*: Bu il bizim 2 milyard ton hasilatımız olacaq. 1971-ci il martın 28-də neft hasilatı 1 milyard ton olub. Həmin il aprelin 2-də Moskvada XXIV qurultay keçirilirdi. Orada ümummilli lider Heydər Əliyev çıxış edib, demişdi ki, Azərbaycan neftçiləri 1 milyard ton neft çıxarıblar. Sonra Azərbaycana gəlib, aprelin 21-də Bakıda müşavirə keçirdi. O müşavirədə SSRİ-nin Neft Sənayesi naziri Valentin Şaşin də, mən də iştirak edirdik. Cənab Heydər Əliyev Azərbaycan neftçilərini təbrik etdi. Deməli, neftçilərimiz 1 milyardıncı ton nefti cənab Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə hasil ediblər. İki milyardıncı ton neft isə Sizin hakimiyyətiniz dövründə hasil olunacaq. İndiyədək 1 milyard 971 milyon ton neft çıxarılıb. 1 milyard ton dənizdən, 971 milyon ton qurudan.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı.

**X o ş b ə x t  Y u s i f z a d ə:** O vaxt cənab Heydər Əliyev çıxışında demişdi ki, kiçik bir respublikanın qocaman neft sənayesinin tarixində 1 milyard ton neft çıxarılıb.

**İ l h a m  Ə l i y e v:** Biz də gərək bunu qeyd edək.

**X o ş b ə x t  Y u s i f z a d ə:** İndi həmin respublika neft hasilatını 2 milyard tona çatdıracaq. Neftçilərimiz həm də 700 milyard kubmetr qaz hasil ediblər.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. Bu, yaxşı hadisə olacaq, biz də onu qeyd edəcəyik. Bu quyunun burada aşkarlanması da artıq tarixdir.

**X o ş b ə x t  Y u s i f z a d ə:** Bəli, tarixdir. Bu barədə film çəkməyə gəlmişdilər. Mən dedim ki, burada ilk quyu 1847-ci ildə qazılıb. Mənə dedilər ki, sənədin var? Yoxdur, burada hamımız bir-birimizdən eşitmişik. Onda komissiya sənədlərin hamısını qaldırdı.

**R ö v n ə q  A b d u l l a y e v:** Cənab Prezident, arxivlərdə bütün sənədlər qaldırıldı.

**İ l h a m  Ə l i y e v:** Bunlar arxiv sənədləridir?

**R ö v n ə q  A b d u l l a y e v:** Bəli, arxiv sənədləridir.

**İ l h a m  Ə l i y e v:** Biz gərək bunu dünyada yaxşı təbliğ edək. Çünki mən dəfələrlə demişəm ki, sənaye üsulu ilə ilk neft Azərbaycanda çıxarılıb, ancaq onun yeri dəqiq bilin-mirdi. Ona görə mən tapşırıq verdim ki, o yer müəyyən olunsun. Əlbəttə ki, biz bilirdik, bu, Bibiheybət ərazisində olubdur, ancaq indi onun yeri də dəqiqləşdi və gözəl bir abidə yaradıldı. Hesab edirəm ki, bu həm neftçilər, həm də ölkəmizə gələn turistlər üçün çox gözəl hadisədir.

Neftin vətəni Azərbaycandır, neft sənayesi buradan başlanıb. Bu gün – artıq 200 ilə yaxın vaxt keçəndən sonra da Azərbaycan dünyada neft ölkəsi, qaz ölkəsi kimi, öz sözünü deyir. Bu gün bizim neftimiz xalqımıza məxsusdur. O vaxt biz Çar Rusiyasının tərkibində idik və buradan çıxarılan təbii ehtiyatlar xalqımızın güzəranına o qədər də təsir etmirdi. Kasıbçılıq, səfalət idi. Azərbaycan xalqı böyük bir sərvətin sahibi idi, ancaq özü bu sərvətdən istifadə edə bilmirdi. Sovet dövründə də Azərbaycan neft respublikası kimi özünü göstərmişdir. İkinci dünya müharibəsi dövründə Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam başqa cür ola bilərdi. Azərbaycan neftçiləri faşizm üzərində Qələbədə həlledici rol oynayıblar. Biz bu il 2 milyard ton neftin hasil olunmasını qeyd edəcəyik. Təsəvvür edin, əgər Azərbaycan o illərdə müstəqil ölkə olsaydı, indi dünyanın ən zəngin ölkələrindən biri olacaqdı.

Bu gün bizim neftimiz xalqımıza xidmət edir, dövlətimizi gücləndirir. Bax, bütün bu ərazi hələ də neft buruqları ilə doludur və birinci quyu da burada qazılmışdır. Bu ərazinin fotoşəkilləri, videogörüntüləri var. Onlar yaxın tarixin görüntüləridir. Bura ekoloji fəlakət zonası idi. Hər tərəfdə neft gölməçələri, köhnə buruqlar var idi, ərazi neftlə çirklənmişdi. İndi bu ərazi şəhərimizin ən abad yerlərindən birinə çevrilibdir. Yəni biz neftdən gələn gəliri ölkəmizin inkişafına yönəltdik, insan kapitalına, infrastruktur layihələrinə qoyduq və bu gün neft Azərbaycan xalqının inkişafını təmin edir. Bax, müstəqillik budur və 25 il müstəqil dövlət kimi yaşayan Azərbaycan bu gün ayaqda möhkəm dayanır. Neft bizim təbii sərvətimizdir,

xalqımızın böyük sərvətidir, biz də ondan istifadə edib ölkəmizi inkişaf etdiririk. Əlbəttə, neftçilərin də burada əməyi xüsusi qiymətə layiqdir. Mən həmişə neftçilərin əməyini, onların cəsarətini qiymətləndirirəm. Onlar ağır şəraitdə çalışırlar, ölkəmizin inkişafı üçün işləyirlər. Çalışırlar ki, öz əməyi ilə ölkəmizi gücləndirsinlər.

Bugünkü hadisə də tarixi hadisədir. Biz artıq o tarixi həqiqəti, bax, burada əyani şəkildə bütün dünyaya nümayiş etdiririk. Əminəm ki, şəhərimizə gələn bütün qonaqlar çox böyük maraqla buraya gəlib, bax, bu buruğun önündə şəkil çəkdirəcəklər. Sizi təbrik edirəm.

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏBDÜLƏZİZ ƏL-FALİHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Səudiyyə Ərəbistanı Krallığının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid Əbdüləziz əl-Falihin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərini və bu səfər zamanı İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud və digər rəhbər şəxslərlə səmərəli görüşlərini məmnunluqla xatırlatdı. Nazir Xalid Əbdüləziz əl-Falih ilə bu il Davosda keçirdikləri görüşü də xatırladan dövlətimizin başçısı onun ölkəmizə səfərinin Azərbaycanla daha yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını bildirdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu deyən prezident İlham Əliyev əlaqələrimizin getdikcə daha da möhkəmləndiyini vurğuladı, mövcud əməkdaşlığımızın davam etdirilməsinin vacibliyini qeyd etdi. Dövlətimizin başçısı ölkəmizin ikitərəfli əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsində maraqlı olduğunu dedi. Siyasi əlaqələrimizin çox yüksək səviyyədə olduğunu bildirən prezident İlham Əliyev bu imkandan istifadə edərək, ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan əməkdaşlığın inkişaf etdirilməsinin, qarşılıqlı ticarət və qarşılıqlı ixracın artırılmasının zəruriliyini vurğuladı. Enerji ehtiyatlarının işlənilməsi, neft və qazın emalı, neft-kimya sahəsində əməkdaşlığımızın əhəmiyyətini qeyd edən dövlətimizin başçısı*

*bu sahələrdə Azərbaycanın əldə etdiyi uğurlardan danışdı, dünyada sənaye üsulu ilə ilk neft quyusunun məhz Azərbaycanda qazıldığını, ölkələrimizin bu sahədə zəngin təcrübəsinin olduğunu bildirdi. Prezident İlham Əliyev nümayəndə heyətinin sabah Səngəçal terminalı və buradakı layihələrin bir qismi ilə tanışlığının önəmini qeyd etdi, Xalid Əbdüləziz əl-Falihin Azərbaycana səfərinin enerji sahəsində əməkdaşlığımızın inkişafında yeni dinamika yaradacağına ümidvar olduğunu bildirdi.*

*Səudiyyə Ərəbistanı Krallığının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid Əbdüləziz əl-Falih İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun, Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazirin müavini, Daxili İşlər naziri əlahəzrət Məhəmməd bin Nayif bin Əbdüləziz əl-Səudun və Səudiyyə Ərəbistanı Krallığı vəliəhdinin varisi, Baş nazirin ikinci müavini, Müdafiə naziri Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını prezident İlham Əliyevə çatdırdı, Səudiyyə Ərəbistanı xalqının prezident İlham Əliyevə, Azərbaycan hökuməti və xalqına ehtiramını ifadə etdi. Qonaq bildirdi ki, o, Azərbaycan kimi gözəl bir ölkəyə səfər etməsindən məmnunluq duyur. Xalid Əbdüləziz əl-Falih ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərin və qədim köklərə malik olduğunu, mədəni əməkdaşlığımızın uzun əsrlərdən bəri davam etdiyini vurğuladı, bu əməkdaşlığımızın prezident İlham Əliyevin rəhbərliyi altında daha da genişləndirildiyini qeyd etdi. Səudiyyə Ərəbistanı Krallığının Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu vurğulayan Xalid Əbdüləziz əl-Falih ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd edilməsindən məmnunluğunu ifadə etdi. O, Səudiyyə Ərəbistanının Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini, ötən illər ərzində ölkələrimizin möhkəm əməkdaşlıq əlaqələri qurduğunu və bir-birini hər zaman dəstəklədiklərini qeyd etdi.*

*Dövlətimizin başçısı İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun, vəliəhd əlahəzrət Məhəmməd bin Nayif bin Əbdüləziz Al Səudun*

*və vəliəhdin varisi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralına, Krallığın Vəliəhdinə və Vəliəhdin varisinə çatdırmağı xahiş etdi.*

*Səudiyyə Ərəbistanı Krallığının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid Əbdüləziz əl-Falih Kəbənin üz örtüyünün tərtibatının bir fraqmentini prezident İlham Əliyevə hədiyyə etdi.*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB REUVEN RİVLİNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsrail xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 aprel 2017-ci il*

## SUMQAYIT KARBAMİD ZAVODUNUN TİKİNTİSİNDƏ İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Sumqayıtda inşa olunan Karbamid zavodunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Karbamid zavodunun direktoru Xəyal Cəfərov və «Samsung Engineering» şirkəti tərəfindən layihənin rəhbəri Hansu Kim dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdilər.*

*Qeyd edək ki, Karbamid zavodu layihəsi prezident İlham Əliyevin 2008-ci ilin avqustunda imzaladığı sərəncamla təsdiq edilmiş «2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na və 2014-cü ilin dekabrında imzaladığı sərən-camla təsdiq edilmiş «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı»na əsasən icra edilir. Bu zavodun təməli 2011-ci ilin dekabrında dövlətimizin başçısı tərəfindən qoyulub. Karbamid zavodunun tikintisi ilə əlaqədar 2011-ci ildə beynəlxalq açıq tender elan edilib və tenderin nəticələrinə əsasən 2012-ci ildə Koreya Respublikasının «Samsung Engineering Co. Ltd.» şirkəti mühəndislik, satınalma və tikinti üzrə podratçı seçilib. Layihənin ammonyak və karbamid istehsalı üzrə lisenziyaları qismində müvafiq olaraq Danimarkanın və Niderlandın şirkətləri çıxış edir. Həmçinin layihənin idarə edilməsi və müstəqil təftiş xidmətlərinin həyata keçirilməsi məqsədilə 2015-ci ildə beynəlxalq*

*açıq tender vasitəsilə seçilmiş Finlandiya şirkəti ilə müvafiq müqavilə imzalanıbdır.*

*Dövlətimizin başçısına Sumqayıt sənaye zonasının perspektiv inkişafı ilə əlaqədar qaz təchizatı sisteminin yaradıl-ması haqqında da məlumat verildi.*

*Sonra prezident İlham Əliyev ayrı-ayrı inşaat sahələrini gəzdi, görülən işlərlə yaxından tanış oldu.*

*Zavodun tikintisinin bu ilin sonunda yekunlaşması nəzərdə tutulur. Ümumilikdə müəssisənin istismara verilməsi isə gələn ilə planlaşdırılır. Ümumi ərazisi 40 hektara yaxın olan zavod ammonyak, karbamid istehsalı və karbamidin qranulyasiyası sahələrindən ibarət olacaqdır. Azot gübrələrinin istehsalı üçün əsas xammal qismində təbii qazdan istifadə ediləcəkdir. İstehsal üçün illik qaz sərfiyyatının gündəlik 1,32 milyon kubmetr, ümumilikdə isə 435 milyon kubmetr olması gözlənilir. Zavod gündəlik 1200 ton ammonyak və 2000 ton karbamid istehsal edəcək. Layihənin icra edilməsi iqtisadiyyatın əsas sektorlarından biri olan kənd təsərrüfatına böyük dəstək verəcəkdir. Zavodda il ərzində təxminən 650-660 min ton karbamid istehsal ediləcək ki, bu da daxili tələbatı tam ödəyəcəkdir. Bununla yanaşı, məhsulun dəmir yolu ilə Türkiyə, habelə Qara dəniz limanları vasitəsilə dünya bazarlarına ixracı nəzərdə tutulur. Layihənin «Samsung Engineering» şirkətinin iş həcminə daxil olan hissəsinin təxminən 95 faizi icra edilib. Əsaslı layihələndirmə, mühəndislik və satınalma işləri 100 faiz tamamlanıb, tikinti işlərinin isə təxminən 82 faizi icra edilibdir. Zavodun qaz, elektrik enerjisi, texniki və içməli su təchizatı, kanalizasiya sistemi, həmçinin telekommunikasiya xətlərinin quraşdırılması, inzibati və digər binaların, o cümlədən emalatxana və anbarların inşası, dəmir yolu və avtomobil yollarının tikintisi üzrə də işlər gedir. Layihənin icrasında təxminən 3200 nəfər çalışır ki, onların da 3100-ü Azərbaycan vətəndaşıdır. Zavod işə düşəndən sonra burada 350–400 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır. Layihənin ümumi dəyəri təxminən 750 milyon avro təşkil edir.*

*Belə müəssisənin yaradılması ilk növbədə, Azərbaycan iqtisadiyyatını daha da möhkəmləndirir, ölkəmizin ixrac qabiliyyətini artırır, qeyri-neft sektorunun inkişafına təkan verir. Bundan başqa, belə layihələrin icrası həm də yeni iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyətə malikdir.*

*Zavodda tikinti işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## QƏTƏR DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ VƏ SABİQ XARİCİ İŞLƏR NAZİRİ ŞEYX HƏMƏD BİN CASİM BİN CABİR ƏL-TANİ İLƏ GÖRÜŞ

*29 aprel 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Qətər Dövlətinin sabiq Baş naziri və sabiq Xarici İşlər naziri Şeyx Həməd bin Casim bin Cabir əl-Tanini qəbul etmişdir.*

*Həməd bin Casim bin Cabir əl-Tani Azərbaycana səfərindən keçən 10 il ərzində ölkəmizdə inanılmaz dərəcədə böyük dəyişikliklərin şahidi olduğunu dedi və paytaxtımızda aparılan çox böyük abadlıq və inkişaf proseslərinə valeh olduğunu bildirdi. Həməd bin Casim bin Cabir əl-Tani Qətərdən və ölkəsinin yerləşdiyi regiondan Azərbaycana artıq çoxsaylı turistlərin gəlməsini məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev son illər Azərbaycanda gedən inkişaf-quruculuq işlərinə toxundu, insanların rahat yaşayışı üçün böyük həcmdə investisiyanın yatırıldığını dedi. Dövlətimizin başçısı Azərbaycanda, o cümlədən Bakı şəhərində həyata keçirilən genişmiqyaslı işlərdən danışdı.*

*Görüş zamanı ölkələrimiz arasında hava nəqliyyatı, turizm, kənd təsərrüfatı, enerji, neft-kimya, birgə sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycan–Qətər ikitərəfli əlaqələrinin genişləndirilməsinin önəmi qeyd olundu.*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Oş vilayətində baş vermiş torpaq sürüşməsi nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qırğızıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2017-ci il*

**ALBANİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLİR METAYA**

Hörmətli cənab Meta!

Albaniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Albaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 may 2017-ci il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ANDJEY DUDAYA**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Polşa münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Strateji tərəfdaş olan ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin genişləndirilməsi üçün böyük imkanlar mövcuddur.

Ümidvaram ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Polşa xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 may 2017-ci il*

## BAKI ALİ NEFT MƏKTƏBİNİN YENİ ŞƏHƏRCİYİNİN AÇILIŞI MƏRASİMİ

*1 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Bakının Səbail rayonunun Bibiheybət qəsəbəsində inşa olunmuş SOCAR-ın Bakı Ali Neft Məktəbinin yeni şəhərciyinin açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev yeni şəhərcikdə görülən işləri əks etdirən stendlərlə tanış oldu.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdilər. Bildirildi ki, 7 hektar ərazisi olan kampusun tikintisinə 2012-ci ildə başlanılıb və tədris üçün tam hazır vəziyyətə gətirilib. Təhsil kompleksi xüsusi dizaynla yüksək standartlar səviyyəsində, dünyanın tanınmış universitetlərinin təcrübəsinə əsaslanaraq, ən son texnoloji nailiyyətlərlə inşa olunub. Bakı Ali Neft Məktəbinin şəhərciyi əsas tədris korpusunu, kitabxana kompleksini, kütləvi tədbirlər üçün akt zalını, idarəetmə bölmələrinin yerləşdiyi binanı, yeməkxananı, uşaq bağçasını, ən müasir tələblərə cavab verən və qapalı idman zallarından, qapalı üzgüçülük hovuzundan, açıq tennis, voleybol, basketbol meydançalarından və stadiondan ibarət idman və 400 nəfərlik yataqxana kompleksini birləşdirir.*

*Prezident İlham Əliyev şəhərciyin açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı əsas şəhərcikdə yaradılan şəraitlə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin və prezident İlham Əliyevin təhsilə qayğılarını əks etdirən fotoguşə yaradılıb. Şəhərcikdəki 600 yerlik akt zalı küt-*

*lәvi-mәdәni tәdbirlәrin yüksәk sәviyyәdә tәşkili üçün modern tәlәblәrә cavab verәn infrastruktura malikdir. Əsas korpusdakı tәdris binasında istismara verilәn mühazirә zalları vә mәşğәlә otaqları әn müasir avadanlıqlarla, o cümlәdәn multimedia vasitәlәri, internetlә tәchiz olunub. Tәhsil ocağının kitabxanasında 100 nәfәrlik oxu vә dövri mәtbuat zalı, 40 nәfәrlik kompüter zalı, tәlim otaqları vә elektron kitab verilişi zonası yaradılıb. Tәdris laboratoriyalarındakı cihaz vә avadanlıqlar Almaniyanın «GUNT» vә «Lukas Nulle» şirkәtlәrinin istehsalıdır. Tәlәbәlәr onların vasitәsilә tәdris olunan fәnlәr üzrә tәdqiqat işlәrini yerinә yetirәrәk, hesabatlar hazırlayırlar.*

*Bildirildi ki, Azәrbaycanda fәaliyyәt göstәrәn transmilli şirkәtlәrin bir çoxunun imkanları mütәxәssis hazırlığına cәlb edilib. Belә ki, «ABB» şirkәti kampusda inteqrasiya edilmiş idarәetmә vә tәhlükәsizlik laboratoriyasını, «Schneider Electric» şirkәti qәza hallarının idarәedilmәsi vә avtomatlaşdırılması laboratoriyasını, «AVANDSİS GROUP» vә «Schneider Electric» şirkәtlәri birlikdә avtomatik sistemlәrin elementlәrini vә proqram tәminatını, «Emerson process management» şirkәti isә nәzarәt-ölçmә vә idarәetmә laboratoriyasını Bakı Ali Neft Mәktәbinә hәdiyyә edibdir. Bundan başqa, neft-qaz mühәndisliyi, kimya vә proseslәrin avtomatlaşdırılması mühәndisliyi kafedralarının әrazisindә laboratoriya işlәrinin yerinә yetirilmәsi üçün müasir avadanlıqlar, qurğular yerlәşdirilib, bәrpaolunan enerji mühәndisliyi vә elmi-tәdqiqat laboratoriyaları istismara verilibdir.*

*Qeyd edәk ki, Bakı Ali Neft Mәktәbi prezident İlham Əliyevin fәrmanı ilә 2011-ci ildә SOCAR-ın strukturunda yaradılıbdır. Bu ali tәhsil ocağının yaradılmasında mәqsәd fәaliyyәtini xaricdә genişlәndirәn SOCAR-ın, elәcә dә ölkәnin digәr sәnaye sahәlәrinin müasir tәdris proqramları vә tәlim texnologiyaları әsasında tәhsil almış ingilisdilli mütәxәssislәrә olan ehtiyacını ödәmәkdir. Bu mәqsәdә çatmaq üçün, ilk növbәdә, Bakı Ali Neft Mәktәbindә müasir tәlәblәrә cavab verәn tәhsil infrastrukturu yaradılıb, tәdris prosesinә yüksәkixtisaslı professor-müәllim*

*heyəti cəlb olunub, tədrisə dəstək məqsədilə zəngin kitabxana informasiya fondu qurulubdur. Bundan başqa, orta məktəblərin və liseylərin məzunları olan, test imtahanlarında ən yüksək bal toplamış abituriyentlər tədris prosesinə cəlb edilib. Bununla da Bakı Ali Neft Məktəbi yüksək nüfuzlu ali təhsil müəssisəsindən birinə çevrilib. İndi bu təhsil ocağının tələbələri transmilli, beynəlxalq neft-qaz şirkətlərində, o cümlədən SOCAR-ın müəssisələrində istehsalat təcrübəsi keçirlər. Bu da onların gələcəkdə beynəlxalq standartlara uyğun kadrlar kimi yetişməsinə imkan yaradır. Tədris prosesini müasir tələblərə uyğun təşkil etmək üçün yüksəkixtisaslı ingilisdilli yerli və əcnəbi mütəxəssislər kafedraların fəaliyyətinə cəlb olunub. İdarəetmə bölmələrinin ştatları əsasən xarici ölkələrdə ingilis dilində təhsil almış mütəxəssislər hesabına formalaşdırılıb. SOCAR-ın dəstəyi hesabına təhsilin ödənişsiz olması və tədris prosesinin istehsalatla sıx əlaqədə həyata keçirilməsi perspektivləri ilk gündən Bakı Ali Neft Məktəbini abituriyentlər və valideynlər üçün cəlbedici edib. 2012–2016-cı illərdə keçirilən qəbul imtahanlarının nəticələrinə görə yüksək bal toplayan abituriyentlər Bakı Ali Neft Məktəbinin ixtisaslarını seçiblər. Bu illərdə qəbul olan abituriyentlərdən 76-sı Prezident təqaüdünə layiq görülüb. Tədrisin birinci ilində tələbələrə ingilis dili və İKT üzrə yüksək biliklər verilir, sonrakı illərdə peşə və ixtisas fənləri öyrədilir. 2012/2013-cü tədris ilindən Bakı Ali Neft Məktəbinə «Neft-qaz mühəndisliyi» və «Kimya mühəndisliyi» ixtisasları üzrə, 2013/2014-cü tədris ilindən başlayaraq isə «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisası üzrə tələbə qəbulu aparılır. İlk 2 ixtisas üzrə mütəxəssis hazırlığı Böyük Britaniyanın Heriot-Vatt Universiteti tərəfindən təklif olunan tədris proqramları əsasında həyata keçirilir. Bu məqsədlə 2012-ci ildə həmin universitetlə Bakı Ali Neft Məktəbi arasında müqavilə imzalanıb. Müqavilənin şərtlərinə görə bu təhsil ocağındakı tədris prosesi Heriot-Vatt Universitetindəki prosesla paralel aparılır, yekun imtahanları və cavabların qiymətləndirilməsini həmin universitetin professor-müəllim*

*heyəti keçirir. Son illərdə keçirilən semestr imtahanlarının nəticələrinin müqayisəsi göstərir ki, Bakı Ali Neft Məktəbinin tələbələrinin göstəriciləri Heriot-Vatt Universitetinin, onun Malayziyada və Dubayda fəaliyyət göstərən filiallarının tələbələrinin nailiyyətlərindən yüksəkdir. «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasının tədris proqramı isə Avropa Kredit Transferi Sisteminin proqram paketindən götürülən ən mütərəqqi proqram olaraq tələbələrə bu sahədə müasir bilik və vərdişləri aşılamağa imkan verir.*

*Prezident İlham Əliyev lay mühəndisliyi laboratoriyasının fəaliyyəti ilə tanışlıq zamanı Böyük Britaniyanın Heriot-Vatt Universitetinin neft-qaz mühəndisliyi kafedrasının baş direktoru, professor Con Ford bildirdi ki, bir neçə ildir Heriot-Vatt Universiteti Bakı Ali Neft Məktəbi ilə sıx əməkdaşlıq edir. Bu laboratoriya da əməkdaşlıq çərçivəsində qurulub. Bundan başqa, bu təhsil ocaqları arasında neft və kimya mühəndisliyi ilə bağlı 2 ali təhsil proqramı həyata keçirilir. Gələcəkdə isə 2 yeni magistratura proqramı ilə bağlı əməkdaşlıq qurulacaqdır.*

*Con Ford Bakı Ali Neft Məktəbinə dəstəyinə və olduqca qısa zamanda belə möhtəşəm binanın inşasına görə dövlətimizin başçısına təşəkkür etdi. O, 10 il əvvəl Bakıda olduğunu, ötən müddətdə paytaxtımızın sürətlə inkişaf etdiyini vurğuladı. «Mən dəfələrlə Sizin neft kapitalının insan kapitalına çevrilməsi ilə bağlı fikirlərinizi eşitmişəm» – deyən Con Ford bu fikri yüksək qiymətləndirdiklərini və mövcud əməkdaşlığın da bunun göstəricisi olduğunu bildirdi.*

*Prezident İlham Əliyev xoş sözlərə və əməkdaşlığa görə təşəkkür etdi. Dövlətimizin başçısı bildirdi ki, Ali Neft Məktəbinin laboratoriyalarında təqdimatı edənlər xaricdə təhsil alıb qayıdan şəxslərdir. Bu, sevindirici haldır. İndi onlar öyrəndiklərini tələbələrə tədris edəcəklər. Azərbaycan Prezidenti bildirdi ki, əvvəllər çox sayda gənclərimiz təhsil almaq üçün xarici ölkələrdəki aparıcı universitetlərə göndərilirdi. Bu gün belə ali təhsil ocaqları artıq ölkəmizdə fəaliyyət göstərir. Bakı Ali Neft Məktəbi də bu səviyyədədir. Prezident İlham Əliyev xüsusilə*

*vurğuladı ki, dünyada neftin qiymətinin düşdüyü bir dövrdə insan kapitalına investisiyaların qoyulması dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir.*

*Məlumat verildi ki, kampusdakı 300 nəfərlik yeməkxana kompleksi iş günü ərzində tələbələrə və əməkdaşlara yüksək iaşə xidməti göstərmək üçün zəruri infrastruktura və işçi heyətinə malikdir. Şəhərcikdə beynəlxalq standartlara cavab verən 2 idman zalı və hovuz yaradılıb. Zəruri inventarla təchiz olunan idman kompleksi gənclərin idmanla məşğul olmasına geniş imkanlar açır, burada yarışların keçirilməsi üçün də hər cür şərait vardır.*

*Bakı Ali Neft Məktəbinin nəzdində uşaq bağçası da fəaliyyət göstərir. Bağça azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin etmək üçün əlvan rəngli inventarla təchiz edilib. Burada müxtəlif yaş qrupları üçün məşğələ və yataq otaqları, rəsm, idman və musiqi zalları, yeməkxana yaradılıb.*

*Sonra dövlətimizin başçısına Bakı Ali Neft Məktəbinin tələbələri tərəfindən ixtira edilən avtomatik günəş izləmə sistemi haqqında məlumat verildi. Bildirildi ki, bu sistem gün ərzində günəş şüalarını izləyir və panelləri Günəşə yönəlmiş vəziyyətdə saxlayır. Artıq məktəbin ərazisində bu sistemin istifadəsinə başlanılıb.*

*Şəhərcikdə açıq havada 2 tennis kortu, voleybol, basketbol, yüngül atletika meydançaları və fitnes zalı inşa edilib. Bundan başqa, 1000 tamaşaçı yeri olan süni örtüklü meydança da tələbələrin ixtiyarına veriləcək. Şəhərcikdə 400 yerlik yataqxana yaradılıb. Burada 2, 3 və 4 nəfərlik otaqlar bütün şəraitə malikdir, mərtəbələrdə camaşırxanalar və mətbəxlər istifadəyə verilibdir.*

*Qeyd edək ki, bu il Bakı Ali Neft Məktəbində «Neft-qaz mühəndisliyi» və «Kimya mühəndisliyi» ixtisasları üzrə məzunların ilk buraxılışı olacaq, onlara həm Bakı Ali Neft Məktəbinin, həm də Heriot-Vatt Universitetinin diplomları veriləcəkdir. 2017/2018-ci tədris ilində isə bu ixtisaslar üzrə magistratura*

*səviyyəsinə ilk qəbul keçiriləcək. Hər iki ixtisas üzrə magistr hazırlığı Heriot-Vatt Universitetinin təklif etdiyi tədris proqramları əsasında qurulacaq. Bakı Ali Neft Məktəbi tədrisin keyfiyyətinin yüksəlməsinə və mütəxəssis hazırlığı sahəsində beynəlxalq əlaqələrinin genişləndirilməsinə böyük önəm verir. Bu məqsədlə bir çox ölkələrin müvafiq qurumları və iri şirkətlərlə əməkdaşlıq müqavilələri imzalanıb, Bakı Ali Neft Məktəbi keyfiyyətin idarəetmə sistemi, ekologiya idarəetmə sistemi və əməyin mühafizəsi və təhlükəsizlik texnikası idarəetmə sistemləri üzrə beynəlxalq sertifikatlara layiq görülüb.*

*Azərbaycan prezidenti İlham Əliyev Bakı Ali Neft Məktəbinin tələbə-müəllim heyəti ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Əziz dostlar, tələbələr, müəllimlər, Neft Şirkətinin nümayəndələri!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bakı Ali Neft Məktəbi şəhərciyinin açılışını qeyd edirik. Bu şəhərcik ən yüksək standartlara cavab verir. Bakı Ali Neft Məktəbi artıq 6 ildir ki, fəaliyyət göstərir. Bu fəaliyyət çox uğurludur. Bu illər ərzində bu məktəb Azərbaycanın təhsil məkanında artıq öz layiqli yerini tuta bilibdir. Bu gün məktəb yeni şəhərciyə, yeni binaya köçür. Burada oxumaq, biliklərə yiyələnmək üçün bütün şərait yaradılıb, ən müasir texnologiyalar tətbiq olunur. Bütün binalar çox gözəl, zövqlə tikilib, burada ən müasir laboratoriyalar fəaliyyət göstərir və bu gün mənə təqdimat da edildi. Burada təhsilin səviyyəsi ən yüksək standartlara cavab verəcək.

Şadam ki, artıq bu məktəbdə müəllim kimi işləyən bizim gənc mütəxəssislərimiz də öz dövlətinə, Vətəninə sədaqət nümayiş etdirirlər. Vaxtilə biz onları dövlət xətti ilə xaricdə oxumaq üçün dünyanın aparıcı ali məktəblərinə ezam etmişdik. Onlar oxuyub, yaxşı mütəxəssis olub, Vətənə qayıdıb və bu gün öz biliklərini tələbələrlə bölüşürlər.

Bu məktəbin yaradılması və artıq belə gözəl şəhərciyə köçməsi bir daha onu göstərir ki, Azərbaycan qara qızılı insan kapitalına sərmayə kimi qoyur. Bunu mən hələ 2003-cü ildə demişdim ki, neft bizim üçün məqsəd deyil, vasitədir. Biz neftin hesabına ölkəmizi gücləndirməliyik, inkişaf etdir-məliyik, neftdən əldə olunan gəliri insan kapitalına sərmayə kimi qoymalıyıq. Biz bu gün bunu əyani şəkildə görürük. Azərbaycanın uğurlu neft siyasəti bu gün, demək olar ki, bütün sahələrə öz müsbət təsirini göstərib, o cümlədən təhsil sahəsinə. Son illər ərzində ölkəmizdə yaradılmış yeni təhsil müəssisələri bu gün məhz bunun hesabına fəaliyyət göstərir. İnvestisiya, maddi imkanımız olmasa idi, istəyimiz olsa belə, bütün bu işləri görmək çətin olardı. Biz neftdən əldə olunan gəlirlərdən çox səmərəli şəkildə istifadə etdik. Ölkəmizi güc-ləndirdik, yeni infrastruktur yaratdıq, bütün şəhərlərimiz abadlaşdı, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrildi. Bütün bölgələrdə quruculuq-abadlıq işləri uğurla gedir. Bu gün Azərbaycan iqtisadiyyatı daha çox qeyri-neft sektoru hesabına inkişaf edir. Əgər son illərin statistikasına nəzər salsaq görərik ki, bu gün Azərbaycan iqtisadiyyatının əsas təkanverici qüvvəsi qeyri-neft iqtisadiyyatıdır.

Əlbəttə, neft sektoru bu gün ölkəmizin həyatında çox mühüm rol oynayır və gələcəkdə də oynayacaq. Bizim təşəbbüsümüzlə icra edilən layihələr artıq çoxdan ölkə hüdudlarından çıxıb, beynəlxalq məna daşıyır. «Əsrin müqaviləsi» artıq 20 ildən çoxdur ki, icra edilir. Biz bütün bu nailiyyətlərə «Əsrin müqaviləsi»nin nəticəsində çata bilmişik. Bu gün isə XXI əsrin kontraktı – «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Azərbaycan bu nəhəng, meqalayihənin icrasında liderlik rolunu oynayır. Bu liderlik rolumuz artıq üçüncü dəfə Bakıda keçirilmiş «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının qətnaməsində də öz əksini tapıbdır. Bu layihədə iştirak edən bütün ölkələr, eyni zamanda, Avropa İttifaqının, Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın nümayəndələri qəbul edilmiş qətnamədə ölkəmizin liderlik rolunu bir daha göstərirlər, bunu təsdiq edirlər. Bu, böyük

şərəfdir və böyük məsuliyyətdir. Azərbaycan nəinki ölkə daxilində enerji məsələlərinin həllində nümunə göstərir, biz regional və qlobal əməkdaşlıq baxımından da bu gün xüsusi rol oynayırıq. Bu gün icra olunan «Cənub Qaz Dəhlizi» Avropada ən böyük infrastruktr layihəsidir, 40 milyard dollar səviyyəsində sərmayə qoyuluşu nəzərdə tutulur. Bütün işlər qrafik üzrə gedir. Əminəm ki, gələn il biz bu layihənin ən önəmli hissəsi olan «Şahdəniz-2» və TANAP layihələrinin icrasına nail olacağıq. Ümid edirəm ki, layihənin qalan bütün seqmentləri də vaxtında icra ediləcəkdir.

Bizim dinamikamız bundan ibarətdir. 2006-cı ildə istifa-də-yə verilmiş Bakı–Tbilisi–Ceyhan layihəsi bundan sonra qaz layihələrinin icrasına gətirib çıxardı. Bütün bu işlərin təməlini ulu öndər Heydər Əliyev 1994-cü ildə qoymuşdu. «Əsrin müqaviləsi»nin imzalanması tarixi hadisədir. Mən və Xoşbəxt müəllim yaxşı xatırlayırıq ki, bu kontraktın ərsəyə gəlməsi nə qədər çətin idi. Ulu öndər o vaxt bizi Neft Şirkəti-nin nümayəndələri kimi, Hyustona ezam etmişdi. Biz orada bir aydan çox danışıqlar aparmışdıq və çalışırdıq ki, Azər-baycan dövlətinin maraqlarını tam müdafiə edək. Hesab edirəm ki, buna nail ola bildik. Gərgin, bəzi hallarda çox çətin şəraitdə keçən, bəzi hallarda qarşıdurmalara gətirib çıxaran danışıqlarda Azərbaycan çox böyük uğurlara nail ola bilibdir və bunun nəticəsində bu gün mənfəət neftinin 75 faizi Azərbaycana qalır. Baxmayaraq ki, «Əsrin müqaviləsi»nin bütün investisiyaları xarici şirkətlər tərəfindən qoyulur və digər bir çox önəmli məsələlər burada öz əksini tapıbdır. O cümlədən xüsusi qeyd etməliyəm ki, bizim təkidimizlə kontraktın şərtlərinə salındı ki, Azərbaycan mütəxəssislərinin sayı bütün bu kontrakt işlərində tədricən artacaq və bu gün biz bunu görürük. Əgər 1994-cü ildə mütəxəssislərimizin say nisbəti təqribən 5-10 faiz idisə, bu gün bu, 90 faizə çatıb və bütün ən çətin, ən mürəkkəb texnoloji proseslərdə bizim mütəxəssislərimiz iştirak edirlər. Ona görə «Əsrin müqaviləsi»nin əhəmiyyətini artıq Azərbaycan xalqı görür. Əgər o vaxt bu kontrakt imzalanmasaydı,

Azərbaycana heç kim investisiya qoymazdı, biz nəhəng neft infrastrukturu yarada bilməzdik. Bu yaxınlarda inşasına başladığımız böyük neft qazma qurğusu artıq hazırdır, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Oraya qoyulan sərmayənin həcmi 1 milyard dollardan çoxdur. Neft-qaz əməliyyatları üçün lazım olan bütün dayaq blokları, platformaların üst hissələri Azərbaycanda istehsal edilir. On minlərlə insan bu işlərə cəlb olunub, yaxşı maaş alır, öz peşəkarlığını nümayiş etdirir. Bir neçə il bundan əvvəl bizim təşəbbüsümüzlə Bakıda Gəmiqayırma zavodu tikilmişdir. Nəyə görə? Əgər «Əsrin müqaviləsi» olmasaydı, bizə bu qədər gəmilər də lazım olmazdı və bu gün bizim Gəmiqayırma zavodumuz həm SOCAR üçün, həm Xəzər Gəmiçiliyi üçün sifarişlər icra edir. Əminəm ki, Xəzəryanı ölkələr də zavodun imkanlarından istifadə edəcəklər. Yəni «Əsrin müqaviləsi»nin imzalanması, demək olar ki, bütün iqtisadiyyatımızı hərəkətə gətirdi. Yerli firmalar kontraktlar imzaladılar, maddi vəziyyətlərini yaxşılaşdırdılar. Hazırlıqlı kadrlar artıq Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərirlər və biz bu müsbət dinamikanı saxlayırıq.

«Əsrin müqaviləsi» bu gün də ölkəmizə xeyir gətirir və bildiyiniz kimi, indi SOCAR-la tərəfdaşlar arasında danışıqlar gedir ki, bu kontraktın müddəti uzadılsın və mən buna müsbət baxıram. Əlbəttə, bizim bütün şərtlərimiz yerinə yetirilməlidir ki, kontraktın müddəti daha da uzadılsın.

«Şahdəniz-2» bu gün dünyanın ən böyük qaz layihələrin-dən biridir. Artıq neçə ildir ki, «Şahdəniz» qazı dünya və region bazarlarına çıxarılır. Bu gün isə biz artıq «Cənub Qaz Dəhlizi»nin icrasına çox yaxınlaşmışıq. Bu layihə Azərbay-canı bizim üçün əsas olan xarici bazarlarla, Avropa bazarları ilə birləşdirəcək. Bundan sonra onilliklər ərzində Azərbay-can «Cənub Qaz Dəhlizi»nin icrasından iqtisadi maraqlarını təmin edəcəkdir.

Bugünkü hadisə dediyim bu dinamikanın məntiqi nəticəsidir. Yenə də qayıdıram 2003-cü ilə. O vaxt demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Bunu da etdik və insan

kapitalının əsas mənbəyi təhsildir. Son illər ərzində Azərbaycanda 3000-dən çox məktəb təmir olundu, tikildi. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bundan yuxarı nəticə ola bilməz.

Bizim ali məktəblərimizdə tədris prosesi təkmilləşir. Biz vaxtilə gənclərimizi xaricə göndərirdik. Mənim təşəbbüsümlə minlərlə gənc Dövlət Neft Fondunun xətti ilə xaricə göndərildi. Həmçinin SOCAR da bu layihəyə qoşularaq, gəncləri xaricə göndərdi. Biz bu məqsədlər üçün bəlkə də yüz milyonlarla dollar vəsait xərclədik. Bu, insan kapitalına qoyulan vəsaitdir. Sonra mən dedim ki, bu proses davam etdirilməlidir. Biz Azərbaycanda müasir təhsil kompleksləri yaradaraq elə etməliyik ki, gənclər burada qalsınlar. Bu gün biz bunu görürük. Bu məktəbdə həm Azərbaycan gəncləri oxuyur və yüksək biliklərə nail olur, həm də tam əminəm ki, yaxın gələcəkdə xaricdən də buraya çox böyük axın başlanacaq. Çünki burada yaradılmış şərait inanmıram ki, hər hansı bir başqa yerdə olsun.

Buranın yeri də çox böyük rəmzi məna daşıyır. Mən 10 il bundan əvvəl Dövlət Neft Şirkətinə göstəriş vermişdim ki, onilliklər ərzində çirklənmiş Bibiheybət ərazisini, buruqların ətrafını təmizləsinlər, neft gölməçələrini qurutsunlar, bu zonada böyük yaşıllıq zolaqları salınsın və onlar bu işlərə başladılar. Bu yerlərin foto və videogörüntüləri vaxtilə müxtəlif dərgilərdə, jurnallarda, qəzetlərdə dərc edilmişdi. Hətta məşhur Ceyms Bondun filmlərindən biri də burada çəkilmişdir. Əgər o filmə baxsanız görərsiniz ki, buradakı mənzərə nə gündə idi. Bura ekoloji fəlakət zonası idi. Ancaq bu gün bura şəhərimizin ən abad yerlərindən biridir.

Burada yaşıllıqlar salındı, ağaclar əkildi, eyni zamanda, neft buruqları da öz fəaliyyətini davam etdirir. Burada belə gözəl neft məktəbi, idman şəhərciyi, Su İdmanı Sarayı yaradıldı, bax, o binalar jurnalistlər üçün tikilib. Hesab edirəm ki, bu da nadir təşəbbüsdür. Heç bir başqa ölkədə dövlət jurnalistlər üçün bina tikmir. Bu binalarda yaşayan və yaşayacaq jurnalistlər müxtəlif mətbu orqanların nümayəndələridir, burada mənzillərin bölgüsü

də püşkatma yolu ilə aparılıb, ədalət və obyektivlik tam təmin edilibdir.

Bibiheybət ekoloji fəlakət zonasının abadlaşdırılması, təmizlənməsi bir daha onu göstərir ki, biz qara qızıl kapitalını insan kapitalına qoyuruq. Çünki siz gənclərin bəlkə də yadında deyil, 10 il bundan əvvəl Bakının havası tam fərqli idi. Bir tərəfdən, bu ərazidə buxarlanan neft, digər tərəfdən isə indiki «Ağ şəhər» ərazisindəki neft tullantıları havanı çirkləndirirdi. Həmin ərazidə təmizləmə işləri nəticəsində bir metrdən çox neft çöküntüləri çıxarıldı. İndi «Ağ şəhər» müasir ekoloji layihəyə çevrilib. Balaxanı zibilxanası da fəlakət zonası idi. Orada yandırılan zibil şəhərimizin səmasına zəhərli tüstü buraxırdı. Həmin ərazi də təmizləndi. Sonra Böyükşor gölü. Bu göldən İkinci dünya müharibəsi zamanı açıq rezervuar kimi istifadə olunurdu, onun kənarında neft qoxusundan dayanmaq mümkün deyildi. İndi bu gölə quşlar qonur. Budur bugünkü Azərbaycan. Biz neftlə çirklənmiş bütün əraziləri təmizləyirik və təmizləyəcəyik. Bakı bu gün parklar, bağlar şəhəridir, təmiz hava şəhəridir. Eyni sözləri Sumqayıta da aid etmək olar.

Mən bu gün SOCAR-ın fəaliyyətini qeyd etmək istəyirəm. Həm ölkə daxilində xarici tərəfdaşlarla icra edilən layihələrdə, həm də xaricdə böyük sərmayə qoyurlar. Türkiyədə təqribən 20 milyard dollara yaxın sərmayə qoyulur. Azərbaycanda polimer, azot gübrələri, neftayırma zavodları, müəssisələrin modernləşdirilməsi və digər layihələr artıq SOCAR-ı dünya miqyaslı enerji şirkətinə çeviribdir. Neft və qaz bundan sonra da ölkəmizin inkişafına xidmət göstərəcək, qeyri-neft sektoru isə ölkə iqtisadiyyatını şaxələndirəcəkdir. Gənclər bizim uğurlu gələcəyimizi təmin edəcəklər. Beləliklə, Azərbaycan dövləti yaşayacaq, güclənəcək və xalqımız qürur hissi ilə bunu görərək, daha da böyük həvəslə ümumi işimizə töhfə verəcək. Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm və sizə uğurlar arzulayıram.

* * *

**Ş ə m s i  M u s a y e v** (*Bakı Ali Neft Məktəbinin IV kurs tələbəsi, prezident təqaüdçüsü*): Cənab Prezident, mən 2013-cü ildə Bakı Ali Neft Məktəbinin neft-qaz mühəndisliyi ixtisasına qəbul olmuşam və prezident təqaüdünə layiq görülmüşəm. Hazırda IV kurs tələbəsiyəm. Mən həm öz adımdan, həm də bütün tələbələrimiz adından Sizə göstərdiyiniz bu böyük diqqətə, qayğıya görə təşəkkürümü bildirirəm.

Hazırda bizim ali məktəbdə 76 prezident təqaüdçüsü təhsil alır. Bu bizim üçün çox böyük bir şərəfdir ki, biz prezident təqaüdçüsü adına layiq görülmüşük. Sizin ali məktəbimizi yaratmağınız, belə gözəl şəhərciyin tikilməsi, burada çox keyfiyyətli istehsalat təcrübəsinin təşkil edilməsi və təhsilimizin tamamilə ingilis dilində olması bizim bir mütəxəssis, bir şəxsiyyət kimi formalaşmağımızda çox böyük rol oynayıb.

Bildirmək istəyirəm ki, bizim məktəbdə imtahanlar Şotlandiyanın Heriot-Vatt Universiteti tərəfindən götürülür. Tədris işləri isə yerli müəllim və professor heyəti tərəfindən aparılır. Nəticələr isə onu göstərmişdir ki, son 3 ildə Heriot-Vattın bütün dünya üzrə tələbələri arasında birinci yeri məhz elə Bakı Ali Neft Məktəbinin tələbələri tutub.

Cənab Prezident, bildirmək istəyirəm ki, biz çox xoşbəx-tik. Biz qürur duyuruq ki, belə yüksək səviyyədə təhsili hər hansı bir xarici ölkədə yox, məhz elə öz Vətənimizdə alırıq. Sizin də söylədiyiniz kimi, bizim ali məktəbimiz məhz Sizin «Biz neft kapitalını insan kapitalına çevirməliyik» şüarınızın bariz nümunəsidir. Mən öz adımdan və bütün tələbə yoldaşlarım adından söz verirəm ki, Sizin bu böyük etimadınıza cavab olaraq biz bu ali məktəbi yüksək səviyyəli mütəxəssis kimi bitirəcəyik və SOCAR-ın müəssisələrində və ya Azərbaycanın digər iqtisadi sahələrində peşəkar mütəxəssis kimi çalışacaq, daim Vətənimizə, dövlətimizə, Prezidentimizə sədaqətlə xidmət edəcəyik.

## BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ MORİNARİ VATANABE VƏ BAŞ KATİBİ ANDRE QAYSBUXLER İLƏ GÖRÜŞ

*2 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 2-də Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabeni və Beynəlxalq Gimnastika Federasiyasının Baş katibi Andre Qaysbuxleri qəbul etmişlər.*

*Dövlətimizin başçısı Bakıda bədii gimnastika üzrə dünya kuboku yarışlarının çox uğurla keçirildiyini vurğuladı və qeyd etdi ki, bundan əvvəl də Azərbaycanda gimnastika üzrə dünya və Avropa çempionatları və digər mötəbər tədbirlər yüksək səviyyədə təşkil olunub.*

*Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe Bakıda bədii gimnastika üzrə dünya kuboku yarışlarının uğurla keçirilməsi və ümumilikdə idmanın gimnastika növünə verilən dəstəyə görə prezident İlham Əliyevə və xanımı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirdi.*

*Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe 2015-ci ildə I Avropa oyunlarının yüksək səviyyədə təşkil olunması ilə bağlı təbriklərini çatdırdı. Morinari Vatanabe 2020-ci ildə Tokio Olimpiya oyunlarında Azərbay-can gimnastlarının uğur qazanacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı bu mühüm idman tədbirinin Tokioda keçirilməsi ilə bağlı təbriklərini ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafına böyük diqqət göstəril-*

*diyini və gənc nəslin idmana olan həvəsinin gündən-günə artdığını vurğuladı.*

*Beynəlxalq Gimnastika Federasiyasının Baş katibi Andre Qaysbuxler qeyd etdi ki, Azərbaycan idman sahəsində, ümumilikdə ölkənin inkişafında inanılmaz uğurlar qazanıb. O bildirdi ki, son illər Azərbaycandakı böyük inkişaf prosesləri dərin təəssürat yaradır.*

*Prezident İlham Əliyev paytaxtımızda və digər regionlarda genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini bildirdi, ən müasir idman strukturunun, o cümlədən gözəl gimnastika idman sarayının inşa edildiyini məmnunluqla vurğuladı.*

*Qonaqlar Azərbaycanda gimnastika sahəsində görülən işləri dünyada idmanın gimnastika növünün inkişafına böyük töhfə kimi dəyərləndirdilər.*

*Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva ölkəmizdə Gimnastika Federasiyasına rəhbərlik etməsindən və xüsusilə bu sahədə əldə olunan uğurlardan qürur hissi keçirdiyini bildirdi və qeyd etdi ki, Azərbaycanda gimnastikanın inkişafının əsası qoyulan vaxt bu idman növü bir o qədər də populyar deyildi. İndi isə gimnastikaya böyük maraq göstərilir, xüsusilə xeyli sayda gənc qızlar bu idman növü ilə məşğul olmaq və yarışlarda iştirak etmək arzusundadırlar. Bu çox böyük nailiyyətdir və biz bununla fəxr edirik.*

## CİBUTİ RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ MƏHƏMMƏD ƏLİ HUMƏDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Cibuti Respublikası Milli Assambleyasının Sədri Məhəmməd Əli Humədin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Cibuti Respublikası Milli Assamble-yasının Sədri Məhəmməd Əli Humədin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan–Cibuti əlaqələrinin inkişafında mühüm rol oynayacağına və səfər zamanı əməkdaşlığımızın müxtəlif aspektlərinin geniş müzakirə olunacağına əminliyini ifadə etdi. İkitərəfli əlaqələrimizin çox möhkəm olduğunu və son illər ərzində daha da inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Cibuti ilə bu əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsində maraqlıdır. Cibuti parlamentinin Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qəbul etdiyi qətnaməyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı artıq dünyanın 10-dan çox ölkəsinin parlamentləri tərəfindən Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qərarın qəbul olunduğunu vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Cibuti parlamentinin qəbul etdiyi bu qətnamə həm ədaləti əks etdirir, həm də ölkələrimiz arasındakı dostluq münasibətlərinin göstəricisidir. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığının və bir-birini dəstəkləmələrinin önəmini qeyd etdi. İqtisadi əməkdaşlığımıza toxunan prezident İlham Əliyev son vaxtlar bu istiqamətdə mühüm addımların atıldığını,*

*ölkələrimiz arasında hava nəqliyyatının yaradılmasının qarşılıqlı ticarətə müsbət təsir göstərdiyini nəzərə çatdırdı. Azərbaycan–Cibuti ikitərəfli əlaqələrinin gündəliyinin geniş olduğunu deyən prezident İlham Əliyev əməkdaşlığımızın gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini bildirdi.*

*Milli Assambleyanın Sədri Məhəmməd Əli Huməd Cibuti Respublikasının Prezidenti İsmayıl Ömər Quellenin salamlarını dövlətimizin başçısına çatdırdı. Məhəmməd Əli Huməd ölkəsinin Prezidentinin adından dedi ki, əmin ola bilərsiniz, Cibuti Respublikası bundan sonra da bütün sahələrdə və bütün səviyyələrdə Azərbaycanın tərəfində, yanında olacaqdır.*

*Qonaq bildirdi ki, ölkələrimiz arasında əlaqələrin son vaxtlar inkişaf etməsinə baxmayaraq, əlaqələrimizin hazırkı səviyyəsi elə təəssürat yaradır ki, münasibətlərimiz uzun tarixə malik və çoxdan başlanan münasibətlərdir. Cibuti parlamentinin Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qəbul etdiyi qətnaməyə toxunan Məhəmməd Əli Huməd parlamentdə bu qətnaməni tərəddüd etmədən qısa zamanda qəbul etdiklərini və bu qərarla qürur duyduqlarını dedi. Ölkələrimizin bir-birinə ümumi dini və mədəni tellərlə bağlı olduğunu deyən qonaq bu əlaqələrin daha da möhkəmləndirilməsinin zəruriliyini vurğuladı.*

*Dövlətimizin başçısı Cibuti Respublikasının Prezidenti İsmayıl Ömər Quellenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Cibuti Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF ƏL-OSAYMİN İLƏ GÖRÜŞ

*3 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osaymini qəbul etmişdir.*

*İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin xarici siyasətimizin mühüm bir hissəsini təşkil etdiyini və Azərbaycanın bu təşkilatın çox fəal üzvü olduğunu vurğulayan prezident İlham Əliyev son illərdə ölkəmizdə bu qurumun fəaliyyəti ilə bağlı nazirlər səviyyəsində bir sıra mühüm tədbirlərin keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan islamofobiyaya qarşı mübarizədə fəal iştirak edir.*

**İlham Əliyev:** Müsəlman ölkələri arasında həmrəylik və əməkdaşlıq siyasətimizin gündəliyində duran ən mühüm məsələlərdəndir və bizim bu istiqamətdə təşəbbüslərimiz nəcib bir məqsədə – müsəlman ölkələrinin siyasi, iqtisadi və digər sahələrdə bir-birinə daha da yaxınlaşması işinə xidmət edir.

*Azərbaycanın beynəlxalq təşkilatlarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatında qardaş müsəlman ölkələri ilə həmişə həmrəy olduğunu vurğulayan prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının da öz növbəsində, Azərbaycana güclü dəstək verdiyini məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev vurğuladı ki, İslam Əməkdaşlıq Təşkilatının sonuncu sammitində Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı kontakt qrupunun yaradılması qərarının qəbul edilməsi və təşkilatın münaqişə ilə bağlı ədalətli mövqeyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bu mövqe Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin möhkəm əsaslarının qurulmasında mühüm rol oynayır. Dövlətimizin*

*başçısı ölkəmizin bu təşkilatla həm ikitərəfli, həm də beynəlxalq səviyyədə əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əmin olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu ilin Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunması və yaxın günlərdə İslam Həmrəyliyi oyunlarının keçirilməsi müsəlman ölkələri və xalqları arasında birliyi daha da gücləndirəcəkdir.*

**Yusif əl-Osaymin** *(İslam Əməkdaşlıq Təşkilatının baş katibi):* Azərbaycan siyasi, iqtisadi, mədəni, sosial, gənclər arasında əməkdaşlıq sahələrində İslam Əməkdaşlıq Təşkilatının və islam ailəsinin çox mühüm üzvüdür. Bu çox önəmlidir. Azərbaycandakı inkişaf prosesləri və tolerantlıq islam dünyasında bir nümunədir. Bakıda gördüyüm abadlıq işləri, yaşıllıq və təmizlik məni heyran etdi. Azərbaycan çox gözəl ölkədir.

*Qonaq Azərbaycanda keçiriləcək İslam Həmrəyliyi oyunlarına toxunaraq, bunu çox önəmli beynəlxalq idman tədbiri kimi dəyərləndirdi və həmin tədbirin bütün müsəlman ölkələrinin bu mötəbər oyunlarda iştirakı və Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaları üçün yaxşı imkan yaratdığını vurğuladı.*

*Görüşdə Azərbaycanın turizm potensialı müzakirə edildi, ölkəmizdə turizmin inkişafı üçün çox böyük imkanların və yaxşı şəraitin mövcud olduğu bildirildi.*

## MALİ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ TİEFİNQ KONATE İLƏ GÖRÜŞ

*3 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Mali Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Tiefinq Konatenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Tiefinq Konate Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Tiefinq Konate etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Mali Respublikasının Prezidenti İbrahim Boubakar Keitanın yaxın zamanlarda Azərbaycana gözlənilən səfərinin önəmini qeyd edən dövlətimizin başçısı bu səfər zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılacağını vurğuladı. Prezident İlham Əliyev Tiefinq Konatenin ölkəmizdə səfir kimi fəaliyyətə başlamasının əməkdaşlığımıza dair bir sıra vacib məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını bildirdi.*

*Mali xalqının və hökumətinin Azərbaycan xalqına salamlarını çatdıran səfir Tiefinq Konate Azərbaycan ilə Mali arasında dost və qardaş münasibətlərinin mövcud olduğunu qeyd etdi, ölkəmizdəki fəaliyyəti dövründə respublikalarımız arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı. Azərbaycana ilk dəfə 2013-cü ildə nazir vəzifəsində olarkən səfərə gəldiyini xatırladan Tiefinq Konate ölkəmizdə səfir təyin edilməsindən çox məmnun olduğunu dedi, ona göstərilən yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

# NATO BAŞ KATİBİNİN İCTİMAİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ TACAN İLDEM İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də NATO baş katibinin ictimai məsələlər üzrə müavini Tacan İldemi qəbul etmişdir.*

*Tacan İldem NATO baş katibinin ictimai məsələlər üzrə müavini vəzifəsində Azərbaycana ilk dəfə gəldiyindən məmnunluğunu ifadə etdi, ölkəmizə sonuncu səfərindən 2 il keçməsinə baxmayaraq, böyük bir inkişaf prosesinin şahidi olduğunu vurğuladı. Tacan İldem NATO-nun baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev NATO baş katibinin ictimai məsə-lələr üzrə müavini Tacan İldemin Bakıda keçirilən IV Ümum-dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluğunu ifadə etdi. NATO ilə əlaqələrə toxunan dövlətimizin başçısı ölkəmizin bu təşkilatla uzun illər səmərəli əməkdaşlıq həyata keçirdiyini bildirdi, Azərbaycanın müxtəlif proqramlar, o cümlədən «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində sülhməramlı əməliyyatlarda həmişə etibarlı tərəfdaş kimi çıxış etdiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, bu gün Azərbaycan sülhməramlı əməliyyatlar üçün yükdaşımalarına önəmli töhfə verir, eyni zamanda, Azərbaycan hərbçiləri Əfqanıstanda təhlükəsizliyin təmin olunması işində iştirak edir, həmçinin Azərbaycan Əfqanıstanla müxtəlif sahələrdə əməkdaşlığı genişləndirir.*

*Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlər-arası Dialoq Forumunun əhəmiyyəti qeyd olundu, bu tədbirin ölkələr və xalqlar arasında əlaqələrin möhkəmləndirilməsində rolu vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun baş katibinə çatdırmağı xahiş etdi.*

## ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ MARK ŞNAYER İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayeri qəbul etmişdir.*

*Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əməkdaşlığın möhkəm-ləndirilməsi işinə töhfə verdiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycanda müxtəlif millətlərin və dini konfessiyaların nümayəndələrinin mehriban qardaşlıq şəraitində yaşamaları məmnunluqla qeyd edildi, yüksək səviyyədə tolerantlığın mövcudluğu bir nümunə kimi vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycan–ABŞ əlaqələrinə toxunularaq, iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdirildiyi bildirildi.*

## BMT SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ NASSİR ƏBDÜLƏZİZ ƏL-NASSER İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də BMT Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Əbdüləziz əl-Nasseri qəbul etmişdir.*

*Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd edildi.*

**Nassir Əbdüləziz əl-Nasser**: BMT Sizin liderliyinizi yüksək qiymətləndirir. Bu liderlik özünü xüsusilə mədəniyyət, dinlərarası dialoqda və qarşılıqlı anlaşmada göstərir. Bu çox önəmli məsələdir. Dünya çətin bir dövrü yaşayır. Biz digər ölkələrlə müqayisədə Azərbaycana baxanda, burada Sizin rəhbərliyinizlə sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə təmin olunduğunu görürük. Dünyada Sizin kimi liderlərə böyük ehtiyac var, biz bunu yüksək qiymətləndiririk.

*Dövlətimizin başçısı xoş sözlərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Nassir Əbdüləziz əl-Nasserin dünyada sivilizasiyalararası dialoqun inkişafı və möhkəmləndirilməsi işinə böyük töhfə verdiyini vurğuladı, ötən il Bakıda keçirilən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, həmçinin IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilində onun rolunu və verdiyi dəstəyi yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti qeyd edildi, İSESKO-nun ilk gündən Forumun təsisçisi və fəal iştirakçısı olduğu, Forumun keçirilməsinə böyük dəstək verdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoqa verdiyi töhfənin önəmi vurğulandı, ölkəmizdə 2017-ci ilin «İslam həmrəyliyi ili» elan edilməsinin və IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda keçirilməsinin müsəlman ölkələrinin bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyi qeyd olundu.*

*Görüşdə, həmçinin Azərbaycan ilə İSESKO arasında uzun illər səmərəli və uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, İSESKO-nun Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsi yüksək qiymətləndirildi, əməkdaşlığımızın bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.*

*Baş direktor Əbdüləziz bin Osman əl-Tüveycri İSESKO tərəfindən həyata keçirilən işlər və nəzərdə tutulan planlar barədə prezident İlham Əliyevə məlumat verdi.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Gülüstan vilayətindəki kömür mədənində baş vermiş partlayış nəticəsində insanların həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2017-ci il*

## QEYDLƏR

**1. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 5–17, 50, 119, 222, 230, 269, 348.

**2. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 6–15, 348.

**3. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – Əməkdar mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. Azərbaycan Voleybol Federasiyasının prezidenti, Rusiya Nəqliyyat Akademiyasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 10, 190.

**4. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 13, 51, 82, 92, 99, 105, 170, 197, 222.

**5. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bö-

lünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 13, 170, 171, 197, 222, 253, 259.

**6. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 13, 32, 50, 87, 89, 166, 168, 182, 197, 219–220, 225, 226, 251–252, 308.

**7. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. – 13, 14, 32, 46, 54, 57, 58, 62, 63, 65, 68, 69, 85, 87, 100, 121, 125, 126, 135, 168, 173, 174, 175, 177, 178, 179, 222, 226, 229, 230, 232, 233, 234, 299, 344.

**8.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard m$^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infra-

strukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 14, 171, 332.

**9. Seyid Əli Xamenei** (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali dini rəhbəridir. – 16.

**10. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq Qadınlar Gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmiş, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 18–19.

**11. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb

binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 20, 21, 22, 25, 62, 64, 71, 81, 105, 106, 108, 122–133, 212, 213, 221, 222, 336, 337.

**12. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 24, 32, 87, 90, 223, 269, 309, 330, 345.

**13. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraf-

lıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 26–27, 96–97, 223, 327, 330.

**14. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 27, 106, 107, 108, 109, 110, 111, 138, 139, 185, 203, 204, 260, 310, 324.

**15. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 28, 51, 58, 59, 61, 67, 89, 90, 125, 230, 233, 299, 330.

**16. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş naziri, 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 28.

**17. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 29–30, 82, 120, 208–209, 212–218, 313–315.

**18. Salman ibn Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 30, 313, 314.

**19. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 31, 32, 33–71, 87, 223, 231.

**20. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 32, 60, 63, 68, 174, 178, 231, 233.

**21. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası

ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 34, 67, 308, 317, 324, 325, 326, 332, 333, 334.

**22. Total** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 34.

**23. «Airbus» (S.A.S.)** – dünyada ən böyük aviasiya kampaniyası. Keçən əsrin 60-cı illərində Avropanın bir neçə avia istehsalçılarının birləşməsi nəticəsində yaradılmışdır. «Airbus» markası ilə sərnişin, yükdaşıma və hərbi-nəqliyyat təyyarələri istehsal edilir. Mənzil-qərargahı Blanyak (Fransa) şəhərindədir. 2001-ci ildə Fransa qanunvericiliyinə uyğun olaraq S.A.S. Səhmdar Cəmiyyəti ilə birləşdirildi. Şirkət əsasən Avropanın 4 (Fransa, Almaniya, Böyük Britaniya, İspaniya) ölkəsində cəmlənib və 129,4 min nəfər işçisi vardır. Avadanlığın yekun montajı kampaniyanın Tuluza (Fransa) və Hamburq (Almaniya) şəhərlərində həyata keçirilir. – 36.

**24. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 37, 49, 61, 63, 70, 92, 101, 129, 157, 298, 330, 332.

**25. MEDEF** – Fransa Şirkətlər Hərəkatının Biznes Şurası. – 40.

**26. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 49,148.

**27. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 48, 125, 127, 128, 156, 229, 236.

**28. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 51, 54–61, 66–70.

**29. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min $km^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 51, 92, 95–96.

**30. Samir Şərifov,** Samir Rauf oğlu (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən isə Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni

zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 55–56.

**31. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – hüquqşünas. 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 55.

**32. Jerar Larşe** (d.1949) – fransız siyasətçisi, Konservatorlar Partiyası, «Xalq hərəkatı İttifaqı»nın üzvü, 2008–2011-ci illərdə və 2014-cü ildən Fransa Senatının Sədridir. – 65–66.

**33. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 65, 173.

**34. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. – 65, 234.

**35. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya

ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 67, 196.

**36. Aleksandr Düma** (1802–1870) – məşhur fransız yazıçısı və dramaturqu. Macəralarla zəngin olan tarixi romanları «Qraf Monte Kristo», «Üç muşketyor», «Dəmir maskalı adam» oxucuların rəğbətini qazanmışdır. Onun bu romanları dəfələrlə ekranlaşdırılmışdır. 1830-cu il Fransa inqilabında fəal iştirak etmiş və bu zaman «Antoni» dramını yazmışdır. – 67.

**37. Bartelemi Derblo** (1625–1695) – fransız şərqşünası, Şərq əlyazmalarını toplamış şərq dilləri üzrə katib-tərcüməçi. Parisdə kral kitabxanasında işləmişdir. «Şərq xalqları haqqında bütün biliklərin lüğəti», latınca izahı verilən «Ərəb–fars–türk lüğəti» və «Şərq antologiyası» əsərlərinin müəllifidir. «Şərq xalqları haqqında bütün biliklərin lüğəti»ndə Nizami Gəncəvi, Xaqani Şirvani və Fələki Şirvani haqqında məqalələri vardır. – 67.

**38. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər

sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 69, 91, 343–344.

**39. Fransisk,** J o r q e M a r i o B e r g o g l i o (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 81.

**40. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 81.

**41. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 79–80, 94–95, 105–108.

**42. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013–2018-ci illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 82, 99.

**43. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman

janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 79, 105–108.

**44. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 89, 92, 125, 230, 237.

**45. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 96.

**46. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş naziridir. – 96–97.

**47. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 105, 122–133.

**48. Şekspir,** V i l y a m (1564–1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin – komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasının inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşa-ya qoyulmuş, ekranlaşdırılmışdır. – 106.

**49. Stalin,** İ o s i f V i s s a r i o n o v i ç (1879–1953) – 1922–53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. İkinci dünya müharibəsi zamanı qələbənin əldə edilməsində böyük xidmətləri olmuşdur. – 107.

**50. Ruzvelt Franklin Delano** (1882–1945) –ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. 1932–1945-ci illərdə 4 dəfə ABŞ prezidenti seçilmişdir. İkinci dünya müharibəsi zamanı İngiltərə və SSRİ ilə antihitler koalisiyasının yaranmasının təşəbbüskarlarından biri olmuşdur. – 107.

**51. Çörçill,** U i n s t o n (1874–1965) – Böyük Britaniyanın görkəmli dövlət, siyasi və hərbi xadimi, 1940–45, 1951–55-ci illərdə Böyük Britaniyanın Baş naziri. İkinci dünya müharibəsi zamanı Britaniya xalqının mətanət rəmzi, ABŞ və SSRİ ilə antihitler koalisiyasının təşəbbüskarlarından biri olmuşdur.

Bir sıra publisistik əsərlərin və memuarların müəllifi, Nobel mükafatı laureatı. – 107.

**52. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi

zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 109.

**53. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 111, 236.

**54. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdı. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni «Beynəlxalq Novruz Günü» elan etmişdir. – 113–114, 122–133.

**55. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə

bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 116, 223, 236.

**56. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 116.

**57. Banqladeş,** Banqladeş Xalq Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 118.

**58. Əbdül Həmid** (d.1944) – Banqladeşin siyasi və dövlət xadimi. 2013-cü ildən Banqladeş Xalq Respublikasının Prezidentidir. – 118.

**59. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və

XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 122.

**60. Qız qalası** – Azərbaycanda tarixi-memarlıq abidəsi. (İçərişəhərdə). Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 122.

**61. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 122, 145.

**62. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 125, 214, 340–341.

**63. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 127, 173.

**64. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 127, 174.

**65. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 127.

**66. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 133.

**67. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 133.

**68. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 140, 158.

**69. Füzuli rayonu** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 158, 173, 294.

**70. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 168–169, 182, 252.

**71. *bp*,** «B r i t i s h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 170–171.

**72. Zakir Həsənov,** Z a k i r  Ə s g ə r  o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 172, 181.

**73. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 174.

**74. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 174.

**75. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 177.

**76. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaq-

larında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 177.

**77. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Astana şəhəridir. – 183–204, 281–285.

**78. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 183–204.

**79. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 196, 269, 282.

**80. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 259.

**81. 31 mart azərbaycanlıların soyqırımı günü,** 1918 - c i i l s o y q ı r ı m ı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 300–301.

**82. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 301.

**83. Kirsan İlümjinov** (d.1962) – Rusiyanın dövlət xadimi, Kalmıkiyanın birinci (1993–2005) prezidenti. 2005–2010-cu illərdə Kalmıkiya Respublikasının başçısı olmuşdur. 1995-ci ildən Beynəlxalq Şahmat Federasiyasının prezidentidir. – 302.

**84. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 305.

**85. Villem-Aleksandr** (d.1967) – 2013-cü ildən Niderland Krallığının Kralı. – 305.

**86. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya İmperatorudur. İmperator Hirohitonun oğludur. – 306–307.

**87. Nobel qardaşları** – İsveç ixtiraçıları və sənayeçiləri. Silah istehsalı və ağ neft ticarəti ilə məşğul olmuşlar. Robert Nobel XIX əsrin 70-ci illərində Bakıya gəlmiş və neft işi ilə maraqlanmışdı. O, sonralar qardaşı Lüdviqi də bu işə cəlb etmiş və onlar 1879-cu ildə «Nobel qardaşları» şirkətini təsis etmişlər. Şirkətin, demək olar, bütün kapitalı, habelə illər boyu götürdüyü yüz milyonlarla manat izafi mənfəət Bakı neftinin hesabına qazanılmışdı. Tərkibinə əsas kapitalı 130 milyon manatdan çox olan 25 müxtəlif müəssisə daxil idi.

Nobel qardaşları inhisarlarının Bakıdakı fəaliyyəti Azərbaycan iqtisadiyyatının inkişafına səbəb oldu. Onların açdığı müəssisələrdə minlərlə azərbaycanlı işləmiş və onlar öz işlərinin gözəl mütəxəssisi olmuşlar. Onların sifarişi ilə İsveçdə tikilən və Xəzərə gətirilən «Zoroastr» gəmisi dünyada ilk neftdaşıyan tanker idi. Beynəlxalq Nobel mükafatları Alfred Nobelin vəsiyyətinə əsasən Nobel Fondu tərəfindən təsis edilmişdir. Bu mükafat hər il məşhur alimlərə (etdikləri ixtiralara və gördükləri

işlərə), ictimai və siyasi xadimlərə, yazıçı və şairlərə verilir. – 308.

**88. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 308–312, 317, 324.

**89. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2016-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2016-cı ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 308–312, 331.

**90. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 321.

**91. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 321.

**92. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 323.

**93. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 323.

**94. Bakı Ali Neft Məktəbi (BANM)** – Azərbaycanda dövlət ali təhsil müəssisəsi. 2011-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibində yaradılmışdır. Bu ali məktəb beynəlxalq standartlara uyğun ən müasir tədris proqramları və tədris texnologiyaları əsasında sənayenin müasir tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislər hazırlayır.

BANM 3 ixtisas üzrə – Neft-qaz mühəndisliyi; Kimya mühəndisliyi; Proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mütəxəssislər hazırlayır. – 324–335.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 308–312, 317, 324
**Abdraxmanov Kairat** – 190
**Ader Yanoş** – 115
**Akihito** – 306, 307
**Al Səud Abdullah** – 208–209, 212–218
**Al Səud Salman** – 30, 313, 314
**Alpısbayev Kanat** – 190
**Aslanlı Rüfət** – 10
**Atambayev Almazbek** – 321
**Bartolon Klod** – 62–63
**Birrel Qordon** – 170,171
**Boduən Filip** – 55
**Buşez Orelia** – 55
**Cəfərov Xəyal** – 317
**Cabbarov Siraqəddin** – 138
**Counz Qari** – 170–171
**Çörçill Uinston** – 107
**Da Silva Paula** – 136–137
**De Susa Marselo** – 136, 137
**Debon Mari-Anj** – 40, 42–43
**Derblo Bartelemi** – 67
**Duda Andjey** – 323
**Düma Aleksandr** – 67
**Eskinazi Rafael** – 35
**Əhmədəbadi Nəsiri** – 10
**Əl-Falih Xalid** – 313–315
**Əl-Faysal Turki** – 82, 120
**Əl-Nasser Nassir** – 346
**Əl-Osaymin Yusif** – 340–341
**Əl-Tani Həməd bin Cabir** – 320

**Əl-Tüveycri Əbdüləziz** – 347
**Əs-Sabha Tamer** – 29–30
**Əs-Sisi Əbdülfəttah** – 227
**Əliyev Heydər** – 27, 106, 107, 108, 109, 110, 111, 138, 139, 185, 203, 204, 260, 310, 324
**Əliyeva Leyla** – 105, 122–133
**Əliyeva Mehriban** – 20, 21, 22, 25, 62, 64, 71, 81, 105, 106, 108, 122–133, 212, 213, 221, 222, 336, 337
**Əmirbəyov Elçin** – 55–56
**Əsədov Oqtay** – 133
**Ərdoğan Rəcəb Tayyib** – 259
**Fişer Hayntz** – 303
**Fol Stefan** – 53
**Ford Con** – 327
**Fransisk** *(Roma Papası)* – 81
**Gəncəvi Nizami** – 79, 105–108
**Gül Abdullah** – 253
**Həsənov Zakir** – 172, 181
**Həşimov Vüqar** – 302
**Higgins Maykl** – 74
**Hoqland Riçard** – 32
**Huməd Məhəmməd** – 338–339
**Hüseyn Məmnun** – 116
**Hüqo Viktor** – 70
**Xamenei Seyid Əli** – 16
**Xəlilova Könül** – 24–25
**İldem Tacan** – 343–344
**İlümjinov Kirsan** – 302
**İsabayev Beybit** – 190
**İvaniç Mladen** – 121
**İvanov Georgi** – 82, 103
**Kasprşik Anji** – 32
**Kasımbek Jenis** – 190

**Katori Teruyuki** – 306–307
**Keita İbrahim** – 342
**Kərimov İnam** – 55
**Kliçko Vitali** – 254
**Konate Tiefinq** – 342
**Konstantinesku Emil** – 79
**Korb Mixail** – 210–211
**Kosta Antonio** – 136
**Kutillo Ciampaolo** – 95–96
**Qasımov Alim** – 217
**Qasımov Elmar** – 324
**Qasımova Fərqanə** – 217
**Qaysbuxler Andre** – 336, 337
**Qiyu Erve** – 39
**Qurbanov Cavid** – 10, 190
**Larşe Jerar** – 65–66
**Laqumdciya Zlatko** – 79
**Makdonald Saymon** – 26–27
**Makkornak Stefan** – 96–97
**Mattarella Sercio** – 96
**Marqvelaşvili Giorgi** – 82, 99
**Mari Rişar** – 41
**Mehdiyev Ramiz** – 133
**Meta İlir** – 322
**Mey Tereza** – 96–97
**Məhəmməd** *(əleyhissalam)* – 216
**Məhəmməd Əli** – 254
**Məhəmmədzadə Səid** – 10
**Məmmədov Rəşad** – 190
**Məmmədov Saleh** – 260
**Məmmədova Humay** – 142–145
**Məmmədyarov Elmar** – 190
**Musa Əmr** – 79
**Musayev Şəmsi** – 334–335
**Musca Ksavye** – 37

**Mustafayev Şahin** – 190, 268, 269
**Nağdəliyev Zeynal** – 145
**Nazarbayev Nursultan** – 183–204
**Neydqart Aleksandr** – 308
**Nikoliç Tomislav** – 206
**Nişani Buyar** – 82, 101–102
**Olland Fransua** – 51, 54–61, 66–70
**Ollinq Svend** – 134–135
**Patruşev Nikolay** – 251–252
**Pavlopulos Prokopis** – 117
**Plase Jan-Vensan** – 55
**Plevneliev Rosen** – 298
**Popov İqor** – 32
**Putin Vladimir** – 168–169, 182, 252
**Puyane Patrik** – 34
**Rodiç Neboyşa** – 206–207
**Rasizadə Artur** – 133
**Remi Jil** – 38
**Reyşar Andre** – 31
**Rivlin Reuven** – 316
**Ruhani Həsən** – 6–15, 348
**Ruzvelt Franklin** – 107
**Rzayev Baba** – 138
**Salber Herbert** – 299
**Semyonov Vasili** – 308
**Serageldin İsmail** – 79, 82, 83, 97–98, 108–109
**Səmədov Qoca** – 260
**Solovyov Vladimir** – 226
**Stalin İosif** – 107
**Stoltenberq Yens** – 344
**Stoyanov Peter** – 79
**Şamüsi Nikola** – 36
**Şaşin Valentin** – 310
**Şərifov Samir** – 55–56
**Şnayer Mark** – 345

**Şekspir** – 106
**Tadiç Boris** – 79
**Tusk Donald** – 28
**Vaezi Mahmud** – 119
**Vardinoyannis Marianna** – 79
**Veyonis Raymonds** – 100
**Vidali Alen** – 55
**Vike-Freyberqa Vayra** – 79–80, 94–95, 105–106
**Villem Aleksandr** – 305
**Vladimirov Vladimir** – 219–220
**Viskonti Stefan** – 32
**Vorontsov Mixail** – 309
**Vronçenko Fyodov** – 309
**Vuçiç Aleksandr** – 205
**Vuyanoviç Filip** – 82, 104
**Yosipoviç İvo** – 79
**Yusifzadə Xoşbəxt** – 308–312, 331
**Zuma Ceykob** – 304

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 72, 248, 296, 308, 309
**Ağcabədi** – 140, 158, 248
**Ağdam** – 140, 158
**Ağdaş** – 158
**Ağdərə** – 127, 173
**Ağsu** – 158
**Aktau** – 194, 197, 246, 285
**Albaniya** – 51, 82, 92, 101–102, 105, 322
**Almaniya** – 223, 269
**Amerika Birləşmiş Ştatları** – 24, 32, 87, 90, 223, 269, 309, 330, 345
**Asiya** – 49, 77, 91, 194
**Avropa** – 28, 49, 50, 77, 89, 91, 194, 196, 230, 269
**Avstriya** – 303
**Balaxanı** – 287
**Banqladeş** – 118
**Belarus** – 166, 225
**Beyləqan** – 140, 158
**Bərdə** – 158
**Birləşmiş Ərəb Əmirlikləri** – 166
**Bibiheybət** – 308–312, 324
**Biləsuvar** – 158
**Bolqarıstan** – 51, 92, 298
**Bosniya və Herseqovina** – 92, 121
**Böyük Britaniya** – 26–27, 96–97, 223, 327, 330
**Cəbrayıl** – 65,173
**Cəlilabad** – 158
**Cənubi Afrika Respublikası** – 304
**Cənubi Qafqaz** – 299
**Cibuti** – 338–339
**Cocuq Mərcanlı** – 65, 234

**Çin** – 166, 196, 269, 282
**Dağıstan** – 225
**Dağlıq Qarabağ** – 13, 14, 32, 46, 54, 57, 58, 62, 63, 65, 68, 69, 85, 87, 100, 121, 125, 126, 135, 168, 173, 174, 175, 177, 178, 179, 222, 226, 229, 230, 232, 233, 234, 299, 344
**Daşkəsən** – 289
**Danimarka** – 134–135
**Dominikan** – 225
**Dubay** – 269, 327
**Estoniya** – 210–211
**Əfqanıstan** – 198, 343
**Fars körfəzi** – 50
**Fransa** – 31, 32, 33–71, 87, 223, 231
**Füzuli** – 158, 173, 294
**Gəncə** – 290
**Goranboy** – 158
**Gürcüstan** – 13, 51, 82, 92, 99, 105, 170, 197, 224
**Hacıqabul** – 148, 158
**Hindistan** – 50, 223
**Honq Konq** – 269
**Xankəndi** – 127
**Xaçmaz** – 272
**Xəzər dənizi** – 9, 12, 50, 126, 217, 218, 294, 309
**Xocalı** – 301
**Xorvatiya** – 92
**İmişli** – 158
**İraq** – 13
**İran** – 5–17, 50, 119, 222, 230, 269, 348
**İrəvan** – 177

**İrlandiya** – 74
**İsrail** – 223, 316
**İsgəndəriyyə** – 108
**İtaliya** – 51, 92, 95–96, 223
**Kəlbəcər** – 174
**Kiyev** – 254
**Kolumbiya** – 225
**Kuba** – 222
**Kürdəmir** – 158
**Qafqaz** – 197, 309
**Qazaxıstan** – 183–204, 281, 285
**Qəbələ** – 148, 238, 290
**Qərbi Avropa** – 196
**Qırğız Respublikası** – 321
**Qıraqlı** – 142–145
**Qətər** – 230, 320
**Quba** – 250
**Quancou** – 269
**Qusar** – 238
**Laçın** – 174
**Latviya** – 82, 100, 105
**Lələtəpə** – 127
**Lənkəran** – 290, 300
**Macarıstan** – 115, 224
**Makedoniya** – 82, 103, 105
**Malayziya** – 327
**Mali** – 342
**Mərkəzi Asiya** – 197, 198
**Mərakeş** – 225
**Mingəçevir** – 166, 250, 287
**Misir** – 108
**Monteneqro** – 82, 92, 104, 105
**Moskva** – 110, 310
**Naftalan** – 269
**Naxçıvan Muxtar Respublikası**– 111, 296
**Naxçıvan** – 111, 222, 290
**Neftçala** –158, 287
**Niderland Krallığı** – 305
**Orta Asiya** – 285

**Pakistan** – 50, 116, 223, 230
**Paris** – 33–71
**Pirallahı** – 287
**Polşa** – 323
**Portuqaliya** – 136–137
**Roma** – 96
**Rusiya** – 13, 32, 50, 87, 89, 166–169, 182, 197, 219–220, 225, 226, 251–252, 308
**Saatlı** – 137–168
**Sabirabad** – 148, 158
**Salyan** – 158
**Samux** – 158
**Sankt-Peterburq** – 182
**Serbiya** – 205, 206–207
**Stavropol** – 219–220
**Sumqayıt** – 287, 317–319
**Suriya** – 13, 198
**Səudiyyə Ərəbistanı** – 29–30, 82, 120, 208–209, 212–218, 313–315
**Şamaxı** – 148
**Şimali Avropa** – 50
**Şuşa** – 127, 174
**Tatarıstan** – 224
**Tərtər** – 158
**Türkiyə** – 13, 170, 171, 197, 222, 253, 259
**Ucar** – 158
**Ukrayna** – 166, 197, 222, 254, 281
**Vatikan** – 81
**Yaponiya** – 306–307
**Yevlax** – 158, 260–297
**Yunanıstan** – 51, 117
**Zərdab** – 140

# MÜNDƏRİCAT

İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*5 mart 2017-ci il*..........................................................................................5

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*5 mart 2017-ci il*..........................................................................................6

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*5 mart 2017-ci il*..........................................................................................7

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*5 mart 2017-ci il*..........................................................................................8

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*5 mart 2017-ci il*..........................................................................................10

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*5 mart 2017-ci il*..........................................................................................11

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*5 mart 2017-ci il*..........................................................................................16

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*6 mart 2017-ci il*..........................................................................................18

«ÜRƏK MƏRKƏZİ»NİN AÇILIŞI MƏRASİMİ

*6 mart 2017-ci il*......................................................................................*20*

BÖYÜK BRİTANİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ SAYMON MAKDONALDIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2017-ci il*......................................................................................*26*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TUSKA

*10 mart 2017-ci il*....................................................................................*28*

SƏUDİYYƏ ƏRƏBİSTANININ DÖVLƏT NAZİRİ TAMER ƏS-SABHANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2017-ci il*....................................................................................*29*

FRANSA RESPUBLİKASI SENATININ FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ANDRE REYŞARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2017-ci il*....................................................................................*31*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*11 mart 2017-ci il*....................................................................................*32*

FRANSA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*12 mart 2017-ci il*....................................................................................*33*

TOTAL ŞİRKƏTİNİN PREZİDENTİ PATRİK PUYANE İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*....................................................................................*34*

«THALES INTERNATİONAL» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ RAFAEL ESKİNAZİ

İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*35*
«AİRBUS» ŞİRKƏTİNİN MÜDAFİƏ VƏ KOSMİK SİSTEMLƏR ÜZRƏ İCRAÇI VİTSE-PREZİDENTİ NİKOLA ŞAMÜSÜSİ İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*36*

«CREDİT AGRİCOLE S.A.» ŞİRKƏTİNİN BAŞ DİREKTORU KSAVYE MUSCA İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*37*

CİFAL QRUPUN PREZİDENTİ JİL REMİ İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*38*

DCNS ŞİRKƏTİNİN PREZİDENTİ ERVE QİYU İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*39*

SUEZ QRUPUN BAŞ DİREKTORUNUN MÜAVİNİ MARİ-ANJ DEBON İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*40*

«VİVACTİON» ŞİRKƏTİNİN PREZİDENTİ RİŞAR MARİ İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*41*

FRANSA ŞİRKƏTLƏR HƏRƏKATININ BİZNES ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*13 mart 2017-ci il*.........................................................................................*42*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*14 mart 2017-ci il*.........................................................................................*53*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ

FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*14 mart 2017-ci il* ........................................................................ *54*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 mart 2017-ci il* ........................................................................ *55*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
FRANSUA OLLAND İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*14 mart 2017-ci il* ........................................................................ *57*

FRANSA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ
SƏDRİ KLOD BARTOLON İLƏ GÖRÜŞ

*14 mart 2017-ci il* ........................................................................ *62*

FRANSA RESPUBLİKASI SENATININ SƏDRİ
JERAR LARŞE İLƏ GÖRÜŞ

*14 mart 2017-ci il* ........................................................................ *64*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
FRANSUA OLLANDIN ADINDAN VERİLƏN
ŞAM YEMƏYİ MƏRASİMİNDƏ İŞTİRAK

*14 mart 2017-ci il* ........................................................................ *66*

«SU EHTİYATLARI, HİDROTEXNİKİ QURĞULAR VƏ
ƏTRAF MÜHİT» MÖVZUSUNDA KEÇİRİLƏN
BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN
İŞTİRAKÇILARINA

*14 mart 2017-ci il* ........................................................................ *72*

İRLANDİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MAYKL HİGGİNSƏ

*14 mart 2017-ci il* ........................................................................ *74*

DÜNYA SU ŞURASI İDARƏ HEYƏTİNİN
61-ci TOPLANTISININ İŞTİRAKÇILARINA

*14 mart 2017-ci il*...........................................................................*75*

«İSLAM HƏMRƏYLİYİ – ZAMANIN ÇAĞIRIŞI» BEYNƏLXALQ
KONFRANSIN İŞTİRAKÇILARINA

*15 mart 2017-ci il*...........................................................................*77*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN İDARƏ
HEYƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*15 mart 2017-ci il*...........................................................................*79*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*16 mart 2017-ci il*...........................................................................*81*

V QLOBAL BAKI FORUMUNUN AÇILIŞI MƏRASİMİ

*16 mart 2017-ci il*...........................................................................*82*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ
MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*...........................................................................*99*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ RAYMONDS
VEYONİS İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il*.........................................................................*100*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
BUYAR NİŞANİ İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il* .........................................................................*101*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGİ
İVANOV İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il* .........................................................................*103*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*16 mart 2017-ci il ...................................................................................104*

V QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*16 mart 2017-ci il ...................................................................................105*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*17 mart 2017-ci il ...................................................................................113*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ

*17 mart 2017-ci il ...................................................................................115*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*17 mart 2017-ci il ...................................................................................116*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*17 mart 2017-ci il ...................................................................................117*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ

*17 mart 2017-ci il ...................................................................................118*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 mart 2017-ci il ...................................................................................119*

SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ TURKİ ƏL-FAYSAL İLƏ GÖRÜŞ

*17 mart 2017-ci il*..........................................................................*120*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*17 mart 2017-ci il*..........................................................................*121*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*18 mart 2017-ci il*..........................................................................*122*

DANİMARKANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SVEND OLLİNQ İLƏ GÖRÜŞ

*26 mart 2017-ci il*..........................................................................*134*

PORTUQALİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PAULA LEAL DA SİLVA İLƏ GÖRÜŞ

*26 mart 2017-ci il*..........................................................................*136*

SAATLI RAYONUNA SƏFƏR

*28 mart 2017-ci il*..........................................................................*138*

SAATLI RAYONUNDA PAMBIQÇILIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*28 mart 2017-ci il*..........................................................................*149*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*29 mart 2017-ci il*..........................................................................*168*

*bp* ŞİRKƏTİNİN BAŞ ƏMƏLİYYAT RƏHBƏRİ QORDON BİRREL VƏ REGİONAL PREZİDENTİ QARİ COUNZ İLƏ GÖRÜŞ

*29 mart 2017-ci il*..........................................................................*170*

APREL QƏLƏBƏLƏRİNİN İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR
BİR QRUP HƏRBÇİ İLƏ GÖRÜŞ

*31 mart 2017-ci il*......................................................................*172*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*3 aprel 2017-ci il* .........................................................................*182*
QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ
SƏFƏRİ

*3 aprel 2017-ci il*..........................................................................*183*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEV İLƏ MƏHDUD TƏRKİBDƏ
GÖRÜŞ

*3 aprel 2017-ci il* .........................................................................*184*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 aprel 2017-ci il*..........................................................................*187*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*3 aprel 2017-ci il*..........................................................................*190*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEV İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*3 aprel 2017-ci il*..........................................................................*192*

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVƏ
«HEYDƏR ƏLİYEV»
ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*3 aprel 2017-ci il*..........................................................................*200*

SERBİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ

*4 aprel 2017-ci il* ........................................................................................*205*

SERBİYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ
NEBOYŞA RODİÇ İLƏ GÖRÜŞ

*4 aprel 2017-ci il* ........................................................................................*206*

İSLAM HƏMRƏYLİYİ İDMAN FEDERASİYASININ
PREZİDENTİ ABDULLAH BİN MOSAAD BİN ƏBDÜLƏZİZ
ƏL-SƏUD İLƏ GÖRÜŞ

*5 aprel 2017-ci il* ........................................................................................*208*

ESTONİYA RESPUBLİKASININ DÖVLƏT İDARƏÇİLİK
NAZİRİ MİXAİL KORBUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 aprel 2017-ci il* ........................................................................................*210*

«BAKI–2017» IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ
XƏZƏRDƏN BAŞLANAN SU SƏYAHƏTİNƏ START
MƏRASİMİNDƏ İŞTİRAK

*5 aprel 2017-ci il* ........................................................................................*212*

RUSİYA FEDERASİYASI STAVROPOL VİLAYƏTİNİN
QUBERNATORU VLADİMİR VLADİMİROVUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 aprel 2017-ci il* ........................................................................................*219*

«AITF–2017» XVI AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM
VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 aprel 2017-ci il* ........................................................................................*221*

ÜMUMRUSİYA DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN
TELERADİO APARICISI VLADİMİR SOLOVYOV
İLƏ GÖRÜŞ

*7 aprel 2017-ci il* ........................................................................................*226*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*9 aprel 2017-ci il* ........................................................................ *227*

NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*10 aprel 2017-ci il* ........................................................................ *228*
YEKUN NİTQİ

*10 aprel 2017-ci il* ........................................................................ *240*

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 aprel 2017-ci il* ........................................................................ *251*

TÜRKİYƏ RESPUBLİKASININ SABİQ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*11 aprel 2017-ci il* ........................................................................ *253*

UKRAYNANIN KİYEV ŞƏHƏR DÖVLƏT ADMİNİSTRASİYASININ BAŞÇISI VİTALİ KLİÇKO İLƏ GÖRÜŞ

*13 aprel 2017-ci il* ........................................................................ *254*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*14 aprel 2017-ci il* ........................................................................ *255*

QAFQAZŞÜNASLARIN I BEYNƏLXALQ FORUMUNUN İŞTİRAKÇILARINA

*14 aprel 2017-ci il* ........................................................................ *257*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*16 aprel 2017-ci il* ........................................................................ *259*

YEVLAX RAYONUNA SƏFƏR

*16 aprel 2017-ci il ........................................................................................260*

YEVLAX RAYONUNDA QEYRİ-NEFT İXRACATÇILARININ RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*17 aprel 2017-ci il ........................................................................................271*
YEKUN NİTQİ

*17 aprel 2017-ci il ........................................................................................279*

BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*18 aprel 2017-ci il ........................................................................................298*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2017-ci il ........................................................................................299*

«XX ƏSRDƏ TÜRK-MÜSƏLMAN XALQLARINA QARŞI SOYQIRIMLARI» MÖVZUSUNDA KEÇİRİLƏN IV BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

*21 aprel 2017-ci il ........................................................................................300*

BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLÜMJİNOV İLƏ GÖRÜŞ

*21 aprel 2017-ci il ........................................................................................302*

AVSTRİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ HAYNTZ FİŞER İLƏ GÖRÜŞ

*22 aprel 2017-ci il ........................................................................................303*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

*24 aprel 2017-ci il ........................................................................................304*

NİDERLAND KRALI ƏLAHƏZRƏT
VİLLEM-ALEKSANDRA

*24 aprel 2017-ci il* ......................................................................................*305*

YAPONİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ TERUYUKİ KATORİ
İLƏ GÖRÜŞ

*25 aprel 2017-ci il* ......................................................................................*306*

BİBİHEYBƏT MƏDƏNİNİN ƏRAZİSİNDƏ DÜNYADA
SƏNAYE ÜSULU İLƏ QAZILMIŞ İLK QUYUNUN
BƏRPADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*26 aprel 2017-ci il* ......................................................................................*308*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ENERJİ, SƏNAYE
VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏBDÜLƏZİZ ƏL-
FALİHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*26 aprel 2017-ci il* ......................................................................................*313*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB REUVEN RİVLİNƏ

*28 aprel 2017-ci il* ......................................................................................*316*

SUMQAYIT KARBAMİD ZAVODUNUN TİKİNTİSİNDƏ İŞLƏRİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*28 aprel 2017-ci il* ......................................................................................*317*

QƏTƏR DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ VƏ SABİQ
XARİCİ İŞLƏR NAZİRİ ŞEYX HƏMƏD BİN CASİM BİN
CABİR ƏL-TANİ İLƏ GÖRÜŞ

*29 aprel 2017-ci il* ......................................................................................*320*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*30 aprel 2017-ci il* ........................................................................... *321*

ALBANİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLİR METAYA

*1 may 2017-ci il* ........................................................................... *322*
POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA

*1 may 2017-ci il* ........................................................................... *323*

BAKI ALİ NEFT MƏKTƏBİNİN YENİ ŞƏHƏRCİYİNİN
AÇILIŞI MƏRASİMİ

*1 may 2017-ci il* ........................................................................... *324*

BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASININ
PREZİDENTİ MORİNARİ VATANABE VƏ BAŞ KATİBİ
ANDRE QAYSBUXLER İLƏ GÖRÜŞ

*2 may 2017-ci il* ........................................................................... *336*

CİBUTİ RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ
SƏDRİ MƏHƏMMƏD ƏLİ HUMƏDİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 may 2017-ci il* ........................................................................... *338*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF
ƏL-OSAYMİN İLƏ GÖRÜŞ

*3 may 2017-ci il* ........................................................................... *340*

MALİ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ TİEFİNQ KONATE İLƏ GÖRÜŞ

*3 may 2017-ci il* ........................................................................... *342*

NATO BAŞ KATİBİNİN İCTİMAİ MƏSƏLƏLƏR ÜZRƏ
MÜAVİNİ TACAN İLDEM İLƏ GÖRÜŞ

*4 may 2017-ci il* ........................................................................... *343*

ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ MARK ŞNAYER İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*......................................................................................*345*

BMT SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ NASSİR ABDULAZİZ ƏL-NASSER İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*......................................................................................*346*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*4 may 2017-ci il*......................................................................................*347*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*4 may 2017-ci il*......................................................................................*348*

QEYDLƏR ......................................................................................*349*

*Şəxsi adlar göstəricisi*......................................................................................*376*

*Coğrafi adlar göstəricisi* ......................................................................................*381*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.